Məhəmməd əl-Qəzali

# DİNİ-MƏDƏNİ İSLAM FİKRİ:

## *tənqidi mülahizələr*

*Məhəmməd əl-Qəzali*

# Dini-mədəni islam fikri: tənqidi mülahizələr

*Beynəlxalq İslam Fikri İnstitutu*

"İdrak" İctimai Birliyi
BAKI – 2012

محمد الغزالي
**تراثنا الفكري في ميزان الشرع و العقل**

Beynəlxalq İslam Fikri İnstitutu

*London ofisi*
P.O. Box 126, Richmond, Surrey TW9 2UD, UK

*ABŞ ofisi*
P.O. Box 669, Herndon, VA 22070, USA

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

**Məhəmməd əl-Qəzali**
Dini-mədəni islam fikri: tənqidi mülahizələr / Tərcüməçi və redaktor, ön söz və şərhlərin müəllifi: *fəlsəfə üzrə fəlsəfə doktoru* Elvüsal Məmmədov. Bakı: CBS, 2012, 384 səh.

ISBN

*Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin icazəsi ilə nəşr olunur*
(***DK-198/Q***)

© "İdrak" İctimai Birliyi, 2012

*Mərhəmətli və Rəhimli Allahın adı ilə!*

Aləmlərin rəbbi olan Allaha həmd olsun! Sonuncu peyğəmbər, böyüyümüz və imamımız Həzrəti Məhəmmədə, ailəsinə, cəmi səhabələrinə və haqq yolla gedənlərə Allahın xeyirduası və salamı yetişsin!

Bütün sivilizasiyalar kimi Müsəlman sivilizasiyası da tarixin müəyyən mərhələsində inkişafın zirvəsinə çatmış, müəyyən mərhələsində də tənəzzül etmişdir. Vaxt vardı Roma imperiyası (həm də sivilizasiyası) "Bütün yollar Romaya aparır" deyiminin də ifadə etdiyi qüdrət və əzəmətə məst olaraq dünyaya hökm edirdi. Ancaq romalılar bu üstünlüyü qoruyub saxlaya bilmədilər. Sosial-mədəni tənəzzüllə başlanan siyasi çöküş nəticəsində bu qüdrətli imperiya barbarların qolları arasında can verdi. Dövlətin yıxılması ilə Roma mədəniyyəti deyilən şey də yox olub, tarixin qaranlıqlarına qarışdı. Az qala, Hindistanadək uzanan Yunan-ellin mədəniyyəti də eyni aqibəti yaşadı. Bir sözlə, vaxtı ilə Afrikanın şimalından Sakit okeanadək uzanan coğrafiyada dini, mədəni, sosial-siyasi həyatın konturlarını cızan mədəniyyətlər müəyyən vaxtdan sonra öz əhəmiyyətini itirib tarix səhnəsindən silindilər. VII-XI əsrlərdə bu geniş arealda yeni bir sivilizasiya – Müsəlman sivilizasiyası yaranaraq inkişaf etdi. Bu sivilizasiya özü ilə yeni tarix, yeni dəyərlər, yeni mədəniyyət gətirdi. Digər sivilizasiyalardan fərqli olaraq, Müsəlman mədəniyyətinin yaranıb

inkişaf etməsində, o vaxtkı dünyanın mövcud mənzərəsini müsbət cəhətdən dəyişməsində stimul kimi din – islam dini çıxış etmişdi. Roma, Fars, Yunan-Ellin və Bizans mədəniyyətləri özlərinin yaranıb yayğınlaşmasında qüdrətli dövlət təsisatına, hərbi ekspansiyalara borcludurlar. Bu sivilizasiyaların kökündə hərbi gücün dayandığını görmək üçün bircə fakta diqqət yetirmək kifayətdir: eyniadlı dövlətlər süqut edən kimi, bu mədəniyyətlər də tənəzzülün məşum kölgəsində yox oldular. Bu sivilizasiyaların qalıqlarına xalqların mədəni-məişət həyat tərzində də olsa rast gələ bilmirik.

Dedik ki, Müsəlman mədəniyyəti islam dininin doğurduğu mütərəqqiliyin obyektiv nəticəsi idi. Allahın bəşəriyyətə göndərdiyi sonuncu din səhra insanını ayıldıb, Ərəbistanın qumlu səhralarından dartıb çıxardı, yeni mədəniyyətin pioneri olsun deyə ona qurub-yaratma həvəsi bəxş etdi. Bu insan islamın ona verdiyi zəka və imanın, əxlaq və elmin, müdriklik və cəsarətin haqlı diktəsi ilə bəşəriyyəti yeni dinlə tanış etdi, köhnə sivilizasiyaların, ancaq adları qalmış imperiyaların xarabalıqları üzərində qüdrətli bir mədəniyyət yaratdı. Bütövlük, universallıq və mütərəqqiliklə səciyyələnən bu mədəniyyətdə dinlə elmin dostluğu dillərə dastan olmuş, inancla zəkanın vəhdəti qibtə doğurmuşdu. Bəli, islamı doğru-dürüst başa düşmüş, həyatın müxtəlif sahələrinə uğurla tətbiq etmiş erkən nəsillərin sayəsində bu din öz nurunu ətrafa yaymış, cəhalətin, zülmün, ədalətsizliyin kölgəsini öz aydınlığı ilə əritmişdi. Qısa zaman ərzində bu coğrafiya "yenilənmiş", inkişaf etmiş, Səmanın Sonuncu Vədinin səmərəsini "öz gözü" ilə görmüşdü. Bütün bu dəyişikliklərin, in-

kişafın arxasında, bir daha təkrarlayırıq, islam dayanırdı. Müsəlman intibahı öz mövcudluğunda dövlət təsisatına borclu deyildi. Onsuz da müəyyən dövrü çıxmaq şərti ilə ədalətli və mütərəqqi dövlət məsələsində müsəlmanların bəxti gətirməmişdi. Düzdür, xilafətin, ayrı-ayrı xəlifələrin rolu istisna edilmir. Ancaq bu rol sivilizasiyanın formalaşıb, intibahın da baş verməsində əhəmiyyətli "pay"a sahib deyildi. Hətta bunu o dövrün şairləri belə etiraf etmişdilər. Məsələn, dövrün hökmdarı Seyfəddövlə bizanslılarla döyüşdə qalib gəldiyində şair Mütənəbbi deyirdi:

*Sən öz rəqibini məğlub edən hökmdar deyilsən,*
*Əksinə, İslam şirkə (küfrə) qalib gəlmişdir.*

İslamı doğru başa düşən, bunun da nəticəsi olaraq onu düzgün tətbiq edən erkən dövr müsəlmanları həm qüdrətli dövlət qurdular, həm də xalqların mədəni-dini, sosial-siyasi yenidənqurmasını həyata keçirdilər. İslamı Allah və peyğəmbərinin nəzərdə tutduğu şəkildə anlayan, bununla da, tarix yazan bir ümmət! Sağlam fəhmin, səmimi inancın doğurduğu məqsədyönlülük və müdrikliyi, uzaqgörənliyi əlində bayraq etmiş İlk Nəsil! Allahına, peyğəmbərinə, əcdadına, aliminə ehtiram bəsləyən o böyük insanlar!

Tarix İslam xilafəti adlanan dövlətin də süqutunu gecikdirmədi. Bizi burada həmin prosesin necə baş verməsi maraqlandırmır. Əsas olanı budur ki, dövlətin süqutu ilə islam bir din, bir mədəniyyət, bir həyat tərzi olaraq yıxılmadı, yayıldığı torpaqlarda həmişəlik qaldı. Düzdür, müsəlmanlar

ikinci intibahın şahidi olmadılar, amma islam insanların sosial-dini, mədəni-məişət həyatında özünün istiqamətverici funksiyasını qoruyub-saxladı.

İnsafən qeyd edək ki, (biz bunu obyektivlik xatirinə deyirik) islamın mövcudluğuna baxmayaraq, Müsəlman coğrafiyası XIII əsrdən sonra tərəqqi üzünə həsrət qalıb. Sual yarana bilər ki, bu geriliyin səbəbkarı islam deyildir ki? "Xeyr" – deyir və ardından əlavə edirik ki, gerilik islamın doğurduğu nəticə deyildir; əksinə, bu, islamı qəlibə salmağın, mütərəqqi ruhunu donuqlaşdırmağın, ondakı dini çalarlığı çoxaldıb, sosial-siyasi, elmi-mədəni tərəflərinə laqeyd yanaşmağın, elmlə din arasında məsafə qoymağın, təzahürlə kifayətlənib mahiyyəti unutmağın səbəb olduğu gerilikdir. Bəli, islam bunda günahkar deyildir, bunda onu olduğu kimi anlamayan müsəlman zehniyyəti günahkardır. Əgər belə olsaydı, onda heç başlanğıcda da tərəqqi baş verməzdi, sivilizasiya yaranmazdı, intibahın əks-sədası dünyanı bürüməzdi; islam cahiliyyət qaranlıqlarını yıxmaz, əksinə, onu daha da tünd dona qərq edərdi.

Düşünürük ki, Müsəlman dünyasını məlum dövrdən sonra çulğamış elmi-mədəni, sosial-siyasi geriliyin daxili və xarici səbəbləri vardır. Bizi burada xarici səbəblər deyil, daxili amillər maraqlandırır. Çünki hər şey daxildən başlanmışdı; nəhəng ağacı qurd içəridən yemiş, bivec küləklər də onu asanlıqla yıxmışdılar. Fikrimizcə, elmi, dini, mədəni və siyasi sahələrdə müsəlmanların geri qalmağının, inkişaf etməmələrinin əsas səbəbini onların islama baxış tərzinin dəyişməsində axtarmaq lazımdır. Bir sözlə, İslam dünyasında "zehniy-

yət" problemi meydana çıxmışdı. İbadətinə sadiq qalıb, sosial fəaliyyətə laqeyd baxan, inancın fonunda ağılı cılızlaşdıran, Quran və Sünnəni dar çərçivəyə salan, islamın səviyyəsinə yüksəlmək əvəzinə onu öz səviyyəsinə uyğunlaşdıran nəsillər yetişmişdi. Həqiqətən də, belədir: ən böyük problem düşüncədə özünü göstərmişdi. Axı, insan nəyi düşünürsə, onu da edir. Yəni, insanın əməli fəaliyyəti onun təsəvvürləri ilə birbaşa bağlıdır. Cılız təsəvvürlərin doğurduğu donuq zehniyyət hər şeyi vurub-dağıtmış, keçmişdə qazanılmış bütün uğurların üstündən xətt çəkmişdi.

Müsəlman ümmətini vurmuş bu tənəzzül və gerilik "ildırım"ının doğurduğu acınacaqlı vəziyyət haqda düşünməli, tarixin "qulaqburma"larından lazımi dərs çıxarmalıyıq. Çıxarmalıyıq ki, gələcəkdə bu səhvi yenidən təkrarlamayaq, "qulağ"ımızı çəkmək istəyənlərə də fürsət verməyək. Odur ki, başımıza nəyin gəldiyini, hansı bəlalara düçar olduğumuzu, harada səhv etdiyimizi öyrənməliyik. Bu işdə bizə ümmətin dərdini öz dərdi bilən cəfakeş alimlər, yazdıqları, müdrik tövsiyələri kömək edə bilər. Belə alimlərdən biri də Misirli mütəfəkkir, mərhum Məhəmməd Qəzalidir (1917-1996). Ümmətin dərdinə dözə bilməyən, kədərli tarixinə göz yaşı axıdan, nadan alimlərin, çılğın gənclərin kirlətdiyi islam çeşməsini saflaşdırmağa çalışan dərdli-nisgilli Qəzali!

Alimin yaradıcılığına nəzər saldıqda görürük ki, əsas diqqətini Müsəlman dünyasındakı cəhalətə, geriliyə, savadsızlığa yönəldib. Qəzali müsəlmanlardan tələb edirdi ki, islamı sevməklə kifayətlənməsinlər, həm də onu doğru-dürüst başa düşsünlər, zehinlərini "itiləsinlər". Dinə şüursuzca, kortəbii su-

rətdə inanmağa "yox" deyən bu böyük mütəfəkkir müsəlmanların geriliyini islama, təlimlərinə, kitabına münasibətdəki problemlərlə əlaqələndirirdi.

Bu böyük alimin yuxarıda bəhs etdiyimiz mövzuya həsr olunmuş qiymətli bir kitabını, Allahın izni ilə, ərəb dilindən Azərbaycan dilinə tərcümə etmişik. "Dini-mədəni islam fikri: tənqidi mülahizələr" adlanan bu kitab İslam dünyasındakı mövcud vəziyyətin real təsvirini verir, bu vəziyyəti doğurmuş səbəbləri açıqlayır, problemdən çıxış yolu göstərir.

Oxucuda maraq oyatmaq, diqqətini mövzunun əhəmiyyətinə yönəltmək üçün kitab haqda bəzi mülahizələrimizi bildirmək istəyirik.

Hər şeydən qabaq mərhum müəllifi müsəlmanların düşdüyü vəziyyət narahat edir. Qəzali şikayətlənir ki, axı nə üçün islam kimi "inci"si olanlar geridə qalıblar, əxlaq və inanc sarıdan korluq çəkənlər isə qabağa gedib, dünyanı idarə edirlər?

Müsəlman dünyasının geriliyi ilə yanaşı, həm də dağınıqlığından gileylənən bu dərdli insan yazırdı:

"(Müsəlmanlar) bir-birinə düşmən kəsiliblər, bir-birinin ətini yeyirlər. Bəli, bir-birlərinin ətini yeyirlər ki, Allahı inkar edənlərin, təkliyi və böyüklüyünə nifrət bəsləyənlərin qabağında zəif və süst düşüb əl-qolları bağlansın! ...Axı nə üçün bizi birləşdirən "vahə"lərdən üz çevirir, aramıza nifaq salıb səflərimizi parçalayan "dərə"lərdə şadyanalıqla gəzirik?!"

Vaxtı ilə Qərbin paxıllıq hissi ilə öz qaranlıq dünyasından boylanaraq baxdığı nümunəvi Müsəlman aləminin bugünkü vəziyyətini Qəzali özünəməxsus orijinallıqla belə təsvir edir:

“Fironçu-feodal rejimlər... Yemək axtaran qara camaat... Eyş-işrət və lüks həyatı təbliğ edən incəsənət... Boş-boş şeylərdə ixtisaslaşıb, “zir-zibil” ideyalarla başlarını qatan dindarlar...”.

Qeyd edək ki, mərhum alimimiz öz tənqidlərində islam tarixini təhqir etməkdən çox uzaqdır. Bunu onun özü də ehtiyat sarıdan bizlərə bildirmişdir:

“Barəmdə “sapmışdır” – deyənlərə qarşı, Allah eləməsin, insafsız davranım, bəşəriyyətin böyük hissəsini islamdan bixəbər buraxmış, müsəlman olmağına əngəl törətmiş ədəbi-maddi irsimizə həqarətlə baxım”.

Bəli, bu böyük insan öz keçmişini təhqir etməyəcək qədər həyalıdır, Allahdan qorxandır. Qəzalinin bəzilərində təhqir təsəvvürü oyadan tənqidləri ümmətin halına yanan qəlbin ah-naləsidir. Bu tənqidlərdə təhqir deyil, ümmətin dərdinə acımaq, halına ağlamaq vardır.

Bu dahi mütəfəkkir ürəyiyananlıqla bildirir ki, müsəlmanlar boş-boş işlərlə başlarını qatdıqları üçün Allahın onlara bəxş etdiyi nemətlərdən bixəbər qalmışlar:

“Ərəb neftinin qəm-qüssə və qəzəb doğuran tarixçəsi vardır. Ərəb dünyasında bu təbii sərvətin çoxlu yataqları yerləşirdi. Amma biz həmin yataqların üstündə bizə mal-qara, qoyun-keçi otartdıran digər işlərlə məşğul idik. Ağlımıza gəlmirdi ki, bu yataqlarla bir maraqlanaq, onlardan fayda götürək!

Həmin yataqları “misterlər” (avropalılar – ***mütərcim***) aşkara çıxardılar. Biz isə bir-birimizlə qan-bıçaq olub “qızğın” mübahisələrə girişmişdik: “təvəssül” hədisi səhih, yoxsa “zəif”

dir? Övliyaların kəraməti haqdır, ya yox? Xəlifə seçilməyə Haşimoğulları, yoxsa başqaları daha layiqdir?"

Müəllif doğru olaraq qeyd edir ki, bu cür boş mübahisələr erkən dövr müsəlmanlarından uzaq olmuşdur. Çünki onlar daha ciddi işlərlə məşğul idilər:

"Əgər Erkən Nəsil də bu cür mübahisələri etsəydi, əsla uğur qazanmaz, bir dənə də olsun ölkə fəth etməz, mədəniyyət qura bilməzdi!"

Kitabda müəllif müsəlmanlara xəbərdar edir ki, gerilik və cəhalət girdabında boğulduqları müddətcə sahib olduqları dəyərləri müdafiə edə bilməyəcəklər:

"Dini, şərəf-izzəti, torpaq və namusu qoruya bilməməyimizdən daha pis nə ola bilər?!"

Kitabda mövcud vəziyyətin təsviri ilə yanaşı, bu vəziyyətin nə üçün meydana gəlməsi probleminə də cavab axtarılır:

"Nə ilə məşğul olduq ki, belə bir nailiyyət və uğurlara imza ata bilmədik? Nə ilə olacaq: qeyb mövzuları ətrafında apardığımız "qızğın" və "xəstə" mübahisələrlə (halbuki belə mövzuları çox "qurdalamaq" bizə qadağan edilmişdi), fiqhi ixtilafları böyütməklə, onlardan qığılcım kimi istifadə etməklə!

...Dünya və axirətin yaradıcısını həqiqi mənada unutmaqla dünya işlərindən üz çevirdik. Nəticədə, nailiyyətlərdən kənarda qaldıq. Dünya işlərindən üz çevirməyimiz təqva naminə təcrid olunmaq və ya şəhvətdən qorunmaq deyildi, əksinə, bu, ağılsızlıq və axmaqlığın "səmərə"si idi".

Qəzali mövcud geriliyin fonunda Müsəlman dünyası ilə Qərbin müqayisəsini aparmaqla problemi əyani şəkildə oxucunun diqqətinə çatdırır:

“Qeyri-müsəlmanlar yerin təkindəki təbii sərvətləri öyrənib (dünyanın təbii sərvətləri xəritəsini çəkib), bərk və maye olan hər şeyi çıxarmağa başladılar. Biz isə heyrətlə onlara tamaşa edirik. Bu da azmış kimi bizdə bəzi ağıllılar fitva verirlər ki, şəkil çəkmək haramdır!”

Müsəlman dünyasına hakim olmuş gerilik və cəhalətin daxili səbəblərini göstərməyə çalışan müəllif bu kitabı da məhz həmin məqsəd üçün yazdığını bildirir:

“Elə ağır (sağalmaz) xəstəliklər vardır ki, simptomları dəridədir. Dərin biliyi olmayan həkim güman edir ki, bunlar adi sızanaqlardır, dəri xəstəlikləridir. Odur ki, müalicəni bu əsasda aparır. Bu minvalla ömrünü başa vurur, ciddi bir nailiyyətə imza ata bilmir.

Dəvətlə məşğul olanların arasında da belə “səthilik”ləri görməyənlər vardır. Məsələ onların düşündüklərindən daha təhlükəli, daha ciddidir. Bu dəvətçilər ölüb gedirlər, amma ümmətin problemləri yerində qalır; onlar bu problemlərdən birini də həll etməyi bacarmırlar.

Bu səbəbdən mən “xəstəliy”ə diaqnoz qoyub “dərman” yazmaq üçün ümmətin başbilənləri ilə əməkdaşlıq etdim, keçmişi və indini araşdırdım, aşkar və gizlini ətraflı şəkildə öyrəndim. Qələmə aldığım bu kitabın əsas məğzi fikir mirasımızdakı proseslərin təhlilindən ibarətdir.

Kitabımızda yaxın və uzaq keçmişimizə səyahət edilir, müqayisələr aparılır, yekun nəticələr təqdim olunur”.

Kitabın birinci fəslində bilik probleminə geniş çərçivədə toxunan Qəzali istəyir ki, müsəlmanlar təbiət və kainat elm-

lərini dərindən öyrənsinlər. Onların bu sahələrdəki vəziyyəti Qəzalini bərk narahat edir:

"Dövrümüzdə bu həqiqətlərdən ən axırda müsəlmanların xəbər tutmaları məyusluq yaratmırmı?! ..."

Mütəfəkkirimiz bildirir ki, təbiəti və kainatı öyrənməmək, yaşadığımız Yer kürəsindən bixəbər olmaq islama xəyanətdir:

"Bu elmlərdən xəbərsizlik islama və onun əzəmətli kitabına xəyanətdir, özü də rüsvayçı xəyanət! ... Axı nə üçün bizdən başqaları dənizin dibində üzməli, kosmosa uçmalı, biz isə key-key onlara baxmalıyıq? Nə üçün ateist zehniyyət sahiblərinin elektriki, atomu olmalıdır, bizim isə – iri dəyənəyimiz?! Nəfsi istəklərimizə etiraz edənlərə hədə-qorxu gəldiyimiz bir dəyənək!"

Kitabda diqqətimizi çəkən məqamlardan biri də budur ki, müsəlmanlar tarix boyu başqalarını öyrənməyiblər, "əğyardan bixəbər qalıblar":

"Uzun müddət ağrısını çəkdiyimiz tarixi səhvlərdən biri də başqalarını tanıyıb öyrənməməyimizdir, barələrində məlumat sahibi olmamağımızdır. Bəli, onları: mədəniyyətlərini, tarixlərini, mövcud vəziyyətlərini araşdırmadıq, fil qulağında yatdıq! Unutduq ki, bu özgələr qəzəbli yağı, səksəkəli düşmən ola bilərlər...

Mədəni "bina"mızı darmadağın etmiş hücumların əksəriyyəti qəfildən baş verən zəlzələni xatırladır: nə vaxtı bilinər, nə də hazırlığı görülər!

Paytaxtlarımız süqut etdi, islam coğrafiyasından neçə-neçə dövlətimiz silinib tarix oldu. Müsəlmanlar isə ...qəflətdədirlər...

...Əndəlüs itirildi. Bu gün isə Asiyada, Afrika və Avropada itiririk...

Özümüzdən qeyrilərini əsla araşdırıb öyrənmədik! Onlar isə bir an belə olsun yatmadılar: qəzəb və hikkə "qazan"larının altı əsla sönmədi; bizə hücum etmək, dinimizin dayaqlarını laxlatmaq üçün hey düşündülər, baş sındırdılar!"

Müəllif Qərb qarşısında məğlub olmuş Müsəlman dünyasının problemlərinin həlli üçün kitabında konkret tövsiyələr təqdim edir:

"Düşünürəm ki, iki istiqamətdə fəaliyyət göstərən mexanizm yaradılmalıdır. Belə bir mexanizm imkan verəcəkdir ki, başqaları kimi biz də bacarıqlı və ayıq olaq.

**Birinci fəaliyyət** istiqaməti aşağıdakıları ehtiva edir:

a) Kiminlə danışdığımızı və nə söyləyəcəyimizi bilmək üçün bizdən qeyrilərinin mədəni dünyagörüşünü, mədəni səviyyələrini araşdırmaq;

b) Dünyaya hakim olanların mədəni, iqtisadi və istehsal səviyyəsinə yüksəlmək. Geridə qalmış bir xalqın islamı təmsil etməsi gülməli alınır: başqaları ona çəp-çəp baxırlar. O isə sahib olduğu haqqa maddi və elmi "özül"lərlə dayaq verə bilmir;

c) Siyasi cərəyanları (təmayülləri, nəzəriyyələri...) və qeyri-müsəlmanların sahib olduqları hərbi potensialı araşdırmaq; digər din və məzhəblərin hegemonluğuna hansı "şərait"i yaratdığımızı müəyyənləşdirməli, problemin ciddiliyini məsul şəxslərin diqqətinə çatdırmalıyıq.

**İkinci fəaliyyət**ə gəlincə, daxili səciyyə daşıyır (və ya: islam ölkələrini əhatə edir) və aşağıdakılara əsaslanır:

a) Ümməti Allahın kitabı və Peyğəmbərin sünnəsindən uzaqlaşdırmış, haqq dininin simasını eybəcərləşdirmiş, müsəlmanları islama xidmətdən məhrum etmiş mədəni özgələşmə və fikri "naxoşluq"la mübarizə;

b) Vəhyin – həyat, kainatı öyrənməyin – imanın ən mühüm mənbəyi, təbiətdən düzgün istifadənin də ciddi iqtisadi və hərbi silah olmağı qənaətini əsas götürməklə müsəlman ümmətinin yenidən formalaşdırılması;

c) Qurani-Kərim dörd yerdə Məhəmməd peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* risalətinin (missiyasının, təbliğ etdiyi təlimin – E.M) başlıca cizgilərindən söz açıb. Bunlar aşağıdakılardır:

1. Allahın ayələrini fəaliyyət metodu seçərək oxumaq (mənimsəmək);
2. Ümməti möhkəm əxlaq, açıq-aydın vərdişlər əsasında tərbiyə etmək – "təzkiyə" (demək olar ki, təzkiyə haqda dırnaq ucu qədər də olsa bir şey bilmirik);
3. Kitabı (Qurani-Kərimi) öyrənmək;
4. Hikmət (müdriklik).

Təəssüf olsun ki, biz işlərimizin çoxunda müdrik deyilik, Quranın məzmunu və məqsədlərindən də çox uzaq düşmüşük.

İslama mənsubluğumuz real və konkret olsun deyə sözügedən cizgiləri maddi və mənəvi cəhətdən aşkara çıxartmalıyıq.

ç) Bizə gəlib çatmış islam irsini "xəlbir"dən keçirməli, Quran və Sünnəyə uyğun "iri dənə"ləri saxlamalı, qalan "xırda-xuruş"u isə atmalıyıq. Biz ki məsum (müqəddəs, toxunul-

maz) vəhyə sahibik. Və keçmişimizdə dühalar, böyük imamlar (alimlər) yaşayıblar. Ola bilsin ki, onlar dinin ikinci dərəcəli məsələlərində (***füruat***) bir-birindən fərqli düşünmüşlər. Amma bu dahilərin dinin ana prinsiplərinə və məqsədlərinə münasibəti haqda eyni şeyi söyləyə bilmərik: onlar bu məsələlərdə nadirən ixtilafa düşmüşlər.

Saf niyyət və geniş dünyagörüşü sayəsində islam dünyasının dağılmış "parça"larını bir yerə toplamaq mümkündür. Odur ki, təklif etdiyim qurum yalnız Allahın nuru ilə kifayətlənib digər "işıq"lara gözünü yummaqla fəaliyyət göstərməli, mövcud islam qurumları ilə (Tədqiqatlar Akademiyası (Misir), İslam Dünyası Assosiasiyası (Səudiyyə Ərəbistanı)...) əməkdaşlıq etməlidir.

Bu qurum bütün dünyanı və islam coğrafiyasını öyrənən "rəsədxana" rolunu oynamalıdır. Onun əsas işi sonuncu risalətin keşiyini çəkmək, ondakı "nasazlıq"ları düzəltmək, əleyhinə qazılmış "quyu"ları doldurmaq və nəhayət, vəzifələrini yerinə yetirmələri üçün digər islam qurumlarını bu şeylərdən agah etməkdən ibarətdir".

Qəzalini islamın adını qara çıxaran, prioritetləri müəyyənləşdirə bilməyən, "ata ət, itə də ot verən" müsəlmanlar narahat edir. Mütəfəkkirimiz Allahın "baldır"ından söz açan, müasir düşmənlər qala-qala cəhmiyyəyə savaş elan edən, "Dində məcburiyyət yoxdur" ayəsini "mənsux" sayan, məzhəbləri din bilən insanlardan şikayətlənir və bildirir ki, bu cür dar düşünən kəslərə islamın adından danışmaq imkanı verilməməlidir:

“Belə zehniyyətlə adi səhmdar şirkəti idarə etmək mümkün deyildir. Elə isə bu zehniyyət sahiblərinə böyük bir dinin, risalətin adından danışmağa imkan vermək olarmı?!”

Müəllif belə insanların söz sahibi olmağını islama zərbə hesab edir:

“Əgər bu insanlar cəmiyyətdə söz sahibi olsalar, əmin olun ki, islam oyanışı deyilən şey əsla baş verməyəcəkdir!”

Dövrün dəyişməsi ilə islamı təbliğ və müdafiə vasitələrinin də yenilənməsini tələb edən Qəzali yazır:

“Müasir dövrdə mədəni qəsbkarlıq düşüncəmizi zəhərləmək, ümmətimizi əzmək üçün süni peyklərdən belə istifadə edir...

Düşmən dünənin düşməni, meydan köhnə meydan, vasitələr də ənənəvi vasitələr deyildir! Yeni düşmənlər, yeni savaş meydanları, yeni vasitələr ortaya çıxıb! Quran və Sünnəyə xidmət göstərmək üçün yeni düşüncəyə, uzaqgörənliyə ehtiyac vardır!”

Biliksiz müsəlmanların islama daha çox zərər vurduğunu deyən alim öz narahatlığını belə ifadə edir:

“Dünya işlərində sıfır olanlar, axirət işlərində də sıfırdırlar. Biliksiz, elmsiz gəzən, amma Allah və dini haqda danışmaq istəyən insanlar gördüm. “Cəsarət”lərinə heyran qaldım...

Dünyadan, baş verənlərdən, tarixdən, tariximizin sevincli və kədərli məqamlarından bixəbər qalanlar Allahı necə tanıyacaqlar, Onu başqalarına necə tanıdacaqlar?!”

Kitabın beşinci fəsli tərbiyə problemlərinə həsr olunub. Müəllifimizə görə, düzgün tərbiyə imkan verir ki: “...şəhvətə

qul olmayaq, bioloji tələbatlarımızı norma çərçivəsində təmin edək".

Həqiqi tərbiyənin nə olduğunu öyrənmək üçün Şeyx Qəzali Peyğəmbərin həyatını oxumağı tövsiyə edir:

"Dini, fəlsəfə və ədəbiyyatı özündə birləşdirən zəngin bəşəri irsi diqqətlə araşdırdım, Məhəmməd peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qoyub getdiyi tərbiyəvi xəzinədən daha zəngin, daha qiymətli ikinci sərvətə rast gəlmədim.

"Orbit"ində üzüb gedən, heç vaxt eniş etməyən minlərlə səhih hədislə yanaşı, bu saf insanın pak həyatı da bir nümunədir. Ulduzlar sönüb məhv ola bilər, amma Məhəmməd əsla qürub etməz!"

Müəllifin aşağıdakı fikirlərindən aydın olur ki, tərbiyə çətin və uzun prosesdir:

"Tərbiyə dedikdə yağışa ümid olub toxum əkmək, hər şeyi toxumun öhdəsinə buraxıb zəhmətdən qaçmaq başa düşülmür. Əksinə, tərbiyə basdırmaqdır, sulamaqdır, gözdə-qulaqda olmaqdır (qulluq və qayğıdır), ziyanverici həşəratları qovub, alaq otlarını təmizləməkdir, məhsul əldə edilənədək ayıq-sayıqlığı itirməməkdir...".

Bu fəsildə fiqhi mübahisələr probleminə də toxunan alim dönə-dönə qeyd edir ki, "fiqhi ixtilaflar deyil, məhz qəlb (mənəvi) xəstəlikləri dünya və din üçün təhlükə yaradır".

Kitabın VI və VII fəsillərində müvafiq olaraq bidət və islam tarixinin bəzi problemlərindən söz açılır.

VIII fəsil təfsir mövzusundan bəhs edir. Müəllif xüsusi şəkildə vurğulayır ki, Quranla bağlı məsələlərin izahında əsas-

sız, qeyri-məqbul "hədis"lərə yer vermək böyük xətadır. Qəzali bir sıra misallar gətirməklə mülahizələrinin elmi siqlətini artırır.

Müxtəlif təfsir növlərinə aydınlıq gətirən alim "mövzulu" təfsir anlayışı üzərində dayanır və bildirir ki, təfsirin bu növü bir çox sosial problemləri (boşanma və s.) həll edə bilər. Fikirlərinin əyaniliyini göstərmək məqsədilə Qəzali "Talaq" surəsinin mövzulu təfsirini oxucuya təqdim edir.

Mövzunun aktuallığı və ciddiliyini nəzərə alan alim "ixtilaf" və ictihad məsələləri haqda da danışır. Müəllifə görə, bu problemlərlə "ağıl sahibləri və şəriətin məqsədlərindən baş çıxaranlar" məşğul olmalıdırlar. Çünki "...belə insanlar "ixtilaf"dan təfriqə qayırmazlar, "ixtilaf"ları bölünmə vasitəsinə çevirməzlər. Onsuz da, ümmət tarix boyu təfriqə və parçalanmadan əziyyət çəkmişdir. Düşmən də bundan faydalanaraq müsəlmanların axırına çıxmaq istəmişdir...".

Bu mövzuya bələd olmağın zəruriliyi haqda müəllif yazır:

"Fəqihlərin "ixtilaf"ına bələd olmayanlar alim sayılmazlar. Kim ki fəqihlərin "ixtilaf"ından xəbərsizdir, deməli, fiqh elminin qoxusunu ala bilməyib!"

Müəllifin Sünnə barədəki maraqlı mülahizələri kitabın IX fəslində toplanmışdır. Müəllifi hədislərin səhv başa düşülməsi, fiqh və hədis elmlərinin bir-birindən təcrid edilməsi və digər problemlər narahat edir.

İslama çağırış işində müxtəlif hədislərdən, deməli, həmin hədislərə söykənən ictihadlardan istifadənin zəruriliyini bildirən alimimiz yazır:

“Əgər mən onu (islamı – E.M) müdafiə etmək istəyirəmsə, ...bütün imamların (alimlərin) görüşlərini nəzərdən keçirim, bütün adətkərdə və qeyri-ənənəvi yanaşmalardan faydalanım...

Əbu Hənifənin qalasında qərar tapıb zəkatdan, İbn Teymiyyənin qalasında qərar tapıb talaqdan, İmam Malikin də qalasında dayanıb qidalar... haqda danışmağım qəbahət deyildir. Onlar islamın qüdrətli simaları, risalətin cəfakeşləridir! Qarşılaşdığım problemlərin həllində onların görüşlərini özümə həmdəm seçməyim, hər halda, qəbahət deyildir...”.

Həmçinin, bu fəsildə uydurma hədislərin “əlamət”lərindən, müsəlman qadın alimlər və Sünnəyə xidmət problemindən, “ahad” və “mütəvatir” hədis məfhumlarından, səhih hədislərin mötəbərliyində qətilik dərəcəsi və digər məsələlərdən söhbət açılır.

Kitab ərəb dili və ədəbiyyatı ilə əlaqəli bəzi problemlərin tədqiqata cəlb edilməsi ilə baş çatır.

Bir məsələni də qeyd edək ki, kitabda mərhum müəllifin şikayətləndiyi əsas məsələlərdən biri alimlərə hörmətin qoyulmamağıdır. Ustad Qəzali bizdən istəyir ki, ümmətin alimlərinə ehtiram bəsləyək.

Ümumiyyətlə, alim bizdən tələb edir ki, dinimizə münasibətdə şüurlu davranaq, real düşünək, prioritetlərimizi müəyyənləşdirək, fikir mirasımıza dirigözlə baxaq, dinin törəmə məsələlərində bizdən fərqli düşünən qardaşlarımıza yağı kəsilməyək, mübahisəyə açıq mövzularda mərəkə qoparmayaq, alimlərimizə hörmət qoyaq – bir sözlə, Allahın razı qaldığı müsəlmana çevrilək.

Əziz oxucu! Təqdim etdiyimiz bu kitabı mütaliə etməklə sən islam fikrinə səyahət edəcək, müsəlman dünyasının keçmiş və indiki reallığı ilə tanış olacaqsan. Bu da öz növbəsində zehninə hakim kəsilmiş səhv təsəvvürləri redaktə edəcək, yəqin biliklərini də möhkəmlədəcəkdir.

Sonda əziz oxucudan təmənnam budur ki, dualarında mərhum müəllifi də, Allahın əfvinə möhtac tərcüməçini də unutmasın.

***Elvüsal Məmmədov***

*AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı,*

*fəlsəfə üzrə fəlsəfə doktoru, dinşünas*

# ÖN SÖZ

Həm peyğəmbərlərdən bizə miras qalmış, həm əsas xüsusiyyətləri risalətimiz[*]də əks olunmuş, həm də xəta və ayriliklərdən təmizlənmiş təlimlər iki böyük həqiqətə əsaslanır:

“a) Dini doğru-dürüst tutun (qoruyub saxlayın);

b) onda ayrılığa düşməyin!”[1]

Dini doğru-dürüst tutmaq dedikdə bütün dərəcələri çərçivəsində imanın “özül”ünü bərkidib, “talvar”ını genişləndirməklə yanaşı, həmin özülün üstündə, talvarın da altında indiki və gələcək nəsilləri yetişdirmək başa düşülür.

“Dində ayrılığa düşmək olmaz!” qadağasına gəlincə, söhbət canlı sistemə çağırışdan gedir. Canlı sistem öz-özlüyündə parçalanmayan, bütün komponentləri və hissələrinə həyat duyğusu bəxş edən sistemdir. Belə sistem bir məqsədə doğru istiqamət götürdükdə bütün komponentləri böyük əzmkarlıq içərisində onunla yanaşı addımlayar; kimsə kimsədən geri qalmaz.

“Dini doğru-dürüst tutun (qoruyub saxlayın), onda ayrılığa düşməyin!” – çəpərlə hasara alınmış vahid sistemdir! Nə üçün? Çünki düşmənlər pusqudadırlar! Bu sistemi gözləri gö-

[*] **Risalət**: ilahi missiya; haqqı yayıb ədaləti bərqərar etmək vəzifəsi – ***tərcüməçinin qeydi***.

[1] “əş-Şura” surəsi, 13-cü ayə.

türmür və onlar ona nifrət edir, əleyhinə tədbir tökürlər.

Onlar tövhid inancına, ona əsaslanan hər bir şeyə ikrah bəsləyirlər, hikkə ilə özlərindən çıxırlar, müsəlmanlara qaşqabaqlı, tutqun nəzərlərlə baxaraq deyirlər: "Ey insanlar, əgər onlar sizə rəhbər olsalar, sizi daşqalaq edib, zorla müsəlmanlaşdıracaqlar. Siz də bundan sonra heç vaxt uğur tapmayacaqsınız".

Bu səbəbdən Qurani-Kərim haqq carçılarının nə etməli olduqlarını yığcam şəkildə göstərib:

"Dini doğru-dürüst tutun (qoruyub saxlayın), onda ayrılığa düşməyin".

Söylənilməsi asan, əməl edilməsi çətin olan iki cümlə!

Müsəlman ümmətinə nəzər salır, halına məəttəl qalıram.

Mən və bir müsəlman dostum bütün vacib etiqad prinsiplərinə inanırıq, dini öhdəlikləri yerinə yetirməyə ömür sərf edirik. Bununla yanaşı, müştərək məsələlərin* çoxuna etinasızlıq göstərir, bəzi mübahisəli mövzuları gülərüzlə qarşılayıb alqış tuturuq! Məsələn, mən və o inanırıq ki, Allah vardır, təkdir, ortağı yoxdur, məxluqata oxşamır:

"...Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!" (əş-Şura, 11).

---

* Məzhəbindən, düşüncəsindən asılı olmayaraq, bütün müsəlmanların yekdilliklə qəbul etdikləri məsələlər nəzərdə tutulur. Allahın təkliyi, peyğəmbərlərin göndərilməsi, cənnət və cəhənnəmin mövcudluğu, namazın vacib ibadət hesab olunması və s. bu kimi məsələlərdəndir – ***tərcüməçinin qeydi***.

Belə bir inancın səmərəsidir ki, əxlaq, dəvət və cihad məsələlərinin, dünya işlərinin bir sıra məqamlarında ortaq məxrəcə gələ bilirik.

Amma dində o da deyilir ki, Allah gecənin son üçdə bir hissəsində yer səmasına enir, məğfirət* diləyənləri bağışlayır, əl açanların diləklərini qəbul edir[1]...

Hamılıqda deyirik: "Allahın enməyi fiziki olaraq baş vermir; məkan anlayışı Ona yaddır və O, məkanın fövqündədir. Onu da hamılıqda qəbul edirik ki, Allah hər şeyi görəndir, hər şeyə qadirdir və s. və i.a.".

Ancaq bu məsələ ilə əlaqədar olaraq, bəzilərimiz iddia edir ki, enmə dedikdə təcəlli (ilahi qüdrətin təzahürü) başa düşülür. Başqaları isə əksinə düşünür: xeyr, Allah enməyinə enib, amma onun enməyi bizim enməyimiz kimi deyildir və biz bu enmənin necə baş verdiyindən xəbərsizik...

Görəsən, bütün bunlar bir məsələni fərqli şəkildə başa düşməkdir, yoxsa eyni fikrin müxtəlif ifadə formalarıdır? Bu hala yuxarıdakı misalda olduğu kimi digər oxşar mövzularda da rast gəlirik. Belə bir dağınıq yanaşma ümməti müxtəlif qruplara parçalamışdır. Bu qruplar bir-birinə düşmən kəsiliblər, bir-birinin ətini yeyirlər. Bəli, bir-birlərinin ətini yeyirlər ki, Allahı inkar edənlərin, təkliyi və böyüklüyünə nifrət bəsləyənlərin qabağında zəif və süst düşüb əl-qolları bağlansın!

---

* Bağışlanma

[1] Buxari. "Came əs-Səhih" kitabı, "Təhəccüd" bölümü, 14, "Dualar" bölümü, 14; Müslim. "Səhihi-Müslim" kitabı, "Yolçular" bölümü, 168.

Mən bu vəziyyət və nəticələri haqda düşünür, peyğəmbərimizin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* sözünü xatırlayıram:

"Doğru yolda olanlar mübahisələrə girişmədikcə zəlalətə düşməzlər"[1].

Öz-özümə soruşuram: "Hər növ mübahisəli mövzuya aludə olub, müqabil tərəf üzərində qələbə çalmaq üçün bütün qayğı və diqqətini səfərbər edənlər, müxalifləri məğlub olduqda sevinib-fərəhlənənlər, görəsən, bütün müsəlmanların həmrəyliklə təsdiqlədiyi mövzulara səmimi yanaşırlarmı?"

Axı nə üçün bizi birləşdirən "vahə"lərdən üz çevirir, aramıza nifaq salıb səflərimizi parçalayan "dərə"lərdə şadyanalıqla gəzirik?!

Əslində, ixtilaflı (mübahisəli) mövzularla maraqlanmaq naşı (xam) uşaqlara xas cılız davranışdır, haqqın meydanından – öhdəliyi çox, yükü ağır meydandan başqa meydana yönəlib qaçmaqdır. Elə bir meydana ki, məşəqqətsizdir, əziyyətsizdir və burada toplaşanlar məsuliyyət yükü altında inləməkdən uzaqdırlar.

Keçmişi və tarixin ağrı-acılı xatirələrini bir kənara qoyaraq, indiki halımızı düşünürəm...

Müsəlmanlar dünya əhalisinin beşdə birini təşkil edirlər. Amma bilik meydanlarında onlara rast gəlmirik; qurub-yaratma işində də onlardan kimsə gözə dəymir. Onlar nə əxlaqda nümunədirlər, nə bir-biri ilə ciddi əməkdaşlıq içərisindədirlər, nə də hüquq və azadlıqlara riayət edirlər. Biz Müsəlman dünyasına "səyahət"imizdən əliboş geri qayıdırıq!

---

[1] Hədisi Tirmizi, Əhməd ibn Hənbəl və İbn Macə rəvayət etmişlər.

Axı ümmət öz başını nə ilə qatıb? Nə ilə olacaq – üzücü nəzəri mübahisələrlə, zəhlətökən xırda-xuruş problemlərlə, zahiri – din, batini nəfsi istək olan parçalanmalarla!

Bütün bunlar ümməti yeyib-tükəndirdi. Dinin ali məqsədlərinə əhəmiyyət verilmədi, bu istiqamətdə zəhmət çəkilmədi və heysiyyətimiz kütləşdi... Bunun acı nəticəsidir ki, insanlığın tərəqqi nərdivanında mədəniyyət, əxlaq və ictimailik sarıdan ən aşağı pillədə qərar tapdıq.

Fironçu-feodal rejimlər... Yemək axtaran qara camaat... Eyş-işrət və lüks həyatı təbliğ edən incəsənət... Boş-boş şeylərdə ixtisaslaşıb, "zir-zibil" ideyalarla başlarını qatan dindarlar...

İnkişaf etmiş dünyaya – Qərbə gəlincə, özünü ağa kimi aparır, geridə qalmış xalqları, xüsusən də müsəlmanları kölə vəziyyətinə salmağa can atır. Bu dünyada düşünürlər ki, geridə qalmış xalqların əraziləri onlar üçün xammal poliqonudur və həmin xalqlar istehsalçı deyil, istehlakçı olmalıdırlar...

Habelə, gözdən iraq israiloğulları Süleyman məbədini inşa etmək üçün min-bir oyundan çıxırlar. Güman edirlər ki, məbəd inşa olunduqdan sonra Allah orada "təcəlli" edib, onların əli ilə dünyanı idarə edəcək.

Kardinallar və digər xristian din adamları da İsa Məsih qayıtsın deyə Tanrı krallığının qurulması üçün gecə-gündüz yorulmaq bilmədən "işləyirlər"...

Özümə gəlincə, mən bir müsəlmanam. Allahın lütfü sayəsində ali vəhyi dərindən araşdırıb, dinimi öyrənmişəm. Və əsaslandığım prinsipləri açıqlamaqda bir qəbahət görmürəm.

Bəzən fəxarət hissi keçirir və öz-özümə deyirəm: "Mən mələklərlə birlikdə təsdiqləyirəm ki, Allah təkdir, ədalətlidir". Uca Allah da bunu bizə bildirmirmi:

"Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətlə boyun qoyaraq (haqqa tapınaraq) o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər" (Ali-İmran, 18).

Bəli, mən bütün şərəfli elm sahibləri və mələklərlə birlikdə Allahın qüdrətini, böyüklüyünü qəbul edir, Onun gözəl adlarına təzim göstərirəm.

Bizdə elmin dinə əksliyi və ya dinin elmlə ziddiyyəti mümkün deyildir. Elm və din arasında təxmin olunan ziddiyyət probleminin islama aidliyi yoxdur. Bəli, ola bilsin ki, buddizm, yaxud brəhmənizm, yaxud da onlardan törəmiş inanclar və din arasında ziddiyyət olsun. Habelə, özlərini Allaha aid etsələr də, Onun yolu ilə getməyib, yalan danışdıqları üçün Rəbbin qəzəbinə gəlmiş dindarların təlimləri və elm arasında ziddiyyətin yaranması mümkündür...

Sağlam ağıl (dərrakə) vəhyi və ətraf aləmi dərk etməyin yeganə vasitəsidir. Madam ki, doğru ağıla sahibəm, deməli, dinimə sadiq qalacağam, fitrətə uyğun davranacağam, əyrilik və sapmalara yaxın düşməyəcəyəm.

Təsəvvürümdə canlandırıb qurur hissi keçirdiyim başqa bir vacib məsələ var. Öz-özümə deyirəm: "Mən ki Kamil İnsanın – Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yolu ilə gedirəm. O Məhəmmədin ki, Allah təala ona xitabən buyurur:

“(Ya rəsulum!) De: “Bu mənim (təbliğ, dəvət) yolumdur. Mən və mənə tabe olan (möminlər) açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir (bütün eyib və nöqsanlardan xalidir, Onun heç bir şəriki yoxdur). Mən isə müşriklərdən deyiləm!” (Yusif, 108).

Bəli, mən dəvətdə Məhəmmədin yolu ilə gedirəm, özü də gözüaçıq və şüurlu surətdə gedirəm...

Allah Sonuncu Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyat yolunu hər növ kahinlik ləkəsindən uzaq tutmuş, adi insan həyatının fövqünə qaldırmışdır. Tarixdən kənarda qalan Ərəbistan çöllərinin dərinliklərindən bir ərəb açıq-aydın kitabla insanların üzərinə günəştək doğmuş, şəxsiyyəti və cəmiyyəti formalaşdırmağın yollarını onlara göstərmişdi. Tarix onun qədər zəkalı, onun qədər mədəni kəs görməyib, görməyəcək də.

Yunan fəlsəfəsini, fars, hind və çin ədəbiyyatını öyrəndik, səltənət sürmüş hökmdarların, fateh sərkərdələrin həyatını araşdırdıq, tarixi irs və mədəniyyətlərin müqayisəsini apardıq. Dəqiqləşdirmə və yoxlamalardan sonra Məhəmmədin özünəməxsus haqq missiyası və məxsusi şərəfli məqamı ilə üz-üzə gəldik.

Mən sərkərdələrinə valeh olub, mədəni irsə məftun qalan şəxslərdən deyiləm! Zehnimdə şübhələrə, suallar və etirazlara daim açıq olan bir “pəncərə” vardır. Və mən şübhələri rəf etmək, sual və etirazları cavablandırmaq üçün ya ötəri, ya da uzun müddətlik ayaq saxlayıram.

Hər dəfə Quranı oxuduqda yəqin biliklərimin dairəsi genişlənir. Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyatına da hər

dəfə diqqət yetirdiyim zaman ona daha çox valeh oluram.

Başqalarında ali həqiqətlərlə bağlı şəkk-şübhə oyadıb dahi adını qazanmaq istəyənlərə, daha ağıllı olduqlarını göstərmək üçün bu həqiqətlər qarşısında heyrətlərini gizlədənlərə nifrət edirəm!

Barəmdə "sapmışdır" – deyənlərə qarşı, Allah eləməsin, insafsız davranım, bəşəriyyətin böyük hissəsini islamdan bixəbər buraxmış, müsəlman olmağına əngəl törətmiş ədəbi-maddi irsimizə həqarətlə baxım. Bəlkə də, bu üzdən insanlar müsəlmanlara nifrət bəsləyir, barələrində pis gümana düşürlər.

Allahın mənə bəxş etdiyi fitrətin "saziş"lərinə ölənədək sadiq qalacağam, həyatlarını o həyatı verən Allaha ismarlamış peyğəmbərlərin izi ilə gedəcəyəm:

"Onlar (adları çəkilən peyğəmbərlər) Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: "Mən bunun (islam dinin təbliği) müqabilində sizdən bir əvəz istəmirəm. Bu (Quran) aləmlər (bütün bəşəriyyət) üçün yalnız bir moizədir (öyüd-nəsihətdir)" (əl-Ənam, 90).

Yalan və saxtakarlığı gözüm götürmür, hiyləbazlıqdan da xoşum gəlmir. İngilis və ya amerikalı elm xadimlərindən birinin Körfəz müharibəsi ilə əlaqədar olaraq öz hökumətinə belə səsləndiyi eşitmişdim: "Övladlarımızı xalqlarından oğurluq edib, qazandıqlarını qumar masalarında, gecə oyunlarında dağıdan neft şeyxlərinin yolunda ölmək üçün müharibəyə (Sonuncu Körfəz müharibəsinə) göndərməyimiz yolverilməzdir".

Bu sözlərin sahibi yaxşı bilirdi ki, Avropa və ABŞ-dan gəlmiş orduların əsas məqsədi neft yataqlarını qorumaqdır, müxtəlif maraqları, o cümlədən xain və cani ərəb şeyxlərinin maraqlarını müdafiə etməkdir. Çünki neft sənaye cəmiyyətinin şahdamarıdır.

Yaşadığımız dövrdə çox vaxt faydanı zərərdən, yaxşını da pisdən fərqləndirmək olmur. Odur ki, ağıllı insanlar bəzi problemlərin həllini uzun-uzadı gözləməyi bacarmalıdırlar...

Ərəb neftinin qəm-qüssə və qəzəb doğuran tarixçəsi vardır. Ərəb dünyasında bu təbii sərvətin çoxlu yataqları yerləşirdi. Amma biz həmin yataqların üstündə bizə mal-qara, qoyun-keçi otartdıran digər işlərlə məşğul idik. Ağlımıza gəlmirdi ki, bu yataqlarla bir maraqlanaq, onlardan fayda götürək!

Həmin yataqları "misterlər" (avropalılar – ***mütərcim***) aşkara çıxardılar. Biz isə bir-birimizlə qan-bıçaq olub "qızğın" mübahisələrə girişmişdik: "təvəssül" hədisi səhih, yoxsa "zəif"dir? Övliyaların kəraməti haqdır ya yox? Xəlifə seçilməyə Haşimoğulları, yoxsa başqaları daha layiqdir?

Müsəlmanlar Qurana bağışlanmaz xəyanəti etdilər, ona etinasız yanaşdılar. Elə bir vaxtda ki, boş danışıqlarla dostlaşıb, əhəmiyyətsiz (cılız) mübahisələrə qucaq açdılar.

Onlar Erkən Nəslə (***sələfi-əvvəl***) yad əcaib mübahisə girdabında qərq oldular. Əgər Erkən Nəsil də bu cür mübahisələri etsəydi, əsla uğur qazanmaz, bir dənə də olsun ölkə fəth etməz, mədəniyyət qura bilməzdi!

Avropalılar neft sənayesini yaradıb, neft məhsulları istehsal etdiklərində, heyrətamiz nəqliyyat vasitələri qayırıb nefti öz

ölkələrinə daşıdıqlarında bizə ərsəyə gətirdikləri məhsulların qiymətini ödədilər. Bəs biz bu pulla nə qayırdıq? Az faydalanıb, çox zərərə düşdük.

Mən şəhvət məkanlarındakı bədxərclik rüsvayçılığından, şeytanı razı salmaq üçün Allahın verdiyi var-dövləti dəlicəsinə riskə atmaqdan, Avropa və ABŞ banklarını "abadlaşdıran" pul fondlarından, (valyuta ehtiyatlarından)... danışmayacağam. Danışsam, çox paxırımızın üstü açılacaq...

Bu xoşagəlməz vəziyyətin "kök"ləri haqda sual vermək istəyirəm. Görəsən, bizi bu sıldırım dərəyə nə sürüyüb gətirdi? Nə bizi verməyə deyil, almağa məcbur etdi? Nə üçün yerimizdə sayır, geriyə hərəkət edirik? Nə bizimlə kitabımız arasında Şərqdən Qərbədək uzun məsafə qoyub?

Bu kitab bugün və keçmişə baxışımızın (münasibətimizin) psixoloji sorğu-sualıdır. Bu sorğu-sualda dəqiqlik göstərməsək, əyrilik və pozuntuları müsadirə etməsək, gələcəyimiz parlaq olmayacaqdır.

Gerilik əsrlərinin zehniyyəti ilə gələcəyin qapısını açmaq cəhdi yalnız və yalnız çaşqınlığımızı artırır...

Bir dəfə əlimə müasir silahlardan bəhs edən bir kitab keçmişdi. Xalqlardan birinin bu sahədəki "uğurlar"ı məndə təşviş oyatdı. Kosmik, yerüstü, yerüstü-kosmik, kosmik-yerüstü raketlər, qırıcılar, bombardmançı təyyarələr, minaatanlar, uzaqvuran toplar, radaların aşkar edə bilmədiyi təyyarələr, saysız-hesabsız mərmi növləri, mina təmizləyən qurğular və daha nələr...

Öz-özümə dedim: "İdeologiya və dəyərlərini möhkəmlətmək üçün bu insanların düzəltdikləri şeylər nə qədər də

tükürpərdicidir! Bəs müsəlmanlar öz ölkələrində sənaye nailiyyətləri və xüsusi bacarıqları sayəsində bu cür şeylər qayırmışlarmı? Əsla, Allah eləməsin, nə üçün qayırsınlar ki?! Hazır satın alırlar da! Qərblilər işlərinə yaramayan hər şeyi (hərbi avadanlıqları) bizə satır, sonra da vaxtaşırı olaraq mərmilərini göndərirlər!"

Dini, şərəf-izzəti, torpaq və namusu qoruya bilməməyimizdən daha pis nə ola bilər?!

Nə ilə məşğul olduq ki, belə bir nailiyyət və uğurlara imza ata bilmədik? Nə ilə olacaq: qeyb mövzuları ətrafında apardığımız "qızğın" və "xəstə" mübahisələrlə (halbuki belə mövzuları çox "qurdalamaq" bizə qadağan edilmişdi), fiqhi ixtilafları böyütməklə, onlardan qığılcım kimi istifadə etməklə! Özümüz də yaxşı bilirdik ki, bütün nöqteyi-nəzərlərə (ictihadlara, görüşlərə) Allah savab yazır, səhvi aşkarlansa da, xəta işləmişə danlaq düşmür*.

Dünya və axirətin yaradıcısını həqiqi mənada unutmaqla dünya işlərindən üz çevirdik. Nəticədə, nailiyyətlərdən kənarda qaldıq. Dünya işlərindən üz çevirməyimiz təqva naminə təcrid olunmaq və ya şəhvətdən qorunmaq deyildi, əksinə, bu, ağılsızlıq və axmaqlığın "səmərə"si idi.

Görəsən, müsəlmanlar hiss edirlərmi ki, dəniz və qitələri qısnayacaq, bütün insanları məşğul edəcək əzəmətli bir mis-

---

* Söhbət ictihaddan gedir. Ənənəvi yanaşma bundan ibarətdir ki, müctəhidlərin ictihadları səhv çıxarsa, buna görə onlara məzəmmət düşmür. Peyğəmbərimizdən bizə gəlib çatmış hədisdən məlum olur ki, ictihadı doğru çıxan müctəhidə iki, çıxmayan müctəhidə isə bir savab yazılır – ***tərcüməçinin qeydi.***

siyaya sahibdirlər? Nə üçün də hiss etməlidirlər ki? Onlar ki dünyadan təcrid olunan və get-gedə nüfuzunu itirən "künc-bucaq"da yaşayırlar, mədəni tərəqqiyə də ölüvay-ölüvay baxırlar. Dünyanın da müsəlmanlara baxışında etinasızlıq və sayğısızlıq vardır. Ola bilsin ki, dünya bəzən müsəlmanlara maddi yardım göndərsin, mədəni-mənəvi kömək göstərsin, amma bu, heç nəyi dəyişmir.

Mən cəsarətlə söyləyirəm ki, Quranı oxuyanların ondakı kainat və təbiət fəlsəfəsindən qətiyyən xəbərləri yoxdur. Müsəlman kütlələr ayələrin oxunuş "səs-küy"ündən savayı ikinci bir şey dinləmirlər. Onlar... "səda və nidadan (çığırtı və bağırtıdan) başqa bir şey anlamayanlara oxşayırlar"*.

Allah təalanın aşağıdakı kəlamını oxuyuram:

"Göyləri və yeri yaradan, göydən yağmur endirən, o yağmurla **sizin üçün** ruzi olaraq (cürbəcür) meyvələr yetişdirən, əmri ilə dənizdə üzmək (yüklərinizi bir yerdən başqa yerə daşımaq) üçün gəmiləri **sizə** (sizin mənafeyinizə) tabe və çayları **sizə** ram edən Allahdır!

(Daim öz hədəqəsində, özləri üçün müəyyən olunmuş yerdə) seyr edən Günəşi və Ayı, həmçinin gecəni və gündüzü **sizin** ixtiyarınıza verən Odur" (İbrahim, 32-33).

Deyirəm: "Ayələrdə müraciət olunan şəxs əvəzliyi cəm formada beş dəfə təkrarlanıb. Sanki Allah təala qulaq asanlara belə demək istəyir: "Bütün bunlar sizin üçündür, yalnız sizin üçündür!"

---

* Müəllif müsəlmanların vəziyyətini "Bəqərə" surəsinin 171-ci ayəsi ilə təsvir edib – ***tərcüməçinin qeydi***.

Bəs qulaq asanlar kimlərdir? Adəmin bütün övladları, bütün bəşəriyyət! Başqa ayələrdə Allah buyurur:

"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan... Odur (Allahdır)! O, hər şeyi biləndir!" (əl-Bəqərə, 29);

"Yeri (Yer kürəsini) sizə ram edən Odur. Onun qoynunda gəzin, (Allahın) ruzisindən yeyin. Axır dönüş də Onadır!" (əl-Mülk, 15).

Yenidən özümə sual verirəm: "Görəsən, ayələrdəki müraciət ərəblərə və müsəlmanlara da aiddirmi; olmaya onlar istisnadırlar?"

Müsəlmanlar yerdə də, göydə də "qərib"dirlər! Hətta əkinçilikdə belə onların işi müşküldür: adi qoğalı min-bir əziyyətə qatlaşmaqla əldə edirlər.

Qeyri-müsəlmanlar yerin təkindəki təbii sərvətləri öyrənib (dünyanın təbii sərvətləri xəritəsini çəkib), bərk və maye olan hər şeyi çıxarmağa başladılar. Biz isə heyrətlə onlara tamaşa edirik. Bu da azmış kimi bizdə bəzi ağıllılar fitva verirlər ki, şəkil çəkmək haramdır!

Dənizlərin, okeanların dibi ilə xətt gəmiləri*, eskadra minonosları hərəkət edir, suların qaranlıqlarını ölüm saçan dənizaltı qayıqlar yarır, sularda nəhəng neft tankerlər üzür... Bunların heç biri bizim yaraşıqlı limanlarımızda düzəldil-

---

* **Xətt gəmisi**: mükəmməl silahlanmış iri hərb gəmisi – ***tərcüməçinin qeydi.***

mir. Başqaları düzəldir, biz isə mat-mat onlara tamaşa edirik*.

Bir dəfə öz-özümə dedim: "Hanı bizim dünyamız?"

Başqa bir vaxt demişdim: "Hanı bizim dinimiz? Görəsən, bu cür dəhşətli geriliklə dinimizə yaxşılıq edib, xidmətindəmi dururuq?"

Sahib olduqları gücün, maddi imkanların təsirindən məst olub axırımıza çıxmaq üçün hərəkətə keçənlərdən dinimizi bu cür geridə qalmaqlamı müdafiə edəcəyik?

Onlar yaşayır, biz isə ölürük. Ola bilsin ki, bəzi müsəlmanları dünya instinktləri oyatsın, silkələsin. Nəticədə, onlar qışqırıq salıb, nəyəsə can atırlar. Amma bir şey edə bilmirlər, məqsədlərinə çatmırlar. Çünki Allahın onlara müyəssər qıldığı nemətdən faydalanmırlar. Mən burada təcrübənin fövqündə dayanan vəhyi nəzərdə tuturam. Halbuki vəhy onlara tərəqqi və kamilliyin yollarını başa salıb, Allahın haqqını yerinə yetirməyin, öz hüquqlarını da qorumağın üsullarını öyrədib.

Başqa kitabdan deyil, məhz Qurandan bərk-bərk yapışan atalarımız onunla həyatlarını düzəltmiş, mütərəqqi və saf mədəniyyət qurmuşdular. Bəs bizə nə gəlib ki, bu kitabı dərk et-

---

* Əsərin yazıldığı dövr (1991) üçün müəllifin fikirləri doğrudur. Həqiqətən də, son 10 iləcək müsəlman ölkələrində müstəqil hərbi gəmi sənayesi inkişaf etməmişdi. Mövcud hərbi donanmalar əcnəbi ölkələrdən alınmış gəmilərdən ibarət idi. Ancaq indi vəziyyət dəyişib: İran İslam Respublikası və Türkiyə bu sahədə böyük nailiyyətlər əldə etmiş müsəlman ölkələridir – ***tərcüməçinin qeydi***.

mədən oxuyuruq, ayələrinə karlar və korlar kimi münasibət bəsləyirik.

Bir dəfə, kosmosa göndərilmiş tədqiqat peykinin çəkdiyi fotoşəkil əlimə düşmüşdü. Günəş və Yer kürəsi əngin kainatda cüzi nöqtə boyda görünürdü.

Rəbbimə həmd-səna etdim, özlüyümdə kiçildim və hiss etdim ki, səmaları və yeri yaradan, hər şeyin sahibi olan Allah əzəlilik və əbədiliyin fövqündə dayanıb.

Bu böyük və möhtəşəm kainatda bizə məlum olmayan neçə-neçə şeylər vardır!

Onu da hiss etdim ki, mənim bu yeni təəssüratlarım "əslinə uyğun surət"dir! Nəyin əslinə? Vəhyin qəlbim və ağlımda çəkdiyi şeylərin əslinə! Bəli, Quran bütün bunları mənə çoxdan öyrətmişdi.

Görəsən, insanlar bundan xəbərdardırlarmı? Kim öyrətdi ki, onlar da xəbərdar olsunlar!? Quran əhli yatmışdır, ya da ki vəzndə yüngül sözlərlə məşğuldur:

"Əgər onlar iman gətirib müttəqi olsaydılar, Allah tərəfindən əldə etdikləri savab daha xeyirli olardı. Kaş ki, bunu dərk edəydilər" (əl-Bəqərə, 103).

Kitabımız barədə bir daha düşünüb dərs çıxaracağıqmı, ondakı təlimlərə əsasən həyatımızı bina edəcəyikmi?!

Ola bilsin ki, keçən əsrlərdə elmlə islamın arasındakı məsafə bir neçə qarış idi. İndi isə bu məsafə kilometrlərlə ölçülür.

Mən hakimiyyət və var-dövlət siyasətindən danışmıram. Əksinə, hər hansı bir işi ustalıqla görmək, bir sistemi (mər-

kəzi, cəmiyyəti...) yaxşı şəkildə idarə etmək üçün tələb olunan əxlaqdan, ənənə və bacarıqlardan söz edirəm.

Mən elə günlərin şahidi olmuşam ki, həmin vaxt işçilər (fəhlələr...) öhdələrinə düşəni dinməz-söyləməz yerinə yetirir, hətta öz hüquqlarını belə tələb etmirdilər. Bəlkə də, onlar bu məşhur hədisə riayət edirdilər:

"Öhdənizə düşəni edin, Allahdan sizə yazılmış olanı diləyin"[1].

Bəli, bu hədis zülmə "yox" deyir, həm də cəmiyyəti səhlənkarlıqdan, heç bir işin qulpundan yapışmayıb bivec gəzənlərin doğuracağı təhlükələrdən qoruyur.

Daha sonra vəziyyət dəyişdi: özlərinə aid olmayan hüquqları tələb edən, az-az hallarda iş görən, görsələr də başdansovdu görən fəhlə və əkinçilər peyda oldular.

Çox vaxt vəziyyətimizi nəzərdən keçirir, əksər idarələrdə (qurumlarda) nizamsızlıq və xaos görürəm. İdarələr, orqan və qurumların yerləşdiyi binalar iri, gördükləri iş isə cüzidir. Görürəm ki, insanlar Allah təalanın bu kəlamını bilə-bilə unudublar:

"Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın. Yer üzü (peyğəmbərlərin şəriətləri sayəsində) düzələndən sonra orada fitnə-fəsad törətməyin. Əgər siz möminsinizsə, bu (dediklərim) sizin üçün xeyirlidir!" (əl-Əraf, 85).

Sənaye sektorumuzda keyfiyyət gözə dəymir, məhsullarımızın keyfiyyət nişanı da yoxdur. İkiüzlülük, saxtakarlıq, vicdan-

[1] Hədisi Tirmizi və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

sızlıq cəmiyyətimizdə geniş yayılıb. Sosialist və ya Allahdan uzaq dünyəvi cəmiyyətlərdə belə bizdəki vəziyyət müşahidə edilmir.

Bəzən var-dövlət onun qədrini bilməyən əllərdə toplanır. Uyuşdurucu maddələrə "tələbat" artır, zərərli vərdişlər axtarışına start verilir. Cəmiyyətdəki qruplara nəzər salanda şər adam barəsində deyilən məsəli xatırlayıram: "Acarsa, oğurlayar, qarnı doydumu, zina edər!"

Belə bir mənəvi aşınmanın səbəbi aydındır. Dini dəyərlərimizin bərk zəiflədiyi bir vaxtda əxlaqdan uzaq modern şəhər həyatı özünü cəmiyyətimizə səssizcə dürtməyi bacardı. Biz də lazımi müqaviməti göstərə bilmədik...

Bu səbəbdən, "modern" avadanlıqlara sahib olmaq üçün minlərlə fəhlə və kəndlinin xaricə işləməyə getdiyinin şahidi olduq. Ən böyük arzu video-maqnitofona, rəngli televizora, ipək geyimlərə, qızıl bərbəzək və zinət əşyalarına sahib olmaq idi. Cəmiyyətin bütün təbəqələri bu şeyləri əldə etmək üçün bir-biri ilə bəhsə girib yarışdılar...

Tale elə gətirdi ki, bütün bunlar Böyük İsrailin yaradılması və islam ümmətinin gələcəyinin məhv edilməsi ideyalarının vüsət kəsb etdiyi bir vaxtda baş verdi.

Dinə inananlar dinlərini qorumaq üçün hərəkətə keçdilər. Amma təkcə müsəlmanlardan tələb olundu ki, dinlərini unudub, ayinlərini icra etməsinlər. Fikir vermişəm ki, islama sadiq qalıb, bayrağını səmada dalğalatmaq istəyən ixlaslı gənclərimiz var. Amma onları bunu necə edəcəklərini bilmirlər.

Elə ağır (sağalmaz) xəstəliklər vardır ki, simptomları dəridədir. Dərin biliyi olmayan həkim güman edir ki, bunlar adi sızanaqlardır, dəri xəstəlikləridir. Odur ki, müalicəni bu əsasda aparır. Bu minvalla ömrünü başa vurur, ciddi bir nailiyyətə imza ata bilmir.

Dəvətlə məşğul olanların arasında da belə "səthilik"ləri görməyənlər vardır. Məsələ onların düşündüklərindən daha təhlükəli, daha ciddidir. Bu dəvətçilər ölüb gedirlər, amma ümmətin problemləri yerində qalır; onlar bu problemlərdən birini də həll etməyi bacarmırlar.

Bu səbəbdən mən "xəstəliy"ə diaqnoz qoyub "dərman" yazmaq üçün ümmətin başbilənləri ilə əməkdaşlıq etdim, keçmişi və indini araşdırdım, aşkar və gizlini ətraflı şəkildə öyrəndim. Qələmə aldığım bu kitabın əsas məğzi fikir mirasımızdakı proseslərin təhlilindən ibarətdir.

Kitabımızda yaxın və uzaq keçmişimizə səyahət edilir, müqayisələr aparılır, yekun nəticələr təqdim olunur.

Mənzilbaşına çatmaq üçün yolun yarısı qət olunub. Allah müvəffəq edərsə, – buna ümid edirəm – humanitar elmlərə dair tədqiqatlar aparıb, növbəti kitabımı yazacağam. Belə olarsa, yolun qalan hissəsi də qət ediləcəkdir.

***Məhəmməd əl-Qəzali***

*Birinci fəsil*

# BİLİYİN İSLAMLAŞDIRILMASI VƏ YA İSLAMA ƏSASLANAN BİLİK SİSTEMİ

Adəmin Allahdan öyrəndiyi ilk biliklər nələr idi? Allah məhz bu biliklərlə Adəmin məqamını ucaltmış, tərəzisinin gözünü ağır basmış, mələkləri də razı salmışdı ki, o (Adəm – ***mütərcim***), yer üzündə xəlifə olacaq, oraya böyüklük edəcəkdir.

Pak və Uca Allah buyurur:

"(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək: "(İddianızda) doğrusunuzsa, bunların adlarını Mənə bildirin!" – dedi.

Onlar: "Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən", – dedilər.

(Sonra) O: "Ey Adəm, bunların (kainatda mövcud olan əşyanın) adlarını onlara bildir!" – dedi. (Adəm) onlara (mələklərə) bunların adlarını xəbər verdikdə (Allah): "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində – aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi?" – buyurdu" (əl-Bəqərə, 31-33).

Nədir bu adlar? Hansı adlardan söhbət gedir? Çox uzağa getməyəcəyəm, cavabı elə Quran kontekstinin (***siyaq***) özündən çıxaracağam. Əvvəlki ayələrdə Allah təala insanlara xitabən buyurur:

"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan... Odur (Allahdır)! O, hər şeyi biləndir!" (əl-Bəqərə, 29).

Bu ayənin məzmunu ümumidir. Mövzunu tam təfsilatı ilə açıqlayan ayələr isə yuxarıdakı ayədən qabaq nazil edilib:

"Sizi yer üzündə yerləşdirdik və orada sizin üçün dolanacaq vasitələri yaratdıq. Siz isə olduqca az şükür edənlərsiniz!

Sizi (babanız Adəmi) yaratdıq, sonra sizə surət verdik və mələklərə: "Adəmə səcdə edin!" – dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə olanlardan olmadı..." (əl-Əraf, 10-11).

Aydın olur ki, Adəmə öyrədilmiş bilik Yerlə, abadlaşdırılması ilə, orada yaşamaqla, sirləri və potensial imkanlarını üzə çıxarmaqla əlaqəli idi. Bəşəriyyətin yaşayıb-yaratması üçün təkcə Yer kürəsi kifayət etmir. Yer Günəşin "bacı"larından biridir. Yer üzündə yaşamaq kainatdakı digər göy cisimləri ilə də əlaqəlidir. Odur ki, insan oğlunun bilik dairəsi genişlənməli, kainata və həyata dair elmləri də ehtiva etməlidir.

Biz Adəmin kimyanı, fizikanı, astronomiyanı bildiyini iddia etmirik. Amma düşünürük ki, o, bu elmlərin əmələ gəldiyi ibtidai bilikləri bilməklə yanaşı, həm də müəyyən qabiliyyət və təcrübəyə sahib idi. Adəmə kainatı "dolaşacaq" dərrakə bəxş edilmişdi və o, bu dərrakə ilə ətraf mühiti (tə-

biəti) özünə tabe edəcək qədər bacarıqlı idi. Həmçinin, bu dərrakə imkan verirdi ki, Adəm böyük kainatda Allahın nişanələrini öyrənsin, nəhəng və möhtəşəm aləmlərin Allahın qüdrətinə dəlalət etdiyini özlüyündə bir daha təsdiqləsin.

Məgər Allah bütün kainatı məhz bunun üçün yaratmayıb?! Quranda deyilir:

“Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi elm (Öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında (mövcud olan bütün məxluqata) nazil olar” (ət-Təlaq, 12).

Doğrudan da, Allah təala bu dünyanı ona görə yaradıb ki, biz, insanlar Onun qüdrətini, hər şeyi əhatə edən elmini həm öyrənib bilək, həm də layiqincə təqdir edək, şəninə tərif söyləyib böyüklüyünü aləmə car çəkək!

Cəhalətdən biliyə səyahət həm uzun, həm də məşəqqətlidir. Bu səyahəti başa vurmaq bəzən bir nəslə müyəssər olmur: sonrakılar əvvəlkilərin işini davam etdirməli olurlar, – bu, Adəm və övladlarının yer üzündəki missiyasıdır. Adəm məhz bununla mələklərdən fərqlənmiş, xəlifəliyə layiq görülmüşdü.

Yaşadığı torpağın altındakı sərvətlərdən xəbərsiz xalqları* gördükdə lap məəttəl qalıram. Nə üçün belədir? Çünki onlar uşaq ağlındadırlar: himayəçi və süd əmizdirən dayəyə möhtacdırlar.

---

* Söhbət müsəlman ümmətini əmələ gətirən ayrı-ayrı xalqlardan, xüsusilə də ərəblərdən gedir – ***tərcüməçinin qeydi.***

Əllərində imkanları ola-ola yer üzündə möhkəmlənib qərar tapa bilməmiş xalqlar! Özlərini normal yaşayış imkanlarından məhrum edib, aslanların artıqlarını yeyən tülkülərtək hərəkət edən xalqlar!

Halbuki ataları Adəmə bütün "ad"lar öyrədilmişdi. Onlar isə bu adların ya hamısından, ya da bəzisindən bixəbər qaldılar. Mən günümüzün müsəlmanlarına baxır, Zülqərneynin əhvalatını xatırlayıram. Əhvalatda deyilir ki, Zülqərneyn basqınlar və zülm qarşısında səsini çıxara bilməyən bir xalqın yanına gəlib çatır:

"Nəhayət, iki dağ arasına gəlib çatdıqda onların ön tərəfindən az qala söz anlamayan bir qövm (xalq) gördü" (əl-Kəhf, 93).

Bu aciz insanlar nə axtarırdılar? Nə olacaq – onları düşməndən qoruyan, təhlükəsiz həyat vəd edən qalaları tikə biləcək birisini! Çünki özləri bu qalaları tikməyi bacarmırdılar.

Onların həyata dair bilikləri dərin deyildi, möhkəmlənib qərar tapmaq şansları da az idi; Adəmlə elmi bağlılıqları da zəif olmuşdur. Və mən uzun müddətdir ki, müasir islam həyat tərzində ümumi bəşəri cizgilərin iflic olmağından gileylənirəm.

Ola bilsin ki, bu cür biabırçı zəiflik yer üzünü abadlaşdıran bəzi nəsillərdə özünü göstərsin. Unutmayaq ki, peyğəmbərlərin bir vəzifəsi də insanlara özlərini, inancları və dini prinsiplərini necə qorumağın yollarını öyrətmək olmuşdur. Allah təala Davud peyğəmbər *(Ona salam olsun!)* haqqında buyurur:

“Biz (Davuda) sizi (düşmənlə) vuruşda qorumaq üçün zireh (toxumaq) sənətini öyrətdik. (Ey insanlar, rəbbinizin bu nemətinə) artıq şükür edirsinizmi?” (əl-Ənbiya, 80).

Bəşəriyyət normal yaşayışın nə olduğunu öyrənməlidir. Yer üzündə normal yaşamaq bütün insanların haqqıdır. Cəhalət və acizlik isə insanlığı məhv edən xəstəliklərdir; bu xəstəliklərə tutulanlar şəxsiyyətlərini itirər, missiyalarından uzaqlaşarlar.

Düşünməyənlər, hissiyyatsızlaşıb nə gəldi yeyənlər, itlər və canavarlar kimi ibtidai instinktlər çərçivəsində həyat tərzi sürənlər insanlıqdan çıxmışlar.

Atamız Adəmin əhvalatına qayıdaq. Onun halı çox pərişandır: cənnətdən çıxarıldıqdan sonra həyatda qalmaq üçün zəhmət çəkməlidir. Halbuki bundan qabaq, cənnətdə rahat həyat sürür, yağ-bal içində üzürdü. İndi isə ac və lüt-üryan qalmamaq üçün zəhmət çəkməli, işləməlidir.

Adəmə verilmiş cəza bu idi ki, iradəsi zəif olduğuna, unutqanlığı və şeytanın vəsvəsəsinə aldandığına görə cənnətdən çıxarılmışdı. Amma Adəm cənnətdən çıxarıldığında yeni həyata dair nəzəri biliklərə sahib idi (dedik ki, Allah ona hələ cənnətdə ikən adları öyrətmişdi). Düzdür, nəzəri bilik real həyatın çətinliklərinə, əzab-əziyyətinə tab gətirmək üçün kifayət etmir. Odur ki, zəhmət çəkmək, tər tökmək lazımdır. Təbii ki, zəhmətdən qabaq və zəhmət əsnasında Allahı xatırlamaqla yanaşı, həm də Onun təlimlərinə əngəllərə və həyatın dönüklüyünə baxmayaraq, ehtiram göstərmək lazımdır.

Həm Adəmə, həm də onu tova gətirən şeytana belə deyilmişdi:

“(Allah Adəmə və Şeytana) belə buyurdu: “Bir-birinizə düşmən kəsilərək hamınız oradan (Cənnətdən yerə) enin. Məndən sizə doğru yolu göstərən bir rəhbər (kitab, yaxud peyğəmbər) gəldiyi zaman hər kəs Mənim haqq yolumu tutub getsə, nə (dünyada) yolunu azar, nə də (axirətdə) bədbəxt olar!

Hər kəs Mənim öyüd-nəsihətimdən üz döndərsə, güzəranı daralar (yaxud qəbir evində şiddətli əzaba düçar olar) və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!” (Taha, 123-124).

Atamız Adəm cənnətdə xoş güzəran sürərkən bilikləri birbaşa rəbbindən öyrənir, Onun əmr və qadağalarını bilavasitə dinləyirdi. Deməli, imanı “şühudi” (Allahla birbaşa təmasın doğurduğu iman) iman qəbilindən idi. Sonra səhvə yol verdi. “Sonra Rəbbi (tövbə etdirməklə) onu seçdi (Özünə yaxınlaşdırdı), tövbəsini qəbul buyurdu və doğru yola müvəffəq etdi”[1].

Daha sonra Adəm Yerdə yaşamağa başladı. Amma yəqinliklə bilirdi ki, başlanğıc və son Allahın əlindədir[*]. O da, ondan sonrakı peyğəmbərlər də bu həqiqəti özlərinə həmyoldaş seçməli idilər. Heç kəs haradan gəlib, haraya gedəcəyini unutmamalıdır.

Bu vacib xatırlatmanın “qıjıltılı çaylar”ı yerin təkindən qaynayıb çıxır, “gur yağış”ı da səmanın ənginliyindən axıb

---

[1] “Taha” surəsi, 122-ci ayə.

[*] Yəni, həyatı verən də, alan da Allahdır; insan Allaha aiddir, Ona da geri qayıdacaqdır – ***tərcüməçinin qeydi.***

tökülür... Boz torpaq xurma və üzüm çəyirdəyindəki zoğun təsirindən çatlayırsa, deməli, Allah haqda danışır.

Buludları şərqdən qərbə, qərbdən şərqə qovub aparan küləklər yağış yağdırıb hər yerdə canlanma yaradırlarsa, deməli, Allahdan xəbər verirlər...

Bir damla sudan əmələ gələn insan oğlu – gələcəkdə dahi, yoxsa bədbəxt olacağını bilməyən bir uşaq! Bu insan istəsə də, istəməsə də, Allahdan xəbər verir. Onu nə özü, nə də ki valideynləri yaratmışdır. Onu xəlq edən Allahdır.

Adəmdəki "şühudi" iman* onun övladlarında başqa şəkil aldı. Onlar bu imanı "qaibanə" şəkildə – Allah, əzəməti, ətraf aləmdəki nişanələri haqda düşünməklə formalaşdırdılar. Onlar görmədikləri, səsini eşitmədikləri Allaha inanırdılar. Bu imanı biz "qeybə iman" adlandırırıq. Ümumiyyətlə, imanı təsdiqləyəcək amillər, cəhətlər, nişanələr çoxdur, odur ki, imansızlığa heç bir vəchlə bəraət qazandırmaq mümkün deyildir. Həmin nişanələrin ən başlıcası budur ki, bütün adları öyrəndiyində həyata dair bilikləri də (yaşamağı da) mənimsəmiş Adəm Allahını tanımışdı, özü də endirildiyi yer üzünün hər bir yerində təcəlli etmiş ilahi nişanələrə vaqif olmaqla tanımışdı.

Adəm həm xaliqini tanıyan məxluq, həm böyüyünü tanıyan təbəə, həm də məşəqqətli səfərin yolçusu idi. Bəli, Adəm və övladları uğur qazanmaq üçün bu yolu qət etməli idilər.

---

* Allahı gördüyü, səsini eşitdiyi üçün Adəmin imanı şühudi iman idi. Adəm gördüyü şeyə inanırdı – ***tərcüməçinin qeydi.***

## Bəşəri biliklərin mənbəyi

Adəmi mələklərdən üstün edən biliklərin (elmin) mənbəyi kainatdır.

Kainatı tanımaq (öyrənmək) istəyi insanın təbiətində mövcuddur. Ondan bixəbərliyə heç bir vəchlə bəraət qazandırmaq olmaz. Dünya və kainatdan bixəbər olmaq yolverilməzdir.

Quran bizə bu geniş kainatı üç səbəbə görə öyrənməyin zərurətindən danışır:

**Birinci.** Bu kainatı Allahın mövcudluğuna dəlalət etdiyi üçün öyrənməliyik. Biz digər kitablarımızda bu mövzuya toxunmuşuq. İndi isə biz kainatda, kosmosun sistemli quruluşunda təcəlli etmiş ilahi əzəmətə işıq salan bəzi nişanələrdən söz açacağıq.

Biz daim hərəkət edən bir kainatda yaşayırıq. Ay Yerin ətrafına dövrə vurur, Yer də – Günəşin. Günəş də öz orbiti üzrə hərəkət edir. Günəşlə birlikdə ona tabe bütün digər səma cisimləri (söhbət Bizim Günəş sisteminə aid göy cisimlərindən gedir – ***mütərcim***) hərəkətdədir. Günəş və "ailə" si (Bizim Günəş sistemi – ***mütərcim***) sonu kəşf edilməmiş kainatdakı qalaktikalardan biridir.

Bütün istiqamətlərdə baş verən bu sabit hərəkətlilik "möhkəm vəznli, xoş tələffüzlü qafiyə"yə oxşayır. Onu nə bir naqislik, nə də qarmaqarışıqlıq çulğayır:

“Möhkəm (bərk) yaradılmış göyə and olsun ki, (ey müşriklər!) Sizin (bu göy barəsində) sözləriniz müxtəlifdir” (əz-Zariyat, 7-8).

Bəli, dairəvi hərəkət edən qalaktikalar sistemi və kosmosdakı tarazlıq insanı heyrətə salır. Quranda bu məsələ belə ifadə olunub:

“Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatlaq, nöqsan) görə bilərsənmi?!

Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!” (əl-Mülk, 3-4).

Elə olur ki, dan yerinin sökülməsinə, qaranlığın yavaş-yavaş itməsinə heyrətlə tamaşa edir, gecənin qaranlığının gündüzlə əvəzlənməsi qarşısında həyəcan keçiririk. Və biz bunun necə baş verdiyini, əngin kosmosda (fəzada) yeni günün necə başlandığını da bilmirik.

Allahın aşağıdakı andı haqda düşünməli oluruq:

“And içirəm (gecə) yanıb (gündüz) sönən ulduzlara;

(Günəşlə, ayla) seyr edib (onlar batdığı zaman) gizlənən səyyarələrə (Zühələ, Müştəriyə, Mərrixə, Zöhrəyə və Ütaridə);

Qaralmaqda olan gecəyə (yaxud: qaralmaqda və çəkilməkdə olan gecəyə)

Və sökülməkdə olan dan yerinə ki...” (ət-Təkvir, 15-18).

Bu səhnə hey təkrarlanır: ondakı hadisələr nə tələsir, nə gecikir. Ta ki Allahın izni gələnədək. Allahdan “izn alan”

Günəş qərbdən doğur, dünya məhv olur, insan oğlunun sevincli-ağlamalı imtahan günləri başa çatır...

**İkinci**. Kainatı ona görə öyrənməliyik ki, insan oğlunun yaşaması, özü də rifah içərisində yaşaması üçün zəruri olan hər şey bu kainatla əlaqəlidir. Quranda oxuyuruq:

"Bundan sonra da yeri döşəyib (yayıb) düzəltdi (üstündə gəzmək və yaşamaq üçün onu yararlı hala saldı).

Ondan suyunu və otlağını çıxartdı.

(Orada) dağları yerləşdirdi.

(Bütün bunlar) sizin və heyvanlarınızın istifadəsi üçündür" (ən-Naziat, 30-33).

Yeməyimiz də, dava-dərmanımız da, geyimimiz də yer üzündədir. Bildiyimə görə, Yer böyük bir dünyanın kiçik parçasıdır. Hətta atmosferdəki bəzi dəliklər (ozon dəliyindən söhbət gedir – ***mütərcim***) Yerdə həyatın məhvinə səbəb ola bilər. Sanki bütün kainat bizim üçün yaradılıb:

"O, gecəni və gündüzü, Günəşi və Ayı sizə ram etdi (sizin xidmətinizə verdi). Ulduzlar da Onun əmrinə boyun əymişdir. Doğrudan da, bunda ağılla düşünənlər üçün ibrətlər vardır!

(Allah) yer üzündə yaratdığı cürbəcür şeyləri (heyvanları, bitkiləri, meyvələri və s.) də sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün, sözsüz ki, bunda da (Allahın qüdrətini, əzəmətini bildirən) əlamətlər vardır!" (ən-Nəhl, 12-13).

Dövrümüzdə bu həqiqətlərdən ən axırda müsəlmanların xəbər tutmaları məyusluq yaratmırmı?! Başqaları müxtəlif ölkələrdə kəşfiyyat-qazma işləri aparır, təbii sərvətləri çıxa-

rır, fayda götürür, yerdə qalan artıqları isə satırlar. Biz isə neftlə, dəmirlə, qızılla zəngin torpaqların üzərində gəzir, amma bilmirik ki, yerin altında nələr var! Odur ki, yadlar gəlir, torpaqlara sahib çıxır, istədikləri kimi istismar edir, yığdıqlarını yığır, bizə isə çəp-çəp baxaraq, nifrətlə tur-tullantıları atırlar.

Ağlı başında olan kəs bu halla razılaşarmı? Elə isə kainatı və ətraf aləmi (təbiəti) öyrənmək puç (saxtakar) zehniyyət sahiblərinin icad etdikləri "zəruri" vəzifələrdən daha vacibdir. Onlar icad etdikləri bu vəzifələri din adlandırırlar, halbuki islam onların iddialarından çox uzaqdır.

**Üçüncü.** Kainatı və təbiəti öyrənəcəyik ki, hüquqlarımızı, dəyərlərimizi qoruya biləк. Vay o gündən ki, ev sahibi daşla, oğrular da yaxın və uzaq mənzilli raketlərlə silahlanmış olsunlar! Belə olan halda haqqımız da tapdanacaq, dəyərlərimiz də təhqir ediləcək.

Allah Quranda dəmirin xüsusiyyətləri, mülki və hərbi sahədəki faydaları haqda danışır:

"...Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də icad (nazil) etdik (mədənlərdən çıxartdıq) ki, Allah (Özünü) görmədən Ona (onun dininə) və peyğəmbərlərinə kömək göstərənləri (dəmirdən düzəlmiş silahlarla kafirlərə qarşı vuruşan mücahidləri) bəlli etsin..." (əl-Hədid, 25).

Allah dəmir nədir, taxta nədir bilməyən bir xalqa kömək göstərərmi?!

Dövrümüzdə müharibələr nəinki quruda, həm də dəniz və havada aparılır. Bu müharibələrdən qalib çıxmaq istəyənlər gərək hərtərəfli imkan və bacarıqlara sahib olsunlar.

"Biz savadsız ümmətik" hədisindən[1] savadsızlığın müsəlman ümmətinin ömürlük səciyyəvi xüsusiyyəti olmağı nəticəsini çıxaran insanlara ürəkağrısı ilə baxıram.

Bu insanlar astronomik hesablamaları, Ayın səthinə enmiş kosmik aparatların hazırlanmasında zəruri sayılan riyazi qanunauyğunluqları inkar edir, sonra da sənə baxıb lovğa-lovğa deyirlər: "Sünnənimi inkar edəcəksən?"

Bəli, bu hal geridə qalmış ərəb reallığını əks etdirir. Halbuki Quran geridə qalmağa "yox" deyir:

"Günəşi işıqlı (parlaq), ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini **anlayıb bilən** bir tayfa üçün belə müfəssəl izah edər!" (Yunus, 5).

Bu həqiqəti yalnız anlayıb bilənlər dərk edərlər! Fikir vermişəm ki, Quranda kainat, sirləri, imkanları və ondakı hərəkətlilik haqda danışılarkən, çox vaxt "anlayıb bilmək" feli işlədilir.

Allahın bu kəlamına fikir verək:

"(Gecənin zülmətindən) səhəri yarıb çıxaran, gecəni bir istirahət vaxtı, günəşi və ayı (vaxt üçün) bir ölçü vasitəsi

---

[1] Hədisi İmam Buxari, İmam Müslim, Əbu Davud, Nəsai və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

edən də Odur. (Bütün) bunlar yenilməz qüvvət sahibi, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmüdür).

Suyun və qurunun zülmətində (yolunuzu) düz getmək üçün ulduzları sizin üçün yaradan da Odur. Biz bu ayələri **anlayıb bilən** bir camaat üçün bu cür ətraflı izah etdik" (əl-Ənam, 96-97).

Dünyanın böyüklüyünə, insanın isə cılızlığına işarə olaraq Quranda deyilir:

"Doğrudan da, göylərin və yerin yaradılışı insanların yaradılışından daha böyük şeydir. Lakin insanların çoxu (bunu) bilməz!" (Ğafir, 57).

Araşdıran ağıl və dəqiq mühakimə əsasında tövhid inancının formalaşdırılması haqda Allah təala buyurur:

"O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. İndi siz də Allaha (Onun heç bir oxşarı və bənzəri olmadığını) biləbilə şəriklər qoşmayın!" (əl-Bəqərə, 22).

Sonrakı iki ayə isə Yerdə və göylərdə Allahın nişanələrini öyrənən kainat elmlərinə dair səmərəli və yəqin bilikdən söz açır. Biz kainat elmlərindən nəsibimizi götürmədik, bu meydandan əliboş döndük. Şair də demişkən, beynəlxalq aləmdə başılovlu qaldıq:

*Qərarlar verilir, "Təym" qövmü isə gözə dəymir,*
*Ortaya çıxdığında da kimsə onların rəyini soruşmur*[*].

Ağılsızlar və işi-gücü olmayanların nəzərində kainat və təbiət elmlərinin heç bir dəyəri yoxdur.

Həmin iki ayədə Allah təala buyurur:

"(Ya Peyğəmbər!) Məgər Allahın göydən bir yağmur yağdırdığını görmürsənmi?! Sonra Biz onunla növbənöv meyvələr yetişdirdik və dağlarda müxtəlif rəngli – ağ, qırmızı, tünd qara yollar (yaxud tünd qara qayalar) peyda etdik.

İnsanların, (yer üzündə gəzən) heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır. Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar). Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, (möminləri) bağışlayandır!" (Fatir, 27-28).

Təəccüblü deyildir ki, Quranın da bildirdiyi kimi, məhz ağıl sahibləri nəhəng kainatın dərinliklərindən haqqı arayıb tapar, üzə çıxararlar:

---

[*] Yuxarıdakı beytdə Müsəlman dünyasının vəziyyəti təsvir olunub. Birinci misrada adı çəkilmiş "Təym" vaxtı ilə zəif və gücsüz, nüfuzsuz ərəb qəbilələrindən biri olmuşdur. İndiki dövrdə isə bütün müsəlmanlar həmin qəbilənin vəziyyətinə düşüblər. BMT-də İslam dünyası haqda qərarları başqaları çıxarır, müsəlmanlar isə gözə dəymirlər. Ortaya çıxdıqlarında isə heç kəs onların sözünü dinləmir, rəyini soruşmur – ***tərcüməçinin qeydi***.

“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır.

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): “Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamışsan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!” (Ali-İmran, 190-191).

Bütün bunlara baxmayaraq, içki sərxoşların bütün bədənini əsir etdiyi kimi, “Biz savadsız ümmətik” deyimi də müsəlmanların canına hopub. Nəticəsi göz qabağındadır: onlar özgə ağızlardan, yad millətlərdən elm dilənirlər. Ərəb mentaliteti və reallığında elmin mənbələri “quraqlığ”a tuş gəlib.

Dini elmlə mədəni elm arasındakı fərqlərə toxunaq. Birincisinin konkret “sərhəd”ləri vardır. Dini elmlərin əsasını onlara sarılıb, tabe olub arxasınca getmək təşkil edir. İkincisi isə sərbəstdir, ixtiralarla, kəşflərlə şərtləşir. Məsələn, namazı, namaz üçün təmizlənməyi bir saata öyrənmək və ya öyrətmək mümkündür. Bunu öyrəndikdən sonra müsəlman yerdə qalan vaxtda bildiklərini təkrarlamalıdır ki, nəfsini tərbiyə etsin, mənəvi sakitlik tapsın. Və yaxud camaata bağlı qalıb müəyyən məqsəd və proqram üzrə ümmətin formalaşmasına diqqət yetirsin.

Dünyəvi elmlərə gəlincə, onlar daima yenilənir, mütərəqqi səciyyə kəsb edir. Yaşadığımız əsrin 50-ci illərində şahidi olduq ki, elmi nailiyyətlər özünün pik nöqtəsinə çatıb və

bu, haradasa, keçən əsrin nailiyyətlərindən çoxdur. Təbiət elmləri üzrə tədqiqatçılar və mədəni inkişafı izləyənlər bunu yaxşı bilirlər.

Təəssüf ki, müsəlmanlar bu əhatəli sıçrayışda pay sahibi deyillər. Təbii ki, söhbət XX əsrin müsəlmanlarından gedir. Amma onların əcdadları dünyanın qurucuları idilər və bunu yalnız nankor inadcıllar inkar edirlər.

Görəsən, sonrakı dövr müsəlmanları özlərini nə ilə məşğul etmişlər? Dinin yalnız müəyyən məsələlərindən danışmaqla! Adi bir namazı bir aya izah edirlər! Dəstəmaz və qüsl haqqında isə, az qala, aylarla danışırlar.

Onu da deyim ki, **elmi ixtisaslaşma** və **xalqın bilməsi lazım gələn ümumi biliklər** arasında fərq qoyulmalıdır...

Çərənçilik və laqqırtını andıran boş-boş işlər üzündən təbiət (həyat) elmlərinə diqqət yetirməmişik, vaxt da ayırmamışıq. Bu səbəbdən İslam ümməti maddi və mədəni sahələrdə biabırçı məğlubiyyətə uğrayıb.

Əvvəlki müsəlmanlar Qurani-Kərimin üslub ecazkarlığını aşkara çıxarmaq üçün bəlağət, üslubiyyat, poetika, nəhv (sintaksis) və sərf (morfologiya) elmlərini yaratdılar.

Qurana xidmət göstərmək üçün bu elmlərlə yanaşı, biologiya, fizika, kimya, astronomiya, geologiya və s. elm sahələrinə də böyük ehtiyac vardır.

Bu elmlərdən xəbərsizlik islama və onun əzəmətli kitabına xəyanətdir, özü də rüsvayçı xəyanət! Bu, həm də atamız Adəmin insanlara verdiyi mesaja xəyanətdir. O Adəmin ki, Allah ona bütün adları öyrətmiş, yer üzünü onun ixtiyarına

vermişdi. Adəm də bunun sayəsində həm quruda, həm də suda ixtiyar sahibinə çevrilmişdi.

Axı nə üçün bizdən başqaları dənizin dibində üzməli, kosmosa uçmalı, biz isə key-key onlara baxmalıyıq? Nə üçün ateist zehniyyət sahiblərinin elektriki, atomu olmalıdır, bizim isə – iri dəyənəyimiz?! Nəfsi istəklərimizə etiraz edənlərə hədə-qorxu gəldiyimiz bir dəyənək!

## Müsəlman dünyasının qəribəlikləri

Bir ümmətə öz imanını kainatı öyrənməklə formalaşdırmaq tapşırılır, o isə kainatdan, ondakı sirlərdən, imkanlardan xəbərsizdir. Qəribədir, deyilmi?

Allahın aşağıdakı ayələrinə beləmi riayət olunur:

“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır.

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): “Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamışsan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!” (Ali-İmran, 190-191).

Əgər ümmətimiz tənbəlləşib qış yuxusuna getdiyində yer üzündə yaşayan yeganə ümmət olsaydı, dərd yarı idi. Bu halda, geri qalmağının əziyyətinə güc-bəla ilə də olsa tab gətirərdi.

Amma ümmətimiz yuxu nədir bilməyən digər millətlərlə yarış içərisindədir. Heç bir ülvi missiya daşımayan, ya da nəfsi istəyin diktə etdiyi puç maddi maraqlara sahib millətlər!

Buna rəğmən onlar – bu puç missiya sahibləri böyük əzmkarlıq nümayiş etdirib küləklə belə yarışa çıxıblar. Biz, haqq təmsilçiləri isə torpağa daş kimi düşmüşük. Başqaları-

na etinasız və key nəzərlərlə baxırıq. Missiyamızdan isə heç nəyi ağlımız kəsmir...

Quranda "adəmolma, insanlıq"* dedikdə mələkləri aciz buraxan bir missiya başa düşülür. Adəm bu missiyanı daşımış, bununla da, yer üzünün xəlifəliyinə layiq görülmüşdü. Bizə görə isə "adəmolma" yeyib-içmək deməkdir, cütləşmək deməkdir, bir-birimizin paxıllığını çəkmək deməkdir, bir-birimizin qarşısında lovğalanmaq deməkdir. Bir sözlə, "insanlıq" – bizim nəzərimizdə rəzil heyvanilikdir!

Başqaları süni peyklər qayırıb, kosmik gəmilər uçurdular, kosmos və kainat haqda daha çox biliyə sahib oldular...

Döyüş meydanlarında onlar sıxan, boğazlayan, kəsən, düşmənə göz açmaq imkanı verməyən caynaqlara sahibdirlər...

Biz isə onlara hüsn-rəğbət bəsləyirik; mallarını istehlak edir, silahlarını alırıq. Özü də bu silahların necə istifadə edilməsini onlardan öyrənirik. Əvvəlcə silahı satır, daha sonra ondan istifadə qaydalarını öyrədirlər.

Mən şübhə etmirəm ki, ideoloji-psixoloji dünyagörüşümüzdə bir "çatlama", "qırılma" və "nasazlıq" olmasın. Bizi bu cür uçuruma məhz həmin çatlamalar, qırılmalar, nasazlıqlar sürükləyib. Biz bu çatışmazlıqları aradan qaldırmadıqca düzəlməyəcəyik. Belə olarsa, biz də onlar kimi qurub-yaradacaq, istehsal edəcəyik.

---

* "**Adəmiyyət**" – insanlıq vəzifəsi; kainatı, təbiəti öyrənməklə yer üzündə yaşayıb-yaratmaq – ***tərcüməçinin qeydi***.

Qeyri-müsəlmanların hakimiyyət sistemlərinə nəzər salır, yüksək bacarığa, dərin təcrübəyə sahib liderlərin şahidi oluram.

Bu liderlər tutarlı və dəqiq şəkildə fikir bildirməyi bacarsalar da, ölkələrinin baş bilənləri ilə məsləhətləşməyi əsla yaddan çıxarmırlar; fərqli fikirlərə səmimiyyətlə qulaq asır, nəsihətləri heç vaxt qulaqardı etmirlər. Sanki onlar Həzrəti Əbubəkrin *(Allah ondan razı qalsın!)* aşağıdakı sözlərini özlərinə şüar götürmüşlər:

"Ən yaxşınız olmasam da, sizə hakim təyin edildim. Görsəniz ki, xeyir işləyirəm, köməyinizi əsirgəməyin. Səhv etdiyimi gördüyünüzdə isə məni (həm də o səhvi) düzəldin".

Biz isə "liliput"ların əlində qalmışıq. Özlərini qanan kimi göstərən, barmaqlarının ucunda gəzən "liliput"lar! Heç bilmirəm, bunlar başımıza haradan bəla olub düşüblər? Bəzən onlardan birinin dikbaş-dikbaş belə dediyini eşidirik: "Mən sizə ancaq münasib gördüyüm rəyimi bildirirəm, mən sizə ancaq doğru yolu göstərirəm!"*

Haqqa başçılıq edənin dilindən Fironun nərəsi, batil liderinin dilindən isə Siddiqin (Həzrəti Əbubəkrin – *Allah ondan razı qalsın!*) sözləri eşidilir!

Necə də qəribə paradoksallıqdır! Biz bu bəla ilə – İslam torpaqlarındakı acınacaqlı siyasi-mədəni vəziyyətlə nə vaxta qədər barışacağıq, taleyimiz necə olacaq?

---

* "əl-Mumin" surəsinin 29-cu ayəsinə işarə edilir. Bu sözlər xalqını aldatmağa çalışan Firona aiddir – ***tərcüməçinin qeydi***.

Təbiət elmlərini dərindən öyrənmək zənginlik qapılarını avropalıların üzünə açdı...

Kəşf etdikləri sirlər və imkanlar, əslində səma və yerdəki xəzinələrin açarları idi. Odur ki, onlarda yaşayış səviyyəsi yaxşılaşdı, rifah artdı, güzəranlıq düzəldi, – burda təəccüblənəcək heç nə yoxdur!

Onlar dünyanı ayaqları üstünə dikəldib, başqalarından daha çox abadlaşdırdılar. Hər şeydən: quru və yaşdan, maye və bərkdən, dəmir və qızıldan, hava və torpaqdan faydalandılar. Dünyaları, demək olar ki, zər-zibaya bürünüb. Və bu dünya, az qalıb ki, insanların tamahlarına xidmət edən həqir "bəndə"yə çevrilsin! Özü də hansı insanların? O insanların ki, məxluqatı öyrənmiş, Xaliqdən bixəbər qalmışlar! O insanların ki, həyatın bu dünyadan ibarət olduğunu düşünürlər; Allahın təlimləri haqda ciddi məlumata sahib deyillər, axirət üçün heç bir tədarük görmürlər!

Şübhə yox ki, müsəlmanlar da belə bir ziddiyyətin yaranmasında günah yiyəsidirlər. Çünki Allahın onlara bəxş etdiyi haqdan nə özləri faydalanmış, nə də onu başqalarına çatdırmışlar...

Bu səbəbdən müsəlman kütlələr yoxsuldurlar, məyus və kədərlidirlər. Bəzilərindəki var-dövlət isə yadellilərlə qurduqları əlaqələrin, yaxud da onlara və ya onlarla işləməklərinin qazandırdığı istiqrazdır!

Bu üzdəndir ki, aldıqları borclar və borclara gələn faizlər əhalisi çox olan ölkələri zəlil edib, bellərini qırıb. Borca batanın dini də, dünyası da əldən çıxar və o, ağaların artıqları ilə dolanan quyruqbulayana çevrilər.

Uşaqlığımızda öyrənsək də, yaşa dolduğumuzda faydalanmadığımız hədislər yadıma düşür.

Əbu Səid əl-Xudri *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* belə dediyini eşidib: "Küfr və borcdan Allaha sığınıram!" (Bu zaman bir nəfər təəccüblə soruşur:) "Küfrlə borcu eynimi tutursan, ey Allahın rəsulu?" Peyğəmbər: "Bəli!" – deyə cavab verir"[1].

Başqa bir hədisdə oxuyuruq ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bir dəfə səhabələrinə deyir: "Əmin-amanlıqdan sonra özünüzü təhlükəyə atmayın." Səhabələr soruşurlar: "Bu nə deməkdir, ey Allahın rəsulu?" Peyğəmbər deyir: "Bu, borca batmaqdır"[2].

Əbu Musa əl-Əş`əri *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

"Allahın qadağan etdiyi böyük günahlardan savayı, Onun dərgahında ən böyük günah – bir insanın borclu ikən ölüb, borcunu ödəyəcək var-dövlət miras buraxmamağıdır"[3].

Başqa bir hədisdə isə deyilir:

"Möminin nəfsi borcundan asılı vəziyyətdədir. Borc ödəndikdə nəfs də asılılıqdan xilas olar"[4].

Bütün bu hədislər borc haqqındadır. Və insanlar dəlisov istəklərin, nəfsi şıltaqlıqlarının arxasınca düşüb borca girirlər. Onu qaytarmağa gəlincə, həngamə bu zaman qopur: bəziləri ya qaytarmır, ya da bunu ağıllarından belə keçirmirlər.

---

[1] Hədisi Əhməd ibn Hənbəl rəvayət etmişdir.

[2] Hədisi Əhməd ibn Hənbəl rəvayət etmişdir.

[3] Hədisi Əbu Davud və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

[4] Hədisi Tirmizi, İbn Macə və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

Bildiyimiz kimi, iki növ yoxsulluq vardır:

a) səfalət və tənbəlliyin səbəb olduğu yoxsulluq;

b) ya Allah yolunda çalışmaq, ya az halalı çox haramdan üstün tutmaq, ya da qeyri-qanuni qazancdan, rüşvətdən, "ağa"ların hədiyyələrindən imtina etmək nəticəsində yaranan yoxsulluq.

Birinci növ yoxsulluq asilikdir, ikincisi isə tərifəlayiqdir. Böyük ümmətimizin fərdləri və kütlələri üçün əksər hallarda birinci növ yoxsulluq səciyyəvidir.

Müsəlmanların yoxsul yaşayıb borca batmalarının, verən əllərin alan əllərdən az olmağın səbəbini həyatın çətinliklərinə tab gətirməməkdə, xeyir açarlarından bixəbər qalmaqda, vaxtı avaralanmağa, boş-boş əyləncələrə sərf etməkdə axtarmaq lazımdır.

Biliyin çoxluğu, dünyagörüşünün genişliyi zənginliyə aparan yollardır. Dinə xidmət göstərməyin ən qısa yolu dünyaya bələd olmaqdan keçir!

İnsan xəstələndiyi zaman can sağlığının nə olduğunu anlayır, sağlamlığının qeydinə qalır, əvvəlki gümrahlığını geri qaytarmağa çalışır. Yaxud da insanın başına bir müsibət gəlir və o, başqalarına əl açıb ya borc istəyir, ya da dilənir. Bu zaman insan oğlu ehtiyacın, yoxsulluğun, əl açıb dilənməyin nə qədər ağır olduğunu hiss edir.

Xəstəlik və yoxsulluğun din halına gətirilməsinə gəlincə, bu, ancaq məcnunların işidir.

Nə çoxdur bizdə ağlını itirənlər! Bu ağıldankəmlər iddia edir ki, islam var-dövlətə "yox" deyir, yoxsulluğa qucaq açır, müsəlmanların mədəni və hərbi geriliyindən, maddi və

mənəvi üzüqaralığından xoşhallanır. Onlara görə, müsəlmanlar bir parça çörək üçün quyruq bulamalı, başqaları isə xan kimi yaşamalıdır! Allah acizlik və tənbəlliyə lənət etsin!

Bir dəfə küçə ilə gedərkən gördüm ki, fəhlələr uzun və dərin xəndəklər qazıyırlar. Onlar böyük məhəllədə drenaj şəbəkəsi qurmaq üçün iri və keyfiyyətli boru xətləri quraşdırırdılar. Öyrəndim ki, bu işlər üçün müavinəti İngiltərə hökuməti ayırıb.

Əsəblərimə sirayət etmiş sıxıntıdan qurtulmaq üçün əlimi qəzetlərin birinə uzatdım. Ana səhifədə iki başlıq gördüm. Birincisində yazılmışdı: "İtaliyadan Misirə 150 milyon dollar hədiyyə". İkinci xəbərdə isə oxudum: "İraq və Küveytdə işləyən 400 min fəhlənin ölkəyə qayıtmağından sonra Avropa ölkələri Misirə 10 milyon dollarlıq ərzaq yardımı göndərib".

Almaq və yenə də almaq! Sonu görünməyən silsiləvi almaqlar! Bizi çulğayan bayğınlıqdan ayılmaq üçün əllərimizi borc və müavinətlərə hələ çox açacağıq!

Biz təkcə islam missiyasından kənara sapmammışıq, həm də Adəmə aid olduğumuzu (insanlığımızı) unutmuşuq. O Adəmə ki, Allah ona bütün adları öyrətmişdi; yer üzünü zəkası və alın təri ilə abadlaşdırsın deyə onu səmadan yerə endirmişdi.

Dinə dair bildiklərimiz saxtadırsa, dünyaya baxışımız qatma-qarışıq və qeyri müəyyəndirsə, hansı bilikdən danışa bilərik?!

Elə isə düşüncə "səmt"imizi bir daha nəzərdən keçirməyin vaxtı çatmayıbmı?

*İkinci fəsil*

## ALİ VƏHYİN ƏHATƏLİLİYİ (GENİŞLİYİ)

Müsəlmanların ümumdünya missiyasını bəyan edib, digər insanlar arasındakı özünəməxsus məqamlarını müəyyənləşdirmək üçün Allah təala onlara xitabən buyurur:

"...O (Öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı – atanız İbrahimin dini (dinində olduğu) kimi. (Ey Məhəmməd ümməti!) Allah bundan (Quran nazil olmamışdan) əvvəl də, bunda (Quranda) da sizə müsəlman adını verdi ki, (qiyamət günü) Peyğəmbər (dinin təbliği, sizin ona iman gətirməyiniz, itaət etməyiniz barədə) sizə, siz də (əvvəlki peyğəmbərlərin Allahın hökmlərini öz ümmətlərinə çatdırdıqları halda) insanlara **şahid olasınız**..." (əl-Həcc, 78).

Digər bir ayədə isə Pak Allah buyurur:

"(Ey müsəlmanlar!) Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) **şahid olasınız**, Peyğəmbər də (Məhəmməd əleyhissalam da) sizə şahid olsun..." (əl-Bəqərə, 143).

Göründüyü kimi, müsəlmanlara nümunəvi (şahid) olmaq birinci ayədə axırda, digərinin isə əvvəlində əmr edilir. Əvvəldə də göstərilsə, axırda da göstərilsə fərqi yoxdur, nəzərdə tutulan budur ki, Allah təala ərəbləri tərbiyə etmək üçün

Həzrəti Məhəmmədi tarix səhnəsinə çıxardı, bütün insanları da tərbiyə etmək üçün ərəbləri yetişdirib hazırladı.

Şübhə yox ki, Məhəmməd peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Allahın ona tapşırdığı missiyanın öhdəsindən layiqincə gəlmişdi: mədəni dünyadan təcrid olunmuş ərəbləri tərbiyə edərək, onlardan bilikdə, əxlaqda, mədəniyyətdə tayı-bərabəri olmayan bir ümmət formalaşdırmışdı. Peyğəmbərin meydana gətirdiyi bu yeni ümmət şərqə və qərbə işıq saçmış, cahillik və köləlik qaranlıqlarında hey sürünən kütlələri yüksək mənəvi və maddi həyata qaytarmışdı.

Biz bunu əyani şəkildə onun peyğəmbərliyindən sonrakı əsrlərdə gördük. Bir heç idik, mühümlük kəsb etdik! Bizim Həzrəti Məhəmməddə gördüyümüz nümunəviliyi dünya bizdə görürmü? İnsanlara islamı ondan öyrəndiyimiz tərzdəmi çatdırırıq? Vəhyi (ilahi təlimləri – ***mütərcim***) dünyaya o, bizə necə öyrədibsə, eləmi öyrədirik?

İlk Nəsil müsəlmanları (***sələfi-əvvəl***) islamı insanlara bacardıqları qədər təbliğ etmiş, onlara təlim və tərbiyə vermişdilər. Sonrakılar isə özlərinə qapıldılar, başları özlərinə qarışdı; unutdular ki, insanlara nümunə olmaq, şahidlik etmək üçün vardırlar...

Başlanğıcda bu "yarıq" ensiz idi, amma günlər keçdikcə enlənib böyüdü...

Müsəlmanlar indiki dövrdə dünya əhalisinin beşdə birini təşkil edirlər. Buna baxmayaraq, qitələrdəki sakinlərin əksəriyyəti haqq din barədə ya heç nə bilmir, ya da bildikləri müsəlmanların axmaqlıqları barədə eşitdiklərindən ibarətdir...

Doğrudan da, müsəlmanlar, xüsusən də ərəblər bu qara cəhalətə görə Allah qarşısında cavabdehdirlər.

Bəlkə də, Avstraliya və Amerikadan olan insanlar Qiyamət günü Allahın qarşısında dayandıqları zaman Allah onlardan: "Nə üçün məni doğru-düzgün tanımadınız, bu günə hazırlaşmaq üçün xeyir əməllər işləmədiniz?" – deyə soruşduqda belə cavab verəcəklər: "Sənin dininə varis çıxan ərəblər onun nurunu qısıb çırağını söndürdülər; həm bizi, həm də özlərini zülmətdə buraxdılar!"

Dəvətdəki qüsurlardan, təbliğ maşınımızın nasazlığından keçirəm daha təhlükəli, daha üzücü bir məsələyə... Doğrudan da, qara bir yalan İslam mədəniyyətinin daxilinə sızaraq, mahiyyəti və təzahürünü ləkələmişdir... "Qəraniq" uydurması! O uydurma ki, Təbəri onun izahına səhifələr ayırmış, Məhəmməd ibn İshaq onun barəsində gen-bol danışmış, Süyuti də bu haqda rəvayət edilmiş hədisi "mənsux" saymışdır! Sonralar Məhəmməd ibn Əbdülvəhhab Peyğəmbərin həyatına dair yazdığı kitabda bu uydurmanı mötəbər hadisə kimi qəbul etmişdir[1].

Bu uydurma hadisə dinə aidliyi olmayan ideoloji-siyasi anlaşılmazlıqlardan biridir. Gözəlliyi bilinsin deyə üz-göz toz-torpaqdan necə təmizlənirsə, biz də dinimizi bu cür miflərdən, yalanlardan təmizləmək istəyirik.

Allaha şükür olsun ki, Qurani-Kərim təhrif və dəyişikliklərdən qorunub, nə qarşıdan, nə də arxadan batil ona si-

---

[1] Bax: Məhəmməd ibn Əbdülvəhhabın bütün çalışmaları. İmam Məhəmməd ibn Səud adına İslam Universitetinin nəşrləri.

rayət etməyib. Pak Sünnəyə hafizlər və fəqihlər yaxşı bələddirlər; Sünnə bütövlükdə doğru-düzgün mirasdır. Elə bir miras ki, tarix saflıqda onun bənzərinə rast gəlməyib.

İnsanlara islamı təqdim etdiyimiz zaman onun etiqad prinsipləri və əsas qayda-qanunlarını yaymaqda bizə iki mühüm məsələ kömək olur:

**Birincisi** insanlar yaranandan bəri Allah təalanın onlardan aldığı fitrət əhdidir. Biz bu fitrətin sahibləriyik; onun doğruluğuna güvənirik, yoldan azmışları ona qaytarırıq. Fitrət fitrətdir, dəyişməz:

"...Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur..." (ər-Rum, 30).

Ağıla ehtiram göstəririk, məntiqi yanaşmalarına "hə" deyirik. Bu həyatda düşmənimiz – kortəbii təqlid və təəssübkeşlikdir.

Kütləşməyən silahımız budur: "De: "Dəlilinizi gətirin"[1]. Hər bir dəlil-sübut mərəkəsindən islam qalib çıxmalıdır. Belə olarsa, həmin mübahisələr zamanı heç bir narahatlıq keçirmərik.

**İkincisi,** həm də ətraf aləmə diqqət yetirməyimizdir:

"Məgər onlar göylərin və yerin mülkünə (Allahın göylərdəki və yerdəki səltənətinə, qüdrətinə), Allahın yaratmış olduğu hər şeyə, əcəllərinin yaxınlaşması ehtimalına diqqət yetirib düşünmürlərmi? ..." (əl-Əraf, 185).

[1] "əl-Ənbiya" surəsi, 24-cü ayə.

Kainat və təbiətlə bağlı biliklərdə Allaha dəlalət edən minlərlə əlamət (nişanə) vardır.

Hər bir elmi tərəqqi, harada baş verməyindən asılı olmayaraq, missiyamız üçün faydalıdır. Allah təala buyurur:

“Onun (Quranın) haqq olduğu onlara (insanlara) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəcəyik. (Ya Peyğəmbər!) Məgər rəbbinin hər şeyə şahid olması (sənin dediklərinin doğruluğuna) kifayət deyilmi?!” (Fussilət, 53).

# İslamda yenilənmə* olmalıdır: amma necə?

---

* Dində yenilənmə mövzusu ilk baxışdan müəyyən suallar doğurduğu üçün böyük alim Şeyx Yusif əl-Qərdavinin məsələ ilə əlaqədar dediklərini aşağıda dərc edirik:

“Bəzi insanlar Əbu Hüreyrəyə istinadən Əbu Davud və Hakimin rəvayət etdikləri, bir çoxlarının da səhih saydığı “Allah hər yüz ilin əvvəlində bu ümmətə dinini yeniləyən kəs göndərər”[1] – hədisini oxuduqdan sonra elə başa düşmüşlər ki, yeniləmə (***təcdid***) – təkmilləşib dövrə uyğunlaşsın deyə dinin dəyişdirilməsidir. Bu səbəbdən demişlər ki, din sabitdir, nə yenilənər, nə də dəyişilər. Din inkişafla deyil, inkişaf dinlə uyğunlaşmalıdır.

Əgər dini yeniləmə onun prinsip və təlimlərinin təkmilləşdirilməsi, insanların tələbatlarına uyğunlaşdırılması, inkişafla ayaqlaşdırılması deməkdirsə – təbii ki, bu belə deyil; bu, həqiqəti tərsinə başa düşməkdir, – bunu deyən hədis rədd edilməlidir.

Bu iddia ilə çıxış edən şəxsin “yeniləmə” ilə nəzərdə tutduğu şey yuxarıda deyilən kimidirsə, onda o, düz söyləyir. Ancaq...

Ancaq tədqiqatlarımın birində göstərdiyim kimi, yeniləmə (***təcdid***) dedikdə dini başa düşmədə, ona iman və riayətdə yenilənmə nəzərdə tutulur. Çünki bir şeyi yeniləmək həmin şeyi meydana çıxdığı vəziyyətinə qaytarmaqdır. Bu zaman o, qədimliyinə rəğmən, yeni kimi görünür. Bu isə mümkün qədər əvvəlki vəziyyətini alanadək həmin şeyin zəifləmiş tərəflərinin gücləndirilməsi, dağılmış yerlərinin bərpası, çatlaqlarının birləşdirilməsi ilə baş verir.

Bir şeyi yeniləmək onun əvvəlki vəziyyətini dəyişdirmək, ya da onu lazımsız yeni şeylərlə əvəz etmək mənasına gəlmir. Bu, yeniləmə deyildir.

Bu məsələni əyani şəkildə izah edək. Məsələn, tarixi bir tikilini restavrasiya (yenidən qurmaq, yeniləmək) etmək istəyirik. Bu tikilinin restavrasiyası onun özünü, tarixi xüsusiyyətlərini, görünüşünü olduğu kimi

Son əsrlərdə müsəlmanların vəziyyəti: elmi geriliyi, mədəni-siyasi passivliyi ürəyimizi ağrıdır. Bu passivliyin nəticəsidir ki, bəzi avropalılar "Min bir gecə" nağıllarının islam şəriətinə təsiri haqda dissertasiya yazmışlar.

İslamın həqiqətlərinə kölgə salmaq üçün böyük işlər görülür. Bu işdə həm Şərqin, həm də Qərbin iblisləri canla-başla iştirak edirlər. Məqsədləri haqq dini insanların həyatından uzaqlaşdırmaqdır. Bəs biz dirçəlmək üçün nə edirik? Qədər (tale) bizi Quranın varisləri qılmış, bizə onu həm öyrənib, həm də öyrətməyi tapşırmışdır. Belə bir məsuliyyətli vəzifənin yükünü əcdadlarımız kimi çəkə bilirikmi?

---

saxlamaq şərti ilə ətraf mühitin dağıdıcı təsirinə məruz qalmış yerlərini bərpa etmək, girişlərini və ona bitişik digər tikililəri gözəlləşdirmək, ona gedən yolları abadlaşdırmaq... deməkdir. Köhnə tikilinin bərpası – yenilənməsi onu bütövlükdə yıxıb yerində təzəsi və böyüyünü tikmək deyildir.

Din də belədir. Dini yeniləmək dedikdə yeni din formasını ortaya çıxarmaq başa düşülməməlidir. Dinin yenilənməsi onu Peyğəmbərin, səhabələrinin, onlara layiqli şəkildə tabe olanların dövründəki vəziyyətinə qaytarmaqdır[1].

Dini yeniləmə ictihadı bərpa etməkdir, dinin əsil mənbələrinə müraciətdir, donuqluq və kor təqliddən xilas olmaqdır, müsbət tərəflərindən faydalanıb boşluqlarını da doldurmaq üçün mədəni irsimizə tənqidi yanaşmaqdır, – bu, zehniyyətin yenilənməsidir. Bununla yanaşı, dövrün tələb və şərtlərinə uyğun olaraq imanın, dini dəyər və əsaslara bağlılığın, dinə dəvətin yenilənməsi də vardır. Təbərani və Hakim rəvayət edirlər ki, Peyğəmbər də bir hədisində deyib: "Paltar kimi, içinizdəki iman da köhnəlir. Elə isə Allahdan diləyin ki, qəlblərinizdəki imanı yeniləsin" Bax: Yusif əl-Qərdavi. Sünnəyə münasibətimiz necə olmalıdır? Bakı, 2011, səh. 55-57 – ***tərcüməçinin qeydi***.

Bu suala ətraflı cavab verməzdən qabaq bəzi ciddi məsələlərdən söz açmaq istəyirəm.

1. İslam dünyası şərəf-izzət tapdığı vəhyə (Qurana, islama...) layiqli münasibəti bəsləməmiş, onun əsasında qurulub bina edilməkdə qüsurlara yol vermişdir.

2. Vəhy diyarından uzaqda qalan, islamın təlimlərinin çatdırılmadığı dünya əliboş durmamış, pis-yaxşı öz yolunu müəyyənləşdirmişdir.

3. Bizans imperiyasının süqut edib, müsəlmanların Konstantinopolu fəth etməsindən sonra avropalılar Amerikanı kəşf etdilər, Əndəlüsü ələ keçirdilər. İntibah dövrü başlandı, dünya yaranandan bəri misli görünməmiş elmi tərəqqi baş verdi. İnsan haqları və xalqların suverenliyi problemlərinin gündəmə gətirildiyi sosial-siyasi sistemlər formalaşdı.

4. Dünya səviyyəsində bu cür elmi, mədəni və siyasi dəyişikliklərin baş verdiyi bir vaxtda islam varlığı getdikcə cılızlaşmış, hicri XIV əsrdə* o boyda nəhəng sivilizasiyanın yerində yararsız xarabazarlıq qalmışdır!

Bu səbəbdən mən İmam Həsən əl-Bənnanın** İslam dünyasını bərpa edib fəhm və əməli fəaliyyətdə islahatlar aparmaq üçün qoyduğu İyirmi Təlimə on təlim də əlavə etməyə

---

* Miladi təqvimlə XX əsr – ***tərcüməçinin qeydi.***

** **Həsən əl-Bənna (1906-1949)**: Misirdə "Müsəlman Qardaşlar" təşkilatının təsisçisi. Bəlağətli natiq, bacarıqlı dəvətçi olmuşdur. İctimai-mədəni və maarifləndirmə fəaliyyətinə görə sui-qəsd nəticəsində şəhid edilmişdir. Ölümündən sonra "Dəvət və dəvətçinin memorandumu" adlı kitabı işıq üzü görmüşdür. "Risalələr" adlı kitabı da vardır – ***tərcüməçinin qeydi.***

məcbur oldum. Reallıq budur ki, qurub-yaratmaq savaşında elm cihadı vacibdir. Əgər bu savaşdan qalib çıxmasaq, cəzamız ağır olacaqdır...

İslamın yenilənməsi – bir meydanda deyil, meydanlarda aparılacaq fəaliyyətdir; bir düşmənin deyil, çoxsaylı yağıların qarşısında tab gətirməkdir. Bəlkə də, ən təhlükəli düşmən öz daxilimizdədir!

Bizdə islah prosesinə istiqamət vermək üçün təklif etdiyim həmin On Prinsipdən söz açmaq pis olmazdı.

1. Qadın kişidən ayrı deyildir, əksinə, onu tamamlayandır. Elm öyrənib savad almaq hər iki cinsə vacibdir. Habelə, "yaxşılığa çağırıb pis əməllərdən çəkindirmə" (***əmr bil-məruf nəyh ənil-münkər***) vəzifəsini də buraya aid etmək olar. Qadınların da cəmiyyətin qurulub mühafizə edilməsində iştirak hüququ vardır. Təbii ki, islam ədəb-ərkanı və əxlaqı çərçivəsində!

2. Ailə ümmətin əxlaqi-ictimai varlığının əsasıdır, gənc nəsillərin təbii tərbiyə evidir. Ailədə sağlam abı-havanın yaradılmasında həm ataların, həm də anaların boynuna ortaq vəzifələr düşür. Kişi ailənin idarəedicisidir, başçısıdır, ailə qarşısında, Allahın müəyyənləşdirdiyi məsuliyyətə sahibdir.

3. Hər bir insanın maddi və mədəni hüquqları vardır. Bu hüquqlar Allahın insan oğluna verdiyi şərəf-izzətə, yer üzündəki yüksək məqamına uyğundur. İslam bu hüquqlar haqda danışmış, onlara ehtiramın vacibliyini bildirmişdir.

4. Liderlər (prezidentlər, krallar...) xalqa xidmət edən muzdlular kimidirlər; xalqın dünyəvi və dini maraqlarını təmin etməlidirlər. Xalqın razılığını qazanıb, sözügedən ma-

raqları gözləyənlər – məhz onlar rəhbərliyə layiqdirlər. Xalqa zor gücünə liderlik etmək, müstəbidlik göstərmək heç kəsin haqqı deyildir.

5. Şura (məşvərət, məsləhətləşmə) hakimiyyətin əsasıdır. Hər bir millət şura sistemini tətbiqdə özünə münasib vasitələr müəyyənləşdirmək haqqına sahibdir. Həmin vasitələrin müəyyən edilməsində Allahın razılığını əsas götürmək, riyakarlıq, saxtakarlıq və dünya sevgisindən uzaq durmaq lazımdır.

6. Özəl mülkiyyət islamın müəyyənləşdirdiyi şərtlər və hüquqlarla qorunur. Ümmət vahid sistemdir: nə bir fərdə etinasızlıq göstərilməli, nə də bir qrup özünü yekəxana aparmalıdır. Qardaşlıq – camaatı (kollektivi) fərd-fərd tənzimləyən qanundur. Camaatın maddi və mənəvi problemləri bu qanun çərçivəsində tənzimlənməlidir.

7. Müsəlman dövlətləri islama dəvət işinin aparılmasında, barəsində yaranmış iftiraların dəf edilməsində, dünyanın harasında olursa-olsun dəvətçilərə edilən təzyiq və əngəllərin aradan qaldırılmasında cavabdehlik daşıyırlar. Bu dövlətlər xilafətin layiqli formada bərpası üçün ciddi səy göstərməlidirlər.

8. Müxtəlif dinlərə mənsubluq çəkişmə və ədavətə səbəb olmamalıdır. İnsanlar hərbi təcavüzə və zülmə məruz qaldıqları zaman müharibələr baş verir.

9. Müsəlmanların digər dünya ölkələri ilə (beynəlxalq ictimaiyyətlə) münasibətləri bəşəri qardaşlıq prinsipi ilə tənzimlənməlidir. Onlar insanları islama dəlil-sübutla, qənaət-

bəxş metodlarla çağırmalıdırlar; Allahın bəndələrinə yamanlıq etməyi ürəklərindən belə keçirməməlidirlər.

10. Müsəlmanlar bəşəriyyətin maddi və mənəvi tərəqqisini təmin edən hər bir məsələdə qeyri-müsəlman millətlərlə əməkdaşlıq etməlidirlər. Əslində, bunu həm Məhəmməd peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* digər peyğəmbərlərdən miras qalmış dəyərlər, həm də müsəlman fitrəti zəruri edir[1].

XX əsrin mücəddidi[*], şəhid Həsən əl-Bənnanın "İyirmi Təlim"inə əlavə etmək istədiyim On Prinsip bunlardır. İstəyən qəbul edər, istəyən də etməz.

Son istəyim budur: "Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!"[2]

---

[1] Bax: Məhəmməd əl-Qəzali. Mədəni birlik konstitusiyası, səh. 220-221.

[*] Yenilikçi, novator.

[2] "əl-Bəqərə" surəsi, 286-cı ayə.

## Başqalarını tanımadıq, əğyardan bixəbər qaldıq!

Uzun müddət ağrısını çəkdiyimiz tarixi səhvlərdən biri də başqalarını tanıyıb öyrənməməyimizdir, barələrində məlumat sahibi olmamağımızdır. Bəli, onları: mədəniyyətlərini, tarixlərini, mövcud vəziyyətlərini araşdırmadıq, fil qulağında yatdıq! Unutduq ki, bu özgələr qəzəbli yağı, səksəkəli düşmən ola bilərlər...

Mədəni "bina"mızı darmadağın etmiş hücumların əksəriyyəti qəfildən baş verən zəlzələni xatırladır: nə vaxtı bilinər, nə də hazırlığı görülər!

Paytaxtlarımız süqut etdi, islam coğrafiyasından neçə-neçə dövlətimiz silinib tarix oldu. Müsəlmanlar isə, şairin də dediyi kimi, ilk gecə qəflətindədirlər:

*Ey axşam çağı sevincək yatağa girmiş gecələri yatan,*
*Ayıl və bil ki, hadisələr sübhün qapısını çoxdan döyüb!*

Əndəlüs itirildi. Bu gün isə Asiyada, Afrika və Avropada itiririk...

Özümüzdən qeyrilərini əsla araşdırıb öyrənmədik! Onlar isə bir an belə olsun yatmadılar: qəzəb və hikkə "qazan"larının altı əsla sönmədi; bizə hücum etmək, dinimizin dayaqlarını laxlatmaq üçün hey düşündülər, baş sındırdılar!

Bu ayə üzərində heç düşündükmü:

“(Ey möminlər!) Onlar əgər bacarsalar, sizi dininizdən döndərincəyə qədər sizinlə vuruşmaqda davam edəcəklər” (əl-Bəqərə, 217).

Bəlkə də, bu ilahi xəbərdarlığı unutmuşuq. Ancaq böyük tarixi hadisələri yaddaşlardan silmək mümkündürmü? O hadisələri ki, bir-birini hey əvəz etmiş, bizə özü ilə ağrı-acılar gətirmişdir. Bugün də həmin hadisələr təkrarlanır və xəbərdarlıq edir ki, vəziyyətimiz ürəkaçan deyildir.

Biz davamlı inkişaf edən dünyanın bir parçasıyıq. İndiki dövrdə dünyanın tərəqqi addımları iri sıçrayışlarla əvəzlənib. Düşmənlərimiz islama olan dərin nifrətlərini, onun axırına çıxmaq istədiklərini açıqca bəyan edirlər.

Nə vaxtadək ətrafımızda olanlardan bixəbər qalacağıq? Biz belə bir xətaya görə peşman olmalı, onu təkrarlamaqdan ehtiyat etməliyik.

Düşünürəm ki, iki istiqamətdə fəaliyyət göstərən mexanizm yaradılmalıdır. Belə bir mexanizm imkan verəcəkdir ki, başqaları kimi biz də bacarıqlı və ayıq olaq.

**Birinci fəaliyyət** istiqaməti aşağıdakıları ehtiva edir:

a) Kiminlə danışdığımızı və nə söyləyəcəyimizi bilmək üçün bizdən qeyrilərinin mədəni dünyagörüşünü, mədəni səviyyələrini araşdırmaq;

b) Dünyaya hakim olanların mədəni, iqtisadi və istehsal səviyyəsinə yüksəlmək. Geridə qalmış bir xalqın islamı təmsil etməsi gülməli alınır: başqaları ona çəp-çəp baxırlar. O isə sahib olduğu haqqa maddi və elmi “özül”lərlə dayaq verə bilmir;

c) Siyasi cərəyanları (təmayülləri, nəzəriyyələri...) və qeyri-müsəlmanların sahib olduqları hərbi potensialı araşdırmaq; digər din və məzhəblərin hegemonluğuna hansı "şərait"i yaratdığımızı müəyyənləşdirməli, problemin ciddiliyini məsul şəxslərin diqqətinə çatdırmalıyıq.

**İkinci fəaliyyət**ə gəlincə, daxili səciyyə daşıyır (və ya: islam ölkələrini əhatə edir) və aşağıdakılara əsaslanır:

a) Ümməti Allahın kitabı və Peyğəmbərin sünnəsindən uzaqlaşdırmış, haqq dininin simasını eybəcərləşdirmiş, müsəlmanları islama xidmətdən məhrum etmiş mədəni özgələşmə və fikri "naxoşluq"la mübarizə;

b) Vəhyin – həyat, kainatı öyrənməyin – imanın ən mühüm mənbəyi, təbiətdən düzgün istifadənin də ciddi iqtisadi və hərbi silah olmağı qənaətini əsas götürməklə müsəlman ümmətinin yenidən formalaşdırılması;

c) Qurani-Kərim dörd yerdə Məhəmməd peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* risalətinin (missiyasının, təbliğ etdiyi təlimin – ***mütərcim***) başlıca cizgilərindən söz açıb. Bunlar aşağıdakılardır:

1. Allahın ayələrini fəaliyyət metodu seçərək oxumaq (mənimsəmək);
2. Ümməti möhkəm əxlaq, açıq-aydın vərdişlər əsasında tərbiyə etmək – "təzkiyə" (demək olar ki, təzkiyə haqda dırnaq ucu qədər də olsa bir şey bilmirik);
3. Kitabı (Qurani-Kərimi) öyrənmək;
4. Hikmət (müdriklik).

Təəssüf olsun ki, biz işlərimizin çoxunda müdrik deyilik, Quranın məzmunu və məqsədlərindən də çox uzaq düşmüşük.

İslama mənsubluğumuz real və konkret olsun deyə sözügedən cizgiləri maddi və mənəvi cəhətdən aşkara çıxartmalıyıq.

ç) Bizə gəlib çatmış islam irsini "xəlbir"dən keçirməli, Quran və Sünnəyə uyğun "iri dənə"ləri saxlamalı, qalan "xırda-xuruş"u isə atmalıyıq. Biz ki məsum (müqəddəs, toxunulmaz) vəhyə sahibik. Və keçmişimizdə dühalar, böyük imamlar (alimlər) yaşayıblar. Ola bilsin ki, onlar dinin ikinci dərəcəli məsələlərində (***füruat***) bir-birindən fərqli düşünmüşlər. Amma bu dahilərin dinin ana prinsiplərinə və məqsədlərinə münasibəti haqda eyni şeyi söyləyə bilmərik: onlar bu məsələlərdə nadirən ixtilafa düşmüşlər.

Saf niyyət və geniş dünyagörüşü sayəsində islam dünyasının dağılmış "parça"larını bir yerə toplamaq mümkündür. Odur ki, təklif etdiyim qurum yalnız Allahın nuru ilə kifayətlənib digər "işıq"lara gözünü yummaqla fəaliyyət göstərməli, mövcud islam qurumları ilə (Tədqiqatlar Akademiyası (Misir), İslam Dünyası Assosiasiyası (Səudiyyə Ərəbistanı)...) əməkdaşlıq etməlidir.

Bu qurum bütün dünyanı və islam coğrafiyasını öyrənən "rəsədxana" rolunu oynamalıdır. Onun əsas işi sonuncu risalətin keşiyini çəkmək, ondakı "nasazlıq"ları düzəltmək, əleyhinə qazılmış "quyu"ları doldurmaq və nəhayət, vəzifələrini yerinə yetirmələri üçün digər islam qurumlarını bu şeylərdən agah etməkdən ibarətdir.

Şeytan ta qədimdən çalışır ki, insanların diqqətini haqdan yayındırsın. Onun "ağır zəhmət"i nəticəsində insanlar ya haqdan üz döndərirlər, – bu, açıq-aşkar və ya gizli asiliklə baş verir – ya da həmin haqqı təhrif edir, "künc"ləri və "orta" sını istədikləri kimi yonub-düzəldirlər.

Bəzən bidət asilikdən daha pis, daha çirkin formada təzahür edir!

Adəmdən, Nuh və digər peyğəmbərlərdən etibarən din həm asiliklərin, həm də bidətlərin şahidi olmuşdur. Ərəbistan yarımadasının şimalında (Yuxarı İraqda) Nuh peyğəmbərin mübarizə apardığı bütpərəstlik sonralar yenidən yarımadaya geri qayıtmışdır. Ərəblərin arasında özlərini "Əbdüvədd", "Əbdüyəğus"*... adlandıranlar olmuşdur.

İbrahim peyğəmbər *(Ona salam olsun!)* tövhidi qorumaq, rüku və səcdə edənləri toplamaq üçün Kəbəni inşa etmişdi. Amma ərəblər, çox keçmədi ki, oranı bütxanaya çevirdilər.

Musa peyğəmbər *(Ona salam olsun!)* öz xalqını fironların zülmündən qurtarmışdı. Lakin vaxt gələcək bu xalqın özü fironlaşacaqdı. Və onların dinində tövhid Allahın insana bənzədilməsi və digər xurafatların fonunda həqiqi mahiyyətini itirəcəkdi. Hələ xristianlığı demirəm: burada tövhid üç üqnüm** və yevxaristiya*** inancı ilə əvəzləndi. Bununla da,

---

* Vədd və Yəğus Nuh peyğəmbərin dövründə insanların sitayiş etdikləri bütlərdir – ***tərcüməçinin qeydi.***

** **Üç üqnüm**: xristian inancına görə Ata, Oğul və Müqəddəs Ruh nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

İbrahimə, Musa və İsaya *(Onlara salam olsun!)* nazil olmuş vəhydən əsər-əlamət qalmadı...

Sözügedən peyğəmbərlərə aid olduğu iddia edilən kitablarda çoxlu səhvlər və bərk yanılmalar vardır.

Məhəmməd peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* risaləti isə bu məhvedici müsibətdən qurtulub. Düzdür, bu dinin ana əsasları qorunub, saf qalıb. Amma şeytan buraya da burnunu soxmağa cəhd göstərib. Odur ki, biz bəzi qısır düşüncəlilərin qəribə fikirlərinə, nəfsinə qurban getmişlərin də əcaib davranışlarına rast gəlirik.

İslamın qılınc gücünə yayıldığını, insanların zor gücünə müsəlmanlaşdığını iddia edib, mövqelərini əsaslandırmaq üçün dəridən-qabıqdan çıxanlar azdırmı?

Bu məqsədlə, başda "Dində heç bir məcburiyyət yoxdur!" ayəsi[1] olmaqla yüz iyirmidən artıq ayəni "mənsux" (qüvvədən düşmüş) sayırlar.

Bəziləri də hakimiyyətin şuraya əsaslanması qaydasına qəzəblə qarşı çıxaraq iddia edir ki, şura "nafilə" (***sünnə*** – vacib sayılmayan) kateqoriyalı vasitədir, başçılar, liderlər, əgər istəsələr, ondan istifadə edə bilərlər. Bu insanlar bizə elə baxırlar ki, sanki biz Qərb dövlət idarəçiliyi sisteminə valeh qalmışıq və onu İslam coğrafiyasına "idxal" etmək istəyirik...

---

[***] **Yevxaristiya**: iddiaya görə, bu ayinin icrası zamanı xristianlar şərab və çörəklə İsa peyğəmbərin bədənindən və qanından dadırlar – ***tərcüməçinin qeydi.***

[1] "əl-Bəqərə" surəsi, 256-cı ayə.

Əlavə izaha ehtiyac yoxdur, onlar müstəbid fironların xidmətçiləridirlər və ya onlara qapı açanlardır...

Bizə Sünnə düşməni gözü ilə baxanlar da tapılır. Nədir-nədir demişik ki: "Astronomik hesablamalarla ayın nə vaxt doğduğunu, nə vaxt da batdığını ən dəqiq şəkildə müəyyən etmək mümkündür". Hətta bu insanlardan biri Ayın səthinə enmiş astronavtlar xəbərini uydurma yəhudi qissəsi (***israiliyyat***) hesab edir.

İman böhranının yaşandığı, elmlə dinin bir-birindən ayrıldığı, cəfakeş alimlərin insanlara Allahı tanıtmaq üçün can yandırdığı bir dövrdə sönük düşünən birisi gəlib deyir: "Bu alimlərə başa sal ki, Allah Adəmi həm öz surətində, həm də 60 qulac* hündürlüyündə yaradıb!"

Bir də görürsən bunu da əlavə edir: "Onlara de ki, onun (Allahın) baldırı və ayağı var!"

İslam məntiqinə görə, əqidə məsələləri ancaq mənası və səhihliyi qəti olan (***qət`iyyəti-dəlalət vəs-sübut***) dini mətnlərlə (***nəss***) təsbitini tapır[1]. Bu "ahad" rəvayətləri kim istəyir qəbul etsin, kim istəyir etməsin, kim də istəyir yozsun, amma bu dövrdə onları qurdalayıb ortaya çıxarmağın, insanların düşüncəsini onlarla məşğul etməyin nə mənası vardır? Bəlkə də, bu, insanları fitnə-fəsada salmaqdan savayı heç bir işə yaramır.

---

* Təxminən 40 metr. 1 qulac 0.64 metrə bərabərdir – ***tərcüməçinin qeydi.***

[1] Biz burada müsəlman alimlərinin mövqeyindən çıxış edirik, anormal şəxslərin deyil!

Bu səbəbdən biz müasir islam mədəniyyətini bir daha nəzərdən keçirmək, onu əvvəlki əsasları üzərinə qaldırmaq istəyirik.

Quranımız bütövlükdə və təfərrüatı ilə qorunmuşdur. Sünnə də bütövlükdə doğru-düzgündür; mötəbər fəqih və alimlər onu hədsiz diqqətlə öyrənmiş, uydurma rəvayətlərdən təmizləmiş, Quranla səsləşib həndəvərindən kənara çıxmayacaq vəziyyətə gətirmişlər...

Şübhə yoxdur ki, "mütəvatir" hədislər Quran qədər qanunverici qüvvəyə sahibdir.

*Üçüncü fəsil*

# ALI HƏQİQƏTLƏRİ GİZLƏYƏN "QABIQ"LAR

Dəniz dalğaları ilə müqayisədə bir damcı nədirsə dünya əhalisi ilə müqayisədə mən də oyam. Və mənim bu cür müqayisədən xoşum gəlir. Öz-özümə soruşuram: "Mən nəyəm?" Göylər və yerin sahibinin yedirdiyi beş milyard insandan biri! Şəhərləri, kəndləri dolaşan bir kəs! Necə də cılız görünürəm!

Əsil problem bu bədəni yaşadan, asan və ya çətin yollarla qazanılan ruzi problemi deyildir. Ətrafla təmas yaratmaq üçün hər birimizin iki gözü və iki qulağı vardır. Görmə mürəkkəb prosesdir: şeylərin təsvirlərini beyinə ötürür və biz nəyin nə olduğunu ayırd etdikdən sonra "iş"ə başlayırıq.

Gicgahımızın aşağı yan tərifindəki qulaqların funksiyası, bəlkə də, daha mürəkkəb, daha çətindir.

Haqqı aşkara çıxartmağım üçün bu ayədəki beş suala cavab verməliyəm:

"(Ya rəsulum!) De: "Sizə göydən və yerdən kim ruzi verir? Qulaqlara və gözlərə sahib olan (onları yaradan) kimdir? Ölüdən diri, diridən ölü çıxardan kimdir? Hər işi düzüb qoşan (sahmana salan) kimdir? ..." (Yunis, 31).

Doğrudan da, iyirmi milyard qulaq və göz eyni vaxtda öz funksiyasını hədsiz dəqiqliklə yerinə yetirir.

Ölən və yaranan hüceyrələrin sayı yuxarıdakı rəqəmdən dəfələrlə çoxdur. Hər bir canlı orqanizmdə toxumalar Allahın yazdığı vaxta qədər təzələnir. Elə ki həmin orqanizm öldü, dünyada özündən sonra bir boşluq qoyub gedir. Əslində, bu boşluq həmin orqanizmin doğulmasından qabaq mövcud olmuş boşluğun özüdür!...

Bir-biri ilə əlaqəli bu planetləri kim idarə edir? Kim onların hərəkətlərini tənzimləyir? Mən dünya əhalisi ilə özümü müqayisə etdikdə milçəkdən də cılız görünürəm. Bəs həm indiyədək gəlib-getmişlərlə, həm də bundan sonra gəlib-gedəcəklərlə özümü müqayisə etsəm, necə olar? Görəsən, nəyi xatırladaram?

Bu düşüncələrlə hey kiçilirəm, məğrurluğu bir kənara buraxıram və görürəm ki, özlərinə qapılanlar ya böyük xəyallarla ömür sürür, ya da zülmət qaranlıqlar içərisində yaşayırlar.

Sonra məni başqa bir fikir çulğayır: özündəki hər bir şeyi cılız göstərən bu kainatın böyüklüyü haqda "xəbər"i eşitdiyimdə bütün insanların ümumi çəkisinin necə də az olduğunu görürəm. Həmin "xəbər" budur:

"Doğrudan da, göylərin və yerin yaradılışı insanların yaradılışından daha böyük şeydir. Lakin insanların çoxu (bunu) bilməz!" (Ğafir, 57).

Yer Günəşlə müqayisədə uçan toz dənəsi kimidir. Günəşi də digər qalaktikalarla müqayisə etsək, gözlə sezilməyəcək dərəcədə kiçik nöqtəni xatırladar. Günəşlər, qalaktikalar Allahın böyüklüyü qarşısında səhradakı qum dənəsi kimidirlər.

Dəyərli sayılan hər şey bu geniş dünyada fanidir, məhvə məhkumdur. Allaha səcdə edən, Onun əzəməti qarşısında diz çökən, “Allah necə də Pakdır, həmd Onadır! Əzəmətli Allah necə də Pakdır!” – söyləyən zehinlər isə istisnadır.

Varlığın zərrələri ilə yarışda ləhləyən dillər bu səbəbdən Allaha layiqli şəkildə həmd-səna etmir, mənzilbaşına yetişə bilmirlər.

Təsdiqləyirəm ki, Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* peyğəmbərlik elminin son varisidir. O Allahın kitabında bu elmi bizə ən saf həqiqət şəklində təqdim etmişdir.

O, ən layiqli şəkildə Allahı həm təqdis edən, həm Şəninə tariflər söyləyən, həm də Təkliyini təsdiqləyən ilk insandır.

Onun yer üzündə qurduğu mədəniyyət xalis rəbbani dayaqlara əsaslanır, “Allahu Əkbər!” şüarını daşıyır.

Bu mədəniyyətin həmişəyaşar və ülvi cihadı – Vahid Həqiqəti qorumaq, onu hədəf almış hücumları dəf etməkdir.

Fikir verirəm ki, insanları Allahdan bixəbər buraxmaq məqsədilə böyük sui-qəsd hazırlanıb. Bununla da, həm onları Allahdan uzaqlaşdırmaq istəyirlər, həm də Allahın hökmləri deyilən şeyi xəyalpərəstlərin iddiası olaraq təqdim edirlər.

Bu sözlərə fikir verin: “Təbiət ana bətnini elə bir “yastıq”la təmin edib ki, embrion onun üstündə rahatca çevrilir, digər orqanlara zərər toxundurmur, ananın hərəkətliliyi onun formasına təsir göstərmir!”

Soruşuram: "Belə bir çətin vəzifəni yerinə yetirən təbiət nə olan şeydir? Erkəkdir, ya dişi? Cindirmi, şeytandırmı, nədir o?"

Bu təbiət öz funksiyasını beş qitədə necə yerinə yetirmişdir?

Aydındır ki, təbiətin yaradıcı olduğunu iddia edənlər Ali Qüdrətin gördüklərinin üstünə qəsdən yalançı örtük çəkir, Allahın adını torpaqlamaq istəyirlər! Elə isə bu, insanın biliklənməsidir, yoxsa cahilləşməsi?!

Empirik (təbiət) elmlərinin meydana gəldiyi mühit dinə ehtiramdan uzaq idi. Çünki həmin din (xristianlıq nəzərdə tutulur – ***mütərcim***) ağıla heç əhəmiyyət verməmişdi. Amma həqiqət bu cür qəribə labirintlərdə itməməlidir.

Dünyanın yaranması ilə bağlı aşağıdakı izaha nəzər yetirin:

"Əlli milyon il bundan qabaq kainatda böyük bir partlayış baş verir. Partlayış nəticəsində kainata qaz və atom buludları yayılır və bu buludlar orada-burada dövrə vurur. Müəyyən vaxt keçdikdən sonra bu buludlar bir yerə toplaşır və indi gördüyümüz ulduzlar, günəşlər, planetlər, qalaktikalar... yaranır!"

Həmin partlayışın nəticəsində oraya-buraya səpələnmiş "qalıq"lardan böyük dəqiqliklə dairəvi hərəkət edən planetlər meydana gəlib(!)

Halbuki Quranda deyilir:

"Nə günəş aya çatar (yetişər), nə də gecə gündüzü ötə bilər. (Günəş, ay və ulduzların) hər biri (özünə məxsus) bir göydə (öz hədəqəsində, öz dairəsində) üzər" (Yasin, 40).

Və bu partlayış, deməli, kor təsadüf Yer kürəsini yaradıb(!) O Yer kürəsi ki, Musa peyğəmbər *(Ona salam olsun!)* onu Fi-rona belə təsvir etmişdi:

"O (böyük Allah) ki, yer üzünü sizin üçün döşəmiş (döşək etmiş), orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik.

(Onlardan nuşcanlıqla) yeyin, həm də heyvanlarınızı otarın. Həqiqətən, bunda (gördüyümüz bu işlərdə) ağıl sahibləri üçün (Allahın vəhdaniyyətinə, qüdrətinə dəlalət edən) əlamətlər vardır!" (Taha, 53-54).

Nə partlayışdır bu? Kimdir onun baiskarı? Orbitindən zərrə qədər sapmayan, dövrələrini vaxtında başa vuran qalaktikaların olduğu göy qübbəsini bu partlayış necə oldu ki, yaratdı?

Bu həm elmə xəyanətdir, həm də insanları səmaları və yeri yaradan Haqq Xaliqdən bixəbər buraxmaqdır...

Ağıllı insanlar başa düşürlər ki, müasir elm bu qəsdli və nankor cahilləşdirmə təmayülündən xilas edilməlidir. Kimya, fizika, biologiya kimi elm sahələrində dünyanın başlanğıcı ilə bağlı "iks"ləri* bir kənara atıb, ədəb-ərkan və xatircəmliklə Böyük Yaradıcıdan danışmaq lazımdır.

Bunu hər şeydən qabaq müsəlmanlar etməlidirlər. İslam missiyasının ilk işi də məhz bu olmalıdır. Fakt budur ki, kəlam elmi bu yükü çəkəcək imkanlara sahibdir. Təbii ki,

---

* Yəni cavabsız sualları bir kənara atmaq lazımdır. "İks" (x) – cavabı olmayan sualları, problemləri ifadə edir – ***tərcüməçinin qeydi.***

bunun üçün kəlam elmi Quranın təlimlərinə əsaslanmalı, qədim yunan fikrinin zir-zibilindən təmizlənməli, eyni zamanda, cahil nadanların boyunduruğundan xilas olmalıdır. O nadanların ki, Quranın zahiri ilə kifayətlənir, Allah haqqında Kitab əhlinin xurafatçıları kimi danışırlar. Kitab əhli də ifrat sadəlövhlük üzündən, az qalmışdılar ki, Allahı əşyaya bənzətsinlər...

## Din və bilik

Güman olunurdu ki, vəhylə şərəflənmiş ölkələr digər ölkələrlə müqayisədə tərəqqiyə daha yaxındır, stabilliyə daha meyllidir; belə ölkələr üçün yol açıqdır, maneələr yox dərəcəsindədir və onlar gediləcək yolu işıqlandıracaq, təhlükələri dəf edəcək gücə sahibdirlər.

Amma keçmişə və bugünə dair müşahidələr bunun əksini söyləyir. Məlum olur ki, müsəlman kütlələr iki səbəbə görə dinin bərəkətindən məhrum qalıb: ya qəlbimiz "azıb", ya da ağıllı-başlı düşünməmişik. Bəzilərimizin isə həm qəlbi azıb, həm də düşüncələri qısırlaşıb.

Qurani-Kərimi diqqətlə oxuyanlar görəcəklər ki, əvvəlki Kitab əhli haqqında çox söz açılır. Nə üçün? Ona görə ki, sonuncu risalətin daşıyıcıları (müsəlmanlar) daşqəlblilikdən, kəmağıllıqdan uzaq dursunlar, sağlam və şüurlu düşünsünlər.

Nə olardı, sonuncu vəhyin şüaları ilə bu həqiqətləri görə bilərdik. Ağıl hər dəfə yanlışlığa düşdükdə, qəlb hər dəfə nəfsin şıltaqlıqlarına qulaq asdıqda imanın təsiri azalır. Daha açıq desək, düzgün insanlar azaldıqca, duyğular daşlaşdıqca, insanın ən ali dəyərləri: düşüncəsi və vicdanı donuqlaşdıqca din cəmiyyətdə, qəlblərdə özünə yer edə bilmir. Professor Əbdülmün`im Xəllafın "İnsana inanıram" adlı kitabı bu cür problemlərdən bəhs edən mühüm mənbədir.

Səthi və dayaz yanaşma nəticəsində din formal ayinlərdən, nəğmələrdən ibarət təsisat halına gəlir.

Tamah və nəfsi istəyə tabe fərasət sahibləri isə dinə qənimət toplayan, şəxsi maraqlara xidmət edən vasitə olaraq baxırlar.

Sokrat bu sözləri söyləyərkən səhv etmişdi: "Fəzilət – bilikdir".

Şəhvətlərinin əsiri olmuş insanların nəzərində biliyin bir dəyəri vardırmı?

"(Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən (onu hələ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola sala bilər?! Məgər düşünüb ibrət almırsınız?" (əl-Casiyə, 23).

Deməli, təkcə bilikli olmaq kifayət deyildir. Həmçinin, saf niyyət və ixlas* tələb olunur.

Erkən dövr alimlərimizə görə, nicat tapmaq iki şeylə mümkündür:

a) fiqh;

b) qərəzsizlik.

Fiqh – hökmə dair doğru bilikdir. Qərəzsizlik isə bir işdə şəxsi istəklərdən, niyyətlərdən uzaq olmaqdır, həmin şeyi sırf Allah üçün görməkdir. Məlumdur ki, hər ikisinə sahib olmaq ağır zəhmət tələb edir.

---

* Allahın razılığını məqsəd güdmə; səmimiyyət – ***tərcüməçinin qeydi***.

Xaricilər[*] ixlaslı idilərmi? Çoxları hesab edir ki, onlar saf niyyətli olsalar da, ağıldanyüngül idilər, uzaqgörən deyildilər.

Düşünürəm ki, onların ağıllı insanlara, bilik sahiblərinə qulaq asmamaqları inadkarlığın bir formasıdır. Məhz bu inadkarlıq onlardakı ixlasın üstündən xətt çəkir, etdiklərini mötəbər ictihad dairəsindən çıxarır.

Bilik o halda fəzilətli sayılır ki, Allahı razı salsın, xeyir işləyib haqqa kömək etsin, batili puça çıxarsın, xeyri xeyir, şəri də şər olaraq göstərsin. İslam dünyası bu cür biliyə sahib kişilərə möhtacdır!

İslam coğrafiyasının müxtəlif yerlərindəki dindar mühitlərə naqislik və donuqluq (ətalət) xasdır. Xəstə xarakter müsəlmanları hərəkət etməyə qoymur, onları yerə qısır. Belə dindar mühitlərə aydınlığın, işığın, parlaqlıq və sərbəstliyin əks olunduğu Quran "mühit"i yaddır.

Quran bizə həm rəbbimizlə, həm də insanlarla əlaqələrimizi başa salıb. Öyrəndik ki, Allah təkdir, bütün məxluqat Ona tabedir və ölümə (məhv olmağa) məhkumdur. Biz bu dünyada ömür sürdükdən sonra mütləq Ona qayıdacağıq.

---

[*] **Xaricilər** (ərəb. xəvaric): VII əsrin 50-ci illərində meydana gəlmiş dini-ideoloji qrup. Həzrəti Əli ilə Müaviyə arasındakı çəkişmələr zəminində meydana çıxmış, hökmün yalnız Allaha aidliyi təlimini ifrat formada tətbiq etməyə çalışan xaricilər xəlifənin "hakim" tərəfindən təyin edilməsini küfr sayırdılar. Öz ideyaları ilə razılaşmayan bir çox müsəlmanı, o cümlədən Həzrəti Əlini qətlə yetirmişdilər. Xaricilər Müaviyənin hakimiyyəti dövründə məğlub edildilər – ***tərcüməçinin qeydi.***

Dünyada necə yaşamışıqsa, axirətdə də o cür hesaba çəkiləcəyik.

Bəli, Quran bütün bunları əvvəlki fəlsəfi təlimlərdə və dinlərdə müşahidə edilməyəcək qədər aşkarlıqla bizə başa salıb.

Aristotelin təsvir etdiyi tanrı bayğın tanrıdır, kimin nə edib, nə qayırmağından xəbəri yoxdur. Amerikalı filosof U. Dürantın (1885-1981) təbirincə, bu tanrı İngiltərə kraliçasını xatırladır: kraliça taxtda otursa da, hökmdar titulunu daşısa da, heç bir səlahiyyətə sahib deyildir!

Bəlkə də, dünya həmin tanrıdan kimyəvi reaksiyalar yolu ilə meydana gəlmişdir! Doğrudan da, bu, nüfuzu və əhəmiyyəti olmayan tanrılıq anlayışıdır!

Üçlü tanrı[*] məfhumu da Aristotelin tanrı anlayışından az əcaib deyil! Bir dağı bir şüşəyə yerləşdirmək üçlü tanrı dieyasını beyinlərə yerləşdirməkdən daha asandır! Habelə, İlk Günah və Fədakarlıq[**] anlayışları da uydurmadan başqa bir şey deyildir!

Bu səbəbdən elm dindən ayrılmış, hərəsi bir istiqaməti tutub getmişdir. Şair də yaxşı deyib:

*O, Şərqə üz tutdu, mən isə qərbə doğru getdim*
*Şərq və Qərb arasındakı fərq necə də böyükdür!*

---

[*] **Üçlü tanrı (və ya: üç üqnüm, troitsa):** xristian dininə görə üç sifətdə (ipostasda) birləşmiş tanrı – ***tərcüməçinin qeydi.***

[**] **Fədakarlıq**: xristian inancına görə İsa peyğəmbərin bütün bəşəriyyətin günahları üçün özünü qurban verməsi – ***tərcüməçinin qeydi.***

Sonuncu vəhyə gəlincə – yer üzündə ondan qeyri vəhy qalmayıb, – o, insanların nəzərini Allahın mövcudluğuna dəlalət edən kainata yönəldir. Bu həm də əzəməti və vəhdaniyyəti ilə təbiətdə, kainatda təcəlli etmiş bir ilaha yönəlmədir:

"Sizin üçün yeri məskən, göyü tavan edən, sizə surət verən, surətlərinizi gözəlləşdirən, sizə təmiz (pak) nemətlərdən ruzi verən Allahdır! Bu sizin Rəbbiniz olan Allahdır. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır (nə qədər uludur)! (Ucalardan ucadır, xeyir-bərəkəti bol və daimidir!)

Əbədi (həmişə diri) olan ancaq Odur. Ondan başqa heç bir tanrı yoxdur. (Allaha) dini yalnız Ona məxsus edərək (heç bir şərik qoşmadan) ibadət edin! Aləmlərin Rəbbi olan Allaha həmd olsun!" (əl-Mumin, 64-65).

Necə də qəribədir: bu vəhyə sahib ümmət nə onunla düzgün "yoldaşlıq" etməyi bacarır, nə onun parıltısı ilə aydınlanır, nə də ondan Allah və bəndə qarşısındakı vəzifələrini öyrənir. Baxanlar da baxır, ümməti dünya karvanından geri qalmış görürlər; birisi ona avadanlıq, digəri də çörək verir; yaralarını sarımaq üçün verdikləri dava-dərmanı, özünü müdafiə etmək üçün verdikləri silah-sursatı islam ümmətinin başına çaxanlara da rast gəlirik...

Həm özümüzə, həm də dinimizə xidmət göstərmək üçün qurub-yaratmağa gəlincə, ortada quru sıfırlardan başqa heç nə yoxdur!

Fikrimcə, psixoloji və elmi məğlubiyyətlər siyasi (həm də diplomatik) və hərbi məğlubiyyətlərdən daha pisdir. Çox vaxt ikinci birincinin nəticəsi kimi çıxış edir.

Şərqi Avropada yıxılmış "büt"ə baxıram; xalqlar kommunizm həbsxanasından qurtulmaq üçün basa-bas salıblar; dünənin liderlərini bugün təqib edən, onlara lənətlər yağdıran xalqların hayqırtısı hər yeri bürüyüb.

Hesab edirdim ki, kommunizmin Şərqi Avropadakı ayıblarının üstü açıldıqdan sonra ərəb kommunistləri də xəcalətdən qaçıb gizlənəcəklər. Amma belə olmadı, əksinə, onlar əl-ələ verib, müsəlman ailəsi qayda-qanunlarının ləğvi üçün Əlcəzairdə qadınların nümayişlərini təşkil etdilər.

Bir dostum mənə demişdi: "Nə üçün təəccüblənirsən? Buna islamçılar özləri şərait yaradıblar. Onların təqdim etdikləri islamımı arzulayırsan? Təsəvvür et ki, həm keyfiyyətli, həm də görünüşü gözəl avtomobillərdən ibarət bir sərgi var. Və bütün gözlər maşınlardakı cazibədarlığa dikilib. Qəfildən haray-həşirlə bir qrup insan peyda olur, müştərilərə etiraz edərək, onlardan maşınları deyil, özləri ilə gətirdikləri minik heyvanlarını (atları, eşşəkləri, qatırları...) almağı tələb edirlər. Səncə, müştərilərin buna münasibəti necə olacaqdır? Təbii ki, onlar həmin adamları ələ salıb, həm onlardan, həm də minik heyvanlarından uzaqlaşacaqlar. Bax, islamçılar islamı bu cür təqdim edirlər!

Həmin islamçıların yeri mal bazarıdır, gedib orada işləsinlər. Onların islamdan danışmağa haqları çatmır. Çünki islamı nə doğru-dürüst başa düşüblər, nə də onun səviyyəsinə yüksəliblər".

## Dəvətçilərin islama çağırışa təsiri

Görəsən, Əlcəzairdəki kommunist qadınların islam ailə qanunvericiliyinə qarşı çıxıb, onun ləğvini tələb etmələrinə nə səbəb olmuşdu?

Nə olacaq: islamçı xətib* və dəvətçilərin çıxışları, xütbələri!

Bəli, islamın qadına münasibəti ilə əlaqədar olaraq bu insanların dedikləri ağlı başında olanları narahat edir. Onlar qorxu və təlaş içərisində deyirlər: "Bu islamçılar hakimiyyətə gələrsə, taleyimiz necə olacaq?"

Baxaq görək həmin islamçılar nə deyiblər ki, insanlar öz gələcəklərindən belə narahatdırlar.

Onlardan biri deyib: "İslama görə, qadınlar yalnız uşaq doğmaq üçün yaradılıblar!" Başqası deyir: "Qadının yeri evdir. Oradan bir evlənmək, bir də dəfn olunmaq üçün çıxa bilər!" Üçüncüsünə görə, qız uşağı savadsız qalmalı, yazıb-pozmağı öyrənməməlidir! Dördüncüsü də ondan ilham alaraq bir az "güzəşt"ə gedir: "Qız uşağı ibtidai sinif təhsilini bitirsə, bəsidir. Əlavə savad almağına ehtiyac yoxdur!"

İnstitutların birində təhsil alan sadəlövh bir tələbə qızın anasına belə dediyini eşitmişdim: "Bizimlə islamdan daha mehriban davranacaq başqa bir din yoxdurmu?"

Bu sözləri eşitdiyimdə ürəyimdən sanki xəncərlə vuruldum!

* Məscidlərdə moizə oxuyanlar, xütbə söyləyənlər – ***tərcüməçinin qeydi.***

Qadınlı-kişili bütün insanlara şərəf-izzət qazandırmış bir din bəzi nadan fitnəkarların dilində başqalarını təhqir və alçaltma vasitəsinə çevrilib.

Əlcəzairdə yaşadığım dövrdə hər kəsin qəlbinə islam sevgisi aşılayan böyük alim İbn Badisin (1889-1940) dediklərinin nə qədər doğru olduğunu başa düşdüm. Alim deyərdi ki, bu ümmət qadın və kişilərdən ibarət "qanad"lara sahib olmadıqca pərvazlanıb uça bilməyəcəkdir. Alim tez-tez aşağıdakı hədis və ayəni təkrarlayırdı:

"Qadınlar və kişilər bir bütövün parçaları kimidir"[1].

"İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz (hamınız) bir-birinizdənsiniz" (Ali-İmran, 195).

Saxta biliklərə, dayaz təcrübəyə sahib ağılsız gənclər islam oyanışına hücum çəkərək, onun axınına yaydıqları zəlalətlə, islam haqda çıxardıqları böhtanlarla mane olmağa çalışırlar.

Və kommunistlər onların axmaqlığından faydalanaraq, Qanunvericilik Məclisinin binası qarşısında nümayiş keçirmiş, "İnsan haqlarına ehtiram!" və "Qadınların şəxsiyyətini qoruyaq!" kimi şüarlar səsləndirmişdilər.

Biz, müsəlmanlar bütün bu hüquqların nə olduğunu hamıdan yaxşı bilirik. Amma başıboşlarımızın sözü bizim sözümüzdən daha çox eşidilir. Səhv təsəvvürləri və eybəcər təsvirləri ilə insanlarda islama nifrət oyadan cahil dəvətçiləri görəndə əsəblərim tarıma çəkilir.

---

[1] Hədisi Əbu Davud, Tirmizi və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

Tofiq əl-Həkimin* yanılmasına, bəlkə də, elə bu səbəb olub. Ondan soruşanda ki, modern dövlətdə hakimiyyət forması baxımından islama əsaslanmaq mümkündürmü, düşünmədən belə cavab vermişdi: "Mümkündür, amma modern anlayışlara uyğunlaşsın deyə islamı yeni formatda izah etmək lazımdır. Təəssüfləndirici haldır ki, bəziləri dini mətnləri Orta əsr zehniyyəti ilə izah edirlər".

Təbii ki, bu cavabın müəyyən qədər redaktəyə ehtiyacı vardır. Çünki sözügedən şəxs məsələləri bir-birinə qatıb-qarışdırıb. Amma o da istəyir ki, islam doğru-dürüst izah edilsin.

İslamın həqiqətləri olduğu kimi aşkara çıxarılarsa, hər bir dövrdə şəfaverici dərmana çevriləcəkdir!

Orta əsrlərdə meydana gəlmiş islam dövləti insanlara vəziyyətlərinə müvafiq dəqiq anlayışlar təqdim etmişdi. Bu anlayışları indi də tətbiq etmək mümkündür. Mühüm olanı budur ki, kəmağıl şəxslərin bu anlayışları təhrif etmələrinə imkan verməyək.

Peyğəmbərin və Raşidi xəlifələrinin zamanında qadınlar elm və ibadətə bağlı idilər. Dövrümüzdə kimsə qalxıb bu həqiqəti inkar edərsə, onlara islamı yenidən deyil, əksinə, tarixi aspektdə başa salmalıyıq. Çünki islamın tarixində onların iddialarını puça çıxaracaq danılmaz faktlar vardır.

Əziz oxucu, sənə dediklərimizlə yanaşı, misirli professor Luis Əvəzin (1915-1990) ona ünvanlanmış "İslam bugünə

---

* Tofiq əl-Həkim (1898-1987): Misirli yazıçı, ədib və dramaturqdur – ***tərcüməçinin qeydi.***

qədər özünün universal çağırışını qoruyub saxlayıbmı?" sualına verdiyi cavab haqda da bir düşün. Luis Əvəz həmin suala belə cavab vermişdi:

"Xeyr, qoruyub saxlamayıb. İslam qədimdə Bizansa qalib gəlmişdi. Çünki o, VII əsrdə xristianlıqdan daha dünyəvi(!) səciyyə daşıyırdı, ruhani məsələlərlə yanaşı, həyat (dünya) məsələləri ilə də maraqlanırdı. Halbuki həmin vaxt bizanslıları yalnız axirət məsələləri maraqlandırırdı... Görünür, müasir islam camaatlarının arzuladığı şey bizans islamıdır!"[1]

Bu söz hər nə qədər qarma-qarışıq olsa da, bir neçə cəhətdən doğrudur... Dünyəviliyin ən müsbət tərəfi budur ki, o, qorunan azadlıqlardan ibarət "işıqlı abı-hava"da mütərəqqi bəşər cəmiyyəti qurmağa can atır. Belə bir cəmiyyətin keşiyində sosial-siyasi ədalət durur. Burada qadınlara və kişilərə, böyüklərə və kiçiklərə irqi və sosial ayrı-seçkiliyin "bulandıra" bilmədiyi hüquqlar verilir; insanlar həyata açılırlar, bilikləri və bacarıqları çərçivəsində təbiətdən istifadə edirlər...

Erkən dövr müsəlman mədəniyyətində bütün bunlar vardı. Modern cəmiyyətlərdən fərqli olaraq, müsəlman mədəniyyəti Allaha inamı maddi tərəqqinin ayrılmaz parçası halına gətirmişdi. Yəni, Müsəlman dünyasında həm maddi tərəqqi vardı, həm də insanlar ilahi təlimlərə riayət edirdilər,

---

[1] Luis Əvəz islama və ona çağırışa – dəvətə nifrət edən bir xristian idi. Fransızların Misirə hücumu zamanı vətəninə xəyanət etmiş Yaqub Hənnanı (1745-1801) alqışlayan da Luis Əvəzdir. Müsəlmanların islamı təbliğ və tətbiqdəki səhvlərindən əks arqument kimi istifadə etməkdə mahir idi.

dünya həyatının əbədiyyətə körpü olduğunun fərqinə varırdılar və axirət inancına sahib idilər.

Bəli, bu, əzəmətli sələflərimizin tarixidir. Amma islam mədəniyyətinə varis çıxan sonrakı nəsillərin qəlbləri daşlaşdı, zehinləri də sönükləşdi, onlar yəhudi və xristianlardan bu mənada heç nə ilə fərqlənmədilər.

Uşaq ağlındakı qanmaz başa əmmamə qoymaq hələ sələfi olmaq deyildir. Nə də ki bir qadın çirkin və ya qəşəng üz cizgilərini örtməkdən ziyadə insanlıq cizgilərini silib-süpürən niqabı geyinməklə sələfi olmur...

Tofiq əl-Həkimin arzuladığı şey, əslində, hələ 14 əsr qabaq Quranda mövcud idi. Amma adlarını sələfi qoyanlar Quranın göstəriş və buyruqlarını insanlara acı dərman olaraq təqdim edirlər. Bu "dərman"ı içənlər xəstələnir, inkişafdan qalır, məğlubiyyətlərə düçar olurlar.

Müşahidə etmişəm ki, islamın düşmənləri neo-sələfiliyin üzünə bütün qapıları açmışlar. İstəyirlər ki, insanlar onunla tanış olub (eybəcərliyini gördükdən sonra) islama nifrət etsinlər, bununla da, ondan kənar durub digər dinlərə üz tutsunlar.

Uzun-uzadı araşdırdıqdan sonra başa düşdüm ki, Kral Əbdüləziz (1880-1953) fanatik "ixvan" mənsublarına [1] qu-

---

[1] Söhbət dəvət fəaliyyətinə Misirdə başlayıb, daha sonra bütün islam coğrafiyasına yayılmış "Müsəlman Qardaşlar" Camaatının (***İxvani-Müslimin***) mənsublarından getmir – ***M. Qəzali***. (**İxvan:** Kral Əbdüləziz ibn Səud tərəfindən idarə edilən, neo-sələfi düşüncəsinə sahib dini-siyasi hərəkat mənsublarına verilmiş ad. 1912-30-cu illərdə Ərəbistan yarımadasında siyasi-ideoloji təsirə malik idilər – ***tərcüməçinin qeydi***)

laqburması verdiyində haqlı imiş. Bu fanatiklər ona qarşı qiyam qaldırmış, onun xarici siyasət kursuna şüursuzca savaş elan etmişdilər.

Kral – o həm siyasi lider, həm də hərbi sərkərdə idi – islamı həmin hərfiyyətçi (hərfgüdən, hərfxor) adamlardan daha yaxşı bilirdi. Bu fanatiklər qalib gəlsəydilər, dövlət ümumiyyətlə əldən gedərdi.

## Sağlam düşüncənin qarşısını kəsənlər

Dövrümüzdə ateist zehniyyətə və islamı pusub himdə duranlara qalib gəlmək üçün sağlam düşüncənin, səmərəli və ciddi fəaliyyətin qabağını kəsmiş həmin adamların "qanad" larını qırmalıyıq. Bu insanlar, diqqətlə baxdığımızda görəcəyik ki, islam üçün təhlükədirlər...

Türkiyədə dönüklər islam xilafətini yıxdıqdan sonra dünyəvi bir rejim qurdular. Bu rejim kənardan bütün dinlərə "yox" deyirmiş kimi görünsə də, əslində, təkcə islama ədavət bəsləyir, Avropa mədəniyyətinin arxasınca gedirdi...

Yeni rejim hərbi zorakılığa əsaslanırdı. İlk işi ona qarşı çıxmış din xadimlərini məhv etmək oldu. Halbuki bütün xalq ona nifrət bəsləyir, həyat tərzində islama üstünlük verirdi. Amma xalq silahlı dönüklərə müqavimət göstərə bilmədi, dişini bağırsağına tutub müvəqqəti susmağa məcbur oldu. Buna baxmayaraq, o, müsəlman kimliyini bərpa edib, islamın hakimiyyətini geri qaytarmaq üçün hər bir fürsətdən də istifadə etdi.

Aydın məsələdir ki, islamla dünyəvilik arasında gedən savaş ailə məsələləri və qadın-kişi münasibətləri problemi ətrafında daha da qızışır. Liderlər abırsız Qərb həyat tərzini Müsəlman Şərqinə "idxal" etmək üçün dəridən-qabıqdan çıxırlar. Qurana arxa çevirənlərdən bundan artıq nə gözləyəsən? Ayədə deyilir:

"...Kim Şeytanın getdiyi yolla getsə, o, (insanlara) çirkin, pis işlər görməyi (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) əmr edər..." (ən-Nur, 21).

Tələbə qızlar bu əxlaqsız süründürməçiliyə qarşı çıxdılar, hicab geyinməkdə israr etdilər. Hicabda fəzilət və ehtiyatlılıq vardır! O, həm qadının qadınlıq cizgilərini mühafizə edir, həm də onun bədənini oğrun gözlərdən qoruyur.

Ancaq bu ləyaqət ateistləri qəzəbləndirdi. Ordu rəhbərliyi – Baş komandan(!) Ali Məhkəmənin belə bir qərar çıxarmağına nail oldu ki, hicab geymək Atatürk İnqilabının dünyəvilik prinsiplərinə ziddir, deməli, qadağan edilməlidir!

Bu günlərdə gördük ki, Fransa Ali Konstitusiya Məhkəməsində hicabın mövcud rejimə zidd olmamağı təsdiqlənmişdir. Bax bu, məntiqli qərardır. Amma axmaq "vassal"lar* kraldan daha çox kralçı olurlar. Dünyəvi türk rejiminin xristian rahibələrə öz dini paltarlarını geyməyi qadağan etməyə iqtidarı çatardımı? Əsla! Məgər rahibə geyimi müsəlman hicabına oxşamır?! Amma o, təkcə hicablı tələbə qızlara xoruzlana bilir.

Dediklərimdə yeni bir şey yoxdur. Yeni olan budur ki, bəzi müəllimələr hicablı tələbə qızlara söyür, heysiyyətinə toxunur, alovu daha da körükləyirlər.

Əlcəzair İslam Universitetində dərs dediyim vaxtlar dərs otağında qızlar sağda, oğlanlar da solda əyləşirdilər. Sezmiş-

---

* Qərbdəki dünyəvi həyat tərzini Müsəlman ölkələrində yaymaq istəyənlər nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

dim ki, utana-utana mənə sual verən qızların bir-neçə gün sonra üzləri nədənsə gülmür.

Öyrəndim ki, tələb oğlanlar onları sual veriblər deyə hədələyiblər. Qadının səsi övrətdir (haramdır)!!! Buna əks-reaksiya olaraq, həmin gündən həm oğlanların, həm də qızların suallarını yazılı şəkildə qəbul etməyə başladım. Onlara da bildirdim ki, nə qadının səsi, nə də üzü övrət sayılır.

Düşünürəm ki, bəzi alimlərin təbliğ etdikləri "lax" fikirlər siyasi-iqtisadi və sosial həyatda özünə yer etdikcə islamın gələcəyi sual altındadır!

İslama forma verənlər onu təkcə müsəlman qara camaata məlum eybəcər formada təqdim etdikcə bu din hər bir meydandan qovulacaqdır.

Ağıllı insanlarla, alimlərlə söhbətimdə deyirəm: "Dində azadlıq olmalıdır!" Bivec bir nadan isə etiraz edir: "Dində məcburiyyət yoxdur" ayəsi "mənsux"dur*, qüvvəsini itirib!

Dünyanın sülhpərvər qüvvələrinə səslənirəm: "Biz sizdən daha qabaq sülhə çağırmışıq, qan axıdılmasına "yox" demişik. Biz savaşa yalnız əqidəmizi qoruyub, islama çağırış etmək üçün girərik!" Qəfildən yelbeyin bir gənc peyda olur: "Əsla!

---

* Bu termin "nəsx" anlayışı ilə əlaqəlidir. "Nəsx" (ərəb. "ləğv etmə", "köçürmə") sonrakı dini mətnlərlə (dəlillərlə) əvvəlki hökmün qüvvədən salınması deməkdir. Bununla əlaqədar olaraq, "nasix" və "mənsux" terminləri də vardır. Belə ki, "nasix" qüvvədən salan, "mənsux" da qüvvədən salınmış dəlilləri (dini mətnləri) ifadə edən terminlərdir – ***tərcüməçinin qeydi***.

Peyğəmbərimiz deyib: "Mən əlimdə qılınc göndərildim. Ruzim nizəmin kölgəsi altında verilir..." !!!"*

Bu gəncin Qurandan xəbəri yoxdur. Qılıncdan nə vaxt istifadə etmək haqqında isə heç nə bilmir. O, yalnız və yalnız quldur məntiqi ilə düşünür!

Deyirəm: "Şura əsasdır. Xalq kütlələrinin hüququnu tapdalamağa heç kəsin haqqı yoxdur". Həmin gənc deyir: "Şura deyilən şey yoxdur. Şura kral üçün qanun deyil. Kral əgər istəyərsə, ondan istifadə edə bilər!"

Deyirəm: "İnsan haqlarına ehtiram göstərmək lazımdır". Deyir: "Nə insan haqları? Bu məfhum ki bidətdir!"

Deyirəm: "BMT haradasa "Hilfi-füzul"u** xatırladır. Qərarlarına istiqamət vermək, nöqteyi-nəzərlərini müəyyənləşdirmək üçün ona qoşulmalıyıq". Deyir: "Darülhərbdə belə şeylər olmaz...". və s. və i.a.

Belə zehniyyətlə adi səhmdar şirkəti idarə etmək mümkün deyildir. Elə isə bu zehniyyət sahiblərinə böyük bir dinin, risalətin adından danışmağa imkan vermək olarmı?!

---

* Əbu Davudun "Müsnəd" kitabında hədisin tam mətni belədir: "Mən qiyamət qopmazdan qabaq yalnız Allaha ibadət edilib, heç bir şeyin Ona ortaq tutulmamağı üçün qılıncla göndərildim. Ruzim nizəmin kölgəsi altında verildi. Mənə qarşı çıxanı (Allah) zəlil etmişdir. Kim bir qövmə oxşayarsa, onlardandır". Hədisi oxşar versiyalarla İmam Buxari və İmam Əhməd rəvayət etmişlər – ***tərcüməçinin qeydi.***

** **Hilfi-füzul**: Cahiliyyət dövrü ərəblərinin imzaladıqları razılaşmanın adı. Bu razılaşmaya görə, Məkkədə bir nəfər də məzlum qalmayacaq, hər kəsin haqqı qorunacaqdı – ***tərcüməçinin qeydi.***

Biz, müsəlmanlar qorxuducu elmi özbaşınalıqdan əziyyət çəkirik. Bəlkə də, Əzhərin islam mədəniyyəti meydanlarında görünməməsi bu xaosun yayılmasının səbəblərindən biridir.

Böyük alimlərimiz və görkəmli şəxsiyyətlərimiz haqqında hərzə-hədyan danışan, onlara söyən "cəsur"lar da tapılır. Hətta son dövrün ən intellektual məktəbi belə, təkzib və nankor ittihamlara tuş gəlib. Mən "əl-Mənar" məktəbini nəzərdə tuturam. O məktəb ki, sələfi xələflə, ağılı nəqllə*, ictihadı təqlidlə barışdırıb, müsəlman həssaslığı ilə intibah və tərəqqinin yollarını göstərib, xəstə ümməti sağaltmaq üçün dava-dərman təqdim edib.

İslamın gələcəyi üçün bərk narahat olduğumdan məndən fərqli düşünən bütün tərəflərə əlimi uzadıram. Uzadıram ki, ideoloji və fiziki təhlükələrdən islamımızı qorumaq üçün əməkdaşlıq edək.

Məsələ bir məktəbin digər məktəb üzərində qələbə çalmağı məsələsi deyildir. Məsələ islamı alovunu zamanın hələ də söndürə bilmədiyi ədavətdən, Kitab əhlinin, ateist və bütpərəstlərin düşmənçiliyindən qorumaq məsələsidir...

Onlar informasiya vasitələrinə, elmi üstünlüyə sahib olduqları üçün cəsarətlənib üstümüzə hücum çəkdilər. Səhvlərimiz və huşsuzluğumuz bu işdə onların karına gəldi!

---

* **Nəql** (ər. ötürülən, vəhydən gələn): din elmlərində biliyin əldə edilməsinin əsas metodu; ayə və hədislərdən ibarət dəlillər; dini mətnlər – ***tərcüməçinin qeydi.***

## Kəlam elmi* haqda bəzi qeydlər

Vacib bir məsələ haqda düşüncələrə dalmışdım. Böyük diləyimi alçaq səslə rəbbimə ərz edirdim. Yəqinliklə bilirdim ki, Allah məni eşidir! Hətta əmin idim ki, məndən bir milyard işıq ili uzaqlıqda olan birisi də əgər əl açıb dua etsəydi, Allah mənimlə birlikdə onu da eşidərdi!

Zaman və məkan Pak və Uca Allah üçün bir əhəmiyyət kəsb etmir. Yerdə və göydə olan heç nə Ondan gizli qalmaz. Ayədə də deyildiyi kimi:

"...Həqiqətən, Rəbbim (Öz elmi, qüdrəti, mərhəməti ilə yaratdıqlarına) yaxındır, (duaları) qəbul edəndir!" (Hud, 61).

Qəfildən ağlıma "çağırılmamış qonaq" qəbilindən bir sual gəldi: Görəsən, Allah bizə zatı ilə, yoxsa atributları (sifətləri) ilə yaxındır?

"Burnunu hər yerə soxan" bu sual məndə oxuduğum kitabların, tədqiqatların "səmərə"si kimi yaranıb. Onu da deyim ki, bu işdə mən tək deyiləm. Eyni sual çoxlarının ağlına gəlib. Bu sual ya qarşısıalınmaz intellektual acgözlükdən doğur, ya da hər şeyi bilmək istəyən nəfsin səmərəsi olaraq meydana çıxır.

---

* **Kəlam**: əcnəbi dini-ideoloji və fəlsəfi təlimlərdən islamı müdafiə etmək məqsədi ilə meydana çıxmış dini-rasional məktəb; islam sxolastikası – ***tərcüməçinin qeydi***.

Düzü, bu sualı alqışlamadım. Köhnə yazılarımın birində insan oğlunun intellektual bacarıqları ilə əlaqədar olaraq çəkdiyim misalı xatırladım: "Yazmaqla məşğul ikən yaxınlıqda bir milçək vızıldayır. Görəsən, nə yazdığımdan milçəyin xəbəri varmı? Bədahətən "yox" deyirəm. Milçək nə yazdığımı bilsə də, bilməsə də, bunun nə ona, nə də yazdığıma faydası vardır... Yeri və göyləri yaradan Allahın mahiyyəti haqda mənim və digərlərinin bildiyi şeylər də bu cürdür!"

Allahın hər şeydən xəbər tutmağını, elminin hər şeyi ehtiva etdiyini bilməyim kifayətdir. Qalan şeyləri qavramağa isə insan beyninin gücü çatmır.

Mən yediyim çörəyin orqanizmimdəki canlı hüceyrəyə necə çevrildiyini adi yanaşma ilə başa düşə bilmirəm. Və bu hüceyrə, bəlkə də, qulaq və gözləri əmələ gətirən hüceyrələrdən biridir.

Bu üzdən qərara gəldim ki, yuxarıdakı suala əhəmiyyət verməyim. Mən, sələf və xələfdən olan ata-babalarım həmrəyik ki, Allah əzəmətlidir, bütün kamil xüsusiyyətlərə (sifətlərə, adlara) layiqdir:

"Allahdan başqa heç bir tanrı yoxdur. Ən gözəl adlar (əsmayi-hüsna) yalnız Ona məxsusdur!" (Taha, 8).

Bu məsələ haqda heç kəsin şübhəsi yoxdur. Bəs nə baş verib?

O baş verib ki, bəziləri "atribut" (***sifat***) ayələri ilə əlaqədar olaraq, mənə də vaxtı ilə ünvanlanmış suala aşağıdakı iki cavabdan birini vermişlər; ayədə deyilir: "Rəhman ərşə çıxmışdır ("istiva" etmişdir. Və ya: Rəhman ərşi yaradıb hökmü altına almışdır (ərşə hakimdir)" (Taha, 5).

Bəziləri yuxarıdakı ayə haqqında bu fikirdədirlər ki, ayədə məcazdan istifadə olunub. Yəni, Allah mütləq hakimiyyət sahibidir, külli-ixtiyar Onun əlindədir, hər kəsdən güclüdür. Söhbət heç də bizim təsəvvür etdiyimiz kimi, Allahın ərşə (taxta) çıxmasından getmir.

Başqaları isə əksinə düşünürlər: Əsla! Ayəni zahiri mənasına görə başa düşmək lazımdır, yəni, söhbət əyləşməkdən gedir. Amma bu əyləşmə insanların təsəvvür etdikləri əyləşmə qəbilindən deyildir. Bu, heç nəyə bənzəri olmayan Xaliqə xas əyləşmədir...

Yarandığı ilk dövrlərdə bu ixtilafın sona yetməyi (dərinləşməməyi) mümkün idi və hər iki fikrin tərəfdarları mədəni, sosial-siyasi quruculuq meydanlarına yönələ bilərdilər... Erkən dövr sələflərimiz: səhabə və tabeinlər bu cür fikirlərdən uzaq durmuş, bu haqda düşünməyi ağıllarından belə keçirməmiş, əsas diqqəti "möhkəm"* ayələr əsasında təlim və təbliğə yönəltmişdilər.

Amma məlum məsələlər – burada onları izah etmək istəmirik – üzündən hər iki görüşün tərəfdarları arasında ixtilaf dərinləşmiş, hər kəs sonadək "dirənmək" qərarına gəlmişdir.

Ayədəki mənanın məcazi olduğunu deyənlər, az qalsınlar ki, "təcrid"** və "tə`til"*** xətasına düşsünlər. İkincilərin də

* **Möhkəm:** Quranın bəzi ayələrinə verilmiş ad. Mənası dəqiq və aydın olan ayələr "möhkəm" ayələrdir – ***tərcüməçinin qeydi.***

** **Təcrid**: çoxmənalı sözlərdə bəzi mənaları sərf-nəzər etmək – ***tərcüməçinin qeydi.***

qorxduqları şey başlarına gəlmişdi: Allahı əşyaya bənzətmək (***təşbih***)!

Bir dəfə əlimə nəfis çap olunsa da, məzmunu bərbad bir kitab keçmişdi. Adı belə idi: "Adəmin Rəhmanın surətində yaradılmasına iman əhlinin etiqadı" ***(Əqidə əhl əl-iman fi xəlq Adəm əla surət ər-Rəhman).***

Öz-özümə soruşdum: "Əgər Adəm Rəhmanın surətində yaradılmışsa, onda "Ona bənzər heç bir şey yoxdur" ayəsini[1] necə başa düşək?"

Sözügedən hər iki görüşün tərəfdarları həm nəzəri, həm də praktik cəhətdən ümmətin sələflərinə (erkən nəsillərinə, alimlərinə) oxşamadılar. Əgər ilk dövrlərdə müsəlman ümməti bu cür məsələlərlə məşğul olsaydı, islam Ərəbistandan kənara çıxmazdı...

Əgər bu fikirlərin həmin dövrlərdə canlanıb yayğınlaşmasına izn verilsəydi, dünyanın hər yerində islamın işi bitərdi və o, sarsıdıcı məğlubiyyətə uğrayardı.

Fikir vermişəm ki, hissləri ağıllarına qalib gələn kəslər Allah haqqında qəribə xəyallara qapılırlar. Onlara görə, Allah Ondan mərhəmət diləyənləri bağışlamaq üçün ərşini tərk edərək dünya səmasına enir, sonra isə yenidən ərşinə qayıdır. Bu, həm sələfə, həm də xələfə yad sadəlövhlükdür...

Bu sadəlövhlüyə onları bəzilərinin topladığı "şübhəli" hədislər sürükləyib. Bu hədislərin – səhih olsalar belə – əqidə

---

*** **Tə`til**: sözləri həqiqi mənasında deyil, məcazi mənasında izah etmək – ***tərcüməçinin qeydi.***

[1] "əş-Şura" surəsi, 11-ci ayə.

ilə heç bir əlaqəsi yoxdur. Çünki əqidə mövzularında mənası aydın, istinadı möhkəm "mütəvatir"* hədislər əsas götürülür.

Sələflə xələfin arasında vaqe olmuş ixtilafı diqqətlə araşdırdığımda gördüm ki, o, az qala, "forma" ixtilafıdır (yəni, müəyyən dini mətnlərdəki sözlərin qrammatik cəhətdən fərqli başa düşülməsi nəticəsində meydana çıxmış ixtilafdır).

Çünki bütün islam alimləri həmrəydirlər ki, ("icma" vardır ki,) Allah təkdir, həmd-səna Onadır; O əzəmətli və Pakdır, Müqəddəs zatında heç bir çatışmazlıq yoxdur.

Bəzi kitablarımda da qeyd etdiyim kimi, insanlar özlərinə məlum əşyaları, şəxsləri, məfhumları ifadə etmək üçün söz yaradırlar. Yəni, sözlər gözlə görülən, ağılla dərk olunan şeyləri ifadə edir.

Əgər metafizik anlayışları ifadə etmək üçün mövcud sözlərdən istifadə etmək istəsək, uyğunsuzluq yaranacaqdır. Odur ki, bu uyğunsuzluğu aradan qaldırmaq üçün həmin sözləri məcazi (rəmzi) mənada işlətmək lazımdır. Elə isə "Cənnətdə dünyadakı şeylərdən adlar istisna olmaqla heç bir əsər-əlamət qalmayacaqdır" deyimini bu mənada başa düşməliyik. Çünki orada bizim təsəvvür etdiyimiz gözlərdən, qulaqlardan... heç bir əsər-əlamət qalmayacaqdır.

---

* **Mütəvatir**: yalan və saxtakarlıqda həmrəylikləri mümkün olmayan bir qrup insanın eyni xarakterli digər insanlardan nəql etdikləri hədis növü – ***tərcüməçinin qeydi***.

İnsanlar Allah haqqında nə qədər danışsalar da, bəşəri nitq və idrak Onu olduğu kimi təsvir edə bilməz. Allah ən böyükdür, ən ucadır, ən möhtəşəmdir!

Müsəlmanın avamı da, alimi də həmrəydir ki, "Ona (Allaha) bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!"[1]

Onlar yekdilliklə təsdiqləyirlər ki, bütün varlıq aləmini: mələkləri, cinləri, insanları, bitkiləri, cansız təbiəti Allah yaratmışdır. Çünki Allah varlıq aləminə "Ol!" deyib, o da olub!

Yaratma və himayə şüası kəsilən kimi, hər şey yox olur! Bu şüanı kimsə tutub saxlaya bilməz!

Orta məktəbdə müəllimlərindən biri bizə belə demişdi: "Mö`təzililər[*] Allahı cənnətdə görəcəyimizi inkar edirlər. Bildirirlər ki, görmə istiqaməti, istiqamət məkanı, məkan materiyanı, materiya da yaradılmanı göstərir. Allah bütün bunlardan uzaqdır. (Müəllimim sözünə davam edir:) Bu deyilənlər bizə lazım deyil. Quranda möminlər üçün təsbit edilmiş "görmə" başqa şeydir və mö`təzililərin qoyduğu həmin qayda-qanuna tabe deyildir... Metafizik və ya qeyb aləminin özünəməxsus qanunauyğunluqları vardır və bu qa-

[1] "əş-Şura" surəsi, 11-ci ayə.

[*] **Mö`təzililər:** islam fikri tarixində ilk rasional cərəyan sayılan mö`təzililiyin tərəfdarlarına verilmiş ad. Banisi Vasil ibn Əta (vəfatı – 749) olan bu cərəyan yarandığı ilk dövrlərdə yad rasional təlimlərdən islamı müdafiə etsə də, sonralar öz rasionallığında ifrata varmaqla hamilik statusundan məhrum olmuş, mütəkəllim və üsul alimlərinin hücumuna məruz qalmışdır – ***tərcüməçinin qeydi***.

nunauyğunluqlar bizim dünyanın qanunauyğunluqlarından fərqlənir. Elə isə mö`təzililərin məlum müqayisəsi əsassızdır!”

Deməк istədiyimiz budur ki, ixtilafa düşməyin heç bir mənası yoxdur. Çünki bir tərəfin təsdiqlədiyi şey digər tərəfin təkzib etdiyi şeyin eynisi deyildir. Əş`arilər* bu mübahisələrə son qoymağa çalışmışdılar. Yanıldıqları məsələlər də olub, doğru söylədikləri də. Onların xətaları bəzi fanatik hənbəlilərin ağıllı kəslər tərəfindən rədd edilmiş uydurmalarından daha ciddi deyildir...

Bugün özlərini hər şeyi bilirmiş kimi göstərənlər sönmüş “tonqal”ı qalamaq, qaladıqdan sonra körükləmək fikrinə düşmüşlər.

Özü də bu cəhdlərə biz elə bir “yoxsul” dövrdə rast gəlirik ki, müsəlmanlar bir parça çörək üçün Qərb elmi və praktikasına möhtacdırlar. Həm ağlamalı, həm də gülməli vəziyyət yaranıb: bu çoxbilmişlər qeyb məsələləri ətrafında elə bir dövrdə mərəkə qoparmışlar ki, doğma torpaqlarında onlara üstün gəlib, mədəniyyətin ipini təkcə öz əllərində saxlayan avropalılardan dünyəvi elmləri dilənirlər...

Bu çoxbilmişlər Adəmin Allahın surətində yaradıldığını isbatlamaq üçün dəridən-qabıqdan çıxırlar. Bu şəxslərin işlə-

---

* **Əş`arilər**: Sünni kəlam məktəblərindən biri sayılan əş`ariliyin tərəfdarlarına verilmiş ad. Banisi Əbülhəsən Əli ibn İsmayıl əl-Əş`əri olan əş`ərilik mötəzilənin “ilahiləşdirilmiş” ağıl, Quranın sonradan yaradılması, ilahi müdaxilənin olmadığı mütləq iradə azadlığı və s. İddialarına qarşı çıxaraq bu iddialara meydan oxumuşdu. O bildirirdi ki, ağıl islamın irrasional mahiyyətlərini (qeyb məsələləri və s.) izah etmək gücünə sahib deyil – ***tərcüməçinin qeydi***.

rinə dərindən bələd olsan, görəcəksən ki, onların Adəmə aidliyi ancaq və ancaq fizikidir!

Allahın Adəmə bütün adları öyrətməsi baxımından onların ona aidliyinə gəlincə, başqalarının kosmosa uçmalarını, atomu parçalamalarını eşidirlər, amma kütbeyindirlər ki kütbeyin! Onlar sanki başqa dünyada yaşayırlar!

Əgər bu insanlar cəmiyyətdə söz sahibi olsalar, əmin olun ki, islam oyanışı deyilən şey əsla baş verməyəcəkdir!

*Dördüncü fəsil*

# TƏSƏVVÜRLƏRİN REDAKTƏSİ VƏ SAXTAKARLIĞIN ƏNGƏLLƏNMƏSİ

Bəzən Allahın dərgahında elm cihadı hərbi cihaddan daha məqbuldur. Biliklərin sağlamlaşdırılması həqiqəti ortaya çıxarır, nəfsə səbat verir, xalqları məqsədlərinə çatdırır.

Böyük dövlətlərlə kiçik dövlətlərin elmi-mədəni sahədəki sazişlərini nəzərdən keçirirəm. Məlum olur ki, güclü və hegemon dövlətlər mədəni-elmi uğurlarından istifadə edib öz ağalıqlarını zəif dövlətlərə qəbul etdirmək istəyirlər. Əgər bu baş verərsə, zəif dövlətlərin bəxtinə həmişəlik məğlubiyyət yazılacaqdır...

Bu səbəbdən bizdə yayğın olan bilikləri diqqətlə araşdırıram. Söhbət fərdi və sosial planda şəxsiyyətimizi formalaşdıran biliklərdən gedir. Quran və Sünnə ilə üst-üstə düşməyən bir məsələyə rast gəldiyimdə, təbii ki, həmin məsələ mənim üçün öz əhəmiyyətini itirir. Və mən bu qəbil məsələlərin elm dünyamıza necə "sızdığını" öyrənməyə çalışıram. Qarşıma yəhudi qissələri (***israiliyyat***), yunan nağılları (***yunaniyyat***) və əcaib ərəb cahiliyyət hekayətləri (***cahiliyyat***) çıxır.

Bəzən böyük adamlar bu "mədaxil"ə aldanır, onun həqiqi olduğunu isbatlamaq üçün əllərindən gələni edirlər. Hətta onların bəzisi iddia edir ki, Ömər ibn əl-Xəttab qadınlara

yazıb-oxumağın öyrədilməsini qadağan edibmiş(!) Əlbəttə ki, bu, uydurma bir rəvayətdir. Çünki Həzrəti Ömərin qızı Həzrəti Həfsə *(Allah onlardan razı qalsın!)* yazıb-oxumağı bacaran savadlı qadın idi. Yaxşı, əgər iddia doğrudursa, yəni yazmağı öyrənmək icazəli deyildisə, onda nə üçün Ömər ona yazmağı öyrətmiş və ya icazə vermişdi ki, başqalarından yazmağı öyrənsin?

Bir bu qalmışdı ki, axmağın biri çıxıb belə desin: "Cahiliyyət dövründə yazmağı öyrəndim. İslam meydana gəldiyində bunu qadağan etdi. Çünki savadsızlıq islamın məqsəd güddüyü şeydir; savadsızlıq islam risalətinin* ayrılmaz "parça"sıdır!"

Fikir vermişəm ki, bizdə yayğın olan bəzi irsi biliklər küfr sayılacaq məqamları özündə ehtiva edir.

Məsələn, sufi İbn Ərəbinin "Məkkə açılmaları" (***əl-Fütuhat əl-Məkkiyə***) adlı kitabının bəzi hissələri ilə tanış olduğumda öz-özümə dedim: "Bu kitaba "Bizans açılmaları" (***əl-Fütuhat ər-Rumiyyə***) adı daha çox yaraşır! Heç Vatikan da bu kitabdakı cəfəngiyat qədər aramıza şər toxumu səpə bilməz...".

İbn Ərəbi 333-cü fəsildə (babda) uzun müqəddimədən sonra yazır:

"Mümkün şeylərin (***mümkinat***) mahiyyətində təzahür etmiş əsas qayda üçlükdür (**təslis**)! "Bir"dən əsla heç nə hasil olmaz (və ya: bir heç nəyi ifadə etmir). Ədədlərin ilki ikidir. İkidən də, əslində bir şey meydana gəlməz. Üçüncü

---

* **Risalət**: ilahi missiya; haqqı yayıb ədaləti bərqərar etmək vəzifəsi – ***tərcüməçinin qeydi***.

onları (bir və ikini – ***mütərcim***) bir-biri ilə əlaqələndirmədikcə onlar bir şey ifadə etmir, bir heç sayılırlar. Əgər əlaqələndirərsə, onda onlardan meydana gələcək şey meydana gələr. Vücudagətirilmədə (***icad*** – hasiləgəlmə, yaradılış, xilqət) üçlük əsasdır. Üç isə tək sayların birincisidir...".

Ömrümdə bundan iyrənc cəfəngiyat oxumamışdım. Şübhə yoxdur ki, bu sözlər xristianlığın üçlük ideyasını rəzil formada əsaslandırmağa xidmət edir. İbn Ərəbi, eləcə də Erkən Səlib müharibələri zamanı Avropanın İslam dünyasına "əkdiyi" batinilik və həşşaşilik* təriqətlərinin mənsubları bu iyrənc qəsbkarlığın "pioner"ləri idilər.

Kim deyə bilər ki, bir heç nə ifadə etmir? Quran deyir ki, edir:

"Allah hər bir şeyin xaliqidir. O, hər bir şeyə vəkildir! Göylərin və yerin açarları (ixtiyarı) Onun əlindədir..." (əz-Zumər, 62-63).

Bu dünyada hər kəsdən nəyi bacarıb-bacarmadığını soruşarlar. Çünki insanlar qabiliyyət və təcrübələrinə görə bir-birindən fərqlidirlər. Yəni, hərəsi bir "bir"i əmələ gətirir. İbn Düreyd də yaxşı deyib:

*İnsanlar var ki, mini birə bərabərdir*
*İnsan da var ki, minləri əvəz edər!*

---

* **Həşşaşiyə**: Orta əsrlərdə Suriyada meydana gəlmiş şiə İsmaililik cərəyanın bir qolu. Həsən Səbbah adlı fanatik bir şəxsin liderlik etdiyi bu qrupun üzvləri öz terror əməliyyatlarını həyata keçirməkdən qabaq uyuşdurucu (ər. həşiş) qəbul edirdilər. Bu səbəbdən onları həşşaşilər adlandırırdılar – ***tərcüməçinin qeydi***.

Sözə bir baxın: "Ədədlər ikidən başlanır (və ya: ilk ədəd ikidir)!" Məgər iki "bir"lərin cütlüyü deyildirmi? Kim iddia edə bilər ki, ikidən də, əslində bir şey meydana gəlmir?! Bunu iddia edən kəs anası və atasından əmələ gəlməyibsə, onda bəs kimdən əmələ gəlib?

Buna baxmayaraq, İbn Ərəbi "üç üqnüm" inancı haqqında cəfəng sözlər söyləməkdə davam edir:

"Abidlərdən elələri vardır ki, bütün bunları ibadət və əməllərində cəmləyib. Və üçlük əsl sayıldığı üçün hər bir işdə kara gəlir!"

İbn Ərəbi aşağıdakıları söyləməklə axmaqlığın zirvəsinə ucalır:

"Doğrudan da, Allah üçlüyü təsdiqləyənləri kafir, yəni həqiqətin bəyanını örtüb-saxlayanlar adlandırmışdır. Allah deyir: "Allah üçün (üç tanrının) üçüncüsüdür!" – deyənlər, əlbəttə, kafir olmuşlar"[1]. Çünki üçlüyü təsdiqləyənlər (xristianlar) aşkara çıxarılmalı şeyi lazımınca açıqlamamış, örtüb-gizlətmişlər. Əgər açıqlasaydılar, bizim dediklərimizi (yuxarıda üçlüklə bağlı deyilənləri nəzərdə tutur – ***mütərcim***) deyərdilər..."!

Bu axmaq insan ayədəki ilk cümləni qeyd etməklə kifayətlənmiş, sonrakı – izahedici cümləni göstərməmişdir. Eyni ayədəki həmin cümlə budur:

"...Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan kafir olan-

[1] "əl-Maidə" surəsi, 73-cü ayə.

lara, şübhəsiz ki, şiddətli bir əzab üz verəcəkdir (toxunacaqdır)" (əl-Maidə, 73).

Bu ki məqsədli fırıldaqçılıqdır, qəsdən haqqı gizlətməkdir!

Bu bərbad, iyrənc sözlər "islam təsəvvüfü" adlandırılan şeydə, doğrudan da, mövcuddur! Müsəlmanın avamı da, alimi də bu sözləri oxuduğunda aşkar xristianlıq ruhunun olduğunu görəcəkdir.

Diqqətəlayiqdir ki, Sorbon universitetinin nəzdindəki İslam Araşdırmaları İnstitutu ərəb ölkələrinin biri ilə İbn Ərəbinin həmin kitabını 30-dan çox cilddə nəşr etmək barədə razılığa gəlib[1].

Belə bir çətin günlərdə bu işi kimlər və nə üçün həyata keçirirlər? Hər bir halda biz müsəlmanları mötəbər elmi mənbələrinə geri qaytarmaq istəyirik və onlara çağırış edirik ki, Doğru Vəhyin təsdiqləmədiyi təlimləri yaxına buraxmasınlar! Allaha şükür ki, bizdə batilin sirayət etmədiyi bir kitab – Quran var! Hələ Sünnəni demirəm; hafizlər, fəqihlər onun düzgünlüyünü elə bir şəkildə isbatlamışlar ki, buna digər bəşəri irslərdə rast gəlmək mümkün deyildir...

Hicri XV (miladi XX) əsrdə bütpərəstlərin xurafatları ilə yanaşı, Kitab əhli müəlliflərinin də cəfəng fikirləri mədəniyyətimiz və missiyamıza tənə vuran yazılar və mühakimələr halında aramızda yayğınlaşdı. Əslində, bu yazı və mühakimələr xalqın elmi-mədəni səviyyəsini yüksəldib, indisini

[1] Kitabın səkkiz cildi artıq çap olunub.

uzaq keçmişi ilə əlaqələndirməyi qarşısına məqsəd qoyan islam oyanışına badalaq vurur.

Biz bu cür cəhdlərə qarşı ayıq-sayıq olmalı, pusqu qurmalıyıq. Amma mən diqqəti sahibini öldürmüş ayının hekayəsinə yönəltmək istəyirəm*. Dinimiz həm səmimi, həm də nankor olan həmin "ayı"nın balalarının əlindən nələr çəkməyib?! Bizim də başımıza yarımçıq tələbələrin ucbatından azmı şey gəlib?! O "tələbə"lər ki, nə bildiklərində, nə də bilmədiklərində Allahdan qorxurlar (yəni: bilsələr də danışırlar, bilməsələr də)! Onlar istəyirlər ki, ümmət gerilik və biabırçılıq (rüsvayçılıq) zülmətindən qurtulmasın.

*** *** ***

Mədəni saxtakarlıq islam ümmətinin həm keçmişdə, həm də bugün düçar olduğu qara vəbadır. Elm əhli ona qarşı cəbhə açmalı, onu heydən salıb, əsil üzünü aşkara çıxarmalıdır. Bu saxtakarlığın kökünü tam kəsməliyik ki, ümmət rahat nəfəs alıb ağ günə çıxsın. Əks halda, onun qalıqları orada-burada gizlənib-qalar, qəflət sahiblərinin gözünə kül üfləyib onları ovsunlayar. Odur ki, ədalətli alimlər ayıq-sayıq olmalı, "müalicə"ni tam şəkildə aparmalıdırlar.

---

* Hekayədə deyilir ki, sahibi ayıya bir yaxşılıq edib onu düşdüyü tələdən qurtarıbmış. Ayı da bu yaxşılığın əvəzini çıxmaq istəyir. Bir dəfə sahibi yatdığı zaman alnına milçək qonur. Arı milçəyi hey qovsa da, milçək əl çəkmir. Nəhayət, ayı milçəkdən biryollu xilas olmaq qərarına gəlir. Milçək adamın alnına qonduqda ayı əlinə daş alıb onu öldürmək istəyir. Milçək uçur, daş adamın başını parçalayır – ***tərcüməçinin qeydi.***

Saxtakarlığın forması dövrdən dövrə dəyişir. Amma bütün növ saxtakarlıqları eyni xəstəlik doğurur. Bu xəstəlik Quranı unutmaq, onun üzərində düşünüb dərs çıxarmağı, ondakı məna və hökmləri qavramağı bacarmamaqdır...

Vaxtı ilə İbn Ərəbi demişdi:

"Əslində, Firon tövbə etmiş, Allah da onun tövbəsini qəbul buyurmuşdu. Təmizlənmiş halda ölmüş, Allahın dərgahına müsəlman olaraq getmişdir!"

Allah təalanın Firon haqda dediklərini oxumuş bir kəs dilinə bu sözləri gətirərmi?! Allah buyurur:

"(Firon) qiyamət günü camaatının qabağında gedib onları atəşə (Cəhənnəmə) aparacaq; Onların düşəcəkləri yer necə də pisdir!

Onlar burada (dünyada) da, qiyamətdə (axirətdə) də lənətə düçar olmuşlar. Onların qisməti necə də pisdir!" (Hud, 98-99).

Təsəvvür edin ki, Firon, əvvəlcə, camaatını aparıb Cəhənnəmin keşikçisinə təhvil verir, sonra da hörmət-izzət içərisində qayıdıb gedir Cənnətə!!! Necə də iyrənc saxtakarlıqdır!

Nə Qırmızı dənizin, nə Qara dənizin, nə də Aralıq dənizinin suları Fironu yuyub paklamayacaqdır. Hərçənd ki, batdığı anda demişdi:

"..."İsrail oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən artıq (Ona) təslim olanlardanam!" – dedi" (Yunis, 90).

İbn Ərəbi, doğrudan da, yalançıdır, haqqı danandır... Keçmiş dövrlərin elmi saxtakarlıq nümunələrini bir kənara qo-

yub, keçək yeni saxtakarlıqlara. Hey səs-küy və haray-həşir qoparan bir islam "hərəkat"ına rəhbərlik etdiyini car çəkən şəxs deyir: "İslam hücum müharibəsinə əsaslanır, hərbi ekspansiyalara söykənir, başqaları ilə münasibətlərdə qılıncdan əsas tənzimləyici vasitə kimi istifadə edir". Bu da azmış kimi həmin şəxs bu əcaib fikirlərə arqument də tapır: "Peyğəmbər Mədinədən ona görə çıxmışdı ki, Qüreyşin karvanına hücum etsin. Peyğəmbər məhz bu yolla əmin-amanlığı təmin edirdi. Onlar düşmənin hərbi təcavüzünə məruz qaldıqları üçün Mədinədən çıxmışdılar!"

Bu, olduqca "sısqa" və puç iddiadır. Mədinədəki müsəlmanlar öz yurdundan çıxarılmışdılar; var-dövlətləri müsadirə olunmuşdu, inancları və ibadətləri təhqir edilmişdi; din qardaşları əzab-əziyyətə düçar qalmış, hüquqları ayaqlar altında atılmışdı.

Müsəlmanların bütün bunları törətmiş düşmənlərin hərbi təcavüzünə məruz qalmağı faktını hücum (həmlə) müharibəsi necə adlandırmaq olar axı?! Bir o qalmışdı ki, yəhudilər indiki dövrdə ərəbləri çağırdığı kimi, biz də mədinəli müsəlmanları terrorçu deyə çağıraq! Ərəbləri ev-eşiklərindən didərgin salan da onlardır, terrorçu adlandıran da!

Bəla burasındadır ki, islamın adından danışanların basirətləri sönük, şüurları da cılızdır! Daha dəhşətlisi budur ki, onlar həmin xəstə təfəkkürü islam olaraq təqdim edirlər, barəsində kitablar yazır, strategiya cızırlar.

Bu xəstə təfəkkür sahiblərinin əksəriyyəti bilmir ki, ailənin cəmiyyətdəki rolu nədir? Qadının ailədə oynadığı roldan isə əsla xəbərləri yoxdur. İslamın adından uydurduqları ən

böyük şayiə ondan ibarətdir ki, islam qadına həqarətlə baxır, insan olaraq onun haqlarını tanımır. Dünya ictimaiyyətində belə bir yanlış fikir yayğındır ki, islam qadına düşməndir; ona zülm edir, ucalmaq istədiyində tutub ətəyindən dartır...

Dünyada qadınlar elə güman edirlər ki, islam onlara nifrət bəsləyir, onları həyatdan təcrid etmək üçün ölümü ən münasib vasitə bilir!

Həzrəti Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aləmlərə rəhmət olaraq göndərilmişdi. Qadınların bu ümumi rəhmətdən nəsibi budur ki, bəşəri səviyyələri yüksəlsin deyə savad alsınlar, mənəvi dünyaları təmizlənsin deyə imanlarını artırsınlar, Quranda vacib qılınmış "əmr bil-məruf və nəhy ənil-münkər"* vəzifəsinin öhdəsindən gəlmələri üçün sosial şüura sahib olsunlar...

Qadınları erkəklərə aşna (kəniz, məşuqə) olsunlar deyə bərbəzək içərisində böyüdüb boya-başa çatdırmaq düşüncəsinə gəlincə, bu, heyvan məntiqidir. Özlərini yalandan sələfi adlandıranlar hər nə qədər buna çağırış etsələr də, bu məntiq Erkən Nəsil (***Sələfi-Əvvəl***) müsəlmanlarına yad idi.

Şərəfli Kitabımızda insanlıq münasibətləri qardaşlıq və qarşılıqlı canyandırma prinsiplərinə əsaslanır. Buna rəğmən, mən dövrümüzdə bir müsəlman kişinin qeyri-müsəlman qadınla evlənməyinə xoş baxmıram. Amma mən müsəlman kişi və kitab əhlindən olan həyat yoldaşı arasında sevgi, məhəbbət və dostluq münasibətlərini bərqərar qılan islam hökmünə də "yox" deyə bilmirəm!

---

* Yaxşılığı əmr edib, pis əməllərdən çəkindirmək vəzifəsi.

Bu problemi başa düşmək üçün uzun-uzadı danışmağa gərək yoxdur. Ancaq onu demək istəyirəm ki, Allah bizləri bir-birimizə kin bəsləmək üçün deyil, bir-birimizlə tanış olaq deyə qəbilələr və xalqlar halında yaradıb. Biz başqa insanlarla yaxın olduqda onlara sahib olduğumuz nəcib keyfiyyətləri, dinimizin bəxş etdiyi rəhmdillik və comərdlik xəzinələrini göstərmək imkanı qazanırıq. Məhz bu keyfiyyətlərlə özümüzü onlara sevdirə bilərik. Və bu, onların islama rəğbət bəsləyib valeh olmalarına əngəl törədən sədləri yıxıb uçuracaqdır.

Danılmaz reallıqdır ki, Roma müstəmləkəçiliyi buxovları qırıldıqdan sonra xalqların islamı qəbul etmələri səhabələr və tabein mənsublarının üstün keyfiyyətləri, tərifəlayiq davranışları fonunda sürətlə baş vermişdi.

Bəli, sələflərimizin mülayim əxlaqı, saf davranışları (həyat tərzi) ölkələr fəth etmişdir. Bu fatehlər, əslində azadlıq carçıları idilər: məzlum qardaşlarını azad edir, zülmün buxovlarını qırır, tapdanmış haqlarını geri qaytarırdılar.

Bəli, onlar öz halları ilə insanları islamı seçməyə həvəsləndirmiş sələflərimiz idilər...

Bəs bugün nəyin şahidi oluruq? Nadanlar alimlərə hədə-qorxu gəlirlər! Maniya* xəstələri sağlam fitrət sahiblərini hədələyirlər. Avamlar atomu parçalayanları taxta qılınclarla qorxutmaq istəyirlər! Adi kitabı, bəlkə də heç üzündən oxuya bilməyən savadsızlar ali təhsilli qadınlara "xox" gəlirlər...

---

* **Maniya**: bir şeyə, bir fikrə həddindən artıq mübtəla olmaqdan ibarət ruhi xəstəlik – ***tərcüməçinin qeydi***.

Məlumdur ki, ABŞ və Avropa mədəniyyəti özündə çoxlu iyrənc ədəbsizlik formalarını ehtiva edir. Məsələn, ingilis tarixçisi Arnold Toynbe öz xalqını yayğınlaşmış bu qəbil eybəcərliklər səbəbindən pozulub dağıla biləcəyi haqda xəbərdar etmişdir.

Biz sövqi-təbii olaraq bu kimi şeylərlə mübarizə aparırıq. Amma ərəb nadanlığının yerinə avropalı nadanlığını gətirməməliyik! Hər ikisi şərdir. Biz şərin yerinə xeyri gətirmək üçün evimizə yalnız islamı dəvət etməliyik.

Bugünə qədər davam edən mədəni-siyasi məğlubiyyətlərimizin "səmərə"si olaraq meydana çıxmış gerilik zindanında buxovlanan bir xalqın islamdan xəbəri yoxdur!

Bu haqq sözləri təkrarlamaqdan əsla usanmayacağam:

"Allahın dini axmaqlardan öyrənilməyəcək qədər şərəflidir!"

## Haqdan qaçmaq

Qərb mədəniyyətində şəhvətin yüyən gəmirməsi Məsihin dini ilə, həvarilərin həyat tərzi ilə əlaqəli deyildir. Çünki bütün peyğəmbərlər, o cümlədən Həzrəti İsa ülviyyətə, əxlaqa, iffətliliyə çağırmışdır. Ola bilməz ki, onlar rəzalətə "hə" desinlər, yaxud da onu təbliğ etsinlər...

İsa peyğəmbərin zina etmiş qadını cəzalandırmaqdan vaz keçməsi haqda bizə gəlib çatan rəvayəti bəzi nadanlar doğru-düzgün başa düşməmişlər. Bu, həmin günahı xoş görmək deyildir, əksinə, insan oğlunun iradəsizliyinə rəhm göstərib tövbə etsin deyə ona fürsət verməkdir. Çünki iyrənc mənəvi xəstəliklərə bürünmüş yəhudilər dindarlıq adı altında özlərini qeyrətli aparır, büdrəmişlərə (zina edənlərə) fürsət vermirdilər...

Bu üzdən İsa peyğəmbər ikiüzlü kahinlərə demişdi: "Aranızdan xətası (günahı) olmayanlar onu daşqalaq etsinlər...".

Həzrəti İsanın bu sözü elə bir çeşmədən axıb gəlir ki, həmin çeşmədən su içmiş peyğəmbərimiz də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* günahlarını etiraf edən bir adamdan eyhamla üz döndərmiş, bununla da ona: "Görürsən, özümü eşitməzliyə vurmuşam, çıx get, tövbəni et" – demək istəmişdir.

Bu da bir reallıqdır ki, əksər dindarlar heysiyyətsizdirlər, hissləri ölmüşdür, zorakılıqdan xoşları gəlir, səhvə yol vermişlərin vəziyyətindən kam alırlar. Bütün bunlar Allahla əlaqə-

nin pozulmasından, dini doğru-dürüst başa düşməməkdən irəli gəlir...

Qərbdə tüğyan edən seksual sapqınlığın səbəblərinə nəzər saldıqda, qarşımıza yunan və roma adətləri çıxır. Bu irsi adətlər Orta əsrlərdə Avropada mövcud olmuş, Yeni dövrdən etibarən yayğınlaşmışdır...

Yunan fəlsəfəsi sapqınlıq və əxlaqsızlığın eybəcər nümunəsi idi. Yunan tanrılarının "yaşadığı" Olimp dağı şəhvətlə, haramla, azğınlıqla dolub-daşırdı... Romalıların vəziyyəti də ürəkaçan deyildi. Məlumdur ki, romalılar xristianlığı qəbul etdiklərində bu səmavi dinə canı-dildən bağlanmadılar, əksinə, xristianlığı öz cəmiyyətlərinə daşıyıb, qədim ənənələrinə uyğunlaşdırdılar; onunla islah olunmadılar, əksinə, təlimlərini korladılar...

Müasir Qərb mədəniyyət meydana gəldiyi zaman sənaye və idarəetmə üstünlüyü ona dünyanın ipini təkbaşına əlində tutmaq fürsəti verdi. Bu mədəniyyət seksual həyat tərzini yaymağa başladı, Roma və Afina əxlaqsızlığını lokal müstəvidən dünya müstəvisinə çıxardı.

Bu minvalla murdarlıq (natəmizlik) yayılmağa başladı: insan bədəninin iyrənc təsvirlərinin (erotik, pornoqrafik şəkil və filmlərin) şahidi olduq; qadın gözəlliyinin nümayiş etdirildiyi sahələr yarandı, nikahdankənar cinsi əlaqə – zina həyat normasına çevrildi və ona "yox" deyənlər "köhnəfikirli" adlandırıldılar.

Bu vəziyyətin yaranmasına iki məsələ öz "töhfə"sini verib: birincisi Qərb mədəniyyətinin açıq-aşkar elmi üstünlüyüdür. İkincisi də Müsəlman ölkələrində tətbiq ediləcək

mötəbər praktik alternativin olmamağıdır! Elə bir alternativ ki, Allahın insanlara bəxş etdiyi fitrətlə üst-üstə düşür, bəşər cəmiyyətini tənzimləyib saflaşdırmada Quran və Sünnə ilə səsləşir...

Amma müsəlman modeli ilə müqayisədə Qərb modelinin üstünlüyü və həmişəyaşarlığını iddia edənlər tapıldı. Bu, haqdan dördnala çapıb uzaqlaşmaqdır. Bəli, bu iddia Qərbi təqlid edən müqəvvaların, deməli, islamı Quran və Sünnə əsasında anlamayan nadanların işidir.

İslam nöqteyi-nəzəri hesab edilən şey, əslində islamdan çox uzaqdır. Bu nöqteyi-nəzər qadına qüsurlu canlı gözü ilə baxır, onu dörd divar arasına salıb, təhsil və özünü inkişaf etdirmək hüququndan məhrum edir; islamın bugünü və sabahı üçün vacib sayılan hər növ sosial-siyasi fəaliyyətdə qadınların iştirakına qadağa qoyur.

Bu zehniyyətə görə, nə qadın başqalarını, nə də başqaları qadını görməlidir! Ona məscidin və ya məktəbin yolunu göstərmək olmaz! Münasib, ciddi sahədə işləməsi yolverilməzdir! "Əmr bil-məruf və nəhy ənil-münkər" işində, islamı müdafiədə ona yer yoxdur!

Şərəf-namus məsələsində qadının sözünü heç kəs dinləmir və o, heç bir işdə ixtiyar sahibi deyildir!

Nikah zamanı heç kəs onun rəyini soruşmur. Bəzən evdə qarısa da, qəyyumları (böyükləri) hesab edirlər ki, ona uyğun birisini tapmaq mümkün deyildir. Bakirə olaraq yaşlaşır, bakirə də ölür!

Diqqətlə baxdıqda görürük ki, ikiüzlülük (səmimiyyətsizlik) qoxusu gələn adət-ənənələr – ikiüzlülük şirkdir – evliliyi insanın qəddini ikiqat edən yükə çevirib. İslam dünyasının şərqində də, qərbində də yayılmış bu qəddar adətlərin nəticəsidir ki, müsəlman gənclər qadına ağır zəhmət hesabına sahib olurlar (evlənə bilirlər).

Bu səbəbdən həmin gənclər Avropaya, Amerikaya getdiklərində ac canavar təki şəhvətlərini təmin edirlər. Çünki halal qapısı ağır rəzələrlə bağlanmış, harama aparan min bir yol açılmışdır!

Deməli, bu qəddar adət-ənənələrə görə, bir ana öz uşaqlarının dərs tapşırıqlarını yerinə yetirib-yetirməməklərinə nəzarət edə, onlara tutarlı fikir söyləyə bilməz. N-e-c-ə? Bəli, düz eşidirsiniz: qadın savadsız olmalıdır!!!

Habelə, qadın öz ümmətinin sionistlərlə, səlibçilərlə olan problemləri haqda heç nə öyrənməməlidir! Əgər o, ümmətinin məhəlli işlərindən bixəbərdirsə, onun beynəlxalq problemlərini haradan bilsin?!

Başqa qadınlara dünyagörüşünü genişləndirmək, uğurlu idarəetməni öyrənmək olar, müsəlman qadınlarına isə olmaz!

Müasir dünyada qadınlar kosmosu fəth edirlər, biz isə fitva veririk ki, qadının evdə namaz qılmağı Peyğəmbər məscidində namaz qılmağından daha fəzilətlidir. Yox, yox, qoy həmin məscidə getsin, amma, yaxşı olar ki, orada özünə qaranlıq bir künc seçsin!

Ağıllı və bilikli insanlar yuxudan tez ayılmalı, modern mədəniyyətin qarşısına sağlam islam alternativi ilə çıxmalı idilər! Onlar hey hücum çəkən fitnəni dayandırmalı idilər. Bu elə

bir fitnədir ki, onu ancaq Peyğəmbər və səhabələrinin zamanında tətbiq olunmuş islam dayandıra bilər, şüursuz başıboşların, dünyaya nümunə olmağı bacarmayanların təmsil etdiyi islam deyil!

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* ordunun arxasınca gedən, tibbi və digər dinc yardımları göstərən qadınları mükafatlandırmışdı...

Qadınlar "Əqəbeyi-kübra" və "Ağacaltı" bey`ətlərində Peyğəmbərə sadiqlik andı içmişdilər. Peyğəmbər eşidəndə ki, bəzi qadınlar kafirlərlə savaşmışlar, bərk sevinmişdi...

Elə isə nə üçün bəzi şeyxlər (alimlər) islamı qadın həbsxanası halına gətirməkdə maraqlıdırlar?

Hal-hazırda bəziləri istəyirlər ki, İslam ümməti bu ikisindən birini seçsin:

a) ya qadını dörd divar arasında həbs etsin;

b) ya da onu küçəyə atsın (yəni küçə qadını halına gətirsin).

Bu, iki şərdən birini seçmək deməkdir!

Nə üçün qadın problemi ilə əlaqədar olaraq, Peyğəmbər və Raşidi xəlifələri dövrü əsasında islam alternativi irəli sürülmür?

Dinimiz mədəni və hərbi qəsbkarlıq qarşısında nəticəsi qorxuducu olacaq məğlubiyyətlərlə üz-üzədir. Milçək bal qabına düşüb adamın ürəyini necə bulandırırsa, bəzi müsəlman müəlliflər də Quran və Sünnə "qabı"na düşüb eyni təəssüratı oyadırlar...

Elə dəvətçilər vardır ki, Qiyamət günü fitnəkarlar olaraq dirildiləcəklər. Çünki onlar dövrümüzdə islama dair yanlış təsəvvürlərin yaranmağına səbəb olur, Allaha və peyğəmbərinə əziyyət edirlər. Elə bil ki, bu insanların vəzifəsi insanları Allahın yolundan uzaqlaşdırmaqdır.

## “Nəfsə qul olmaq” problemi

Həqiqəti bilməyənlər bəzən hirslənir, bəzən də özlərindən çıxa bilirlər. Amma elə ki həqiqəti öyrəndilər, sakitləşirlər, danışıqlarına da mülayimlik qonur. Bir çox xoşagəlməz davranışların, əxlaqdan kənar hərəkətlərin və qarşı tərəfi kiçik görməyin kökündə cəhalət (nadanlıq, bilməmə) gizlənir.

Belə olduqda çatışmazlığı aradan qaldırmaq asandır: yetər ki, həmin kəsə həqiqəti başa salasan, gözündəki pərdəni qaldırasan. Vay o gündən ki, cahil adam həqiqəti görsün, amma nadanlığının daşını atmasın, xətasını da boynuna almasın! Çünki öyrəndiklərinin ona faydası toxunmaz.

Aydın məsələdir ki, bəzi insanlar müalicəsi qeyri-mümkün gizli xəstəliklərdən əziyyət çəkirlər. Elmin çoxluğu bəzən bu xəstəlikləri müalicə etmir, əksinə, gücləndirir, onların məhvedici təsirini intensivləşdirir. Bəlkə də, məhz bu cəhət yüksək elmi dairələrə aid bəzi insanların “səthiliy”inə aydınlıq gətirir.

Əvəz Mənsurun bir yazısını oxumuşdum. Elmi saxtakarlığa imza atmış bəzi “alim”lərdən bəhs edirdi. Məqalədə oxudum:

“Ağrıdıcı haldır ki, həmin saxtakarlardan biri də iordaniyalı bir gəncdir. Adı İlyas Səbtidir, professordur, 27 yaşı var. “Sayns” jurnalının 1980-ci il iyun ayı nömrəsində bildiril-

mişdir ki, İlyas Səbti başqalarının yeddi araşdırmasını mənimsəmiş, müxtəlif elmi nəşrlərdə öz adına çap etdirmişdir!

Professor Səbti 1977-ci ildə İordaniyadan ABŞ-a köçmüş bir həkimdir. Virciniya universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. Təkcə 1979-cu ildə 60 elmi araşdırması nəşr olunmuşdur. Yeddi araşdırmasının saxta olduğu üzə çıxdıqdan sonra Virciniya universitetindən qovulmuş, Boston universiteti Tibb fakültəsində proqram layihəsi rəhbərliyindən istefa etməsi tələb olunmuşdur.

Amerikanın iki məşhur tibb kolleci (bizdəki kollec nəzərdə tutulmur – ***mütərcim***): Con Hopkinz və Harvard kollecləri rəhbərliyi etiraf etmişdir ki, bir elmi işçinin tibbi tədqiqatlarının bir sıra nəticələri saxtadır.

Hətta bir professor öz həmkarlarının 40 araşdırmasını öz adına nəşr etdirmişdir. İş o yerə çatmışdır ki, bu saxtakar insan bir müəllifin məqaləsini ondan qabaq öz adına çıxıb çap etdirmək qədər zirək tərpənmişdir".

Hələ qədimdən mütəfəkkirlər demişlər ki, biliklə fəzilət (tərifəlayiq keyfiyyətlər, davranışlar) arasında heç bir əlaqə yoxdur. Əgər olsaydı, bilikli şəxslər onlara yaraşmayan xətaları əsla işləməzdilər.

Müsəlmanlar Məkkədən Mədinəyə köçdüklərində israiloğullarından səmimiyyət və comərdlik gözlədilər. Necə də olsa Kitab əhli idilər! Yəhudilər adi sevgini müsəlmanlardan əsirgəsələr də, müsəlmanlar onlarla dinc yaşamaqda xəsislik etmədilər! Yəhudilər bədgümanlıq girdabında idilər. Onlar müsəlmanlara müşriklərdən daha çox nifrət edirdilər. Quran ayəsi endi, müsəlmanların sadəlövh duyğularına düzəliş verdi:

"(Ey möminlər!) İndi onların (yəhudilərin) sizə inanacaqlarına ümidmi edirsiniz? Halbuki (Musa dövründə) onların içərisində elələri vardır ki, Allahın kəlamını (Tövratı) dinləyib anladıqdan sonra, onu bilə-bilə təhrif edirlər" (əl-Bəqərə, 75).

İnsan nəfsi kin-küdurətlə gəzib-dolaşırsa, onun istəklərinə boyun əyirsə, bu nəfsin qarşısını heç nə kəsə bilməz...

İblis çox şeyi bilirdi. Düşünürdü ki, yer üzünə varis çıxmağa ("xəlifə" təyin olunmağa) Adəmdən daha layiqdir.

Hesab edirdi ki, "metal"ı bərk (iradəsi möhkəm), enerjisi tükənməzdir. Güman edirdi ki, Adəmlə, zürriyyəti ilə baş verəcək istənilən qarşılaşmadan dühası və hiyləgərliyi sayəsində qalib ayrılacaqdır...

Bu səbəbdən Allah təalaya demişdi:

"...Bir de görək (məni oddan, bu Adəmi torpaqdan yaratdığın halda) nə üçün onu məndən üstün tutdun? Əgər (məni öldürməyib) qiyamət gününə qədər mənə möhlət versən, az bir qismi istisna olmaqla, onun nəslini öz hökmüm altına alaram (və ya yoldan çıxarıb kökünü kəsərəm)" (əl-İsra, 62).

İblis Adəmə gülmüş, onu cənnətdən çıxarmağı bacarmışdı! O, hələ də Adəmin övladlarının çoxunu qəflətə salmaqda, xilas qapısını üzlərinə bağlamaqdadır...

Amma iblis bütün məxluqatın Allahla əlaqəsindəki Başlıca Həqiqəti nəzərdən qaçırmışdı! Unutmuşdu ki, sınıb məğlub olsa da, rəbbinə olan ümidini itirməyən qulu Allah təala özünəvurğunluq xəstəliyinə tutulmuş təkəbbürlü quldan üstün tutur!

Unutmuşdu ki, tövbə edən asi qul təkəbbürlü itaətkardan Allahın nəzərində daha sevimlidir!

Adəm və zövcəsinin dedikləri[1] onlara Allahın razılığını qazandırdığı halda, İblisin söylədiyi[2] onu rəzillərin rəzili etmişdi.

Allaha qulluqla müşayiət olunmayan geniş biliyin, əngin elmin heç bir dəyəri, qiyməti yoxdur...

Özünəvurğunluq, deməli, nəfsə ibadət şirkin ən pis formasıdır. Bu səbəbdən alimlərimiz yekdilliklə təsdiqləmişlər ki, qəlbin asiliyi əzaların asiliyindən daha pisdir.

İblisin məntiqi başdan ayağadək böhtan və səfehlikdən ibarətdir. Onun "təbiət"i Adəmin "təbiət"indən daha şərəfli deyildi. Adəmə mələkləri aciz buraxan elm öyrədilmişdi. Həmçinin, Adəm qurub-yaratmış, iblis isə uçurub-dağıtmışdır. Qurub-yaradan hara, vurub-yıxan hara!

Kəndli tarlasında bir-neçə ay çalışır ki, sünbüllər yetişsin. Bir ziyankar gəlib tarlaya od vurur, bir-neçə dəqiqə içərisində bütün məhsulu məhv edir. Elə isə onlardan hansı daha şərəflidir?

Qeyd olunası başqa bir məqam da var. Zəkalıya zəkanı, istedadlıya istedadı verən kimdir? Allah! Elə isə nemət bəxş edilmiş kəsin həmin nemətin sahibinə nankorluq etməsi, baş

---

[1] "...Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq! ..." (əl-Əraf, 23).

[2] "...Mən ondan daha yaxşıyam (daha üstün, daha şərəfliyəm). Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmışsan!" (Sad, 76).

qaldırması doğrudurmu? Nemət Allahın əlindədir, istədiyinə də bəxş edir. Ayədə deyildiyi kimi:

"(Allah) Öz nemətini istədiyi şəxsə aid edər. Allah böyük kərəm sahibidir!" (Ali-İmran, 74).

İbn Ətaullah əs-Səkəndərinin də sözü bu məqamda yerinə düşür:

"Səni tərifləyən şəxs, əslində Allahın sənə verdiyi nemətləri tərifləmişdir. Odur ki, böyüklük səni tərifləyəndə deyil, səni həmin tərifə layiq gördürəndədir".

Adəmin oğullarından biri Ağılsız Mütəkəbbirin (İblisin) təşəxxüs satdığı həqiqətdən xəbərdar idi: İblis lovğalanaraq özünü Adəmdən üstün tutmuş, sonra isə onun bəzi övladlarına qarşı öz "əsgər"lərini yetişdirmişdir. Allaha yaxın olduqdan sonra Ondan uzaqlaşmaq necə də şər davranışdır!

Təəccüblüdür ki, nəfsə ibadət xəstəliyi İblisdən bəzi dindarlara da keçmişdir. Bu dindarlar eyiblərini düzəldib, dinə güc qatmaq əvəzinə, nəfsləri ətrafında dövrə vurur, ibadətlərini riya ilə, nəfsə itaətkarlıqla zay edirlər. Hədislərin birində deyilir ki, Qiyamət günü məhz belələri ilk olaraq cəhənnəmə vasil ediləcəklər[1]. Faydasız elmdən Allaha sığınırıq...

Özlərini dindar adlandıran bəzi insanlara baxıram: çöhrələrini qaraqabaqlıq basıb, xasiyyətlərində mənfurluq vardır; heç nə üstündə digərlərinə qarşı dikbaşlıq edirlər...

Unudurlar ki, din Allah naminə təvazökar davranmaqdır, əxlaqda mülayim olmaqdır, fərd və camaat üçün Allahdan

---

[1] Hədisi Tirmizi rəvayət etmişdir.

bağışlanma diləməkdir, zahirdə və batində Allahın rəhmətinə möhtaclıq hiss etməkdir. Onlar az elm və bol iddialarla Cənnətə aparan yolun onda doqquzunu qət ediblərmiş kimi başqalarına çəp-çəp baxırlar...

Xeyir görsələr, üzlərini yana tutarlar, şər görsələr, böyüdərlər. Şair də gözəl deyib:

*Qulaqları şəkk-şübhə duyarsa, sevinclərinin həddi-hüdudu olmaz,*
*Saleh əməl haqda eşitdikdə yorğunluq hiss edər, qeybə çəkilərlər.*

Onlar öz elmi dühaları iləmi öyünürlər? Elmi səviyyələrinə baxıram: kainata, təbiətə dair bilikləri sıfırdır, humanitar elmlərdən də xəbərləri yoxdur. Dini biliklərinə gəlincə, bəlkə də, ikinci dərəcəli fiqhi məsələlər haqda nəyisə öyrənmişlər. Amma bu biliklə Qiyamət günü mizan-tərəzinin gözünə vəzndə ağır bir şey qoymaq mümkün deyildir... Yerdə qalanı isə vəhşət küləyinin əsdiyi bir boşluqdur...

Bu ümmətin başına həmin adamların gətirdikləri bəlalar necə də dəhşətlidir!

# İsgəndəriyyə kitabxanası və mədəni qəsbkarlıq

Müasir dövrdə mədəni qəsbkarlıq düşüncəmizi zəhərləmək, ümmətimizi əzmək üçün süni peyklərdən belə istifadə edir. Odur ki, müdafiəni gücləndirib hücumları dəf etmək üçün gücümüzü birləşdirməli idik. Amma abırsızın biri gəlib dikbaş-dikbaş deyir: "Cəhmiyyəyə* savaş açmaq lazımdır!"

Düşmən dünənin düşməni, meydan köhnə meydan, vasitələr də ənənəvi vasitələr deyildir! Yeni düşmənlər, yeni savaş meydanları, yeni vasitələr ortaya çıxıb! Quran və Sünnəyə xidmət göstərmək üçün yeni düşüncəyə, uzaqgörənliyə ehtiyac vardır!

Kitab əhlinin xəstəliyi bir qrup müsəlmana da sirayət edib, ağılları qısırlaşıb, qəlbləri də daşlaşıb. Dilləri ancaq hərzə-hədyan danışar, görünüşlərinə də təkəbbür hakimdir!

Bir dəfə dostum və mən elmi söhbətlərin birində iştirak edirdik. O tip insanlardan biri mənə yaxınlaşdı: "Siz hələ də Əzhərdə üç dinimi tədris edirsiniz?" Üç məzhəbi: İmam Əbu Hənifənin, İmam Malik və İmam Şafeinin məzhəblərini nəzərdə tuturdu. Üzünə baxdım, ümmətin halına acıdım...

---

* **Cəhmiyyə**: Cəhm ibn Səfvanın yaratdığı cərəyanın adı. Cəhmilər iddia edirdilər ki, insan heç bir iradəyə sahib olmayıb, daşlar və minerallar kimi, cansız təbiətin bir parçasıdır. Habelə, cəhmilər düşünürdülər ki, cənnət və cəhənnəm əbədi deyildir – ***tərcüməçinin qeydi.***

Müasir islam oyanışı belələrindən uzaq tutulmalıdır ki, inkişaf etsin, genişlənsin.

Avropa və Amerika universitetlərində islamı qeyri-obyektiv şəkildə tədris edirlər. Tədris və tədqiqat metodikası ağ yalanlara əsaslanır. Professorlar ya qəlblərinə əsrlərin kin-küdurəti kök salmış yəhudilərdir, ya sanki həyatlarını müdafiə edirmişlər kimi, Allaha müharibə elan edən ateistlərdir, ya da Məhəmməddən qan axıdıb intiqam almaq istəyən səlibçilərdir!

Bəli, Qərbdə azad, obyektiv araşdırmalar aparılmır. Əksinə, bu günlərdə Sorbon universitetinin İslam tədqiqatları bölməsi bəzi elm adamları və ədiblərimizlə ortaq olub, İbn Ərəbinin "əl-Fütuhat əl-Məkkiyyə" əsərini nəfis tərtibatda çap etdirmək fikrinə düşüb. Qərb İbn Ərəbinin fikirlərini İslam dünyasında yaymaq istəyir, çünki Avropanın həmin fikirlərə ehtiyacı vardır[1]...

Parisdə İslam Tədqiqatları Mərkəzinin sədri, professor Ərkunun[*] Qərbə dost, Quran və Sünnəyə isə düşmən münasibəti bizi üzmüşdür. Onun "qızdırmalı" fəaliyyəti ərəblərin və müsəlmanların əleyhinə yönəlib.

Biz əvvəlki yazılarımızda professor Ərkunun sirrini faş edib, İslama olan mövqeyini təfsilatı ilə üzə çıxarmışıq.

---

[1] Beyrutdakı bir mərkəz Ərkunun əsərlərinin tərcümə və nəşri ilə məşğuldur. İstəyirlər ki, saxta fikirlər islam coğrafiyasında özünə yer etsin, elmi stabilliyə xələl gətirsin. Zir-zibili zər-zibaya bükmək buna deyərlər!

[*] **Məhəmməd Ərkun (1928-2010)**: Əlcəzairli mütəfəkkir, akademik-araşdırmaçıdır – ***tərcüməçinin qeydi.***

İbn Ərəbinin görüşlərini yaymağa çalışmaq ümməti azdırmaqdır, zülmətə soxmaqdır. Və ya bu, bütün ziddiyyətlərə "hə" deyən üzüyola din anlayışını formalaşdırmaqdır. Çünki İbn Ərəbinin qəlbi, özünün də dediyi kimi, rahiblər üçün monastır, məcusilər üçün atəşgah, bütpərəstlər üçün Kə`bədir. Bu qəlbdə həm "təslis"*, həm tövhid, həm inkar, həm də iqrar vardır...

Allahın "(Ya Rəsulum!) Həqiqətən, kafirlik edənləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır..." kəlamını[1] İbn Ərəbi aşağıdakı kimi təfsir etmişdir:

"Burada söhbət ixlaslı Allah dostlarından gedir. (Ayədəki) "kafirlik edənlər" Allaha olan sevgilərini gizlədən şəxslərdir. Allah onların qəlbinə möhür vurduğu üçün oraya Ondan savayı kimsə girə bilməz. Gözlərinə möhür vurduğu üçün Onun nurundan qeyrisini görməzlər. Qulaqlarına möhür vurduğu üçün Ondan qeyrisini eşitməzlər. Bununla da, sənə iman gətirməzlər, ey Məhəmməd!" ... !!!

Bu "irinli" sözlər səlibçilərə və onların taylarına gözaydınlığıdır. Qahirə və Paris ortaq olub, bu fikirləri daha geniş müstəvidə yaymaq istəyirlər!!!

Soruşuram: "İbn Ərəbinin məlum kitabının çapının Elm və İncəsənət Ali Məclisinə nə aidiyyəti var? Nə üçün Elm və

---

* **Təslis**: xristianlıqda üç üqnüm inancı. Bu inanca görə, tanrı üçdür, yəni ata, oğul və müqəddəs ruhdan ibarətdir – ***tərcüməçinin qeydi.***

[1] "əl-Bəqərə" surəsi, 6-7-ci ayələr.

İncəsənət Ali Məclisi Sorbon professorlarına: "Bu işdə Əzhərlə məsləhətləşin, onun rəyini öyrənin" – demir?!"

Əyyubilər sülaləsinin (1171-1250) zamanında Əzhər alimləri İbn Ərəbinin ideyalarını rədd etmiş, barəsində "kafirdir" hökmü çıxarmışdılar. Cəzasını çəkmək üçün İbn Ərəbi həbsxanaya salınsa da, "dostlar"ı onu qaçıra bilmişdilər.

Məlik Kamil (1218-1238) – Onun səlibçilərə olan münasibəti Ənvər Sadatın (1918-1981) sionistlərə olan münasibətindən fərqli deyildi – İbn Ərəbinin sərbəst buraxılmasına kömək etmişdi. Etmişdi ki, batiniliyin digər öndərləri kimi o da daxili cəbhənin parçalanmasına öz "töhfə"sini versin, əqidə və əxlaqımızı korlayan ideyalar yaysın, davamlı siyasi-hərbi işğallara qarşı müqavimətimizi zəiflətsin...

Mədəni qəsbkarlıq dalğasının gücləndiyi müasir dövrdə İbn Ərəbini yenidən "xortlatmaq" istəyirlər. Özü də Qahirədəki ərəb qurumlarının əli ilə!

Bugün Fransa bizə qarşı tədbir tökür. Fransadakı universitetlərin missionerlik fəaliyyəti müxtəlif yollarla davam edir. Eşitdiyimə görə, Fransanın sosialist təmayüllü bəzi siyasətçiləri deyiblər: "Əlcəzairdəki məğlubiyyətin nəticəsində vaxtı ilə De Qollun ərəblərə verdiyini indi biz "yumşaq" və hiyləgər mədəni qəsbkarlıq yolu ilə geri qaytaracağıq!"

Görəsən, bütün istiqamətlərdə bu qəsbkarlıqla mübarizə aparmaq üçün vaxtında yuxudan ayıla biləcəyikmi?

Mədəni-siyasi və iqtisadi sahələrdə bizi çulğalayan ardıcıl məğlubiyyətlər, islam və əleyhdarları arasında baş vermiş mərəkənin məşum nəticələri məndə bədbinlik yaradıb. Qərbdə yazılmış ensiklopediyalar tariximiz, peyğəmbərimiz,

etiqad və təlimlərimiz haqda hey yalan "toxuyurlar". Başları boş-boş mübahisələrə qarışmış bir qrup alimimiz hədə-qorxulara tuş gələn və məqamı sarsıdılan dinimizi müdafiə etmək üçün hələ də ayılmayıblar, ixtilaf "beşiy"ində mışıl-mışıl yatırlar...

Fransız müəllif Pierre Laroussenin (1817-1875) hazırladığı ensiklopediyada yazılanlara bir baxın:

"Məhəmməd papalıq vəzifəsinə yiyələnməyə can atan bir kardinal idi. İstəyinə çata bilməyəcəyini gördükdə yeni bir din yaratdı, liderlik acgözlüyünü onunla təmin etmək istədi...".

Əgər bu, onların başbilənlərinin sözüdürsə, onda qanmazlardan nə gözləyəsən?!

Öyrənəndə ki, İsgəndəriyyə kitabxanasının yenidən qurulması üçün ciddi-cəhdlə iş aparılır, dilimi dişlədim...

Dinim mənə öyrədir ki, bilik mənbələrinə ehtiram göstərim, kitabxanaların inşasını alqışlayım, onların keşiyində dayanım. Bəli, mən sözügedən kitabxananın inşası üçün çəkiləcək bütün zəhməti yüksək qiymətləndirirəm.

Məni kitabxananın forması, hansı memarlıq üslubunda tikiləcəyi maraqlandırmır. Məni maraqlandıran şey orada oxuculara nümayiş etdiriləcək kitablardır. Eşitdiyimə görə, kitabxana Aralıq dənizi hövzəsində yayılmış müasir mədəniyyəti əks etdirəcək. Nə gözəl! Şimalda yunanlar və romalılar, Fransa və İspaniyada latınlar, cənubda Misir və Böyük Məğrib, şərqdə isə işğal edilmiş Fələstin, "korlanmış" Livan, dünyəvi Türkiyə və Şam (Suriya)...

Bəli, bu kitabxana keçmişdə mövcud idi, ancaq sonralar tarixdən silinmişdir. Onun nə yəhudiliyə, nə xristianlığa, nə də

islama aidiyyəti vardır. Kitabxana yarandığı dövrün mədəniyyətini təmsil edirdi. Görəsən, indiki kitabxana ümumbəşəri səciyyə daşıyıb, dünyanın əsrarəngizliklərini aşkara çıxaran təbiət və sosial elmlərin müasir parlaq inkişafınımı nümayiş etdirəcək? Təki olsun! Bu bizi qane edir.

Amma ehtiyatlanıram ki, sözügedən kitabxana "çürük" fəlsəfi təlimlərə körpü rolunu oynasın, avropalıların yüksək insanlıq keyfiyyətlərindən uzaq keçmişinə kortəbii bağlılığı, heyranlığı təmsil etsin... Onlar bugün bizi yenidən inkar etmək, acizləşdirmək istəyirlər.

Kitabxananın pavilyonları haqda da şübhəli şeylər eşitmişəm...

Bugün islam yaralı dindir: ona mənsub xalqların böyük hissəsi üçüncü dünya (inkişaf etməmiş) xalqlarıdır. Bu xalqların maddi geriliyi və mənəvi (intellektual) tənəzzülü eynidir. Əgər rəflərini Avropa mədəniyyətini təbliğ edən ensiklopediyalar, kitablar, jurnallar, məcmuələr... dolduracaqsa, onda həmin kitabxana qurulmasa yaxşıdır...

Qabaqcadan bilirəm ki, kitabxananı quranlar səkkiz əsrlik Əndəlüs islam tarixi haqda nə deyəcəklər. Qabaqcadan bilirəm ki, Nil vadisi və Şimali Afrika islam mədəniyyəti haqda nə deyəcəklər. Onu da bilirəm ki, onlar Məhəmmədin missiyası əleyhinə olan köhnə irqi haqq-hesabları gündəmə gətirmək üçün dəridən-qabıqdan çıxırlar...

Bu üzdən mən tələb edirəm ki, çoxəsrlik Aralıq dənizi hövzəsi mədəniyyətini əks etdirən həmin kitabxana qurularkən islam ədalətli və dürüst şəkildə təsvir olunsun. Biz əsla və əsla heç bir mədəni qəsbkarlıq forması ilə sülh bağlamarıq!

## Allahın əzəmət şüası

Avropa və Amerikadakı maşınqayırma zavodlarında texniki göstəriciləri yüksək, görünüşü də cazibədar avtomobillər buraxılır. Amma həmin zavodların sahibləri avtomobillərini satdıqdan sonra onlarla əlaqə saxlamırlar. Onlara sürücünün kim olmağı, maşının neçə mil sürülməsi, haraya sürülməsi, harada saxlanması maraqlı deyil. Zavod maşını düzəldər və satar; maşın zavoda, zavod da maşına həmişəlik əlvida "deyər"...

Görəsən, dünyamız da (kainatımız da) – o, hər şeyi ustalıqla ərsəyə gətirmiş Allahın yaradıcılıq məhsuludur – buna oxşardırmı? Allah onu vücuda gətirdikdən sonra sərbəstmi buraxıb? Əsla!!!

Kainatın hər bir nöqtəsindəki hərəkətlilik də, sükunət də Ali Nəzarətin diqqətindən kənarda deyildir. Möminlər həmrəydirlər ki, hər saniyə kainatı baqi tutub, nizamda saxlayan güc – Aləmlərin rəbbi olan Allahdır.

Ay Yerin ətrafında dövrə vurur. Onun gözləri yoxdur ki, getdiyi yolu görsün. Mənzilbaşına çatması və yoluna davam etməsi üçün yanacaq bakına da sahib deyildir. O, yaradıcısının yolgöstərənliyi ilə hərəkət edir...

Yaşadığımız Yer kürəsi də öyrənilməyə layiqdir. Əvvəlcə, yer qabığı, sonra, mantiyası və nəhayət, plazma maddəsindən ibarət nüvəsi tədqiq olunmalıdır və olunur da. İlahi Elm yerin dərinliklərinə dalır, hər bir atoma nizam verir. Əgər

istəsəydi, zəlzələ qoparar, biz də həlak olardıq. Amma o, hər şeyi qaydasında edib və biz bu qayda-qanunların nəticəsini kainatdakı sabitlikdə görürük.

Yer qabığında minlərlə növ bitkiyə rast gəlirik. Hər bir bitki, toxumu torpağa düşüb meyvə gətirənədək Allahın nəzarəti altındadır. Eyni şeyi digər canlılar üçün də söyləyə bilərik...

Qurani-Kərimdə bu haqda deyilir:

"O saatı (qiyamətin nə vaxt qopacağını) bilmək yalnız Ona aiddir. O bilmədən heç bir meyvə qabığından (tumurcuğundan) çıxmaz, heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz. (Allah) onlara (müşriklərə məzəmmət və istehza ilə:) "Şəriklərim haradadır? – deyəcəyi gün, onlar: "(Ey Rəbbimiz!) Biz Sənə ərz etdik ki, aramızda (Sənin şərikin olduğuna şəhadət verə biləcək) heç bir şahid yoxdur!" – deyə cavab verəcəklər" (Fussilət, 47).

Evlərimiz kənardan gələn elektrik enerjisi ilə işıqlandırılır. Alimlər təsdiqləmişlər ki, dünyanın mövcudluğu öz-özünə deyil (və ya: öz substansiyasından irəli gəlmir), əksinə, o, Ali Yaradıcı tərəfindən vücuda gətirilmişdir. Quranda bu haqda oxuyuruq:

"Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar (öz mehvərindən çıxmasınlar) deyə, tutub saxlayır. Əgər öz mehvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da, (Allah) həlimdir, bağışlayandır!" (Fatir, 41).

Bilirəm ki, bu sözlərdə qəribə bir şey yoxdur. Elə bir müsəlman təsəvvür etmirəm ki, bunda şübhəyə düşsün. Am-

ma bəziləri soruşurlar: “Allah dünyanı necə idarə edir? O öz işlərini necə görür? O necə güldürür, necə ağladır, necə öldürür, necə diriltdir? Necə ola bilər ki, O, eyni vaxtda həm kainata, həm də gözlə görülməyən atomlara nəzarət edir?”

Mən bu qəbil suallarla məşğul olmadan da yaşaya bilirəm. Mən oynaqlarımı hərəkətə gətirən ruhun mahiyyətini bilmədən də yaşayıram. Və mən kainatı bürüyən işığın sirrini öyrənmədən də ömür sürməyi bacararam. Yuxarıdakı sualları hər şeyi bilmə həvəsi və hər yerə özünü dürtmə istəyi doğurur.

Bəziləri bu cür suallarla məşğul olub, mühüm nəticələrə gəlsələr də, ziddiyyətlərdən qaça bilməyiblər. Məsələn, bəzi insanlar “varlığın birliyi” (***vəhdəti-vücud***) təliminə inanmışlar. Elə güman etmişlər ki, Allahla kainatın əlaqəsi ruhla bədənin əlaqəsi kimidir. Təbii ki, bu ağılsızlıqdır, dəlilikdir! Bəzi sufilər bu cür düşünürlər...

Bəziləri səbəbiyyət (səbəb-nəticə) qanununun üstündən xətt çəkərək, zənn etmişlər ki, “Hər bir hərəkətin, əməlin icraçısı (səbəbkarı) Allahdır” – deməyənlərin imanı düzgün deyildir.

Onlara xitabən deyirəm ki, varlıq aləmini tənzimləyən “səbəblər” silsiləsi (şəbəkəsi) mövcuddur. Təbii ki, bu səbəblər Ali Qüdrətin nəzarətindədir. Sən nə düşünürsən düşün, Ali Güc ona başlanğıc və son (ölüm), hərəkətlilik və sükunət səlahiyyəti vermişdir.

Qurani-Kərim bizim gördüyümüz və görmədiyimiz varlıqların arxasındakı səbəblər haqda məlumat verir. Allah təala buyurur:

“(Küləklərin sıxdığı) buludlardan şırıl-şırıl tökülən yağmur endirdik ki, **onunla** dən və bitki yetişdirək” (ən-Nəbə, 14-15);

“Göydən sizin üçün yağmur endirən Odur. **Ondan** (o sudan) siz də, içində (heyvanlarınızı) otardığınız ağaclar (və otlar) da içər (ağaclar və otlar da **onun vasitəsilə** bitər)” (ən-Nəhl, 10).

Təbiətdən məlumdur ki, su suvarır, od yandırır, bıçaq kəsir, uşaq böyüyür, qoca ölür, sübh çağı gündüzlə, axşam çağı gecə ilə əvəzlənir.

Quranda göstərilir ki, hətta dilsiz-ağızsız şeylərə ilahi tapşırıqlar verilib. Məsələn, ayədə oxuyuruq:

“O bağların hər ikisi öz barını verdi və bu bardan heç bir şey əskilmədi...” (əl-Kəhf, 33).

Alimlərə görə, burada məcaz vardır. Çünki həqiqi işi görən Allahdır. Səbəblər çoxdur, mürəkkəbdir, “qalaq-qalaq” dır. Biz öyrəşdiyimiz üçün nəticələri onlara aid edirik. Məsələn, uşaq varsa, deməli, evlilik vardır. Amma ər və arvad nə etmişlər ki? Əslində, diqqətlə baxdıqda onlar bir şey yaratmamışlar! Həmçinin, əkilmiş buğda toxumunun yan-başındakı torpaq və sudurmu buğda dənindəki şəkər, nişasta və digər elementləri yaradan?

Habelə, bir balaca sahədə yan-yana müxtəlif bitkilər: qızılgül, nanə, qərənfil, vəzəri bitir. Torpağa “yol göstərən” nədir ki, hər bir bitkini özünəməxsus dadda, qoxu və rəngdə bitirir?

Reallıq budur ki, səbəblər “örtüy”ü bəzi gözlərə çox nazik görünür: onlar yalnız ilahi əlamətləri görürlər. Səbəblər “ör-

tüy"ünü qalın görən gözlər də vardır və bu gözlər hər yerdə ancaq sensual (hissi-maddi) səbəblər ardıcıllığı axtarırlar...

Allahı hər şeyin xaliqi bildikdən sonra gördüyünü istədiyin şeylə ifadə et, eyib etməz. Bizdə əqidəyə "qiymət verənlər"in təsdiqini gözləmə. Onlara görə:

*Kim səbəbləri təsdiqləyərsə, ümmətin nəzərində kafirdir,*
*Kim də ki təbiətdəki gücü qəbul edərsə, bidətçidir.*

Ola bilsin ki, bəziləri desinlər: "Yerin cazibə qüvvəsi insanları, əşyaları yerə çəkir. Nə ki ondan qaçmaq istəyir, onu geri qaytarır, yerə salır".

Madam ki, sən Allahın "Məgər Biz yeri məskən (toplama yeri) etmədikmi – həm dirilərə, həm də ölülərə?! (Yerin altında ölülər yatar, üstündə dirilər gəzib-dolanar)" kəlamına[1] iman gətirmişsən, onda yuxarıdakı sözləri söyləməyində bir qəbahət yoxdur. Ayədəki məskən (toplama yeri) – məxluqatı cəzb edib, əhatələmə yeridir. Cazibə qanunu onu ifadə edir. Baş verənləri bu qanunla əlaqələndirmək qəbahət deyildir...

Suda batmayan cisimlər qanunu da sabitdir. Bu qanun kütlə və çəkiyə münasibətdə suyun bir sıra xassələrini öyrənir. Məgər bu, Ali Gücün əlamətlərindən biri deyil:

"Dənizdə (uca) dağlar kimi üzən (gəmilər) də Onun (qüdrət) əlamətlərindəndir" (əş-Şura, 32).

Gəmilərin üzməsini səbəbə də, həmin səbəbin yaradıcısına da aid edə bilərsən. Həqiqət və məcaz arasında seçim et-

---

[1] "əl-Mürsəlat" surəsi, 25-26-cı ayələr.

mək sənin haqqındır. Mühüm olan şey Allahın əməlinə iman gətirməkdir. O Allah ki, "...(hər şeyi) xəlq etdi və nizama saldı. (Hər şeyin keyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi"[1].

Bir dəfə tələbələrimdən biri mənə dedi: "Quranda məcaz yoxdur!" Ona dedim: "Biz onların boyunlarına dəmir həlqələr (zəncir) keçirtmişik. (O həlqələr) onların lap çənələrinə dirənmişdir. Buna görə də başları yuxarı qalxmış, gözləri aşağı dikilmişdir" ayəsinə[2] nəzər sal. Hanı, haradadır kafirlərin boynundakı həlqələr, göstər onları mənə. Və ya bu ayəyə bir nəzər sal:

"Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də (Allahın qüdrətinə dəlalət edən əlamətləri) görmürlər" (Yasin, 9).

Göstər görüm onların önlərinə və arxalarına çəkilmiş səddi, de haradır bu sədlər?

Oğlum, qulaq as, məcaz Quranda da, Sünnədə də, ərəb ədəbiyyatında da, dünyanın bütün xalqlarının dilində də vardır...".

Qəribəsi budur ki, həmin tələbə başa düşülməyəcək formada müqavimət göstərdi. Mən də ondan tez uzaqlaşdım ki, məni kafirlikdə ittiham etməsin! Başqalarına "kafirdir" – demək dövrümüzdə su içmək qədər asan hala gəlib!!!

Ali Güc hər şeyi fərqli yaratmışdır. Hər bir məxluqda ilahi xəlqetmənin bir nişanəsi görünür. Düşünən beynin də,

---

[1] "əl-Əla" surəsi, 2-3-cü ayələr.

[2] "Yasin" surəsi, 8-ci ayə.

həyəcanlı instinktlərin də, torpağı yarıb çıxan bitkinin də, kənardan tərpədilmədikcə hərəkət etməyən əşyaların da arxasında bu güc dayanır...

Bəziləri iddia edirlər ki, həm ağacı, həm də daşı bu güc yaradıbsa, deməli, hər ikisi eynidir. İnsanı və inəyi həmin güc yaradıbsa, deməli, hər ikisi eynidir, yəni iradələri yoxdur!!!

Təbii ki, bu iddia qəbuledilməzdir. Allah yaratdıqlarına müxtəlif xassələr, keyfiyyətlər, xüsusiyyətlər verib. Hər bir şeyə ayrıca vəzifə, funksiya yükləyib. İnsana ağıl verdiyi üçün onu öz əməllərində cavabdeh edib. Heyvanlarda isə biz bu hala rast gəlmirik.

İnsan təbiətən məchulu aşkara çıxarmaq istəyir. O istəyir ki, Ali Gücün kainat boyu necə "paylandığını" öyrənsin. İstəyir ki, yaradılmış hər bir şeyin arxasındakı güc miqdarını tapsın.

Görəsən, insan beyni bunun mahiyyətini qavramağa qadirdirmi?

Vaxtı ilə İbrahim peyğəmbər *(Ona salam olsun!)* bunu öyrənmək istəmiş və Allaha demişdi: "Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər".

Ona necə cavab verildi? O, həqiqətən də, gördü ki, Allah ölüləri dirildir: kəsib müxtəlif yerlərə qoyduğu quşlar dirildikdən sonra ikinci dəfə həyata qayıtdılar. Bəs o bunun necə baş verdiyini öyrənə bildimi? Əsla! Bu bizim idrakımız xaricindədir.

Biz, insanlar yer üzündə böyük bir missiyanı daşımaq üçün yaradılmışıq. Bizə sağa-sola hərəkət etmək sərbəstliyi verilmişdir. İnsana deyilib: "Ey insan sən gələcəyini yaradır-

san: ya cənnətə, ya da cəhənnəmə düşmək sənin əlindədir". Elə isə ağıllı və ya axmaq birisinin bizim gələcəyi yaratmağımızla Allahın həyatımıza nəzarət edib bədənimizdəki müxtəlif sistemləri tənzimləməsi arasında uyğunluğun necə təmin edildiyini bilməsi mümkündürmü? İnsan belə suallara cavab axtarışında hər nə qədər haqlı olsa da, bu məsələnin mahiyyətinə vara bilmir. Bu məsələdəki acizliyimiz o demək deyildir ki, daş və insan qabaqcadan müəyyən edilmiş mövcudluq, vəzifə və qayə baxımından eynidirlər...

Bu haqda İmam Əbu Hənifə *(Allah ondan razı qalsın!)* deyib:

"Bu, insanlara meydan oxuyan məsələdir. İnsan hara, bu məsələyə (onun dərkinə) güc yetirmək hara! Bu məsələ açarı itmiş kilidə oxşayır. Əgər açar tapılarsa, bilinər ki, onda (kilidin arxasında) nə var. Bu "kilid"i Allahdan nazil ediləcək və özü ilə birlikdə Onun dərgahında nə varsa onu gətirəcək bir bilik aça bilər. Bu bilikdə dəlil və açıq-aşkar sübutlar vardır.

Mübahisə əhli (uzun-uzadı mübahisələr nəticəsində yorulub əldən düşdükdən sonra) demişlər: "Bilmirsinizmi ki, qədərə baxanlar günəş şüalarına baxanlara oxşayırlar. Hər dəfə baxdıqca daha çox çaşqınlığa düşərlər".

Ustadımız Məhəmməd əbu Zəhrə *(Allah rəhmət etsin!)* deyirdi:

"Alimlər bu məsələdə mübahisə girdabına yuvarlanmışlar. Fikirlər haçalanmış, ixtilaf yaranmışdır. Onların ixtilafı rəy çəkişmələrinə açıq bir mövzu ətrafında baş vermişdi. Və bu mövzu barəsində dinin açıq danışdığı mövzulardan deyildir. Sözügedən ixtilaf əqidənin mahiyyəti ətrafında deyil, "haşiyə"si ətrafında yaranmış fəlsəfi ixtilaf idi. Hər bir halda bu

ixtilaf ona dalanları azdırır və həmin kəslər mənzilbaşının harada yerləşdiyini göstərən bir işarəyə rast gələ bilmirlər ki bilmirlər".

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qədərə, onunla gələn xeyrə və şərə iman gətirməyi əmr etmişdir. İmam Buxari rəvayət edir ki, Allahın elçisi buyurub:

"Hər bir şey, hətta acizlik və fərasətlilik də qəza və qədərlədir"[1].

Səhabələr Allah təalanın qüdrətinə iman gətirmişdilər. İnanmışdılar ki, O, hər şeyin yaradıcısıdır. Onlar qədərə də inanırdılar, amma barəsində mühakimə yürütmürdülər. Səhabələr ilahi təqdir (qədər) gəldiyində ayaq saxlayar, asilik etməzdilər...

Müsəlmanlar arasında zehni çaşqınlıq yaratmaq istəyənlər qəza və qədər mövzusunu hey gündəmə gətirirlər. Onlar ilahi təqdirin savabla, axirətdəki cəzalandırma (***iqab***) və dini öhdəliklərlə (***təkalif***) əlaqəsi ətrafında mərəkə qoparıb, söz-söhbət çıxarırlar.

Vaxtı ilə bəziləri İmam Əlidən *(Allah ondan razı qalsın!)* qəza və qədər, onun ilahi mükafatlandırma ilə əlaqəsi haqda soruşmuşdular. İmam Əli bu məsələnin təfərrüatına varmasa da, onlara qaneedici şəkildə cavab verir və axırda deyir: "Allah əmr edir, amma bu əmrdə (insanlar üçün) ixtiyarilik (seçim) vardır. Allah qadağan edir və bu qadağada xəbərdarlıq vardır. Allah (insanlara) öhdəliklər yükləyir, amma bunlar asan öhdəliklərdir. Allaha asi olmaq Onun (bu asiliyin

[1] Hədisi İmam Müslim, İmam Malik və İmam Əhməd rəvayət etmişlər.

qarşısını almaq sarıdan) acizliyi ilə bağlı deyil. Allah peyğəmbərləri insanlara əbəs yerə göndərməyib. Göyləri, yeri və onların arasında olanları da boş yerə yaratmayıb. Bunun əksini kafir olanlar iddia edər. Kafir olanlara da cəhənnəm vardır!"

İmam Əlinin *(Allah ondan razı qalsın!)* dediklərindən məlum olur ki:

a) əmrlərində Allaha itaət etməli, qadağalarından uzaq durmalıyıq;

b) edib-etməməyə qadir olduğumuz məsələlərdə ixtiyar sahibi olduğumuzu bilməyimiz kifayətdir;

v) nəyi etməyimizin vacib, nəyi də etməyimizin doğru olmadığını bilməyimiz bizə bəsdir;

q) bütün bunlarla dərindən-dərinə məşğul olmaq, təfərrüata dalmağı istəmək kilidli qapıya dirənmək deməkdir – bu, heç kəsə fayda gətirmir, çünki açarı itmişdir.

İmam Sadiqin *(Allah ondan razı qalsın!)* bu haqda dediklərinə baxaq:

"Allah bizimlə (bizi yaratmaqla, bizə öhdəlik yükləməklə...) bir şeyi nəzərdə tutmuş və bizdən bir şey etməyi istəmişdir. Bizimlə nəzərdə tutduğu şeyi bizdən gizli saxlamış, bizdən istədiyini isə bizə məlum qılmışdır. Elə isə bizdən istədiyi şeylə məşğul olaq, bizimlə nəyi nəzərdə tutduğu şeylə deyil!"

Bununla da, İmam Sadiq *(Allah ondan razı qalsın!)* Allahın bizə tapşırdığı öhdəliklərdən üz döndərib, Onun bizə yazdığı xeyir və şər (qədər) haqda söz-söhbət qayıranları tənbeh etmişdir. Asilər o adamlardır ki, asiliklərinə Allahın yazdığı ilə (qədərlə) bəraət qazandırırlar (İbadət etməyib, hey günah işləyənlərin: "Mənim bu vəziyyətdə olmağımı Allah istəyir. Çünki bu qədərdir" – demələrində olduğu kimi – ***mütərcim***). Bə-

zilәri dә bu problemi tez-tez gündәmә gәtirirlәr ki, insanların iş görüb, ibadәt etmәk әzmini sarsıtsınlar...

İmam Әş`әri *(Allah rәhmәt etsin!)* hәrәkәtlәrinә görә bir insanın mәsuliyyәt daşımağını "kәsb vә iktisab" sözlәri ilә ifadә etmişdi. Mö`tәzililәr* isә bunu "әmәllәri yaratma" (***xәlqi-fel***) adlandırırdılar.

Müәlliflәrdәn Әhmәd İzzәt "Din vә elm" adlı kitabında yazır:

"Kәlam elminә** aid bu terminlәr (kәsb, iktisab, xәlqi-fel – ***mütәrcim***) formaca müxtәlif olsalar da, mәna baxımından oxşardırlar. Onların әtrafında qruplara bölünmәyin, bir-birini pis adlarla çağırmağın heç bir mәnası yoxdur...".

Müәllif qәnaәtindә haqlıdır. Әksәr hallarda formaca bir-birindәn fәrqlәnәn mәsәlәlәr üstündә gәrәk qruplar, firqәlәr yaranmaya idi...

Qeyd edәk ki, mö`tәzililәrlә müqayisәdә әş`әrilәr*** Allaha münasibәtdә daha etik olmuşlar. Onlar Allahın müdrik

---

* **Mö`tәzililәr:** islam fikri tarixindә ilk rasional cәrәyan sayılan mö`tәzililiyin tәrәfdarlarına verilmiş ad. Banisi Vasil ibn Әta (vәfatı – 749) olan bu cәrәyan yarandığı ilk dövrlәrdә yad rasional tәlimlәrdәn islamı müdafiә etsә dә, sonralar öz rasionallığında ifrata varmaqla hamilik statusundan mәhrum olmuş, mütәkәllim vә üsul alimlәrinin hücumuna mәruz qalmışdır – ***tәrcümәçinin qeydi***.

** **Kәlam**: VIII әsrdә kәnar vә yad tәlimlәrdәn, tәsirlәrdәn islamı müdafiә etmәk mәqsәdi ilә meydana çıxmış dini-rasional mәktәb; islam sxolastikası – ***tәrcümәçinin qeydi***.

*** **Әş`әrilәr**: Sünni kәlam mәktәblәrindәn biri sayılan әş`әriliyin tәrәfdarlarına verilmiş ad. Banisi Әbülhәsәn Әli ibn İsmayıl әl-Әş`әri olan әş`әrilik mötәzilәnin "ilahilәşdirilmiş" ağıl, Quranın sonradan

olduğunu bildirirlər, amma mö`təzililərdə olduğu kimi iddia etmirlər ki, mənafeyə uyğun və daha çox uyğun gələni (***səlah*** və ***əsləh***) etmək Ona vacibdir*. Əş`ərilər təkcə Allahı xaliq (yaradıcı) hesab edir, mö`təzililərdə olduğu kimi, insanın öz hərəkətlərinin yaradıcısı olduğunu söyləmirdilər...

Məlumdur ki, mö`təzililərin bu ifratçılığının arxasında onların qədim yunan fəlsəfəsindən təsirlənmələri dayanır. Kaş müsəlmanlar yunan fəlsəfəsi kitablarını oxumaya, onları tərcümə etməyə idilər. Çünki bunun zərəri xeyrindən çox olmuşdur. Yaxşı olardı ki, Quranın çeşməsinə üz tutaq, ondan "içək", ondan faydalanaq – bu daha mühüm, daha düzgündür...

---

yaradılması, ilahi müdaxilənin olmadığı mütləq iradə azadlığı və s. iddialarına qarşı çıxaraq bu iddialara meydan oxumuşdu. İmam Əş`əri bildirirdi ki, ağıl islamın irrasional mahiyyətlərini (qeyb məsələləri və s.) izah etmək gücünə sahib deyil – ***tərcüməçinin qeydi***.

* Orta əsr Müsəlman dünyasında xeyir və şər məsələsi ətrafında getmiş qızğın mübahisələr "əsləh" (mənafeyə ən uyğun gələn şeyin icrası) problemini də əhatə edirdi. Mötəzili alimlər "əsləh"in Allaha vacib olub-olmamağını müzakirə etmiş, qəribə fikirlər irəli sürmüşdülər – ***tərcüməçinin qeydi***.

## Qurub-yaradanla vurub-dağıdan eyni deyildir

Qiyamət gününə azuqəm budur ki, Allah və peyğəmbəri mənim üçün hamıdan sevimlidir. Allahın əzəmətindən bir şüa qəlbimə düşmüş və mən yolumu tapmışam. O mənə qanan ağıl (dərrakə) verib. Allahdan ricam budur ki, xətalarımı və bilərəkdən etdiklərimi bağışlasın!

Hər bir insanın öz-özünə verəcəyi bir sual vardır: "Görəsən, o, özü, yoxsa rəbbi üçün yaşayır?" Kim ki etdiyi yaxşılıqlarında Allahın razılığını ummuşdur, deməli, qırılmaz bir ipdən yapışıb. Həyatlarını ancaq istəklərini təmin edib, arzularına çatmaq üçün xərcləyənlər isə ziyan içərisindədirlər...

Peyğəmbərlərin imamı (Həzrəti Məhəmməd – ***mütərcim***) bu ilahi təlimatı almış və ona əməl etmişdir. Həmin təlimat budur:

"De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!" (əl-Əraf, 162-163).

Bu səbəbdən Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bildirmişdir ki, gizli xəbislikləri üzündən dinin rövnəqinə (parıltısına) xələl gətirən, təlimləri haqda səhv təsəvvür yaradan qare (Quran oxuyan – ***mütərcim***), mücahid və sədəqə ve-

rən kəs cəhənnəmi alovlandıracaq ilk üç şəxsdir[1]. Allah bizi bundan qorusun!

Bu insanların öz nəfsləri ətrafında dövrə vurmaları (nəfslərini Kə`bə sanmaları – ***mütərcim***) sui-zənni (başqaları haqda bədgümana qapılmağı – ***mütərcim***) onlara gözəl göstərir. Bununla da, onlar başqalarının vəziyyəti və əməllərinə tənə vurarlar...

Belə insanların başında Həzrəti Öməri, Osman və Əlini *(Allah onlardan razı qalsın!)* öldürənlər gəlir. Bu insanlar onları əsassız yerə ittiham etmiş, qanlarını özlərinə halal bilmişdilər. Onların bu "cəsarət"i ifratçılıq idi. Onlar nə ağsaqqallara, nə keçmişdə baş verənlərə, nə də elmə hörmət göstərirdilər. Çünki müəllimləri pis insanlar idi. Onların nadan müəllimlərindən biri vaxtı ilə Peyğəmbərə demişdi: "Ədalətli ol! Bu bölüşdürmədə Allah rizası heç nəzərə alınmayıb!"[2] O,

---

[1] Hədisi Tirmizi rəvayət etmişdir.

[2] Cabir ibn Abdullahın rəvayət etdiyi *(Allah ondan razı qalsın!)* hədisdən götürülüb. Hadisə belə olmuşdu: "Hüneyn" günü Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* insanlara qənimət paylayırdı. Bir şəxs səsləndi: "Ədalətli ol, ey Məhəmməd!" Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* ona belə cavab verdi: "Vay halına! Mən də ədalətli olmasam, kim olacaq ki?! Əgər ədalətli olmasam, ümidimi üzər və ziyana uğrayaram." Bu zaman Həzrəti Ömər *(Allah ondan razı qalsın!)* dedi: "İcazə ver, ey Allahın rəsulu, onun boynunu vurum." Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurdu: "İnsanların: "Məhəmməd öz səhabələrini öldürür", – deməyindən Allah saxlasın! Belə insanlar və tayları Quran oxuyarlar, amma oxuduqları hülqumlarından o yana keçməz".
Bu hədisi İbn Macə ("əl-Müqəddimə", 172) və İbn Hibban ("əs-Səhih" kitabı, "əs-Seyr" fəsli, 4819) rəvayət etmişlər. Şüeyb əl-Ərnauti

insanların böyüyünə ağıl öyrədir, necə bölüşdürməyi, necə ədalətli davranmağı ona başa salmaq istəyirdi!!!

İslam Allahı gözəl şəkildə tanımaqdır, Onun hökmlərinə hərtərəfli riayətdir, Onun ətası və uğuruna doğrudan-doğruya möhtac olmaqdır, xudbinlik və lovğalıqdan uzaqlaşmaqdır, insanlara daşürəklik və yekəxanalıqla deyil, insafla, mehriban nəzərlə baxmaqdır.

Həqiqi və nəfsinə aldanmış dindarlar arasında yaşadım. Gördüm ki, onların bəzisi "üsul"u (Üsul elmini – fiqhin ana prinsipləri elmini – ***mütərcim***) yaddan çıxarır, dinin ikinci dərəcəli məsələlərində (***füruat***) ifrata varır. Onlar islamın adından elə iddialı danışırlar ki, adam dəhşətə gəlir; öz gözlərindəki tiri görmür, başqalarının gözündə saman çöpü axtarırlar.

İbn Mülcəmə görə Əli öldürülməyə layiq idi! Axı o özü Firdovs cənnətinə layiq görülmüşdü!!!

Quran və Sünnəni diqqətlə nəzərdə keçirir və görürəm ki, islam sağlam fitrət, dürüst idrak əsasında şəxsiyyət yetişdirir. Fitrəti korlanıb düşüncəsi "bulanıqlaşan"ların ibadəti puça çı-

---

bildirir ki, hədisin istinadı Müslimin mötəbərlik şərtlərinə görə "səhih"dir. Əlbani də hədisi "İbn Macənin rəvayət etdiyi səhih hədislər" kitabında "səhih" hesab etmişdir.
Hədisi "Ədalətli ol, ey Allahın rəsulu" versiyası ilə Əbu Səidə istinadən Buxari ("Came əs-Səhih" kitabı, "Fəzilətlər" fəsli, 3610), Müslim ("Səhihi-Müslim" kitabı, "Zəkat" fəsli, 1064), Nəsai ("əl-Kübra" kitabı, "Təfsir" fəsli, 11156) və İbn Macə ("əs-Sünən" kitabı, "Müqəddimə" fəsli, 169) rəvayət etmişlər – ***tərcüməçinin qeydi***.

xar, Allahın dərgahında bir şey etməz. "Bunu ancaq ağıllı adamlar dərk edərlər!"[1]

İnsan nəfsinin həqiqi tərbiyəsi bu əsaslara görə aparılmalıdır.

Mən hər hansı bir firqəyə (dini qrupa, camaata) mənsub deyiləm, hər hansı bir məzhəbə də təəssübkeşlik etmirəm. Amma bütün məzhəblərə, təfsir, hədis, fiqh, üsulşünaslıq, kəlam, fəlsəfə (islam fəlsəfəsi nəzərdə tutulur – ***mütərcim***) və sufilik məktəblərinə ədəb-ərkanla, təvazökarlıqla baxır, qərəzliyə yol vermədən haqqı axtarıram.

Nəfsin tərbiyə edilməsində iki şəxsiyyətin görüşlərindən daha çox faydalanmışam. Fərqli təmayüllərə mənsub bu iki şəxsiyyət – İbn Qəyyim əl-Cövziyyə (1292-1349) və İbn Ətaullah əs-Səkəndəridir (1260-1309). Bu mənim şəxsi görüşümdür və heç kəsi onu təsdiqləməyə çağırmıram. Bütün müsəlmanları hər zaman bir araya gətirəcək başlıca qüvvə, hər şeydən qabaq, Uca Allahın kitabıdır, sonra isə, bu kitabı özünə əxlaq rəhbəri bilən, onunla insanlara yol göstərən, ondakı hikmətlə onları tərbiyə edən İdeal Nümunə – Məhəmməd ibn Abdullahdır...

İndiki dövrdə mənən kamilləşmək, nəfsi tərbiyə etmək, açıq və gizli şəhvətlər aləmini tərk edib Allaha üz tutmaq üçün Qurandakı müdrikliyə və Peyğəmbərin həyat salnaməsinə daha çox ehtiyac vardır...

[1] "əl-Bəqərə" surəsi, 269-cu ayə.

Əks halda, bilməliyik ki, Allahın razılığını ummayanlar, nəfslərinə ibadət etmək üçün yatıb-qalxanlar axirət nəsiblərini əldən çıxaranlardır. Quranda beləlləri haqda deyilir:

"Bizimlə qarşılaşacaqlarına (qiyamət günü dirilib hüzurumuzda duracaqlarına, cəzamıza yetişəcəklərinə) ümid etməyənlərin, (axirətdən vaz keçərək) dünyanı bəyənib ona bel bağlayanların və ayələrimizdən qafil olanların – məhz onların qazandıqları günahlara görə düşəcəkləri yer Cəhənnəmdir!" (Yunis, 7-8).

Ayədə Allah təala dodaqları tərpətməkdən daha üstün şey haqda danışır. Bu, qəlbin ayıqlığıdır, ayələrdən qafil qalmamaqdır, nəfsə səmimi öyüd-nəsihət verməkdir, yalnız Allaha təzim etməkdir...

İnsanlarda olana inanıb, Allahda olana şübhə bəsləyənlər necə mömin ola bilərlər axı?! Allahdan qeyrisini daha çox sevənləri mömin adlandırmaq olarmı?! Ayədə deyilir:

"İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir..." (əl-Bəqərə, 165).

O kəsin ki, qəlbi Allah üçün riqqətə gəlmir və o, xeyri əldən çıxarıb zərərə düşməkdən qorxursa, necə mömin sayıla bilər axı?! Onun aşağıdakı ayədən xəbəri yoxdurmu?

"...Bilin ki, Allah sizin qəlbinizdə olanı bilir. Ondan (Allahdan) qorxun..." (əl-Bəqərə, 235).

İslam iki məqama diqqət yetirir. **Birinci**si qəlbdir. Qəlbə sığal çəkir ki, oraya rəğbət və qorxu, səbir və şükranlıq, təvəkkül və sevgi... aşılasın. Bu keyfiyyətlər haqda sufilər çox

danışmış, onları uzun-uzadı izah etmişlər. Onların kitablarında bu barədə zəngin məlumat vardır. Həmin kitabların başında İbn Ətaullah, İbn Qəyyim və digərlərinin kitabları gəlir...

**İkinci**si ağıldır. İslam ağıla əhəmiyyət verir ki, ona müxtəlif hökm və etiqad təlimləri öyrətsin. Fəqih və kəlamçıların kitablarında bu haqda mühüm məlumat vardır...

Ağıl və qəlb bir-birinə möhtacdır, biri digərini şərtləndirir.

Amma görürəm ki, bəzi avam insanların qıcıqlandırıcı "hobbi"ləri vardır. Məsələn, onlar namaza başladıqda təkbir zamanı əllərin qulaq nahiyəsinin altına, yoxsa sinənin yuxarı hissəsinə qədər qaldırmağa, onları göbəyin yuxarısındamı, yoxsa döş qəfəsi üzərindəmi bağlamağa namazdakı xatircəmlikdən (***xüşu***), ayələri düşünərək oxumaqdan daha çox diqqət yetirirlər.

Onları zahiri ayinlər maraqlandırır. Namaz hərəkətləri barədə böyük imamlar fikir ayrılığına düşüblər deyə bu nadanlar onlara tənə yağdırırlar. Bu, köhnə xəstəlikdir. Vaxtı ilə "Böyük imamlar barədəki qınaqların puça çıxarılması" (***Rəf` əl-məlam ənil-əimmə əl-ə`lam***) kitabında İbn Teymiyyə, "İmanın zındıqlıqdan fərqləndirilməsinə dair qəti ölçülər" (***Feysəl ət-təfriqə beynəl-iman vəz-zəndəqə***) kitabında da Əbu Hamid əl-Qəzali bu xəstəliyi "müalicə" etməyə cəhd göstərmişlər.

Formal dindarlığın kökündə əqli qısırlıq və kor lovğalıqdan doğan hallar dayanır. Belə dindarlıq insanı bəzən rəzil vəziyyətə salır. Bir dəfə tələbələrimdən biri mənə yaxınlaşaraq bildirdi ki, "Fəqih və hədisşünaslara görə Peyğəmbərin

sünnəsi" adlı sonuncu kitabımı müdafiə qəbilindən yazı qələmə alıb və nəşr etdirib.

Həmin yazını oxudum və gördüm ki, tələbəm əleyhdarlarıma cavabən yazıb: "Əgər bu kitabın sizə zərəri toxunubsa, onu oxumayın. Amma müəllifin onlarla kitabı vardır ki, qənaətbəxşdir, onları oxuyun. Əbu ət-Təyyibin də dediyi kimi:

*Onun bircə adama zərər toxunduran bir əməli olsa da,*
*Minləri sevindirən minlərlə əməli, xeyirxahlığı vardır.*

Nə edək, işdən çıxarılmış vəzifə adamları ruzi qazanmaq üçün özlərinə hər cür işi rəva görürlər!

Bir dəfə dostlarımdan birinə bütün bunları danışdığımda cavabı belə oldu:

– Sən ki qadının üzü və səsinin "övrət" olduğunu inkar etmisən, ona inzibati-siyasi işlərdə söz sahibi olmaq haqqı tanımısan. Deməli, ən azından, bu yerlərdən sürgün olunmağa layiqsən...

Ona dedim:

– Din dediyin şey budurmu?!

Dedi:

– Belə getsə, onlar sənin əleyhinə iblislə də müttəfiq olacaqlar!

Təkrar etdim:

– Bumu din? Bunamı din deyirsiniz?

Dostum proqnozunda haqlı idi. Mən də, həmçinin! Formal ayinçilər haqda bəd gümana əbəs yerə düşməmişdim...

*Beşinci fəsil*

## HƏQİQİ TƏRBİYƏ HAQQINDA

İti zəka və dərin bilik olan yerdə gözəl əxlaqa və yüksək mənəviyyata ehtiyac vardırmı? Əlbəttə ki vardır! Zəkası dərin, şəri də "bol" insanlara rast gəlmək qeyri-adi hadisə sayılmır. Düşünürük ki, cılız nəfsli insanlara savad, bilik kömək etmir, əksinə, onlar biliklərini artırdıqca pislik və əziyyət "kisə"sinin ağzını daha da gen açırlar.

Dinin nəzəri bilik olub, uzun-uzadı mütaliələrə əsaslandığını hesab etməyimiz xəta olardı. Əgər din nəfsi istəkləri cilovlamasaydı, xarakteri tənzimləməsəydi, bizə nə fayda gətirər, nə də xeyir toxundurardı.

Quranda deyilir ki, nəfsi saflaşdırmaq (***təzkiyə***) üçün müxtəlif ibadətləri yerinə yetirmək şərtdir. Mənən təmizlənmək, həm də düzgün tərbiyə olunmaq deməkdir. Bu, insan xarakterini çatışmazlıqlardan, əyriliklərdən təmizləməkdir, bütün instinktləri iman gətirmiş ağılın nəzarətinə verməkdir. İnanclı ağıla tabe olmayan instinktlər azğın və acgöz təbiətli olur...

Müasir mədəniyyətə nəzər salsaq, görərik ki, hər gün təbiət və kainatın yeni-yeni sirləri aşkara çıxarılır, mətbəələrdə saysız-hesabsız elmi kitab və jurnallar nəşr olunur, daha çox öyrənmək üçün kosmosa süni peyklər göndərilir. Bütün bunları bəşəriyyətin tam mənada tərəqqisi adlandırmaq olarmı?

Belə bir texniki tərəqqi ilə yanaşı, həm də eqoizm həyatın hər bir sahəsində normativə çevrilib, şəhvət və zülm (ədalətsizlik) dünyamıza hakim kəsilib, fəsad, hərc-mərclik hər yeri bürüyüb, allahsızlıq və nadan dindarlığın əhatə dairəsi genişlənib. Aşağıdakı ayə də bütün bunları təsvir edir:

"(Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən (onu hələ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola sala bilər?! Məgər düşünüb ibrət almırsınız?" (əl-Casiyə, 23).

İnsan oğlu nəfsinə elə bir iş gördürməlidir ki, islah olunub tərbiyələnsin. Tamahkar istəkləri sındıran, insanı Rəhmanın tövsiyələrinə boyun əydirən ciddi və yorucu bir iş! Allah təala buyurur:

"Kim (dünyada) azğınlıq etmişsə,

Dünyanı (axirətdən) üstün tutmuşsa,

Şübhəsiz ki, onun məskəni Cəhənnəmdir!

Amma kim (qiyamət günü) Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini (şəhvəti) qadağan etmişsə, Həqiqətən, onun yurdu Cənnətdir!" (ən-Naziat, 37-41).

Formal ibadət bu dəyişikliyi yarada bilmir... Əgər qıldığımız namazlar nəfsimizdəki paxıllığı, nifrəti yox etmirsə, deməli, biz namaz hərəkətlərini mexaniki surətdə təkrarlayırıq. Həqiqi səcdə dedikdə bədəni Allah qarşısında əymək deyil, əksinə, qəlbi Onun göstərişləri və tövsiyələrinə ram etmək başa düşülür.

Düyünlü sapı iynədən keçirmək üçün düyünləri bir-bir açmaq lazımdır. Açılmazsa, nə paltar tikə, nə də bəzək vura

bilərik. Korlanmış nəfs də belədir. Nəfsi əvvəlki vəziyyətinə qaytarmaq üçün ondakı xəstəliklərə əlac tapmaq lazımdır. Bəli, xəstə nəfsi müalicə etmək, əvvəlki sağlamlığına qovuşdurmaq tələb olunur...

Əgər ibadətlər bu məqsədlə Allahdan kömək diləməkdirsə və Allah bu diləyi qəbul buyurub, Ona əl açanın dərdinə əlac edibsə, əyriliklərini düzəldibsə, deməli, ibadəti düzgün və məqbuldur. Əks halda isə... deməli, vəziyyət heç dəyişməyib...

Mən həm özümü, həm də başqalarını nəzərdən keçirir və görürəm ki, bizimlə xoşbəxtlik arasında uzaq məsafə vardır. Çünki dərmanımız olsa da, düzgün müalicə olunmağı bacarmırıq, müalicə şərtlərinə dözüm göstərmirik...

Elələri də vardır ki, xəstə olduqlarını bilmirlər, onları sağaltmaq istəyənlərə müqavimət göstərirlər. Bəzən də iddia edirlər ki: "Bəs biz hər bir dərdə əlac tapan təcrübəli həkimlərik!"

Aşağıdakı ayələri başa düşməyə çalışaq:

"And olsun nəfsə və onu yaradana (ona biçim verənə);

Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!

Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır" (əş-Şəms, 7-10).

Mənə görə, təqva və gözəl əxlaq arasında heç bir fərq yoxdur. Məsələn, birisi mənimlə mehriban və gülərüz davranır. Mən bunun üçün ona təşəkkür edirəm. Amma bu adam Allahı heç xatırlamırsa, verdiyi nemətlərə görə Ona şükür et-

mirsə, ibadətlə məşğul deyilsə, onda etdiyi şeyin (xoş davranışın) nə qiyməti var? Rəbbi ilə pis davrandığı halda mənə mehribanlıq göstərəni fəzilətli adam hesab etmək mümkündürmü?!

Modern mədəniyyət Allahla əlaqəli hər bir şeyə kilid vurmuş, ilahi məsələləri bütün hesablardan silmişdir. Amma bu hərəkət ona rahatlıq deyil, başağrısı gətirmişdir...

Yaxşı insan hər yerdə, hər məqamda yaxşı insandır. Gah yaxşı, gah da pis davranmaq ona yaddır. Onun bir "rəng"i, dəyişilməz nöqteyi-nəzəri vardır...

Biz bəşər cəmiyyətinin düşmənlərini cinayətkar və günahkar adlandırırıq. Çünki azğınlıq edir, sapqınlıq törədirlər. Qurani-Kərim də Allaha düşmən kəsilib Onun dinini inkar edənlər haqda eyni şeyi deyir:

"Rəbbinin ayələri ilə öyüd-nəsihət verildikdən sonra onlardan üz döndərən kəsdən daha zalım kim ola bilər?! Biz, şübhəsiz ki, günahkarlardan (cinayətkarlardan) intiqam alacağıq!" (əs-Səcdə, 22).

Loğman öz oğluna nəsihət edərkən Allah və bəndə ilə yaxşı davranmaq arasında fərq qoymur:

"Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir!

Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!" (Loğman, 17-18).

Allahı təkzib edib, Ona savaş elan etmək səfalətdir. Belə səfillər Allaha qaşqabaq sallayıb, bəndəyə gülümsədikləri üçün insanlardan təqdir gözləyirlər! Bunu heç kəs qəbul etməz!

Allaha iman Onu layiqincə tanımaqdır, Ona ləyaqətlə bağlanmaqdır. Bunun üçün nəfsi saflaşdırmaq, davranışlara nəzarət etmək tələb olunur. Üst-başımızı düzəltmədən, özümüzə yön vermədən vəzifəli bir şəxsin yanına girməyi ağlımızdan belə keçirmirik. Elə isə vəziyyətini düzəltməyənlərin, pis iş görənlərin, şübhələrlə yaşayanların: "Mən Allah adamıyam; mən Allaha aidəm; mən möminəm", – demələri məqbuldurmu?

Reallıq budur ki, əxlaqda düşkünləşib, mənəvi çöküş yaşayan bəzi "dindar"lar insanları dindən iyrəndirirlər... Pozuq dindarlıq həqiqi dinə ikiqat təcavüzdür və bu təcavüzü son əsrdə, təəssüf ki, müsəlmanlar etmişlər.

Eqoizm, şəhvanilik və azğınlıq rəzilliyindən təmizlənsin deyə nəfsi tez-tez tərbiyə etmək lazımdır. Belə mənfi hallar olan yerdə hansı dindən söhbət gedə bilər axı?!

Uca Allah buyurur:

"...Ancaq nəfslərdə xəsislik (qısqanclıq) həmişə mövcuddur..." (ən-Nisa, 128).

İnsanın öz mənafeyi və maraqlarını gözləməsində bir qəbahət yoxdur. Amma onun öz evindən bir yırtıcının meşədən çıxırmış kimi çıxmağı, ancaq və ancaq parçalamaq, yaramazlıq etmək barədə fikirləşməyi – bax bu vəhşilikdir. Heyvanlar yalnız özlərini və balalarını düşünərlər. Bəzi insanlar küçəyə ancaq bu fikirlə çıxırlar, heyvantək bir yamacdan digərinə yer dəyişirlər...

Bəziləri də başqalarını yıxmaq, ayıblarını axtarmaq, ağrı-acıları ilə əylənmək üçün yaşayırlar. Mən bilmirəm, nə səbəbdən bəzi insanlara görə, özlərini "qurmaq" üçün başqalarının "yıxmaq" lazımdır?

Ləzzət almaq, kef sürmək üçün yaşayanlar da vardır. Onlar gözlərini bütün haramlara dikmişlər. Düşünürlər ki, ehtirası hər bir yolla söndürməyə haqları çatır, çünki şəhvəti cilovlamaq olmaz. Axı ehtirası boğub şəhvəti cilovlamaq çürümüş dinlərin tövsiyəsidir!!!

Ağalarının ayaqları altında xortuldayan, "sadiqliy"ini elan edib, filankəsi tərifləmək, filankəsə də söymək üçün əmr gözləyən yaltaqlar da tapılır.

Həqiqi tərbiyə və düzgün dindarlığın itirilməsi dünyanı cəhənnəmə çevirmiş, insanlıq münasibətlərini uçurumun dibinə atmışdır...

Çıxış yolu haqqa, dinə-imana qayıtmaqdır, Allahla əlaqələrimizi möhkəmlətməkdir, doğru-dürüst ibadət edib xatircəm olmaqdır, təqva, Allah qorxusu və axirət inancı əsasında insanlarla münasibət yaratmaqdır...

Qərbdə din ağ adama xidmət edir, yer üzü sərvətlərini istismar, axirəti də unutdurma vasitəsi rolunu oynayır. Zəbanə qalxmış bu alovun dilləri bizi də yandırmışdır. Elə isə dini həqiqi mahiyyətinə geri qaytarmalıyıq, onu pak rəbbanilik (Allaha aidlik), təskinedici qardaşlıq və səmimi xeyirxahlıq daxilində nəzərdən keçirməliyik. Uca Allah buyurur:

"Kim yaxşı əməl sahibi olub özünü (səmimi-qəlbdən) Allaha təslim edərsə, o artıq ən möhkəm ipdən (dəstəkdən –

Qurandan, imandan) yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır! (Buyuruq Allahındır!)" (Loğman, 22).

Özümü də cavabdeh tutduğum bir məsələ vardır: hər dəfə ümmətimiz məğlub olduqca, yara aldıqca, müsibətlərə tuş gəldikcə ah çəkirəm, ürəyim ağrıyır. Çoxları bu məğlubiyyətləri elmi geriliklə əlaqələndirir. Mənə görə isə bu, əxlaq və tərbiyə məsələsidir...

## Dünyadan bixəbər qalanlar mədəniyyət qura bilməzlər

Dünyaya (təbiət və kainata) düşmən kəsilən, ondakı sirlərdən bixəbər qalan və ya insana ədavət bəsləyib, bəşər fitrətinə zidd gedən bir islam mədəniyyətinin qurulması qeyri-mümkündür. Çünki Qurani-Kərim imanı məhz kainatı başa düşmək və insanı öyrənmək əsasında bina edir.

Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* səhabələri Qurana uyğun dövlət qurduqlarında həyat "dəniz"ində üzür, ondakı axınlara, qabarma və çəkilməyə şüurlu münasibət bəsləyirdilər. Professor Luis Əvəzin təbiri ilə desək, onlar materiyanı, cəmiyyəti, bütün həyat işlərini yaxşı bilən dünyəvi insanlar idilər. Bir dəfə ona belə bir sual verirlər: "İslam bugünə qədər özünün universal çağırışını qoruyub saxlayıbmı?"

Belə cavab verir:

"Xeyr, qoruyub saxlamayıb. İslam qədimdə Bizansa qalib gəlmişdi. Çünki o, VII əsrdə xristianlıqdan daha dünyəvi(!) idi; ilahiyyat və qeyb məsələləri ilə yanaşı, həyat (dünya) məsələləri ilə də maraqlanırdı. Halbuki həmin vaxt Bizans sistemi teokratik səciyyə daşıyır, qeyb mövzuları içərisində boğulurdu... Görünür, müasir müsəlman camaatlarının arzuladığı şey bizans islamıdır!"

Luis Əvəzin dediklərinə uzun-uzadı şərh vermək istəmirəm. Məni maraqlandıran məsələ budur ki, islam tərbiyəsi həyat və canlılar, yer və səma, həm təsirləndiyimiz, həm də təsir etdiyimiz hər bir şey haqda hərtərəfli biliklərə əsaslanmalıdır. Bütün bunlar həm dinimiz, həm dünyamız, həm həyatımız, həm də axirətimizdir. Nəhayət, çatdığımız məqamı, tutduğumuz mövqeyi möhkəmlətməliyik ki, rəbbimizi razı salıb, axirətimizi qazanaq. Ayədə deyilir:

"Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. (Ən gözəl) aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!" (əl-Qəsəs, 83).

Həyatdan bixəbərlik din, ondakı müvəffəqiyyətsiz də təqva sayıla bilməz! Dünyaya zəkanızla, bacarığınızla sahib olun, Allahın kəlamını ucaltmaq, imanı möhkəmlətmək, bayrağını dalğalatmaq üçün düşünün, fikirləşin, baş sındırın...

Dünya işlərində sıfır olanlar, axirət işlərində də sıfırdırlar. Biliksiz, elmsiz gəzən, amma Allah və dini haqda danışmaq istəyən insanlar gördüm. "Cəsarət"lərinə heyran qaldım və dedim:

"...Rəhman! Bunu bir biləndən xəbər al!" (əl-Fürqan, 59).

Dünyadan, baş verənlərdən, tarixdən, tariximizin sevincli və kədərli məqamlarından bixəbər qalanlar Allahı necə tanıyacaqlar, Onu başqalarına necə tanıdacaqlar?!

Quran elə bir kitabdır ki, adi bir insan onun səviyyəsinə yüksələ bilməz. Həzrəti Məhəmmədi *(Ona Allahın xeyir-duası və salamı olsun!)* o kəs özünə nümunə götürə bilər ki, həm ağlında, həm də qəlbində nur olsun.

Dünyaya münasibətimizi müəyyənləşdirmədikcə tərbiyə işini möhkəm dayaqlar üzərinə qaldıra bilməyəcəyik. Görəsən, dünya üçünmü, axirət üçünmü, yoxsa hər iki dünya üçünmü yaşamalıyıq?

Müasir mədəniyyət İntibah dövrünün hazırladığı bünövrəyə əsaslanır. Bu bünövrə bəşəri-rasional bünövrədir; yeri, göyü aralarındakı hər şeyi öyrənir, təbiətin (materiyanın) sirlərini üzə çıxarır, tədqiqat və kəşflərin nəticələrini insan oğluna ərməğan edir!

Görəsən, bu ciddi araşdırmalarda dinin də payı vardırmı? Əsla! Çünki Kilsə və elm arasında qanlı və rəzil ədavət vardı. Bu ədavət alimlərdə belə bir təsəvvür oyadıb ki, din cahilliyin və ətalətin sinonimidir, din xadimləri "gəzən" şər bütlərdir və onlardan qurtulmaq lazımdır...

Elə isə islam haradadır? Müsəlmanlar Əndəlüsdə intihar etdilər; siyasi iyrənclik, sosial ərköyünlük (israfçılıq), alimlərin xırda-para işlərlə, mübahisələrlə vaxt keçirmələri müsəlmanların axırına çıxdı!

Əndəlüs müsəlmanları tarixlərinin ikinci yarısında islama məqbul nümunə ola bilmədilər; insanları ondan qaçırdılar, dəvət və dəvətçiyə xas keyfiyyətlərdən məhrum oldular...

Bu bəla Müsəlman Qərbindən Şərqinə də intiqal etdi. Siyasi, iqtisadi və mədəni hərc-mərclik "bakteriya"ları çoxaldı. Bunun nəticələri o qədər ağır oldu ki, tatarlar xəstə xilafətin axırına çıxdılar. Qərbdə – Əndəlüsdə isə xaçlılar əsas məşğuliyyətləri hakimiyyət və var-dövlət üstündə çəkişmək olan kiçik müsəlman əmirliklərini bir-bir məhv etdilər...

Doğrudur, türklər (osmanlılar nəzərdə tutulur – ***mütərcim***) xilafət bayrağını yenidən dalğalandırdılar, parlaq qələbələrlə Avstriyaya qədər bütün şərqi Avropanı tutdular. Amma osmanlı oyanışı hərbi gücə əsaslanırdı və o, yeni mədəniyyət şəfəqi deyildi. Əgər onların xüsusi təlim-tərbiyə və açıq-aşkar dəvət qurumu olsaydı, fəth etdikləri torpaqlarda başqa çəkiyə sahib olardılar.

Türklər ərəblərə meyl göstərmədilər. Ərəblər də özlərinə biçim verib, səltənəti başqalarına ötürməkdən imtina etdilər. Bununla da, islam ekspansiyası əvvəlki müsəlman sivilizasiyasından, həqiqi həyat şərtlərindən uzaqlaşdı. Tezliklə Osmanlı xilafəti, ardında da bütün islam aləmi dağıldı, ortada heç bir iz qalmadı.

Avropalılara gəlincə, onlar dindən uzaqlaşaraq siyasi azadlıqlarını müəyyənləşdirdilər, müstəbid kralı öldürdükdən sonra – bu İngiltərədə baş vermişdi – "Böyük Azadlıqlar Xartiyası"nı (Maqna Carta) yazdılar.

Böyük Fransa inqilabı başlandı. Din bir daha inkar edildi. İnqilab özü ilə xüsusi sistem gətirdi, qorxu aşıladı, görünməmiş qəddarlıqla rəqiblərini məhv etdi...

Sonra Qırmızı inqilab (Rusiyadakı Oktyabr çevrilişi nəzərdə tutulur – ***mütərcim***) baş verdi. Qanın su yerinə axıdıldığı amansız vəhşi bir inqilab! Möminlərə və ibadətə həsrət qalmış kilsələr dağıdıldı. Məscidləri də içindəkilərlə birlikdə "dəfn" etdilər.

Sovet İttifaqında islamın başına gətirilənlərin ətraflı şəkildə öyrənilməsinə ehtiyac vardır.

Əhəmiyyətli məqam budur ki, Qərb mədəniyyəti bir sıra islami və ümumbəşəri dəyərlərdən hər nə qədər faydalansa da, son bir neçə əsrdə allahsızlıq əsasında qurulmuş mədəniyyətdir...

XX əsrin əvvəllərində narahatedici vəziyyət yarandı: səlibçilik öz yarasını sarıyıb, qalibə (müsəlmanlara) yaxınlaşmağa başladı, özünü ona yaxşı göstərdi, öz köməyini təklif etdi. Eyni addımı sionizm də atdı. Bir sözlə, hamı sonuncu dinə hücum çəkdi, onun nəhəng irsinə sahib çıxmaq istədi. Hər kəsə elə gəldi ki, bu irsin sahibi və ya başqa sözlə desək, keşikçisi yoxdur!

Müsəlmanlar hiss etdilər ki, məhvedici müharibə yaxınlaşır, xain və dağıdıcı planlar onların varlığını təhdid edir...

Yaralı ümmətdə yaşamaq eşqi yarandı; müdafiə olunanlar elm, bilik, tərbiyə, mədəniyyət və iqtisadiyyat sahələrində çar çəkməyə başladılar ki, hər tərəfdən yağıların hücumuna məruz qalmış dini xilas etmək lazımdır...

Müsibət ağır, ondan qurtulma yolu isə aşkardır. Hər dəfə düzgün düşündükcə, hər dəfə kitabımıza sarıldıqca, "qala"mız bir o qədər möhkəmlənəcək, təcavüzkarlar geri çəkiləcəklər...

Əvvəlki Nəsillərimizin (***sələfi-əvvəl***) üslubuna uyğun şəkildə düzgün tərbiyə sistemi qurmaq əsas amalımız olmalıdır. Bəs bu tərbiyənin əsas cəhətləri hansılardır?

## Qiyamətədək çalışıb-vuruşmalıyıq

Tərbiyə ömür boyu davam edən prosesdir. İnsan özünü qanandan ölənədək tərbiyə olunmalıdır. Tərbiyənin bir neçə aylıq və ya illik proses olduğunu güman etmək böyük səhvdir. Bir sürücü getdiyi yola necə münasibət bəsləyirsə, müsəlman da öz nəfsinə elə münasibət bəsləməlidir; sürücü daima ayıq olmalıdır, mürgüləyərsə – bu onun həlak olmağı ilə nəticələnər...

Savadı da mərhələlərlə alırıq. Şagird və tələblərə verilən şəhadətnamələr onların aldıqları təhsilin rəsmi təsdiqidir... Tərbiyə də belədirmi? Əsla! Mənəvi kamillikdən qazandığımız "pay"ların aydın pillələri, konkret əlamətləri yoxdur. Əvvəla, bunun sirrini yalnız Allah bilir, ikincisi, tərbiyənin vaxtı, konkret metodu yoxdur, odur ki, vaxtaşırı olaraq aldığımız tərbiyəni "ölçmək" mümkün deyildir.

İnsan gecə-gündüz nəfsi ilə mübarizə aparır, rəbbinə doğru səbatla addımlayır, əmr və qadağalarına riayət etməklə Onu razı salmağa çalışır. Bu minvalla ömrünü başa vurur. Beləri haqda Quranda deyilir:

"O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb: "Sizə salam olsun! Etdiyiniz (gözəl) əməllərə görə Cənnətə daxil olun!" – deyərlər" (ən-Nəhl, 32).

Meyvə budağa xoş gəldiyi kimi, nəfs də (həyat da) insanın xoşuna gəlir. Sonra "bağban" gəlir, nəfs sonuncu çağırışı eşitməyə hazırlaşır:

"Ey (öz imanından, əməlindən və Allahın vədindən) xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!")

Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən!

(Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol!

(Onlarla birlikdə) Cənnətimə varid ol!" (əl-Fəcr, 27-30).

Tərbiyədə insanın bir çox xüsusiyyətləri nəzərə alınır. Həmin xüsusiyyətlərdən birincisi budur insan özü haqda həmişə müsbət fikirləşir. Bu hal bəzi insanlarda dünyagörüşünün əsasını təşkil edir. Özünəvurğunluq fəxarətin, təkəbbürün, şöhrətpərəstliyin, tariflənmək istəyinin, riyakarlığın əsasıdır, kinin, paxıllığın, gizli və aşkar ədavətin mənbəyidir...

İnsan oğlu özü haqqında yüksək fikirləşdiyi zaman nə bir işə yarayır, nə də başqalarının karına gəlir. Bəlkə də, elə bu səbəbdən alimlər yekdilliklə təsdiqləmişlər ki, qəlb əməlləri əzaların əməllərindən üstündür. Və qəlbin günahları (mənəvi asilik) digər əyriliklərdən daha pisdir...

İnsan oğlu Allahla münasibətlərini möhkəmlətmədikcə, niyyətini saflaşdırmadıqca, Onun razılığını düşünmədikcə, Ondan gələni razılıqla qarşılamadıqca bu xəstəlikdən qurtula bilməz. Belə olarsa, nəfsini yenər, dünyaya bağlanmaz, davranışlarında düzəlmə müşahidə edilər...

Şəhvətə aludə olmaq insandan insana dəyişir. Bəli, insanlar bioloji ehtiyaclarını təmin etməlidirlər. Amma görmüşəm ki, biri yeməyi, bir qadınları, biri də pulu, başqa biri-

si də şöhrəti sevir. Bəzən insanlar öz şəhvətlərini söndürmək üçün ən ülvi dəyərləri qurban verirlər.

Düzgün tərbiyə imkan verir ki, şəhvətə qul olmayaq, bioloji tələbatlarımızı norma çərçivəsində təmin edək.

Dini irsimizdə nəfsi saflaşdıracaq, əxlaqı gözəlləşdirəcək, davranışları kamilləşdirəcək tərbiyə metoduna aid açıq-aydın göstərişlər mövcuddur...

Dini, fəlsəfə və ədəbiyyatı özündə birləşdirən zəngin bəşəri irsi diqqətlə araşdırdım, Məhəmməd peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qoyub getdiyi tərbiyəvi xəzinədən daha zəngin, daha qiymətli ikinci sərvətə rast gəlmədim.

"Orbit"ində üzüb gedən, heç vaxt eniş etməyən minlərlə səhih hədislə yanaşı, bu saf insanın pak həyatı da bir nümunədir. Ulduzlar sönüb məhv ola bilər, amma Məhəmməd əsla qürub etməz!

Kamillik və ülviyyətə aparan yol bu nümunəyə davamlı riayətdən keçir. Təbii ki, kamilləşib ülviləşmək üçün əzab-əziyyətə qatlaşmaq, zəhmət çəkmək lazımdır. Bunun da öhdəsindən Allahın qoruduğu insanlar gələ bilir...

Tərbiyə dedikdə yağışa ümid olub toxum əkmək, hər şeyi toxumun öhdəsinə buraxıb zəhmətdən qaçmaq başa düşülmür. Əksinə, tərbiyə basdırmaqdır, sulamaqdır, gözdə-qulaqda olmaqdır (qulluq və qayğıdır), ziyanverici həşəratları qovub, alaq otlarını təmizləməkdir, məhsul əldə edilənədək ayıq-sayıqlığı itirməməkdir...

Tərbiyəçilər həm evin, həm məktəbin, həm məscidin, həm küçənin, həm də dövlətin qayğısına qalmalıdırlar. Bunun

üçün onlar dövrün iqtisadi, mədəni və informasiya imkanlarından istifadə etməlidirlər...

Həqiqət bundan ibarətdir ki, səhabələr və tabein nəsli peyğəmbərlik tərbiyəsinin birbaşa yetirmələri olmuşlar. Məhz bunun sayəsində onlar bəşər mədəniyyətinə yeni məzmun, təzə ruh bəxş etmişdilər...

Bugün mən kədər və ümidsizlik içərisindəyəm, çünki biz, müsəlmanlar ümməti öz çuxurunda cücərdəcək, missiyasında faydalı edəcək münasib tərbiyə elementlərinin axtarışında deyilik. Özü də elə bir vaxtda ki, insanlar və şeytanlardan olan iblislər bəhanə gəzirlər, dünyanı əllərinə keçirib, nəfsi istəklərinə tabe etmək istəyirlər...

Əxlaqı iki növə: rəbbani və bəşəri əxlaq növlərinə ayırmaqda bir qəbahət görmürəm. Hər iki növ əxlaq düzgün və kamil iman üçün zəruridir.

Bitkin inancı olan mömin Quranda deyildiyi kimidir:

"...Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah bəndələrini görəndir!" (Ğafir, 44).

O kəsin ki qəlbi Allahı arzulamır, deməli, rəbbani əxlaqdan uzaqdır...

İnancı bitkin mömin o kəsdir ki, qövmünə aşağıdakıları söyləmiş Hud peyğəmbərin yolu ilə gedir:

"Mən özümün və sizin Rəbbiniz olan Allaha təvəkkül etdim. (Yer üzündə) elə bir canlı yoxdur ki, onun ixtiyarı (Allahın) əlində olmasın..." (Hud, 56).

O kəsin ki qəlbi bu cür təvəkküldən xalidir, deməli, rəbbani özüllərdən məhrumdur. Belə insanlar ömürlərini nəfsin dərinliklərində qısılıb qalmaqla keçirərlər...

İnancı bitkin mömin Allahın bu kəlamına qane olandır:

“Əgər Allah sənə bir sıxıntı versə, (səni ondan) Allahdan başqa heç kəs qurtara bilməz. Əgər (Allah) sənə bir xeyir yetirsə (heç kəs Ona mane ola bilməz). Çünki O, hər şeyə qadirdir!” (əl-Ənam, 17).

Kim güman etsə ki, Allahdan uzaq birisi onu sıxıntıdan qurtara və ya rəbbini tanımayan vəzifəli şəxs ona xeyir yetirə bilər, deməli, rəbbani əxlaqa sahib deyildir!

Möminə Allahın nəzəri və nəzarəti altında olmaq bəs edir. O, Allahın aşağıdakı kəlamındakı dərin məzmunu yaxşı başa düşür:

“...Kim Rəbbi ilə qarşılaşacağına (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına) ümid bəsləyirsə (yaxud qiyamətdən qorxursa), yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!” (əl-Kəhf, 110).

Kim üzünü Allahdan qeyrisinə tutub, ondan xeyir umarsa, əməllərində ixlaslı deyildir. Belələri rəbbani əxlaqdan uzaqdırlar...

Qəlb mənəviyyatı alimləri bu haqda cild-cild kitablar yazmışlar. Onlar bilirdilər ki, qəlbin işlədiyi günahlar bədən əzalarının işlədiyi günahlardan daha təhlükəlidir. Qəlbin asilikləri imanın “xərçəng”idir və bu xərçəng imanın özülündə yaranır, elə orada da inkişaf edir...

## Fiqhi "ixtilaf"* asilik deyildir

Müşahidə etmişəm ki, bir sıra mədəniyyət xadimləri və siyasətçilər bu "xərçəng"ə tutulublar. Allah bizi bundan qorusun! Nəfsə ibadət və tamahkarlıq onlara hakim kəsilib...

Bu işdə onlara quyruqbulayanları da şərikdir. O quyruqbulayanlar ki, ağalarının yanında milçək kimi vızıldayırlar...

Fiqhi ixtilaflar deyil, məhz qəlb (mənəvi) xəstəlikləri dünya və din üçün təhlükə yaradır.

Fiqhi ixtilaflar nə deməkdir? Bu, İngiltərədəki Mühafizəkarlar və Leyboristlər, ya da ABŞ-dakı Respublikaçılar və Demokratlar arasındakı fikir ayrılıqları kimi şeydir. Buna baxmayaraq, onlar başlıca prinsip və ümumi məqsədlərdə həmrəydirlər. Onlar, olsa-olsa, "evin daxili quruluşunun tərtibi"ndə fərqli düşünsünlər.

Bizdə, müsəlmanlarda isə avam xalq bu ixtilaflar üstündə həngamə qoparır ki, bunun da dağıdıcı nəticələri meydana çıxır...

Fərz edək ki, birisi İbn Həzmin deyil, Əbu Hənifənin yolu ilə gedir və ya əksinə. Bunun Allaha yaxınlaşmaq və ya

---

* Fiqhi məsələlər ətrafında yaranmış fikir ayrılıqları, fərqli yanaşmalar nəzərdə tutulur. Biz ixtilaf sözünü terminoloji mənaya xələl gətirməmək üçün istifadə edirik. Halbuki bu söz dilimizdə mübahisə, çəkişmə mənalarında işlədilir – ***tərcüməçinin qeydi.***

Ondan uzaqlaşmaqla nə əlaqəsi var?! Və ya bunun fasiqlik və küfrə bir dəxli varmı?! Bu bir seçim və ya "ixtilaf" məsələsidir; səhv də ola bilər, doğru da çıxa bilər. Qiymətləndirmə "doğrudur" yaxud da "səhvdir" meyarı əsasında aparılmalıdır. Çünki belə "ixtilaf"lar müəyyən baxış bucağı olan fərqli əqli yanaşmaların nəticəsində yaranır. Yoxsa ki bu yanaşmaları dinin mahiyyətinə xələl gətirməkdə və ya ümmətin birliyini pozmaqda ittiham etmək axmaqlıqdır...

Fərz edin ki, müxaliflərindən biri səlibçilərə çuğulluq edibmiş ki, İbn Həzmi həbsə atsınlar. Mən şəxsən bu cür çuğulluq edən adamları mürtəd hesab edirəm. Belələri Əbu Lu`luənin*, İbn Mülcəmin** törəmələridir...

Belə iyrənc insanlara Əfqanıstanda da rast gəlmişik. Onlar Əfqanıstanı Əbu Hənifənin (hənəfi məzhəbinə mənsub tələblər nəzərdə tutulur – ***mütərcim***) deyil, kommunistlərin idarə etməsini arzulayırlar.

Dövrümüzdə bu cür axmaqlıq və nifrət girdabına yuvarlanan dindarlar da vardır. Onlar alçaq niyyətləri ilə həm Allaha, həm də peyğəmbərinə əziyyət edirlər. Bu üzdən mən onları həmişə məzəmmətləmiş, bərk tənqid etmişəm.

Dinimizdəki fiqhi "ixtilaf"lar, əgər elmi və əxlaqi şərtləri gözlənilərsə, əsla asilik (günah) deyildir. Ümmət həmrəydir ki, hər bir müctəhidə çıxardığı hökmə görə savab vardır.

---

* **Əbu Lu`luə**: Həzrəti Ömərі *(Allah ondan razı qalsın!)* xaincə şəhid etmiş atəşpərəst. Əsli farsdır – ***tərcüməçinin qeydi***.

** **İbn Mülcəm**: Həzrəti Əliyə *(Allah ondan razı qalsın!)* sui-qəsd qurub, onu qabaqdan (bəzi rəvayətlərə görə arxadan) xəncərlə vuraraq şəhid etmiş "xarici" – ***tərcüməçinin qeydi***.

O kəslər ki, fiqhi məsələlərdəki (***füruat***) "ixtilaf"a görə arxadan tənə vururlar, qeybət edirlər, müsəlmanların səflərini parçalayırlar, onlar, doğrudan da, tərbiyə olunmalıdırlar...

Mən inanmıram ki, rəbbani əxlaqa sahib bir mömin bu cür hərəkət etsin...

İndi isə doğruluq, sədaqət, vəfakarlıq, şərəf... kimi bəşəri əxlaq normalarından danışaq. Bunları ona görə bəşəri adlandırırıq ki, təkcə müsəlmanlara deyil, həm də başqalarına aiddir.

Adıçəkilən əxlaq normalarının əksi ikiüzlülük formalarıdır. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

"Bu dörd xislət kimdə varsa, deməli, münafiqdir. Bu xislətlərdən birinə sahib olan kəs də həmin xisləti tərgitənədək münafiq sayılar. (Həmin dörd xislət budur:) a) əmanətə xəyanət edər; b) yalan danışar; v) əhdə vəfa göstərməz; q) mübahisə edərsə, kin qusar (ürəyində nə varsa, qarşı tərəfə söyləyər)"[1].

Mübahisələrdə həqarət, əhdə vəfasızlıq, danışıqda etinasızlıq, əmanətə xəyanət – bütün bunlar çoxlarının adət halına gətirdiyi davranışlardır. Allahın hifz etdiyi kəslər istisna olmaqla heç bir müsəlman varis çıxdığı dinə əxlaq meydanlarında riayət etmir...

Bunun müqabilində isə digər millətlərin nümayəndələri davranış və ünsiyyətdə gözəl əxlaq qaydalarına əməl edir, nizamsızlığa, laqeydlik və alçaqlığa "yox" deyirlər.

---

[1] Hədisi İmam Buxari, İmam Müslim, Tirmizi, Əbu Davud, Nəsai və İmam Əhməd rəvayət etmişlər.

Bundan qabaq dedim ki, dahi şəxsiyyətlərin irsini araşdırsam da, əxlaq meydanında Həzrəti Məhəmmədin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qoyub getdiyindən daha zəngin, daha saf, daha ülvi irsə rast gəlməmişəm. Elə isə bu ümməti tarixi irsindən nə uzaqlaşdırıb, özülünü nə sarsıdıb?

Hər hansı bir xalqın əxlaq irsi bir-biri ilə əlaqəli, bir-birini tamamlayan komponentlərin məcmusundan ibarətdir. Bu ünsürlərə inanclar, ibadət ayinləri, iqtisadi və siyasi ənənələr daxildir...

Əxlaq bir-iki vərəq məlumat oxumaqla və ya bir-neçə dərsə qulaq asmaqla formalaşmır, əksinə, o, məşəqqətli "emal" prosesidir, davamlı praktik fəaliyyətdir, sabit bacarıqlara və xarakterə sahib olmaq üçün zəhmət çəkməkdir.

Fikir vermişəm ki, iman qısır qalsın deyə şeytansayağı işlər görülüb; dinin əmr və qadağalarını qəsdən yozub qüvvədən salmağa çalışan kəslər peyda olub!

Bəzi insanlara görə, iman əməlsiz sözdən ibarətdir*. Bəziləri də əməli ikinci dərəcəli davranışlarla eyniləşdirirlər. Halbuki həmin davranışlarsız da keçinmək mümkündür. Onların bu yanaşması əməli öhdəliklərdən boyun qaçırmaq məqsədi güdür. İbadətlərdəki hərəkətlərə (formalara) riayət haqda cildlərlə kitab yazılır, ibadətin mahiyyətinə isə az hallarda diqqət yetirilir.

---

* Yəni, Allahın təkliyini, peyğəmbərliyi təsdiqləmək kifayətdir. İbadətə, dindəki praktik buruqlara əməl etmək lazım deyildir – ***tərcüməçinin qeydi***.

Bunun nəticəsində tərəzinin gözünü allahsız cəmiyyətlərin xeyrinə ağır basan fərqlər yaranıb və tərəzinin yüngül gözü inanclı cəmiyyətlərin payına düşüb...

Dinimizə görə, yalan söz şirk kimidir. Ayədə deyilir:

"...murdar (başdan-ayağa murdarlıq olan) bütlərdən qaçın, yalan sözlərdən də (Allaha şərik qoşmaqdan da) çəkinin" (əl-Həcc, 30).

Adi məişət problemlərində də olsa yalan danışmaq böyük günahdır. Amma bizdə – Ərəb dünyasında on minlərlə insanın üzv olduğu qurum (görünür, iqtidar partiyalarından söhbət gedir – ***mütərcim***) seçkiləri saxtalaşdırır, aidiyyəti orqanlara da tövsiyə edir ki, seçkinin nəticələrini təsdiqləsinlər. Xalq da ya acizdir, ya da ki gözü bağlanmışdır...

Amma bu hal Qərbə yaddır: siyasətdə, iqtisadi münasibətlərdə saxtakarlıq və yalan alçaq davranış hesab olunur, doğruluğa ehtiram göstərilir; qərblilər ağızdan çıxmış sözə ciddi münasibət bəsləyirlər. Sanki onlar Quranın bu ayəsində deyilənləri yaxşı başa düşmüşlər:

"Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsl yalançıdırlar!" (ən-Nəhl, 105).

Biz rəbbani və bəşəri əxlaqa ehtiyacı olan fəqirlərik...

Mən paltarının ətəyini qısaldan dindarlardan üz çevirmişəm. O dindarlar ki, dəvə ətinin dəstəmazı pozmağı, şəriət cəzalarında və qisasda qadınların şahidliyinin qəbul edilməməyi barədə onlarla razılaşmayanlara qəfil ölüm arzulayırlar...

Müsəlman ümməti rəbbani və bəşəri əxlaq üzərində bina edilib. Əxlaq yaşadıqca bu ümmət də var olacaqdır. Əxlaq zəifləyərsə, ümmət sarsılar, yox olmağa üz tutar.

Əqidə, bəli, məhz əqidə ideallar yaradır. İdeallar davranışlara hakim kəsilər, onlara istiqamət verər. Əqidə (etiqad) insan nəfsinin bir halıdır; onu səbatsızlıqdan qərarlılığa yüksəldər. Əxlaq insanın hərəkəti və sükunətini tənzimləyən "qəlib"lərdən ibarətdir. Əqidəsi və əxlaqı formalaşmamış bir ümmət əsla ustalaşa bilməz...

Biz kitablarımızın birində ərəbləri bir millət kimi formalaşdırmış, onları zülmətdən nura çıxarmış Məhəmməd peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* möcüzəvi metodikasından danışmışdıq. Qeyd etmişdik ki, Peyğəmbərlər Əmirinin bu tərbiyə siyasəti yıxılmış binanı bərpa edəcək, böyük bir ümməti yoxolma və məğlubiyyət girdabından qurtaracaq yeganə gücdür.

*Altıncı fəsil*

## BİR DAHA BİDƏT HAQQINDA

Qurani-Kərimi oxuduğumuzda "Lənətlənmiş şeytandan Allaha pənah aparırıq"[1] deyirik. Nə üçün? Çünki Quran şöləsi güclü, işığı da hər yerə yayılan çıraqdır; o, ən doğru yolda olanlara belə düzgün istiqamət göstərir, onları rüsvayçılıq və zəlalətdən qoruyur!

Şeytan əlindən gələni edir ki, insan oğlu həyatın çətin yollarında əli çıraqsız gəzib-dolaşsın, büdrəyib yıxılsın, ayağa qalxmasın, azıb mənzil başına yetişməsin!

Bu səbəbdən şeytan insanı Quran oxumaqdan uzaqlaşdırmaq, vəhyin bərəkətindən məhrum etmək istəyir. Yox, insan müqavimət göstərib, Quran oxumağa başlayarsa, şeytan vəsvəsələri ilə ona hücum çəkir; elə edər ki, insan oğlu Quranı düşünmədən oxusun, ondakı hikmət və ibrətlərdən xəbərsiz qalsın!

Elə insanlar vardır ki, Quranı oxuyurlar, amma qəlbləri oğurlanmışdır, hissləri də ölgündür. Onlar Rəhmanın qulları deyildirlər. Allah Rəhmanın qullarını belə təsvir edir:

"O kəslər ki, Rəbbinin ayələri zikr olunduğu vaxt özünü onlara qarşı kar və kor kimi aparmazlar (əksinə, onlara canidildən qulaq asarlar)" (əl-Fürqan, 73).

---

[1] Ərəbcəsi: nəstəizu billəhi minəş-şəytanir-racim

Odur ki, Quran oxumazdan qabaq lənətlənmiş şeytandan Allaha sığınmalıyıq. Sığınmalıyıq ki, oxuduğumuzu doğru-dürüst başa düşüb mənən saflaşaq.

Müsəlman kütlələr "Lənətlənmiş şeytandan Allaha pənah aparırıq" sözünə "Mərhəmətli və Rəhimli Allahın adı ilə" sözlərini[1] də əlavə etmişlər (yəni, bir-birinin ardınca bu sözləri deməyi adət halına gətirmişlər). Bunda bir qəbahət yoxdur. Tilavət (Quran oxumaq) ciddi bir işdir, adi vərəqi və ya kitabı oxumaq deyildir. Bir işə Allahın adı ilə başlamaq məşhur hədisə uyğun davranışdır.

Bəzi ağlı qısırlar iddia edirlər ki, "bəsmələ" (Allahın adını çəkmək, "bismillah" demək) bidətdir, caiz* deyildir! Onlara deyirəm: "Əgər ümumi dəlil** istənilən işlə, əməllə əlaqədardırsa, onda məni bidətdə ittiham etməyiniz əsassızdır. Əgər "Bismillah" – demək istəmirsinizsə, istəməyin. Ancaq icazə verin biz deyək. Nə bizi danlayın, nə də biz sizi qınayaq".

Rəvayət olunur ki, səhabələrdən biri dualarında Allah təalanı özünəməxsus şəkildə təriflәyirmiş. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bunu eşitdiyində sevinmiş və razı qalmışdır.

Təbərani rəvayət edir ki, bir dəfə Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bir bədəvi ərəbin yanından keçirmiş. Görür ki, ərəb namazında belə dua edir: "Ey gözlərin görmədiyi Kəs!

---

[1] Ərəbcəsi: bismillәhir-rahmәnir-rahim

* **Caiz**: (ərəb. "icazəli"). Fiqh termini olub şəriət baxımından icrası qadağan olunmayan əməli, işi ifadə edir – ***tərcüməçinin qeydi.***

** Yəni, hədisə görə istənilən işə Allahın adını çəkməklə başlayırıq. Elə isə yuxarıdakı məqamda Allahın adını çəkmək bidət deyildir – ***tərcüməçinin qeydi.***

Ey gümanın sirayət etmədiyi Kəs! Ey vəsf edənlərin vəsf edə bilmədikləri Kəs! Ey hadisələrin dəyişə bilmədiyi Kəs! Ey dövrlərdən qorxmayan, dağların ağırlığını, dəryaların çəkisini, yağış qətrələrinin, ağaclardakı yarpaqların, üzərinə gecənin çöküb, gündüzün də doğduğu hər şeyin sayını bilən Kəs! Səmada, yerdə, dənizin dərinliyində, əlçatmaz dağlarda olanlardan xəbər tutan Kəs! Ömrümün son anlarını xeyirli qıl! Ən xeyirli əməllərim ölümqabağı etdiyim əməllər olsun! Ən xeyirli günüm sənə qovuşan gün olsun!"

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bir adama tapşırır ki, həmin bədəvini namazını qılıb qurtardıqdan sonra yanına gətirsin. Peyğəmbərə bir az qızıl hədiyyə edilmişdi. Bədəvi gəldiyində qızılları ona verib soruşur: "Bilirsənmi, nə üçün bunları sənə verirəm?" Bədəvi deyir: "Aramızda olan qohumluq əlaqələrinə görə!" Alicənab Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* gülümsəyir: "Qohumluğun öz yeri, öz məqamı vardır! Bu qızılları sənə Allahı gözəl şəkildə təriflədiyin üçün verirəm".

Doğrudan da, bədəvinin Allah təalaya yağdırdığı tərif söz xiridarlarının belə eynisini söyləməkdə aciz qaldıqları tərif idi. Bu tərif yüksək ədəb-ərkanla deyilmişdi. Təbii ki, belə bir tərif Peyğəmbərin təqdirinə layiq olmalı idi! Çünki bu sözlər ilahi bilik şüalarının işıq saldığı, zikr və şükür duyğusunun parladıb-aydınlatdığı bir qəlbdən çıxmışdı. Bu sözlər dinimizin ümumi təlimləri və dəlilləri ilə səsləşirdi...

Bəzi nəzakətsiz və qaba insanlar bunu eşitsələr, deyəcəklər ki, bidətdir! Onlara görə, Quran oxumağa "bəsmələ" ilə başlamaq da, oxuyub qurtardıqda "Allah doğru buyurmuşdur"* demək də bidətdir...

Fikrimizi daha anlaqlı etmək üçün deyirik: "Dini bidətlərdən qorumaq vacibdir. Vacibdir ki, səmavi orijinallığını, mütləq təbiətini qoruyub saxlasın. Çünki dininin başına bəlanı əsasən qısır zehniyyət sahibləri, ifratçılar və tez-tez fikir dəyişdirənlər açmışlar!

Biz dindarlıq sahəsindəki mədəni saxtakarlığa amansız müharibə elan edir, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aşağıdakı kəlamını bu savaşda özümüzə şüar seçirik:

"Bu elmə (dinə, Sünnəyə) hər bir nəslin ən adil fərdləri sahib çıxacaq, onu ifratçıların təhrifindən, batil əhlinin əsassız iddialarından, cahillərin də yozumlarından qoruyacaqlar"[1]

İslamı qorumaq üçün yetişmiş qüdrətli alimlərdən biri də Əbu İshaq əş-Şatibidir (vəfatı – 1388). Şatibi belə bir qayda

---

* Ərəbcəsi: sadəqallahul-azim

[1] Hədisi "Miftah Dar əs-Səadət" kitabında qeyd etmiş İmam İbn əl-Qəyyim müxtəlif istinadlarla rəvayət olunduğu üçün onu "qüvvətli" saymışdır. Bax: eyniadlı əsər, cild I, Beyrut: "Dar əl-Kütub əl-Elmiyyə" nəşriyyatı, səh. 163-164. Həmçinin, hədisin səhih və ya "həsən" olduğunu təsdiqləyən Əllamə İbn əl-Vəzir geniş məlumatlı və mötəbər olduqları üçün həm İmam Əhməd və Hafiz ibn Əbdülbərrin hədisi səhih saymaları üzündən, həm də Üqeylin istinad seçimi səbəbi ilə hədisi "qüvvətli" hesab etmişdir. Bax: ər-Rövz əl-Basim fi zəbb ən Sünnə Əbu əl-Qasim, cild I, Beyrut: "Dar əl-Mərifət" nəşriyyatı, səh. 21-23; Əlbani. ər-Rövz əl-Bəssam fi Təxric ət-Təmmam.

təsis etmişdi: “Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bir şeyi nə üçün etmədiyi konkret məlumdursa (yəni, bunun səbəbi göstərilibsə) və həmin şeyi qəti şəkildə qadağan edən göstəriş (əmr) mövcuddursa, həmin şeyi etməmək sünnət, etmək isə bidətdir”.

Bu qayda islamı pis adət-ənənələrdən açıq şəkildə qoruyur. Müxtəlif dövrlərdə “icad” olunmuş bu adət-ənənələri avam insanlar din olaraq qəbul etmişlər. Halbuki həmin adətlərin dinlə heç bir əlaqəsi yoxdur!

Biz bu qaydanı təqdir etməklə yanaşı, ona kiçik bir əlavə də etmək istəyirik. Bu əlavə onu daha da anlaqlı edəcəkdir! Dinin elə ümumi təlimləri vardır ki, onların üzərində bir az dayanmaq lazımdır. Bu təlimlər mahiyyətcə dəyişilməsə də, forması məqamı və vaxtına görə tez-tez dəyişilir. Məsələn, xeyir işləmək (bu haqda əmr vardır), haqqı və səbri tövsiyə etmək, yaxşılıq və təqvada əlbir olmaq, canla, pulla, dillə (sözlə)... cihad etmək və s.

Belə ibadətlərin formaları çoxdur. Bunlardamı bidətdir? Təbii ki, yox! Amma bidətdən qorunmağımız üçün nə kimi ölçü və qaydalar mövcuddur?

Qorxuducu haldır ki, bəziləri bir insanın istifadə etdiyi formanı (vasitə, icra tərzi...) qanun halına salır, ona riayət edəni tərifləyir, etməyənə də tənə yağdırırlar. Sanki həmin forma Allahdan enmiş vəhydir...

Bir dəfə məndən Mərakeşdəki bəzi məscidlərdə camaat halında Quran oxuyanlar haqda soruşdular. Dedim: “Buna nə “hə”, nə də “yox” deyirəm. Şəxsən mən təkbaşına oxumağı

xoşlayıram. Bunu edənlər başqalarını da buna təhkim etməməli, etməyənləri qınamamalıdırlar...".

Həmçinin, bir dəfə məndən soruşdular: "Bir şeyx var. Öz şagirdləri və müridlərindən tələb edir ki, dəstəmazsız gəzməsinlər; dəstəmazları pozuldumu, tez dəstəmaz alsınlar. Və onlara belə deyir: "Fiziki təmizliyi hiss etmək mənəvi təmizliyin hiss edilməsinə kömək edir, insana ülviyyət (mənəvi tərəqqi) qazandırır".

Onlara dedim: "Bu haqda heç bir əmr varid olmayıb. Mənəvi təmizliyin çoxlu yolları vardır. Bunlardan biri də həmişə dəstəmazlı gəzməkdir...".

Amma bunları icbari ümumi hökm (qanun) halına salmağın heç bir əsası yoxdur...

İfratçılıq bəzən dinin törəmə məsələlərindən (***füruat***) əsas prinsiplərinə (***üsul***), detallarından (***cüz`iyyat***) bütöv təlimlərinə (***külliyyat***) keçir. Bu, əvvəlki din mənsublarının tutulduğu xəstəlikdir. Bu xəstəlik onları doğru yoldan sapdırmışdır. Allah təala buyurur:

"De: "Ey kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Əvvəlcə yolunu azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsinin istəklərinə uymayın!" (əl-Maidə, 77).

İnsan düşüncəsinin məhsulu sayılmayan ibadətlərdə bidətə yol vermək olmaz. Çünki Allahın izni olmadan onları dəyişdirmək, onlara əlavələr etmək yolverilməzdir.

Elmi, mədəni və hərbi cihadın (çalışmanın, zəhmət çəkmənin) ixtiyari vasitələrinə gəlincə, onların nə bidətlə, nə də Sünnə ilə əlaqəsi vardır. Mühit, şərait bizə əvvəlki peyğəm-

bərlərə belə tapşırılmamış işləri görməyi zəruri edib. Məsələn, kosmosu öyrənmək, Aya, Marsa səyahət və s. bu qəbil işlərdəndir. Bunları bidət adlandırmaq doğru deyildir və belə bir iddia qəbuledilməzdir.

*Yeddinci fəsil*

# TARİXİ YENİDƏN YAZMAQ

Hicri XV (miladi XX) əsrədək olan islam tarixinin yenidən yazılmasını zəruri edən ciddi və aktual səbəblər vardır. Bu işi görmək üçün bütün mötəbər alimlərin, peşəkar tədqiqatçıların əməkdaşlığı vacibdir...

Hal-hazırda öyrəndiyimiz tarix mövcud tarixi mənbələrdəki məlumatların cüzi hissəsini təşkil edir. Həmin mənbələrdə islam tarixini bir və ya iki müsəlman şəxsiyyətlə məhdudlaşdırmayacaq qədər çox məlumat vardır. Bu məlumatlar üzə çıxarılarsa, tarix kimlərinsə siyasi maraqlarına xidmət etməyəcəkdir...

Müşahidə etdiyim ilk şey budur ki, islam tarixi "kəmiyyət"cə məhduddur. Müsəlmanlar dünya əhalisinin beşdə birini təşkil edirlər. Allahın dinini müxtəlif millətlər qəbul etmişlər. Ərəblər, türklər, farslar, kürdlər, hindlilər, zəncilər, çinlilər, monqollar, indoneziyalılar, malayziyalılar – bir sözlə, Sakit, Hind və Atlantik okeanı arasındakı geniş arealda yaşayan bu xalqların bir hissəsi hamılıqda, digər hissəsi də qismən müsəlmandır...

Avropada, Şimali və Cənubi Amerikada da müsəlmanların kompakt yaşadığı ərazilər vardır.

Hal-hazırda tədris edilən tarix Yaxın Şərq adlandırılan ərazidə yaşayan müsəlmanların tarixidir. Bu tarix yalnız ərəblərlə məhdudlaşır, yalnız onları öyrənir!

Əgər tədqiqatların dairəsi bir az genişləndirilərsə, olsa-olsa, ərəblərlə qonşu millətlərə şamil ediləcəkdir. Şərqdə və Qərbdəki digər inanc qardaşlarımıza gəlincə, onlardan söz açmaq ikinci və ya üçüncü dərəcəli işdir! Bəlkə də, onlar ya qəsdən, ya da unutqanlıqdan yada düşmürlər...

Mədəni qəsbkarlıq müsəlmanları bir-birinə bağlayan ipləri kəsib, onları bir-birinə yadlaşdırdıqdan sonra misirli bir müsəlman uzaq diyarlarda yaşayan müsəlman qardaşlarının başına gələnlər haqda ya heç nə bilmir, ya da bu onun üçün maraqlı deyildir.

Məsələn, Albaniyanı – əhalisinin onda doqquzu müsəlmandır – allahsızlıq parçalayıb-dağıdır, amma onun ah-naləsini, şikayətini heç kəs eşitmir...

Filippin müsəlmanları – sayları bir neçə ərəb dövlətinin əhalisinin sayından çoxdur – müxtəlif hərc-mərcliklərin qurbanına çevriliblər, amma heç kəs onların dadına yetişmir...

Ədirnədə xilafətin bayrağı yer düşdükdə təkcə bir şair – Əhməd Şövqi (1868-1932) buna ağlamışdı:

*Ey Əndəlüsün bacısı, sənə salam olsun!*
*İslamdan da, xilafətdən də məhrum qaldın!*

Vaxtı ilə şair Mütənəbbi qəflətən vəfat etmiş Əbu Şücaya, İbn Rumi də öz oğluna bu cür ağlamışdı! Bugünün faciəsi əvvəlki faciələrdən heç nəyi ilə fərqlənmir!

İndiki dövrdə ümmətin vəziyyəti qəlizdir; müsəlman həmrəyliyi və əməkdaşlığı deyilən şey xəyala çevrilib. Hal-hazırda tarixi ağılsızcasına yazırlar. Bu tarix islamı nə zaman, nə məkan, nə də mahiyyət baxımından əks etdirir...

Xatırlayıram, bir dəfə bir səfirlə aramda kəskin mübahisə yaranmışdı. Səlahəddin Əyyubinin kürd olduğunu deməyim onu bərk qəzəbləndirmişdi və o, bu dahi şəxsiyyətin kürd olduğunu qəbul edə bilmirdi.

Bu miskin şəxs tarixi bir faktı təkzib etmək istəyirdi! Tatarları məğlubiyyətə uğratmış Sultan Qutuzun da ərəb olmadığını ona bildirdim. O isə Qutuzun ərəb sərkərdələrindən olduğunu iddia edirdi. İş o yerə çatmışdı ki, bu səfir ərəb sərkərdəsi sandığı Qutuzun adına inşa edilmiş məscidin açılış lentini kəsmişdi!

İslamın bayraqdarları olmuş ərəblər dərk etməlidirlər ki, ərəblik (ərəb millətinə mənsubluq) qan qohumluğu ilə deyildir. Ərəblik dillə əlaqəli məsələdir. Bir insana ərəb olduğu üçün deyil, əksinə, islama tapındığına görə rəğbət bəsləmək lazımdır. İslam tarixi vəhyin endiyi Ərəbistandan başlansa da, "çevrə"si paralel və meridianlar boyu hey genişlənmişdir. Bu "çevrə" genişləndikcə milli təəssübkeşlik və millətçiliyi əridib yox etmişdir; insanlar yalnız islamın ətrafına toplaşmış, bayraqları da tövhid bayrağı olmuşdur...

Biz bu həqiqətlərə etinasız yanaşan bir tarixi (yazılı tarixdən söhbət gedir) mötəbər hesab edə bilmərik...

Bizim hal-hazırkı yazılı tariximiz kəmiyyət baxımından naqis olduğu kimi, keyfiyyətcə də qənaətbəxş deyildir. Orta məktəblərdə indiyədək tədris olunur ki, Abbasilər xilafətinin

paytaxtı Bağdadın süqutunda təkcə tatarlar günahkardır. Və onlar Abbasiləri öz güclərinə yenmişlər.

Təbii ki, bu səhv fikirdir. Avropalılar islam dünyasında baş verənləri (Abbasilərin süqutunu, XII-XIII əsrlərdə islam coğrafiyasındakı dağınıqlığı – ***mütərcim***) monqol-xaçlı qəsbkarlığı ilə əlaqələndirirlər. Qərbdə tədris olunur ki, bu qəsbkarlıqda həm monqolların, həm də xaçlıların payı vardır...

Qərb Kilsəsinin agentləri – missionerləri xilafətin həm daxilində, həm də xaricində yorulmaq bilmədən "işləyir", müsəlmanlar isə yatırdılar!

Məlumdur ki, tatarların baş sərkərdəsi xristian idi. Hülakunun arvadı da xristianlığa inanırdı... Dini azlıqlar vəziyyətə yaxşı bələd idilər. Tatarlar zəifləmiş şəhəri (Bağdadı) ələ keçirdiklərində onlar hərəkətə keçdilər. Tarixçi İbn Kəsir "əl-Bidayə vən-Nihayə" adlı kitabında xristian azlıqların şadyanalığı haqda yazmışdır. Rəhmətlik haradan bilərdi ki, bu bədxahlar nəyə sevinirlər.

Dövrümüzdə məxfi hərbi və siyasi sənədlər təxminən otuz il arxivdə saxlanıldıqdan sonra mətbuatda nəşr olunur; gizli məlumatlar xalqa bildirilir. Elə isə nə üçün tariximizin son yeddi əsrini anormal formada gizləyib saxlayırıq?! Nə üçün biz onu şagirdlərimizə, tələbələrimizə doğru-düzgün tədris etmirik?!

Misirə qarşı fransız və ingilis hərbi kampaniyalarının "fayda"ları haqda yazılmış kitabları oxumuşam. Səhifələr müxtəlif dövrlərə aid yalanlarla doludur...

Düşünürəm ki, tariximizi yenidən düzgün şəkildə yazmalıyıq. Əvvəlcə, unutduğumuz məqamları yazmalı, daha sonra səhvlərimizi düzəltməliyik. Şair demişkən:

*Elə bir dövr yoxdur ki, adil şahidləri olmasın,*
*Hər bir həqiqəti də arayıb-axtaranlar vardır!*

Mühümdür ki, itirdiklərimizi dərk edək, həqiqətlərin üstünü örtmüş toz-torpağı təmizləyək, uydurmaçılara da öz mənfur məqsədlərini bizə qəbul etdirmək fürsəti verməyək...

Gələcək nəsillərin formalaşmasında tarixin rolu danılmazdır. Elə isə tariximizi və övladlarımızı yalançıların, kin-küdurət sahiblərinin əlinə verməyək.

Müsəlman tarixçi islamın mahiyyətinə, eyniadlı dövlətin funksiyalarına bələd olmalıdır...

İslam dövlətinin vəzifəsi təkcə xalqa yemək hazırlamaqdan, məişət səviyyəsini yaxşılaşdırmaqdan ibarət deyildir...

Onun bundan daha böyük, daha ülvi missiyası vardır! Dövlət islamı himdə duran düşmənlərdən qorumalı, Allaha çağırış (dəvət) yolundakı maneələri aradan qaldırmalıdır. Qaldırmalıdır ki, dəvət işi fitnəkarlar tərəfindən "müsadirə" olunmasın, öz yoluna davam etsin...

Elə bil ki bütün dünya tövhid inancına sahib çıxanlardan – müsəlmanlardan intiqam almaq istəyir. İnsanlar gecə-gündüz bunun üçün əlləşirlər! Quranda bu haqda deyilir:

"...Onlar əgər bacarsalar, sizi dininizdən döndərincəyə qədər sizinlə vuruşmaqda davam edəcəklər..." (əl-Bəqərə, 217).

Görəsən, bunu müsəlman hökmdarlar başa düşmüşdülərmi? Axı onların çoxu hakimiyyəti qənimət olaraq ələ keçirmiş və əbədiləşdirmişdi!

Müsəlman tarixçi hər bir hökmdarın dinə, dini öhdəliklərə münasibətini araşdırmalıdır. O, problemi bu cür qoymalıdır: Bu və ya digər hökmdar dini öhdəliklərini yerinə yetirsinlər deyə müsəlmanlar üçün nə edib?

Məlumdur ki, hər bir ağır məğlubiyyətin arxasında müsəlmanlar arasında yayğın hala gəlmiş, onları heydən salmış gizli və aşkar səhvlər dayanır. Görəsən, bu səhvlər araşdırılmışdırmı, tədqiqat obyekti olaraq seçilmişdirmi? Yoxsa bu qələbələr və məğlubiyyətlərə münasibət informasiya portallarında şahmat oyunları və ya maneken qadınlar haqdakı xəbərlərə olan münasibət kimidirmi?

## Hülaku tək deyildi!

Misirli professor Əhməd Sübhi Mənsur (anadan olub – 1949) islam tarixini obyektiv tədqiq edən qiymətli yazı qələmə almışdır. Biz də onun həmin yazısını böyük qədirbilənliklə aşağıda dərc edirik:

"Canlı nə varsa hər şeyi məhv etmiş onlarla xunkar (qaniçən) arasında Hülakunun öz yeri vardır. Ərəb-müsəlman tariximizdə bu ad xüsusi "yer"ə sahibdir. Bu qaniçən hökmdar 1258-ci ildə Abbasilər xilafətini yıxmış, Bağdadda təxminən iki milyon insanı öldürtmüşdür.

Bu tarixi fakt zəruri edir ki, Hülakuya nifrət bəsləyək. Bəli, o, heç şübhəsiz ki, buna layiqdir. Lakin bu işdə təkcə Hülaku məsuliyyət daşımır!

Hər şeydən qabaq Əmirəlmöminin Mö`təsim Billah qınanmalıdır. O Mö`təsim ki, əmanətə (xilafətə, möminlərin hökmdarı olmağa – ***mütərcim***) doğru-dürüst sahib çıxa bilməmişdir. Hələ də bəzilərimiz bu xəlifə üçün, Abbasilər xilafəti üçün göz yaşı axıdır. Və dövrümüzdə bəzi insanlar röyalarında hey Abbasilər xilafətini görürlər...

Tarixçi İbn Təbatəba onu (xəlifə Mö`təsimi) belə təsvir edib:

"Söz sahibi deyildi, ölkənin işlərindən baş çıxarmırdı, hərbi yürüşlər nədir bilmirdi. Tamahkar idi, gününü musiqi dinləməklə, təlxəklərə tamaşa etməklə keçirirdi. Dostlarının tə-

siri altında idi. Onlar hamılıqda adi, rəzil və nadan adamlar idilər".

Bəziləri deyə bilərlər ki, İbn Təbatəba şiədir, odur ki, sünni məzhəbinin təəssübkeşliyini çəkmiş xəlifə Mö`təsimə kin bəsləyir. Amma İbn Kəsir kimi mötəbər sünni tarixçisi də İbn Təbatəba ilə razılaşaraq yazırdı:

"Var-dövlət toplamağı sevirdi. Bu səbəbdən o, Nasir Davud Mö`zəmin ona əmanət qoyduğu təxminən yüz min dinarlıq var-dövləti mənimsəmişdi. Bunu xəlifənin etməyi çirkin hərəkət idi".

Xəlifənin pula olan tamahkarlığı monqol hücumları qarşısında xilafəti təhlükəli vəziyyətə salmışdı. Çünki xəlifə xilafətin əsgərlərə möhtac olduğu bir vaxtda onların maaşını kəsmişdi.

İbn Kəsir yazır:

"Xəlifə ordunu başı-boşuna buraxmış, əsgərlərin məvacibini kəsmişdi. İş o yerə çatmışdı ki, əsgərlər məscidlərin qapısı ağzında, bazarlarda dilənçilik edirdilər... Şairlər onlara qəsidələr oxuyur, islam və müsəlmanlar üçün qəm-qüssəyə batırdılar".

Xəlifə Mö`təsim, bir tərəfdən, möhtac olduğu əsgərlərinə xəsislik edir, digər tərəfdən də, xalqın malını yeyən zalım əyanları və qulluqçularına çoxlu pullar xərcləyirdi. Bu əyanlar nadan və alçaq insanlar idilər. Abbasilər dövlətinin zəiflədiyi əsrlərdə onlar çətin anlardan "faydalanaraq" vəzifə sahibi oldular. Alim və şərəfli insanlar acından qıvrıldığı bir vaxtda onlar eyş-işrət içərisində yaşayırdılar.

Abbasilər dövlətinin son dövrlərində dövlət pulunun əyanlara gen-bol xərcləndiyi və onların yağ-bal içində yaşadıqları bir vaxtda baş verənlər haqda tarixi misallar gətirək:

**1. Əläddin ət-Təbərsi əz-Zahiri**. Mülklərindən gələn gəlir üç yüz min dinar idi. Böyük bir imarəti vardı. Bağdadda ikinci belə imarət yox idi. Evləndiyində iyirmi min dinar başlıq pulu ödəmişdi... Xəlifə Müstənsir toy gecəsi Zahiriyə yüz min dinar hədiyyə vermiş, onu dövlətin böyüklərindən etmişdi. Ona illik gəliri iki yüz min dinar olan dulusçuluq emalatxanası bağışlamışdı.

**2. Mücahid əd-Düveydar**. İnsanlar danışırdılar ki, əmlakını hesablamaq mümkün deyildir... Evləndiyi gün üç yüz min dinarlıq daş-qaş və qızıl hədiyyə almışdı. Toyun ikinci günündə xəlifə Mö`təsim ona üç yüz min dinar bağışlamışdı. Əkinləri və mülklərinin illik gəliri beş yüz min dinardan çox idi.

**3. Əbdülqəni ibn Faxir.** Xəlifənin sarayında fərraşbaşı idi. Çoxotaqlı imarəti vardı. Hər otaqda bir kəniz, xadimə və xidmətçi olurdu. Hər bir kənizə iş tapşırmışdı. Məsələn, bir kəniz ona yemək, digəri içəcək gətirir, başqa birisi yerini salır, başqası da paltarlarını yuyurdu. Aşpazlıq edən kənizi də vardı...

Bütün bunların müqabilində dövrün böyük alimləri ayda on iki dinar məvacib alırdılar. əl-Müstənsiriyyə mədrəsəsi alimlərinin də aylıq maaşı elə bu qədər idi!

Həmin dövrün məşhur tarixçilərindən İbn əl-Quti və İbn əs-Saiyə ayda yalnız on dinar məvacib kəsilmişdi! Xəlifə sarayındakı fərraşbaşı hara, onlar hara!

Ölüm ayağında olan hər bir imperiyanın belə bir vəziyyətdə aqibətinin nə olacağı hamıya məlumdur. Bütün imperiyalar: Sasani, Bizans, Roma, Abbasi... imperiyaları eyni aqibəti yaşamışlar. Belə bir zamanda rüşvət çoxalır, var-dövlət bir qrup adamın əlində toplanır, daxili çəkişmələr böyüyür. Bu da azmış kimi, qapını döyən təhlükə heç kəsi narahat etmir, boş-boş məşğuliyyətlər hər yeri bürüyür, əxlaqsızlıq meydan sulayır.

"Tökmə qızıl" (əl-Əscəd əl-Məsbuk) adlı kitabında əl-Qəssani Abbasilər səltənətinin son günlərini belə təsvir edib:

"Onlar iqta torpaqları ilə, gəlirlərlə maraqlanırdılar. Xalqın halı onları narahat etmirdi. Qeyri-məqbul dünya işləri ilə məşğul olmağa başladılar. Kölələrin (hakimlərin) zülmü tüğyan etdi və onlar pul toplamağı özlərinə məşğuliyyət seçdilər. Hakimiyyət, ola bilsin ki, küfrlə davam edə bilər, amma zülmlə əsla!"

Necə də doğru söyləmişsən, Qəssani! Bəli, küfrə batmış səltənət, bəlkə də, yaşaya bilər. Amma zalım səltənət məhvə məhkumdur!

İlahi qaydada deyilir:

"Biz bir məmləkəti məhv etmək istədikdə (peyğəmbərlərin dili ilə) onun naz-nemət içində yaşayan başçılarına (Allaha itaət etməyi, iman gətirməyi) əmr edərik. Lakin onlar (Allaha asi olub) pis-pis işlər törədərlər. Beləliklə, (o

məmləkətə əzab verilməsi haqqındakı) hökm vacib olar və onu yerlə yeksan edərik" (əl-İsra, 16).

Zülm tüğyan edib atını çapmadıqca ilahi əzab (məhvetmə) baş verməz:

"Məmləkətlərin əhalisi əməlisaleh olduğu ikən Rəbbin onları haqsız yerə məhv etməz!" (Hud, 117).

Amma Əmirəlmöminin Mö`təsim bundan lazımi dərs çıxarmadı, həqiqəti dərk etmədi. Bilmirdi ki, fəsad və zülmə görə cəzalandırma, müxtəlif vasitələrlə də olsa, hər bir dövrdə təkrarlanır.

Xəlifə ağlına belə gətirmirdi ki, etdiklərinin cəzasını haçansa çəkə bilər. Bəli, o, bunun cəzasını çəkdi: monqollar tərəfindən təpiklənərək öldürüldü!

"Came ət-Təvarix" (Tarixləri özündə toplayan (kitab) əsərində Həmədani yazır:

"Hülaku Bağdadı tutduqdan sonra xəlifənin sarayına daxil oldu. Göstəriş verdi ki, xəlifə Mö`təsimi gətirsinlər. Ona dedi: "Sən ev sahibi, biz də sənin qonağınıq. Haydı, bizə layiq olandan gətir. Xəlifə qorxusundan tir-tir əsirdi. Qiymətli daş-qaş və qızıl-gümüş sandıqlarını gətizdirdi. Hülaku gətirilən şeylərə əhəmiyyət vermədən onları orada olanlara paylayaraq dedi: "Yer üzündə sahib olduğun var-dövlət məlumdur və bizim qullarımızındır. Sən dəfinələrindən danış. Varmı və haradadır?" Xəlifə boynuna aldı ki, sarayın həyətində qızılla dolu hovuz var. Yeri qazıb xəzinəni tapdılar. Hovuzun altı qırmızı külçə qızılla dolu idi. Hər birinin yüz misqal (təxminən 500 qram) ağırlığı vardı".

Bununla da, xəlifə Mö`təsim qaniçən Hülaku tərəfindən həqarət gördü. Hülaku bərk təəccüblənmişdi: xəlifənin bu qədər xəzinəsi vardı, amma əsgərlərinin məvacibini verməkdə xəsislik etmişdi.

Hülaku Dəməşq hakiminə göndərdiyi məktubunda olanlar haqda yazmış, onu təslim olmağa, xəlifənin və Bağdadın başına gələnlərdən dərs götürməyə çağırmışdı. Məktubda xəlifə Mö`təsim haqda deyilirdi:

"Bağdad xəlifəsini hüzurumuza gətirtdik, bəzi şeyləri soruşsaq da, yalan danışdı. Xidmətçilər onu kötəklədilər. Bizdən imdad dilədi. Çoxlu qiymətli daş-qaş yığmışdı. Necə də iyrənc adam idi: var-dövlət toplamış, insanlara qayğı göstərməmişdi...".

Məqrizi öz kitabında Hülakunun məktubunun tam mətnini dərc etmişdir...

Həmədaniyə qayıdaq. Həmədani xəlifənin qəsrində Hülaku ilə Mö`təsimin söhbəti haqqında yazır:

"Hülaku əmr etdi ki, xəlifənin qadınlarını saysınlar. Yeddi yüz arvadı və kənizi, min qulluqçusu vardı.

Xəlifə ona yalvararaq dedi: "Hərəmlərimin (zövcələrimin) günəş və ay üzü görməyən* uşaqlarına görə mənə rəhm et...

Bir sözlə, Abbasi xəlifələrinin beş əsr ərzində yığdıqlarını monqollar üst-üstə qaladılar və xəzinələrdən ibarət dağ əmələ gəldi".

---

* Yəni, hələ dünyaya gəlməmiş uşaqlarımın xətrinə məni bağışla – ***tərcüməçinin qeydi***.

Abbasi xəlifəsindən qalan bu xəzinəni Hülaku əridib külçə halına saldı, Azərbaycandakı möhkəm bir qalada saxlatdı.

Hülaku hər nə qədər barbar və xunkar olsa da, başa düşmüşdü ki, Allah Abbasi xəlifələrini, bölgədəki zalım hakimləri cəzalandırır. Odur ki, müxtəlif hakimlərə göndərdiyi məktublarında bu haqda yazmışdı. Məsələn, Dəməşq hakiminə göndərilmiş məktubda deyilirdi:

"Biz Allah təalanın qılıncı ilə Bağdadı fəth etdik, süvarilərini öldürdük, tikililərini dağıtdıq, əhalisini əsir götürdük...".

Misir hökmdarı Qutuza göndərdiyi başqa bir məktubunda yazmışdı:

"... Müzəffər hökmdar Qutuz, dövlətinin digər əmirləri, Misir diyarının və ətraf bölgənin əhalisi bilirlər ki, biz Allahın yer üzündəki əsgərləriyik, Onun qeyzindən yaranmışıq. O bizi qəzəbi tutduğu kəslərin üstündə hakim qıldı... Və siz haram yediniz, sözlərinizi tutmadınız, əhdlərə və imana xəyanət etdiniz... Aranızda asilik və (Allaha) itaətsizlik yayıldı. Sizə görə biz kafirik, bizə görə isə siz – azğın günahkar!"

Bəlkə də, Sultan Qutuz bu məktubdan dərs götürmüş, məmlüklər də zülmdən əl çəkmiş, dini heysiyyətlərini geri qaytarmışdılar...

Eyni-Calut döyüşündə Qutuzun əsgərləri qaçmaq ərəfəsində ikən sultan: "Vay islamın halına!" – deyə hayqırmış, dəbilqəsini yerə atmış, özünü savaşa vurmuşdu. Bununla da, müsəlmanlar monqolları məğlubiyyətə uğratmışdılar.

Dövlətlər bu şəkildə qurulur və yıxılır. Tənəzzül içəridən başlanır. Xarici müdaxilə bəzən bu tənəzzülü sürətləndirir,

amma əsas amil daxili tənəzzüldür; hər şey onunla başlanır, onunla da başa çatır.

Var-dövlət içərisində üzən israfçı təbəqə formalaşdıqda daxili tənəzzül baş verir; cəmiyyətdə zülm və əxlaqsızlıq yayılır, xalqın həyatı cəhənnəmə çevrilir, – bu həyatda ikən ölməkdir.

Qurani-Kərim var-dövlətin (pulun) yalnız bir qrup insanın əlində toplanmağını qadağan edən iqtisadi təlimlərində bunun əlacını göstərmişdir. Eyni zamanda əmr olunur ki, zəkat verək, Allah yolunda xərcləyək. Bəzən də bu cür əmrlərdə xəbərdarlıq hiss olunur. Məsələn:

"(Malınızı) Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq (ehsan) edənləri sevir" (əl-Bəqərə, 195).

Ayənin mənası budur ki, xərcləməsək, bizi təhlükə gözləyir! Əgər xərcləsək, onda var-dövlət az sayda insanın əlində toplanıb əyləncəyə yol açmayacaqdır.

Allah təala Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* zamanında müsəlmanlara xitabən xəbərdaredici tərzdə buyurmuşdu:

"Budur, siz (mal-dövlətinizin yalnız qırxda birini) Allah yolunda sərf etməyə çağırılan kimsələrsiniz. Bununla belə içərinizdə xəsislik edən də vardır. Hər kəs xəsislik etsə, ancaq özünə qarşı xəsislik etmiş olar. (Bunun zərəri yalnız özünə toxunar). Allah zəngin, siz isə yoxsulsunuz (Allah sizə möhtac deyildir, siz Ona möhtacsınız). Əgər (Ondan) üz döndərsəniz, (sizi yox edib) yerinizə sizlər kimi olma-

yan (Allaha cani-dildən ibadət və itaət edən) başqa bir qövm gətirər!" (Muhəmməd, 38).

Mö`təsim xalqı və əsgərləri ilə pis davranmışdı. Bir tərəfdən, əyanlarına yüz minlər yağdırırdı, digər tərəfdən də, alimlər acından qıvrılırdılar.

Bundan sonra yenədəmi təkcə Hülakuya lənət oxuyacağıq?!

## Baş verənləri kimin ayağına yazaq?

Bəzi kitablarımda şikayətlənmişəm ki, nə üçün bizdə toplantı və ya konfrans keçirilib, aşağıdakı problemlər müzakirə edilmir:

a) Ərəblərin Əndəlüsdən qovulmasına Allah nə üçün icazə verdi;

b) Nə üçün XII əsrdə xaçlılar Qüdsü işğal edə bildilər və s.

Dini tədrisdəki nizamsızlıq və özbaşınalığın nəticəsində "Qadınlara toxunmaq dəstəmazı pozurmu?" problemi "Şura liderlərə zəruridir ya yox?" problemindən daha aktual sayılmışdır.

Doğrudan da, bu, əqli gerilikdir, dözülməz davranışdır!

İbn Teymiyyənin həbs edilməsi səbəblərini araşdırıram. Nə görsəm yaxşıdır: bid`i boşanma formasını qəbul etmədiyi üçün, qəsdən namazı tərgitənin qəza namazı qılmayacağını dediyi üçün həbsə məhkum edilmişdir. Dinin ikinci dərəcəli məsələlərinə görə ümmətin alimini həbs etmişlər! Məgər islam icazə verir ki, atlar kimi insanı da axura bağlayasan? Məgər müsəlman tarixçi bu cür "qəribəlik"lərə susqun qalmalıdır?!

Dünya gələcəyə sarı iri addımlarla irəliləyir, təbiət elmlərini öyrənir; xalqlar və millətlər təbiətdəki imkanlardan istifadə üstündə bir-biri ilə yarışırlar. Bir tək müsəlman zehniyyəti öz qısırlığını "qoruyub" saxlayıb. Bu işdə müsəlmanlar yalnız

özlərini qınamalıdırlar. "Qatar"ı qaçırmış, özləri-özlərinin başına iş açmış, dünya və axirətlərini əldən çıxarmışlar!

Tarix öz təcrübəsini övladlarına danışan, bununla da, onların gələcəyinə zamin duran atanı xatırladır. Bu "ata" ağıllı və müdrik olmalıdır ki, verdiyi öyüd-nəsihət nəticəsiz qalmasın...

İslama görə ədalətlə hökmranlıq edənlərə çoxlu savab vardır; adil hökmdarlardan Allah razı qalar. Onlar qiyamət günü Onun kölgəsinə sığınacaq ilk insanlardır!

Amma tariximizdə ədalətli hökmdarlara az rast gəlinir. Çünki çoxlarının nəzərində hakimiyyət şəhvətpərəstliyə xidmət edən vasitə idi və onlar səltənət sahibi olmaq üçün nələr etməmişdilər ki?! Amma layiq olduqları üçün hakimiyyətə gələnlər onu canları ilə qorumuşlar. Düşünürəm ki, aşağıdakı ayə də beləlari haqdadır:

"Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. (Ən gözəl) aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!" (əl-Qəsəs, 83).

Çox az hökmdarın islama faydası dəymişdir. Onlar bu dinin sərhədlərini genişləndirmişdilər. Bu böyük siyasətçilərin başında Raşidi xəlifələri (Həzrəti Əbubəkr, Ömər, Osman və Əli – ***mütərcim***) gəlir. Tariximizdə özlərini Allaha və ümmətə həsr etmiş hökmdarlar da olmuşdur. Onlar Allahdan, Allah da onlardan razı qalmışdır!

Təəssüf ki, islamın böyük hamilərinin din və ümmət yolundakı xidmətləri haqda sanballı əsərlər qələmə alınmayıb.

Onların xidmətləri haqda məlumat müxtəlif mənbələrdə dağınıq şəkildə mövcuddur.

Xilafət haqda yazılmış kitabları vərəqlədikdə görürəm ki, əsas "qayğı" mənfi halların (faktların) üzə çıxarılıb, şanlı tarixin ört-basdır edilməsinə yönəlib. Sanki xəlifəlik tarixi yalnız fitnə-fəsad tarixi imiş!

Bəli, xəlifəlik tarixi kitabların əsas səhifələrinə qızıl hərflərlə yazılmağa layiq olmadığı kimi, alt və kənar haşiyələrlə də məhdudlaşdırılmamalıdır. Sanki kimsə İlk Nəsil müsəlmanlarının şanlı tarixinin, tərifəlayiq nailiyyətlərinin üstünü örtüb-basdırmaq istəyir...

Azərbaycandakı müsəlmanların xəbərlərini oxuyuram. Onlar rus təzyiqinə sinə gərir, dini inanclarını qurtarmağa çalışırlar. Məlum olduğu kimi, bu torpaqlar üçüncü xəlifənin (Həzrəti Osmanın – ***mütərcim***) zamanında fəth edilmişdi. Azərbaycan və digər qonşu ölkələr Sovet İttifaqının cənub hissəsini əmələ gətirir*.

Şagird və tələbələrimizin bundan xəbərləri yoxdur. Onların bu korluğunu aparacaq açıq-aydın "xəritə" də mövcud deyildir. Bu da azmış kimi, tələbələrimizə Həzrəti Osmana yaxılmış bəzi iftiralar öyrədilir. Guya o, bərk qohumbaz imiş; bəzi qohumlarının tərəfini saxlayırmış!!!

Tədris olunmalıdır ki, səhabələr dünyanın mənzərəsini necə olub ki, dəyişə biliblər? Bəli, onların fəaliyyətini, prinsip və həyata baxışlarını şagirdlərimizə öyrətməliyik!

---

* Kitabın yazıldığı dövrü (1990-1991) nəzərə alsaq, yuxarıdakı sətirlər bizdə təəccüb oyatmayacaqdır – ***tərcüməçinin qeydi.***

Ərəblər həmin prinsiplərə sarıldıqları üçün cahiliyyət kahasından qurtulmuşdular. Onların əlində qaranlıqları aydınlatmış, yer üzünü min il ərzində zinətləndirmiş bir mədəniyyəti yaradan kitab vardı...

Bütün bunlar ilk dörd böyük xəlifənin zamanında baş vermişdi...

Bu şanlı işlər haqda tələbələrimizə təfsilatı ilə danışmaq Cəməl, Siffin və zehinlərdə mənfi izlər qoymuş digər hadisələri tədris etməkdən daha faydalıdır. İzah edilib əbədiləşdiriləcək şanlı hadisələr, tarixi nailiyyətlər tədrisdən nə üçün də kənarda qalmalıdır?!

Tarixdəki səhvlərimizi inkar etmək fikrim yoxdur. Amma yaxşı olardı ki, bu səhvlərdən din və dünya üçün etdiklərimizi öyrənib öyrətdikdən sonra danışaq.

Laqeydliyimizi kimin ayağına yazmalıyıq?

## Qüds sınağı

Hicri V (miladi XII) əsrin əvvəlləri Qüds şəhəri üçün ilk sınaq oldu. Bu sınaq doxsan il çəkdi. Nəhayət, Səlahəddin Əyyubi Qüdsü səlibçilərdən azad etdi, oranı tükürpərdici vəhşiliklər törətmiş vandalların murdarlığından təmizlədi.

Amma o da məlumdur ki, bu müsəlman sərkərdəsi buraları tamamilə təmizləməmişdi! Çünki səlibçilər çox saylı xristian kütlələrini özləri ilə birlikdə bu torpaqlara gətirmişdilər. Onlar da İslam dünyasındakı dini etiqad azadlığından istifadə edərək müsəlman torpaqlarında qalıb-yaşamağa üstünlük verdilər.

Düşünürəm ki, xristian kütlələrin müsəlman torpaqlarında məskunlaşmalarının ciddi fəsadları olmuşdur. Çünki müsəlmanları taleyin dönüklüyü gözləyirdi. Üfüqləri qara buludlar örtən kimi, həmin xristianların əsil siması üzə çıxdı!

Bağdad süqut etdikdən sonra onlar namərdcəsinə hərəkətə keçdilər. Bax bunu öyrənməyə dəyər.

"İslam dövlətləri" kitabında Zəhəbi Abbasilər xilafətinin süqutundan iki il sonrakı hadisələr haqda yazırdı:

"Xristianlar Dəməşqdə baş qaldırdılar. Ölkənin hər yerində xaçlar asdılar. Hətta adi aşxanalarda insanları məcbur etdilər ki, xaça təzim göstərsinlər. Müsəlmanlarla bağladıqları müqaviləni təkzib etdilər. Ramazan ayının iyirmi ikisi idi. "Doğru din – İsanın dini qayıtdı!" – deyə bağırmağa başladılar.

Sonra Misir əsgərləri Şama yetişdilər. Onları Hülakunun ordusu qarşıladı. Başlarında xristianlığı qəbul etmiş Ketboğa Noyan adlı sərkərdə dayanırdı. Eyni-Calutda toqquşma baş verdi (1260). Allah öz dininə kömək etdi. Tatarlar məğlub oldular, sərkərdələri də öldürüldü.

Bu xəbər Dəməşqə gecə gəlib çatdı. Xristianlar öldürülüb qarət edildilər. Onların baş kilsəsi də yandırıldı...".

Mən özümdən asılı olmayaraq, təəssüf doğuran bu hadisəni danışıram. Nə edə bilərəm axı?! Görəndə ki, Cənubi Livan ordusu yəhudi yaşayış məskənlərinin keşiyini çəkir, tarixin təkrarlandığını düşünürəm. "Səbra" və "Şatilla" qaçqın düşərgələrində ərəblərin vəhşicəsinə qətlə yetirildiyi o məşum səhnə gözlərimin önündən getmir. Vaxtı ilə bu ərəbləri səlibçilər rəhmsizcəsinə qılıncdan keçirmişdilər. Müsibətlər bir-birini əvəz edir...

Dövrümüzdə Livan hadisələri baş verdi. Ərəb liderləri Taif müqaviləsini (1989) imzalayıb razılaşdılar ki, Livanın prezidenti xristian ərəblərdən seçilsin. Və müsəlmanlar da onunla şərəfli əməkdaşlığa girsinlər!

Ay barışıq oldu ha! Əslində məqsəd ərəbliyi və islamı məhv etmək üçün İsraillə əməkdaşlıq edəcək, ümmətin bağrındakı yaranı dərinlədəcək, müsəlmanların dağınıqlığını böyüdəcək bir sistem yaratmaq idi.

Bu günün faciəsi dünənin faciəsindən doğub. Bu ümməti diri saxlamaq üçün "Vay islamın halına!" – deyə hayqıran kimsə vardırmı?

Məhəmməd peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aləmlərə rəhmət olaraq göndərilmişdi. İslam millətçilik cərəyanı və ya

irqi oyanış deyildi. Tarixdən məlumdur ki, bizanslılar Afrikanın şimalını, Anadolunu (Kiçik Asiyanı), Şamı və Şimali Ərəbistanı öz hakimiyyətləri altına almışdılar...

İslam bütün bu əraziləri azad edib, Bizans despotizminin buxovlarını qırıb atdı. Bizanslılar islama oğrunun polisə baxdığı kimi baxmağa başladılar. Çünki "polis" "oğru"nun işinə mane olmuş, caynaqlarını kəsmiş, ədəb-ərkanın nə olduğunu ona başa salmışdı!

Bizanslılar heç də səmimi xristian deyildilər. Azğınlıq və zorakılıq onları İsanın dinindən uzaqlaşdırmışdı.

Qulaqburması aldıqdan sonra öz qınlarına çəkilib him gözləməyə başladılar. Hicri V əsrin əvvəllərindən etibarən bütün Avropanın iştirak etdiyi dəhşətli yürüşlər təşkil olundu. Şərqdən İslam dünyasına hücum etsinlər deyə monqollarla müqavilə bağladılar. Səlibçilər də qərbdən hücuma keçdilər. Müharibə dəyirmanı öz daşını təxminən üç əsr hərlədi; insanlar qətlə yetirildi, ölkələr viran qaldı.

Allah "quduz sel"in geri çəkilməsini istədi və müsəlmanlar öz torpaqlarının hər bir qarışını azad etdilər. Tarix səhnəsində osmanlı türkləri göründülər: bizanslıların paytaxtını fəth edib, Vyanaya qədər irəlilədilər.

Amansız müharibələr sonrakı əsrlərdə də davam etdi. Nəhayət, türklər məlum səbəblərə görə məğlub oldular. Bu məğlubiyyətin ardından bütün islam dünyası süquta uğradı. Məhz bu süqut haqda bir az şərh vermək lazımdır.

Rusiya Şimal Buzlu okeanın cənubunda yerləşən və Sakit okeanınadək uzanan torpaqları təkbaşına ələ keçirib, ərazisini dəfələrlə genişlədib. Bununla da, Sibir, Türküstan, Ural,

Krım və Qara dənizin sahilləri müsəlmanların əlindən çıxıb.

Qara qitənin (Afrikanın – ***mütərcim***) şimalı və mərkəzi, Nil vadisi (Misir) ingilislər və fransızların işğalı altına düşmüşdü. İngiltərə və Fransa Hollandiya ilə birlikdə Hindistanı, Hind-çin yarımadasını, İndoneziya və Filippini, Sakit okeanda yerləşən digər adaları ələ keçirdilər...

Diqqətimizi çəkən budur ki, ingilislər Hindistanda islam dövlətini (Babur imperiyası nəzərdə tutulur – ***mütərcim***) süquta uğratdıqdan sonra hakimiyyətə hindliləri gətirdilər. Onlara görə, bütpərəstlik islamla müqayisədə yaşamağa daha çox layiq idi! Vaxtı ilə yəhudilər də bu cür düşünmüşdülər. Onlardan soruşanda ki, bütpərəstlik, yoxsa Məhəmmədin dini üstündür, bütpərəstlərə belə cavab vermişdilər: "Sizin dininiz daha üstündür!"

Bu "fitva"ya görə aşağıdakı ayələr enmişdi:

"(Ya Rəsulum!) Kitabdan (Tövratdan və ya yazıb-oxumaqdan) bir pay (az bir şey) verilənləri (yəhudiləri) görmürsənmi? Onlar Cibt və Tağuta (bu adda iki bütə, yaxud Cibt adlı bütə və Tağut deyilən Şeytana) inanır və kafirlər üçün də: "Bunlar möminlərdən daha doğru yoldadırlar", - deyirlər" (ən-Nisa, 51).

Bugün İslam dünyası həm fiziki, həm də mənəvi cəhətdən parçalanmışdır. Yenidən tarix yazmaq üçün əzmkar oğullara ehtiyac vardır. Görəsən, zaman onlardan bir daha bəxş edəcəkmi?

Biz öz tarixi mənbələrimizlə yanaşı, başqalarının da mənbələrini araşdırmalıyıq. Söhbət elə mənbələrdən gedir ki, on-

ların nöqteyi-nəzərlərini izah edir, bizə olan münasibətlərini aşkara çıxarır. Əgər bunu edə bilsək, gizli məqamlara aydınlıq gətirərik, başqalarının bizə necə münasibət bəslədiyini öyrənərik. Onsuz da, onlar bizə necə münasibət bəslədiklərini bir gün də olsa ört-basdır etməyiblər.

# Qərb və İslam

Avropa və ABŞ-da islama xoş münasibət bəsləmirlər. Onlar müsəlmanların problemlərini böyüdüb, haqlarını tapdamaqda "qüsur"a yol verməzlər! Mətanətli dinimizə yönəlmiş nifrət yarışında Fransa öz canfəşanlığı ilə seçilir. Fəndgir missionerlik, pis niyyətli şərqşünaslıq və qənimkəsilmə siyasəti – bu üç istiqamət fransız "canfəşanlığ"ını səciyyələndirir.

Birinci Dünya müharibəsində İskəndərun əyaləti Suriyadan qoparılaraq, dünyəviliyi qarşılığında yeni Türkiyəyə hədiyyə edildi. Suriyanın cənubundakı daha iki əyalət kiçik Livana ilhaq edildi ki, diqqətlə seçilmiş hakimiyyətin nəzarətində saxlanılacaq böyük Livan əmələ gəlsin. Məqsəd ərəb deyilən nə varsa hər şeyi, o cümlədən islam mədəniyyətini bu torpaqlardan süpürüb atmaq idi. Qərara alınmışdı ki, müsəlman çoxluq cüzi və cılız hala salınsın...

Milyon yarım insanın ölümü ilə yanaşı, həm də ölkənin varının talanmasına səbəb olmuş müharibədən sonra müsəlman Əlcəzair istiqlaliyyət qazandı...

Buna baxmayaraq, Fransada bəzi siyasətçilər istəyirlər ki, savaş yenidən başlansın, çəkişmələr baş versin...

Fransada üç nəfər gənc qız müsəlman tərzi geyindiyi üçün mərəkə qopdu: islama və müsəlmanlara qarşı qəzəb dalğası

yenidən xortladı. Bir çox dövlət adamları iddia etdilər ki, fransız mədəniyyəti təhlükə altındadır!

İctimaiyyətin qaynaması da çox təəccüblü idi. Roje Qarodi* yazırdı:

"Baş verənlər, fikrimcə, kütləvi dəlilikdir! Bunu bir marslı görsəydi, dəhşətə gələrdi! Hətta İspaniya Baş naziri Filip Qonzales televiziya ilə açıqlama vermişdi ki, Fransada hicabla bağlı baş verənlər onda dəhşət oyadıb. Hicablı üç gənc qız fransız mədəni identikliyinə necə təhlükə yarada bilər axı?! (Qarodi sözünə davam edir:) Həqiqət budur ki, fransız mədəniyyəti üçün əsil təhlükə ABŞ-dan gətirilmiş filmlərdir!"

Öz-özümə deyirəm: "Müsəlman hicabı ilə rahibə geyiminin oxşar cəhətləri çoxdur. Elə isə bu təlaş, bu qorxu haradandır? Şagird qızların ləyaqət və Allah qorxusunu üstün tutub, xain və həris nəzərlərdən qoruyan hicabı geyinmələrimi fransız cəmiyyətini vəlvələyə salıb?"

İslama, ayinləri və mədəniyyətinə üz tutan hər kəsə qarşı cəmiyyətdə narahatlıq hökm sürür...

Fransada missionerliklə məşğul olan bir neçə radio fəaliyyət göstərir. Bu radioların yayım tezlikləri Şimali Afrikanın əksər hissəsinə yayılır. İslamı öz "səngər"ində vurmaq üçün böyük işlər görülür!

---

* **Roje Qarodi (1913-2012)**: Marseldə anadan olub. Fransız yazıçısı, filosof və siyasi xadimdir. Mömin xristian olan Qarodi sonralar (1982) islamı qəbul etmişdi – ***tərcüməçinin qeydi.***

Şimali-qərbi Afrikanı cənginə almış mədəni qəsbkarlıq iki şeyə əsaslanır: **birinci**, islama əngəl törədib, müsəlman oyanışının qarşısını almaq üçün bərbərlik zehniyyətini xortlatmaq istəyirlər. **İkincisi**, "Aralıq dənizi mədəniyyəti" adlandırılan şeyi aktuallaşdırıb həyata keçirməyi düşünürlər. Bununla da, həmin dənizə açılan xalqları Müsəlman dünyasından təcrid etmək, islamla olan tarixi və sosial əlaqələrini kəsmək məqsədi güdürlər....

Bütün bunlar Aralıq dənizinin qərb hissəsində baş verir. Şərq hissəsində isə başqa hadisələr cərəyan edir. Məşəqqətli, cansıxıcı hadisələr!

Böyük və güclü dövlət qurmaq yəhudilərlə xristianların ortaq hədəfidir. Yəhudilər dünyaya hakim olub, seçilmiş xalqın dövlətini – müqəddəs krallığı qurmaq üçün öz "məsih"lərini gözləyirlər.

Xristianlar da inanırlar ki, yəhudilər Fələstində toplandıqdan sonra Məryəmoğlu İsa gələcək. Bəli, onlar inanırlar ki, İsa gələcək, insanları dinə qaytaracaq, yəhudiləri də xristianlaşdıracaq, Tanrının yanında əyləşib dünyanı idarə edəcək!!!*

---

* Bu haqda Misirli samişünas-alim M. X. Həsən yazır: "Xüsusilə də ABŞ və Böyük Britaniyada yəhudi fundamentalizminin təsiri altında xristian fundamentalizmi Fələstini fundamentalist mübarizə beşiyinə çevirib. Birləşmiş Ştatlarda İsrailə hamilik edən hərəkatların əksəriyyəti xristian fundamentalistlərinin qurduğu hərəkatlardır. Bu hərəkatlar yəhudi fundamentalizmi ilə birlikdə fundamentalist peyğəmbərlik xəbərdarlıqlarını və qeybi ideyaları reallaşdırmaq məqsədilə Fələstinə bütün yəhudiləri cəm etməyə can atır. Çünki onların etiqadına görə, dağınıq halda olan yəhudilər Fələstində cəm olduqdan sonra İsa Məsih *(Ona salam olsun!)* ikinci dəfə yer üzünə qayıdacaqdır" Bax: M.X. Həsən. Dialoq mədəniyyəti və

Xristian fundamentalistlər buna inanırlar. ABŞ prezidentləri Riçard Reyqan, Cimmi Karter və ata Buş da onlardandır...

"Vəd edilmiş torpaqlar"a yəhudilər axışdıqca müsəlmanlar görürdülər ki, İsrail savaşlarda kommunist ölkələrindən gəlmiş əsgərlərdən, kapitalist dövlətlərinin də silahlarından istifadə edir.

Vəziyyət indi də keçmişdə olduğu kimidir: insan qüvvəsi Rusiya və Şərqi Avropadan, silah və pul isə səlibçi Qərbdən axıb gəlir.

Vaxtı ilə hamı üstümüzə tökülüşmüşdü. İstəyirdilər ki, xarabalıqlarımız üzərində onların hakimiyyətini bərqərar etsinlər...

1967-ci ildə İsrail ordusu Misir ordusunu məğlub etdiyi ərəfədə Moşe Dayan* keçmişi yada salaraq demişdi: "Bu gün Mədinə və Xeybər yəhudilərinin intiqamını aldıq!"

İngilis ordusu 1918-ci ildə Qüdsə daxil olduğunda marşal Edmund Allenbi (1861-1936) demişdi: "Səlib müharibələri indi başa çatdı...".

Uilyam Ceyfor Belgraf bu müharibələrin məqsədini yığcam şəkildə aşağıdakı kimi ifadə etmişdi:

"Quran yox olduğunda, Məkkə (Kə`bəni nəzərdə tutur) ərəb ölkələri üçün bir əhəmiyyət kəsb etmədikdə ərəb in-

---

metodologiyası / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS – Polygraphic Production", 2011, səh. 135, – ***tərcüməçinin qeydi.***

* **Moşe Dayan** (1915-1981): 1953-58-ci illərdə İsrailin dördüncü Müdafiə naziri olmuşdur – ***tərcüməçinin qeydi.***

sanı Məhəmməd və kitabının yaxın buraxmadığı mədəniyyətin yolu ilə addımlayacaqdır".

Uilyam hansı mədəniyyəti nəzərdə tuturdu? QİÇS*, homoseksuallıq, lezbiyanlıq və nifrət mədəniyyətinimi?!

Mən bütün bunlardan qorxmuram. Ehtiyatlandığım şey budur ki, başqaları öz yalanlarını haqq kimi göstərsinlər, biz isə haqqımızı, tarix və missiyamızı unudaq; onlarda olduğu kimi lüks həyat tərzinə can ataq, onlar isə öz mədəniyyətlərini bizə sırısınlar...

---

* **QİÇS**: Qazanılmış immun çatışmazlığı sindromu – AIDS – ***tərcüməçinin qeydi.***

*Səkkizinci fəsil*

# TƏFSİRƏ DAİR KOMMENTARİLƏR

Altmış il bundan qabaq Əzhərdə öyrəndiyimiz təfsir dərsləri **dilçilik** və **bəlağət elmi** qaydalarının tətbiqindən ibarət idi. Bundan da yalnız qrammatikanı, ritorika və üslubiyyatı bilənlər baş çıxarırdılar...

Misal üçün aşağıdakı ayəyə nəzər salaq:

"İçərilərindən bir adama: "İnsanları (Allahın əzabı ilə) qorxut, iman gətirənləri (yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!" – deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, açıq-aşkar bir sehrbazdır!" dedilər" (Yunus, 2).

Ayə ilə əlaqədar olaraq, aşağıdakı suallara cavab axtarılırdı:

1. Ayədə "kənə"nin ("olmaq" felinin – ***mütərcim***) mübtədası və "ənnə"nin ("ki" bağlayıcısının – ***mütərcim***) xəbəri hansıdır;

2. Kafirlərin sözündəki "həqiqətən" hansı mənada işlənib;

3. "Kafirlər dedilər" cümləsi və əvvəlki cümlə bir-birindən nə üçün ayrılıb;

4. "Qorxut" əmrinin qrammatik təhlili necə aparılmalıdır?

Heç şübhəsiz ki, bütün bu suallara verilən cavablar ayənin mənasına aydınlıq gətirir. Və bunu da yalnız və yalnız dilçilik elminin sirlərinə bələd olanlar izah edə bilərlər. Son

nəticədə biz (ayəyə dair izahlarla) dilçilik və bəlağət elminə aid bilikləri öyrənmiş oluruq.

Yaxud "(Allahdan bir əmr olaraq:) "Ey yer! Suyunu ud! Ey göy! (Yağışını) saxla (açıl)!" – deyildi..." ayəsini[1] öyrənərkən ondakı məcazın, metaforanın hansı növündən söz açıldığını müəyyənləşdirməli idik.

Biz bu minvalla Quranın ritorik təfsirini öyrənirdik...

**Fiqhi təfsir**ə gəlincə, bu çərçivədə bizə ayələrin digər bədii tərəfləri öyrədilirdi. Məsələn, aşağıdakı ayəyə baxaq:

"(Rici) talaq vermə (boşama) iki dəfə mümkündür, ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir. (Ey kişilər!) Onlara (qadınlarınıza) verdiyinizdən (kəbin haqqından, mehrdən) bir şey tələb etməniz sizə halal olmaz. Bu yalnız kişi ilə qadının Allahın (ər-arvadlıq) haqqındakı hökmlərini yerinə yetirə bilməyəcəklərindən qorxduqları zaman mümkündür. (Ey şəriət hakimləri!) Əgər onların (ər-arvadın) Allahın hökmlərini yerinə yetirməyəcəklərindən siz də qorxsanız, arvadın (kəbin haqqından) ərinə bir şey verməsində heç biri üçün günah yoxdur. Bunlar Allahın hədləridir (hökmləridir). Onlardan kənara çıxmayın. Allahın hədlərindən kənara çıxanlar, əlbəttə, zalımlardır" (əl-Bəqərə, 229).

Bu ayə ilə əlaqədar olaraq, aşağıdakı suallara cavab axtarırdıq:

1. Ayədə üçüncü dəfə boşamaqdanmı söhbət gedir;

---

[1] "Hud" surəsi, 44-cü ayə.

2. Ayədə pul müqabilində boşanmaq (***müxaliət***) haqda da danışılırmı;

3. Görəsən, "müxaliət"* boşamaqdır, yoxsa nikah müqaviləsini qüvvədən salmaqdır;

4. Fidyəni** mehrdən çox vermək caizdirmi;

5. Bir neçə dəfə "boşayıram" demək bir dəfəyə boşamaq sayılırmı (İbn Teymiyyə bu cür düşünür);

6. Boşanmış qadın təkcə evlilik müqaviləsi əsasında birinci ərinin yanına qayıda bilərmi (bu, İbn Müseyyib və İbn Cübeyrin görüşüdür);

7. Nikah dedikdə həm nikah müqaviləsi, həm də cinsi münasibətmi (***vət`***: erkəyin cinsiyyət orqanının qadının cinsiyyət orqanına daxil olması – ***mütərcim***) nəzərdə tutulur;

7. Qadın özünün nikah müqaviləsini bağlaya bilərmi (ayənin zahiri mənası bunu təsdiqləyir), yoxsa qəyyuma ehtiyac vardır?

Bununla da, təfsir dərsi müqayisəli fiqh dərsinə çevrilir və hər kəs də üstün bildiyi görüşü mənimsəyirdi.

Bizə Quranı təfsir etməklə, həm də ərəb dili və islam fiqhini öyrədənlərə Allah rəhmət etsin! Onlardan çox şey öyrəndik. Demək istəyirəm ki, dilçilik və fiqh elmləri (sahələri) ayələrdə nəzərdə tutulmuş mənaları müəyyənləşdirmək

---

* **Müxaliət**: bu və ya digər səbəbdən əri ilə yaşamaq istəməyən qadının müəyyən əvəz (pul...) müqabilində nikahdan azad olmağı – ***tərcüməçinin qeydi***.

** **Fidyə**: müəyyən vəziyyətdən qurtulmaq üçün verilən var-dövlət və ya pul. Bu mətndə qadının boşanmaq üçün ərinə verəcəyi puldan söhbət gedir – ***tərcüməçinin qeydi.***

vasitələridir. Bu vasitələrə ehtiyac vardır. Onları bilməyənlər düzgün təfsir etməyi bacarmazlar...

Amma vasitələr məqsədlərə çevrilməməlidir. Vasitələri izah etdikdən sonra mümkündür ki, əlavə mənalarla qəlbləri islama, imana yönəldək və, məsələn, sualı bu cür qoyaq: Allah öz hökmləri ilə insanları hidayətə necə yönəldir? ...

Bacarıqlı təfsirçi Allahın həmrəylik və münaqişəyə, sevgi və nifrətə dair qoyduğu qanunauyğunluqları, hər iki halda Ondan qorxmağın zəruriliyini, tündxasiyyətliliyin evləri dağıtmadakı "rol"unu, dini qayda-qanunları pozmağın nə olduğunu, qəzəb və qıcıqlandırıcı hallar qarşısında təmkinli davranmağın əhəmiyyətini – ailə həyatı ilə bağlı bütün bu məsələləri izah etməyi bacarmalıdır.

Üslub və linqvistik izahlar, fiqhi hökmlər Quranın tərbiyəvi kontekstinin bir hissəsini təşkil edir. Dediyimiz kimi, vasitələri qayələrə çevirmək yolverilməzdir.

**Sufi**lərin də öz təfsirləri vardır. Onların təfsirləri xüsusi üslubda yazılıb. Bu üslub bəzən məqbul, bəzən də qeyri-məqbuldur. Düşünürəm ki, bu tərz təfsirləri elm meydanlarından uzaq tutmaq lazımdır.

Sufi təfsirlərindəki qəribə fikirlər (***nüktə***) və eyhamlardan (***işarat***) bəzən istifadə etmək mümkündür. Amma elə olur ki, sufilik mücərrəd fəlsəfiliyə meyl edir. Bu vəziyyət qaranlığı daha da qaranlıqlaşdırmağa bənzəyir (yəni, həm təfsir ediləcək söz, ayə başa düşülmür, həm də həmin sözə, ayəyə verilən anlaşılmaz sufi izahı qarışıqlığı daha da artırır – ***mütərcim***).

Təfsirçi-alim Zəməxşərinin Qurani-Kərimin üslubiyyat (bəyan) baxımından izah edilməsində şah əsər sayılacaq təfsiri vardır. Əgər Zəməxşərinin əsassız mö`təzili görüşləri olmasaydı, məqamı daha yüksək olardı! Nəsəfi bu təfsirin üstünə "hücum" çəkmiş, onu sünnilərin – əş`əriləri nəzərdə tuturam – xeyrinə "müsadirə" etmişdir. Biz Nəsəfinin təfsirini orta məktəbdə keçirdik. Hər hansı bir sözü başa düşmədikdə Zəməxşərinin təfsirinə müraciət edirdik. Allah hamımızı bağışlasın!

**Kəlam** təfsirinə gəlincə, şübhə yoxdur ki, dərin mənalı, intellektual təfsir sayılır. Bu növ təfsirlər arasında ən ideyalı Fəxrəddin Razinin təfsiridir. Sonuncunun təfsirində müxtəlif məna və məqsədlərdən söz açılır; oxucu çoxəsrlik islam fikri haqda dolğun məlumatlarla tanış olur...

Mən şəxsən kəlam elmindən, xüsusən də onun qədim yunan fikrinin təsirində qalmış fəlsəfi problemlərindən bezib-sıxılıram. Amma insafı əldən vermirəm: mənim təbiətimdə kiçik səhvlərlə birlikdə böyük nailiyyətləri də süpürüb-atmaq yoxdur...

Təfsir kitablarında tələbələr üçün faydalı biliklər çoxdur. Amma tələbələri bu kitablardakı "sürüşmə"lər və "xülya"lardan qoruyacaq mütəxəssislərə də ehtiyac vardır...

Təfsir növlərindən biri də "mətn" (***asari***) təfsiridir*. Son illərdə bu növ təfsirə maraq artmışdır. Çünki Allahın kəla-

---

* Ayələrin hədislər əsasında izah edildiyi təfsirlər "mətn" təfsirləri adlanır – ***tərcüməçinin qeydi***.

mını təfsir etməyə, əvvəlcə, Onun peyğəmbəri, sonra da alim səhabələr daha çox layiqdir...

Quranı Quranla, ya da səhih hədislərlə təfsir etmək nur üstündə nurdur. Bu metodu mənimsəmiş alimlərə, misal üçün, Təbəri və İbn Kəsiri göstərə bilərik. Təfsirçi-alim əl-Xazinin də təfsiri xoşuma gəlir. Çünki o, bir ayəni təfsir edərkən münasib hədisləri dəlil göstərmişdir. Əgər əl-Xazin əsatir və yəhudi qissələrinə (***israiliyyat***) aludə olmasaydı, təfsiri əla alınacaqdı...

Biz uzaq durmağımız lazım gələn bəzi "mətn" təfsiri mənbələrinin (kitablarının) hansılar olduğunu qeyd etməyə məcburuq...

## Təfsirçilər: səhvlər və qəbahətlər

Qurani-Kərim Səma irsinin yer üzündə qalan ən doğru hissəsidir. Yəqinlik onun sözlərini hərfbəhərf çulğayır. Quranın qorunmasına dair ilahi vəd bu kitabın nəinki sözlərinə, eləcə də hərflərinə şamildir. Və o, endiyi vaxtdan ta bu günədək qorunmuş kitabdır:

"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!" (əl-Hicr, 9).

Quranı dini mətnlərlə (ayə və hədislərlə – ***mütərcim***) təfsir edənlər bu cəhətə xüsusən diqqət yetirməli, təfsir kitablarını şübhəli olan hər bir şeydən uzaq tutmalı, əvvəlkilərin qoyduğu səhihlik (mötəbərlik) və məqbulluq şərtlərini gözləməli idilər! Həqiqətən də, bu şərtlər ehtirama layiqdir.

Əgər mötəbər ravi daha mötəbər raviyə müxalif olarsa, onun rəvayət etdiyi hədisi "şazz"* bilib bir kənar atarıq. Yox, əgər müxalif tərəf "zəif"** kəsdirsə və mötəbər şəxslərə məlum olmayan hədislər rəvayət edərsə, onda bu hədisləri "münkər"*** və "mətruk"**** sayarıq!

---

* **Şazz**: anormal, qaydaya tabe olmayan, istisna – ***tərcüməçinin qeydi.***

** **Zəif**: rəvayətdə mötəbər hesab edilməyən – ***tərcüməçinin qeydi.***

*** **Münkər**: qeyri-məqbul, rədd edilən – ***tərcüməçinin qeydi.***

Elə isə nə üçün "mətn" təfsirlərində "şazz", "münkər" və "mətruk" hədislər çoxdur?

Axmaqlıq və giclik ifadə edən rəvayətlər nə üçün nəql olunmalıdır axı?! Müsəlmanlar belə rəvayətləri rədd etsələr də, nədənsə biz onlara təfsir kitablarında rast gəlirik! Dar düşüncəsi adamlar bu cür rəvayətləri oxuduqlarında narahat olmağa başlayırlar.

"Lakin onların elmdə qüvvətli (möhkəm) olanları və mömінləri sənə nazil edilənə və səndən əvvəl nazil edilənə və səndən əvvəl nazil olanlara inanır, namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər..." ayəsinin[1] təfsirində, bir baxın, təfsirçi-alim əl-Xazin nə yazır:

"Alimlər ayədəki "qılırlar" (***muqiminə***) sözünün təsirlik halda işlədilməsi məsələsində ixtilafa düşmüşlər. Həzrəti Aişə və Əban rəvayət edirlər ki, Həzrəti Osman ayədəki bu sözü təsirlik halda yazdırmaqla xəta işləyib. Gərək bu söz adlıq halda (***muqimunə***) yazıla idi! Belə ki, Həzrəti Osman deyib: "Müshəfdə[*] tələffüz xətası (***ləhn***) vardır. Amma ərəblər ona öz dilləri ilə düzəliş verəcəklər"[2]. Ona deyirlər:

---

[****] **Mətruk**: etibar edilməyib bir kənara atılan – ***tərcüməçinin qeydi.***

[1] "ən-Nisa" surəsi, 162-ci ayə.

[*] **Müshəf**: yazıya köçürülmüş, yazılı Quran – ***tərcüməçinin qeydi.***

[2] "Dərdlər və əlaclar" adlı kitabımızda keçən əsrin məşhur dilçisi Həfni Nasifin bu məsələ ilə bağlı görüşünü dərc etmişik. Sonuncu qeyd edir ki, bu rəvayəti Quranın ənənəvi (sabit) imla əsasında yazılması ilə əlaqələndirmək mümkündür. Həzrəti Osman və qeyriləri həmin üslubu olduğu kimi saxlamışdılar. Çünki o, nə halalı harama, nə də haramı halala çevirir. Əslində, bu, Həzrəti Osmanadək mövcud olan orijinal

“Onu (səhvi) düzəltməyə-çəksənmi?” Deyir: “Boşlayın getsin. Çünki o (səhv), halalı haram, haramı da halal etmir”!!!

Ümumi və ənənəvi görüşə görə, səhabələr, alimlər və sonrakı nəsillər bildirmişlər ki, ayədəki söz düzgündür və onun yazılışında heç bir xəta yoxdur.

Həzrəti Aişəyə, Osman və Əbana istinadən bizə gəlib çatmış rəvayət, doğrudan da, həqiqətdən çox uzaqdır. Çünki Quranı bir kitab halında cəm edənlər ərəb dilinin dərin biliciləri, fəsahət sahibləri idilər. Necə ola bilərdi ki, onlar Allahın kitabında belə bir səhvi görmüş, gördükdən sonra da onun üstündən asanlıqla keçib getmiş və bu da azmış kimi demişlər: “Qoy onu başqaları düzəltsin!” Bu heç mümkündürmü?! Biz belə bir şeyi onların ayağına yaza bilmərik – bu, onlara iftira olardı!

İbn əl-Ənbari yazır:

“Osmandan bizə gəlib çatmış rəvayət doğru deyildir. Çünki istinad zəncirində “kəsilmə” vardır[1]. Qeyri-mümkündür ki, Osman bu səhvi düzəltməyi başqalarına saxlasın! Çünki Quran “mütəvatirlik”[*] əsasında (dildən-dilə) ötürül-

---

mətni necə varsa elə saxlamaq məqsədi daşımışdır... Hər halda bu görüş digərləri ilə müqayisədə daha doğrudur.

[1] Tutaq ki, istinad zənciri bütövdür və heç bir qırılma da yoxdur. Məzmunu zay informasiyanın bizə sağlam istinadla çatmağının nə faydası vardır?! O kəslər ki, istinadla kifayətlənib, məzmuna laqeyd yanaşırlar, onlara etibar olunmamalıdır!

[*] **Mütəvatirlik**: hər hansı bir informasiyanın mötəbər sayılan bir qrup şəxsdən eyni məziyyətli digər qrupa ötürülməsini ifadə edən dini termin. Məsələn, “mütəvatir” hədis dedikdə yalan və saxtakarlıqda həmrəylikləri mümkün olmayan bir qrup ravinin eyni xarakterli di-

müş bir kitabdır. Elə isə onda hər hansı bir xətanın olmağı mümkündürmü?!"

Ola bilsin ki, belə deyilsin: "Xazinin təfsiri uydurmalarla, yəhudi qissələri (***israiliyyat***) ilə doludur. Elə isə hədisi səhih (mötəbər) saymaq olmaz. Onun təfsirində bu cür xırda-para şeylərin olmağı – hətta əcaib olsa da – şikayətlənməyimizə əsas vermir. Yazıb-yazıb da, nə olsun!"

Deyirəm: "Bu doğrudur. Amma bu cür axmaqlığın İmam Qürtubi kimi möhtərəm alimin təfsirinə "sirayət" etməsi haqlı qəzəbimə səbəb olub. Bir xurafat Şamdan Əndəlüsə asanlıqla intiqal etmişdir!* Düzdür, bu böyük müfəssir (Qürtubi – ***mütərcim***) həmin rəvayətin uydurma olduğunu isbatlamış və Qüşeyrinin dediklərini iqtibas gətirmişdir: "Bu, əsassız iddiadır. Çünki Kitabı cəm edənlər ərəb dilində nümunə idilər. Onların nazil olmayan bir şeyi Qurana əlavə etmələrini düşünmək belə doğru deyildir!"

Nə olardı, Qürtubi bu xurafatı nə xatırlaya, nə də sonradan inkar edə idi! Bəlkə də, o bu problemi cılız hesab etdiyindən onu adi qaydada rədd etmişdi. Çünki Qürtubi də yaxşı bilirdi ki, "mütəvatir" nağıletmə Quranın mötəbərliyini isbatlamada əsas arqument sayılır. Yazıyaköçürmə isə sadəcə bir vasitədir. Quranı əzbərdən bilib, onu sinədəftəri edən səhabələr saysız-hesabsız ləşkəri xatırladırdılar.

---

gər ravilərdən nəql etdikləri hədis növü başa düşülür – ***tərcüməçinin qeydi.***

* Yəni, Xazinin rəvayət etdiyi həmin uydurma hekayət Qürtubinin də təfsirində öz əksini tapıb. Xazin Şamda, Qürtubi də Əndəlüsdə yaşamışdır – ***tərcüməçinin qeydi.***

Dediyimiz kimi, gün kimi aydın həqiqətin ətrafında oğrun-oğrun "gəzişən" həmin hekayətlərin dırnaq ucu qədər dəyəri yoxdur!

"Təfsir əl-Quran əl-Əzim" adlı təfsirində[1] İbn Kəsir Əhməd ibn Hənbəlin "Müsnəd" kitabındakı bir rəvayətdən danışır. Həmin rəvayətdə bildirilir ki, Zürr deyib: "Übeyy ibn Kə`b mənə dedi: "Əhzab" surəsini necə hesablayırsan? (yəni, ayələrinin sayı neçədir?)" Dedim: "Yetmiş üç ayə." Etiraz etdi: "Əsla. (Vaxtı ilə) onu gördüyümdə "Bəqərə" surəsi qədər idi...".

Bu, əsassız iddiadır! Allah qırx səhifəlik vəhy endirib, sonra da onu qüvvədən salmaz, otuz dörd səhifəsini "silib", altısını saxlamaz!

Bu cür baməzə şeylər gərək rəvayət edilməyə idi! Əhməd İbn Hənbəlin "Müsnəd" kitabında "zəif" və uydurma (***mövzu***) hədislərə rast gəlmək mümkündür.

Vurğulamaq istəyirəm ki, Quranla bağlı məsələlərdə bu cür əsassız, qeyri-məqbul rəvayətlərə yer verilməməlidir...

"Müsnəd" kitabında "yeddi" hərflə bağlı gülməli hədis vardır. Alimlərin böyük əksəriyyəti onu qeyri-məqbul saymışlar. Amma İmam Nəvəvi "Səhihi-Müslim" kitabına yazdığı şərhdə bu hədisi rəvayət etmiş və demişdir: "Rəhmət ayələri əzab ayələri ilə əvəzlənmədiyi müddətcə, "yeddi hərf" qaydasına görə, "səmiən" və "bəsirən" əvəzinə "həkimən" və "əlimən" demək olar"!!!

---

[1] "Mətn" təfsirinə aid ana mənbələrdən sayılır.

Bu olduqca cılız rəvayətdir, yalan ifadə etdiyi üçün onu əsla xatırlamaq və ya rəvayət etmək olmaz...

Təəssüf ki, bütün bu uydurma rəvayətlər Sonuncu Vəhyin mütləq "mütəvatirliy"i qala-qala yayğın hala gəlmişdir. Axı nə üçün?! Alimlər də bu cür rəvayətlərə yuxarıdan aşağıya baxmışlar... Bunları ona görə deyirik ki, islamın adından danışanların da yükündə dəyərsiz şeylərin olduğunu unutmayaq.

Nə olardı, Əzhəri-Şərifdə xüsusi komissiyalar yaradılıb, təfsir kitabları bu cür qüsurlardan təmizlənəydi. Bəli, müsəlmanlar həmrəydirlər ki, həmin rəvayətlər, doğrudan da, qüsurludur...

## Ayələri əvvəlcə öz kontekstləri daxilində təfsir etmək lazımdır

Ayələri hərtərəfli (müxtəlif mövzularla əlaqəli surətdə) təfsir etməzdən qabaq konkret kontekst daxilində izah etmək lazımdır. Bu imkan verir ki, yalnız bir problemə toxunan ayəni və ya ondakı cümləni yaxşı başa düşək.

Ayələrin ritorik, fiqhi və s. təfsiri mənanın konkretləşməsini, fikrin aydınlaşmasını təmin edir. Hərtərəfli (mövzu) təfsir isə imkan verir ki, iki cəhətdən Quranı doğru-düzgün başa düşək. Mövzu təfsiri vasitəsilə biz: a) ya hər hansı bir problemi ümumilikdə Quranda araşdırırıq, yəni onu 23 il ərzində nazil edilmiş vəhy kontekstində nəzərdən keçiririk; b) ya da bir surəni götürür, onu tam nəzərdən keçirir, hansı mövzulardan danışdığına baxırıq, əvvəlini axırı ilə birləşdirən, axırını da əvvəli ilə təsdiqləyən gizli "bağlar"ın olub-olmadığını müəyyən edirik. Və ya belə deyə bilərik: Bütöv bir surəyə aid "cizgi"lərin "təcili foto"sunu çəkirik...

Adı çəkilən təfsirə dair ən bariz nümunə, bəlkə də, "Böyük xəbər" adlı kitabında Ustad Məhəmməd Abdullah Drazın "Bəqərə" surəsi haqda yazdığı izahlardır. Müəllif surədəki mövzuları bütöv bir "dəstə"də toplamışdır. Bununla da, biz surənin məzmununu tam anlamış oluruq. Əgər Quranın ən

böyük surəsi bu metod əsasında uğurla izah olunubsa, digər surələr də nə üçün eyni qaydada təfsir edilməsin?!

Mövzu təfsirinin ilk nümunələrinə Şeyx Mahmud Şəltutun müxtəlif kitablarında rast gəlirik. Həqiqətən də, Şeyx Şəltut təfsirdə iti bəsirətə sahib olmuşdur və bu onun elmi dühasından xəbər verir.

Düşünürəm ki, mövzu təfsiri hər iki cəhəti baxımdan diqqətəşayandır; gələcək onundur; bəlkə də, məhz bu təfsir dövrümüzdə islama xidmət edib, qayələrini reallaşdıra bilər.

Bir dəfə ağlıma belə bir fikir gəldi ki, eyni bir mövzunu Quranın müxtəlif surələri kontekstində araşdırım. Nəticədə, bol "məhsul" topladım...

Biz qəbul edirik ki, günahkarlar etdikləri günahlara görə Qiyamət günü peşmanlıq keçirəcəklər. Onlar bununla yanaşı onu da arzulayacaqlar ki, dünyaya yenidən qayıdıb, pis əməllərini yaxşıları ilə əvəzləsinlər. Heç vaxt gerçəkləşməyəcək bir arzu!

Yəni, onlar kəsildikləri imtahanı bir daha vermək istəyəcəklər. Heyhat!

Görəsən, bu mövzu Quranda neçə yerdə təkrarlanır? Gəlin, surələrin ardıcıllığına uyğun olaraq, Quranda bu məsələni araşdıraq:

1. "Bəqərə" surəsində deyilir ki, bütpərəstlərə tabe olanlar ağalarına Qiyamət günü onların ağaları olmaqlarını inkar etdikləri üçün qəzəblənəcəklər:

"O zaman (bütpərəstlərə) tabe olanlar: "Əgər bir də (dünyaya) qayıda bilsəydik, onlar bizdən uzaqlaşdıqları kimi biz də onlardan uzaqlaşardıq", - deyərlər. Beləcə (qiya-

mətdə) Allah onların əməllərinin yalnız həsrətdən (peşmançılıqdan) ibarət olduğunu göstərər və onlar cəhənnəm odundan çıxa bilməzlər" (əl-Bəqərə, 167);

2. "Ənam" surəsindən aydın olur ki, müşriklər yalan saydıqları şeylərin doğruluğunu təsdiqləmək üçün dünyaya qayıtmağı arzulayacaqlar:

"(Ya Rəsulum!) Gətirilib od üstündə saxlandıqları zaman sən onların: "Kaş ki, biz dünyaya qaytarılıb Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq!" – demələrini görəydin!" (əl-Ənam, 27);

3. "Əraf" surəsində Allah bildirir ki, Qurani-Kərim peşmanlıq doğuracaq hər bir şey haqda insanı xəbərdar edir, onu doğru yola istiqamətləndirir. Amma insanlar ondan uzaqlaşırlar. Elə ki etinasız yanaşdıqları cəhənnəm əzabını gördülər, imdad diləyəcəklər:

"...Onun xəbər verdiyi aqibət (qiyamət) gəlib çatdığı gün əvvəllər onu unutmuş olanlar deyəcəklər: "Doğrudan da, Rəbbimizin elçiləri (bizə) haqqı gətirmişdilər. İndi bizdən ötrü şəfaət edəcək bir kimsə varmı? Yaxud geri (dünyaya) qaytarıla bilərikmi ki, etdiyimiz əməllərdən başqasını edək?" Onlar özlərinə ziyan etdilər..." (əl-Əraf, 53);

4. "İbrahim" surəsindən məlum olur ki, zalımlar Qiyamət günü qışqıra-qışqıra möhlət istəyəcəklər:

"İnsanları onlara əzab gələcəyi günlə qorxut. O gün zalımlar: "Ey Rəbbimiz! Bizə bir az möhlət ver. Biz Sənin dəvətini qəbul edər (iman gətirər) və peyğəmbərlərə tabe olarıq!" deyərlər. Bəs əvvəlcə sizə heç bir zaval toxunmayacağı barədə and içməmişdiniz?!" (İbrahim, 44);

5. Eyni şeyə yığcam şəkildə "Hicr" surəsinin ilk ayələrində rast gəlirik:

"Kafirlər (qiyamət günü), yəqin ki, müsəlman olmalarını istərdilər!

(Ya Rəsulum!) Qoy (kafirlər) hələ (istədikləri kimi) yeyib içsinlər, (dünyadan) ləzzət alsınlar, arzuları-ümidləri başlarını qatsın. (Düçar olacaqları müsibəti) sonra biləcəklər!" (əl-Hicr, 2-3);

6. "Muminin" surəsində mövzu ilə bağlı iki məqama rast gəlirik:

a) Kafirlər dünyada çıxardıqları fitnə-fəsadı düzəltsinlər deyə Allaha dirildilmələri üçün yalvaracaqlar:

"Nəhayət, (müşriklərdən) birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Ey Rəbbim! Məni geri (dünyaya) qaytar!

Bəlkə, (indiyə qədər) zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm! (Yaxud, bu günə qədər tərk etdiyim imana qayıdıb saleh bir əməl edim!) Xeyr, bu onun dediyi boş (faydasız) bir sözdür. Onların önündə dirilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (qiyamət gününə) qədər maneə (öldükdən sonra qiyamətədək qalacaqları bərzəx aləmi) vardır" (əl-Muminun, 99-100);

b) Əzab başlarının üstünü aldıqda cəhənnəm əhli ağrı-acının şiddətindən qışqırıb Allahı çağıracaqlar:

"Onlar deyərlər: "Ey Rəbbimiz! Rəzil taleyimiz (bədbəxtliyimiz) bizə qələbə çaldı və biz haqq yoldan azan bir camaat olduq!

Ey Rəbbimiz! Bizi oradan (cəhənnəm odundan çıxart! Əgər bir də (Sənin xoşuna gəlməyən pis işlərə) qayıtsaq, şübhəsiz ki, zalım (özümüz özümüzə zülm etmiş) olarıq".

(Allah) buyurar: "Orada zəlil (məyus) vəziyyətdə durub qalın və Mənə heç bir şey deməyin! (Cəhənnəm odundan xilas edilməyinizi Məndən diləməyin!)" (əl-Muminun, 106-108).

7. "Fürqan" surəsində, günlərini hədər etmiş nankor insanların peşmanlığından söz açılır:

"O gün zalım (küfrə düşməklə özünə zülm edən peşmançılıqdan) əllərini çeynəyib deyəcəkdir: "Kaş ki, mən Peyğəmbər vasitəsilə (özümə) doğru bir yol tutardım;

Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim;

And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı. Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər)" (əl-Fürqan, 27-29).

Vaxt əldən çıxmış, peşmanlıq saatı gəlib çatmışdır;

8. "Şüəra" surəsində deyilir ki, müşriklər cəhənnəmdə ilahları ilə birlikdə əzaba düçar olacaqlar. Onlar günahları üzündə pis aqibət yaşayacaqlar. Həmin vaxt aldadılmışlar deyəcəklər:

"Onlar orada (öz bütləri və rəisləri ilə) çənə-boğaz olub deyərlər:

"Allaha and olsun ki, biz (haqq yoldan) açıq-aydın azmışdıq!

Çünki biz sizi (siz bütləri) aləmlərin Rəbbi ilə bərabər tuturduq.

Bizi yalnız günahkarlar azdırdı.

İndi artıq nə şəfaət edən kimsələrimiz,

Nə də bir mehriban dostumuz var!

Kaş bir də (dünyaya) dönə biləydik; möminlərdən olardıq!" (əş-Şüəra, 97-102).

Heyhat! İmanlı həyat sürmək üçün ölmüşlərə revanş verilmir...

9. "Səcdə" surəsini oxuduğumuzda görürük ki, günahkarlar arzularını dilə gətirir, bir daha fürsət versin deyə Allaha yalvarırlar:

"(Ya Rəsulum!) Kaş günahları öz Rəbbinin hüzurunda (günahlarından utanaraq) başlarını aşağı dikib: "Ey Rəbbimiz! (Dünyada yalan hesab etdiyimiz qiyaməti və onun əzabını) gördük, (peyğəmbərlərin doğru dediklərini, haqq olduqlarını Səndən) eşitdik. İndi bizi (dünyaya) qaytar ki, yaxşı iş görək. Biz (Sənin vəhdaniyyətinə) tam yəqinliklə inandıq!" – deyəndə görəydin!" (əs-Səcdə, 12).

Ayədə Allah onlara cavab vermir. Sanki cavab gözləmələri onları daha da biabırçı vəziyyətə salır. Bundan böyük müsibət vardırmı?!

10. "Fatir" surəsində Allah buyurur ki, günahkarlar onlara qəm-qüssə gətirən, əzablarını birə iki artıran cavabı eşidəcəklər:

"Onlar orada fəryad edib deyəcəklər: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki (dünyada) edirik!" (Onlara belə deyəcəyik: ) "Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi (düşünəcək kimsənin düşünəcəyi) qədər

ömür vermədikmi?! Hələ sizə (siz kafirləri Allahın əzabı ilə) qorxudan peyğəmbər də gəlmişdi. Dadın (cəhənnəm əzabını)! Zalımların imdadına çatan olmaz!" (Fatir, 37);

11. "Zumər" surəsindən bizə aydın olur ki, Allah öz bəndələrini bu ümidsiz səhnənin iştirakçılarına çevrilməməkləri haqda xəbərdar edir, iş-işdən keçməsin deyə, fürsət fövtə verilməsin deyə onları bu dünyada tövbəyə səsləyir:

"(Tövbə edib) Rəbbinizə dönün. Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz!

Qəfil əzab özünüz də bilmədən başınızın üstünü almamışdan əvvəl Rəbbinizdən sizə nazil edilmiş ən gözəl sözə (Qurana) tabe olun!

(Elə edin ki, sonradan) bir kəs: "Allaha itaət barəsində etdiyim təqsirlərə görə vay halıma! Həqiqətən, mən (Allahın hökmlərinə, Qurana, Peyğəmbərə və möminlərə) istehza edirdim!" – deməsin.

Yaxud: "Əgər Allah məni doğru yola yönəltsəydi, mən mütləq müttəqilərdən olardım!" – söyləməsin.

Və ya əzabı gördüyü zaman: "Kaş bir dəfə də (dünyaya) qayıda biləydim; yaxşı işlər görənlərdən olardım!" – deməsin!" (əz-Zumər, 54-58).

Nə üçün mən bu "hesablama"nı aparmışam? Çünki müsəlmanlara bir növ fatalizm sirayət edib. Bu fatalizm onların dərrakəsini zədələyib: elə hesab edirlər ki, azad iradəyə sahib deyillər; asılıdırlar, robotsayağı ömür sürürlər...

Görəsən, Qiyamət günü onlardan kimsə bu yalanı Allah qarşısında da söyləməyə cürət edəcəkdirmi?

Doğrudan da, ümmətimiz bu dünyada onları məhv edib, bayğın hala salmış fikirlərə təslim olub. Bu ümmət öz kitabını anlamadıqca, ona doğru münasibət bəsləmədikcə nə dünyada, nə də axirətdə nicat tapacaqdır.

Yuxarıdakı nümunədən də göründüyü kimi, Qurandakı ümumi və xüsusi problemləri asan şəkildə müəyyənləşdirə bilərik. Biz özümüzü bütünlükdə Qurana həsr etmədikcə o özündəki bəzi məlumatlarla bizi tanış etməyəcəkdir.

## “Talaq” surəsindən bir nümunə

“Talaq” surəsinin mövzulu təfsirinə baxaq. Təfsir surədəki “hissə”lərin məzmun vəhdətinə, müəyyən həqiqətin aşkarlanması üçün ayələrin eyni kontekst daxilində bir-birini tamamlamasına əsaslanır. Mən bu surədən şəxsi ictihadımla hər hansı bir fiqhi hökm də çıxarmağı planlaşdırmamışam. Əksinə, əvvəlki alimlərin ictihadlarından bu təfsirə və şəxsi görüşümə nə uyğun gəlir onu seçib götürmüşəm. Mənimlə razılaşmayanlara deyirəm: Sizdən kiməsə öz nöqteyi-nəzərimi qəbul etdirmək fikrim yoxdur.

Surənin əvvəlində Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* çağırış edilir. Axı o, ümmətin lideri, hidayət rəhbəridir! Ümmətin bütün fərdləri arasında yayılmış bir məsələ (talaq) ilə əlaqədar olaraq, Peyğəmbərə müraciət göstərir ki, məsələ ciddi və mühümdür. Həmçinin, bu o deməkdir ki, problem şəxsi olmayıb, ümumidir.

Məlumdur ki, talaq (boşama) təkcə onu gerçəkləşdirən şəxsi deyil, həm də onun arvadını, uşaqları və hər iki tərəfin ailəsini aşıb-keçən bir məsələdir. Odur ki, onu tənzimləyən qaydalar qoymaq lazımdır. Lazımdır ki, ağılsızlıq və qarşılıqlı əziyyət üzündən birtərəfli talaq baş verməsin.

Bu səbəbdən Allah talaq üçün müəyyən vaxt təyin etmişdir. Qadını heyz (aybaşı) və nifas (doğuşdan sonrakı qanaxma dövrü) zamanı boşamaq olmaz. Təmizləndikdən

sonra kişi qadını ilə yaxınlıq da edə bilməz. Onun (kişinin) iki şahidi olmalıdır. Talaq xəbərini eşidən qadın kişisinin evindən çıxmamalıdır. Eşitdiyi bu xəbərə görə ailə həyatının üstündən xətt çəkməyə tələsməməlidir. Talaq xəbəri qadın barədə çıxarılmış hökm qəbilindən bir xəbərdarlıqdır. Qadın tələb olunan yerdə qalmalıdır. Talağa səbəb olmuş şəraitin (vəziyyətin) dəyişməsi ilə, ola bilsin ki, ailə yenidən bərpa olunsun.

İki-üç ay ərzində qəzəb hissi keçib gedə bilir. Bununla da, ər-arvad barışır, yenidən ailə həyatına başlayırlar. Birinci ayənin mənası da elə budur:

“(Ya Peyğəmbər!) Övrətləri boşadığınız zaman onları gözləmə müddətlərində (heyzdən pak olduqdan sonra) boşayın. Gözləmə müddətini sayın. Rəbbiniz olan Allahdan qorxun. Onları – açıq-aşkar bir pis iş (zina) etməyənə qədər – (gözləmə müddəti qurtarmamış) yaşadıqları evlərdən çıxartmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın hədləridir (hökmləridir). Allah müəyyən etdiyi hədləri aşan kimsə özünə zülm etmiş olar. Nə bilirsən, ola bilsin ki, Allah bundan sonra bir iş icad etsin (ərin ürəyinə yenidən zövcəsinin məhəbbətini salsın və onlar barışsınlar)” (ət-Talaq, 1).

Fikir vermişəm ki, ayələrdə fiqhi hökmlər göstərilərkən qeybə iman və Allahdan qorxmağın zəruriliyi tez-tez vurğulanır. Məqsəd budur ki, ailəni parçalayan münaqişələrdən Allaha etimad göstərməklə qurtulmaq mümkün olsun:

“...Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər” (ət-Talaq, 2).

Quranda yaxşı və pis gündə (ailə üçün pul) xərcləmək haqda ətraflı danışılıb, əmizdirmə və digər məsələlər barədə məlumat verilib. İlahi Göstərişdən aydın olur ki, Pak Allah talağın mənfur sosial fəlakətə çevrilməsini və bu ilahi imtahan zamanı müsəlmanların ədəb-ərkan qaydalarını pozmaqlarını istəmir.

Buna baxmayaraq, müsəlmanlar arasında yayılmış talaq ənənəsi kədərli faciələrlə müşayiət olunur. Fiqhi sahədə "bid`i" talaq forması qəbul edilib; həqir və boş-boş şeylərin gen-bol izahları "icad" edildiyi kimi, "talaq" andları[1] da geniş yayılıb. Fiqh kitablarında talağın elə "fənd"lərinə rast gəlirik ki, adam təəccübünü gizlədə bilmir.

Avropalılar bizdə talağın bir su içimlik məsələ halına gəlib, qayda-qanunlarının tez-tez "deformasiya"ya uğradılmasına inkar gözü ilə baxırlar. Halbuki talağın "deformasiya" xassəsini müsəlmanlar uydurmuşlar, islamın bundan xəbəri yoxdur!

Dövrümüzdə bir qadının boşanma xəbərini eşitdikdən sonra ərinin evində qalıb gözləməsi qeyri-mümkün hala gəlib. Peyğəmbər sünnəsinin müəyyənləşdirdiyi qaydada boşamaq faktına da nadir hallarda rast gəlinir. Nə təmizlənməyə (***təhr***), nə ayrı qalmağa (***etizal***), nə də şahidlərin gətirilməsinə (***işhad***) riayət olunur!

---

[1] "Allaha and olsun ki, səni boşayacağam" qəbilindən andlar nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

Dövrümüzdə ailələrin taleyi məsələsində "him" gözləyən, boş-boş səbəblər və söz-söhbətə görə ailələrin dağılmasını alqışlayan fəqihlər necə də çoxalıb!

Bu da öz növbəsində islamın nüfuzuna, təlimlərinin yayılmasına böyük zərər toxundurub. Düşmənlərin də əlinə girəvə düşüb! Bu səbəbdən mən "Talaq" surəsinin ikinci hissəsini birinci hissəsinin ardı və tamamı hesab edirəm. İkinci hissədə müsəlmanlara xəbərdarlıq edilir ki, talaq hökmlərini oyun-oyuncağa çevirməsinlər!

İkinci hissə bu ayələrlə başlanır:

"Neçə-neçə məmləkət (əhli) öz Rəbbinin və Onun peyğəmbərinin əmrindən çıxdı. Biz də onlara şiddətli cəza verib görünməmiş müdhiş əzaba düçar etdik.

Onlar əməllərinin cəzasını aldılar və axırda işləri ziyana uğramaq oldu.

Allah onlar üçün şiddətli əzab hazırladı..." (ət-Talaq, 8-10).

Qoy hörmətli oxucu Allahın talaq hökmləri ilə bağlı bu sözləri üzərində düşünsün, dərs çıxarsın:

"Bu, Allahın sizə nazil etdiyi buyruğudur. Kim Allahdan qorxsa, Allah onun (günahlarının) üstünü örtər və (axirətdə) mükafatını artırar... Neçə-neçə məmləkət (əhli) öz Rəbbinin və Onun peyğəmbərinin əmrindən çıxdı. Biz də onlara şiddətli cəza verib görünməmiş müdhiş əzaba düçar etdik..." (ət-Talaq, 5, 8).

Ayələrdəki məzmun bir-birini tamamlayır, əmr həmin əmrdir! Allahın vəhy və hidayətlə şərəfləndirdiyi bir ümmət ifrata varmamalı, ilahi təlimləri oyun-oyuncağa çevirməməli,

ailə təsisatını cəmiyyətdəki ucuz yanaşmalara qurban etməməlidir.

İslamı doğru-dürüst tətbiq etməmək, hökmlərini səhv formada həyata keçirməklə dəvətə əngəl yaratmaq yolverilməzdir.

"Talaq" surəsi belə bir ayə ilə başa çatır ki, tanıyaq deyə Allah bütün kainatı yaradıb, izi ilə gedək deyə bizə vəhy (kitab) göndərib; Allahın mövcudluğunu göstərən kainat və vəhy müsəlmanlara yol göstərir:

"Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi elm (Öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə (Allahın) əmri onların arasında (mövcud olan bütün məxluqata) nazil olar" (ət-Talaq, 12).

Hər bir müsəlmanı "Talaq" surəsini mənim izah etdiyim qaydada bir daha oxumağa çağırıram. Çağırıram ki, bəlkə, o bununla da faydalı və doğru nəticəyə gələ bilsin...

## Fiqh sahəsində

Görəndə ki, fəqihlər müəyyən bir məsələ ətrafında ixtilafa düşmüşlər, gətirdikləri arqumentlərə obyektiv şəkildə nəzər salır, daha tutarlı görünən dəlili üstün tuturam. Bununla yanaşı, digər dəlillərə, nöqteyi-nəzərlərə tərs-tərs baxmıram, onlara istinad edənləri acılamıram!

Dəlillər haqda düşünsəm də, əsas diqqətimi iki məsələyə yönəldirəm:

a) İnsanların vəziyyətini asanlaşdıran dəlil (görüş) hansıdır;

b) Zaman və məkan baxımından islam dəvətinin işinə hansı görüş yarayır?

Tutarlı və ən asan dəlili (görüşü) müəyyənləşdirdikdən sonra fitva verirəm. Bəziləri məni rüsxətlərə qapı açdığım üçün ittiham etmişlər. Amma mən bu ittihamlara fikir vermədən deyirəm: "Mən ki Şərəfli Sünnəyə riayət edirəm!" Məgər hədisdə belə deyilmir:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* iki şeyi seçmək qarşısında qalsaydı, ən asanını seçərdi. Təbii ki, həmin şey günah əməl deyildisə. Yox, əgər günah əməl olsaydı, dərhal ondan kənar durardı..."[1].

---

[1] Hədisi Həzrəti Aişəyə *(Allah ondan razı qalsın!)* istinadən İmam Müslim rəvayət edib.

Allah təala da buyurur:

"...O (Öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı..." (əl-Həcc, 78).

İslama dəvət işinə gəlincə, bu məsələyə bir az aydınlıq gətirmək lazımdır. Son əsrlərdə müsəlmanların başı daxili məsələlərə qarışmış və onlar islamı Allah təalanın əmr etdiyi şəkildə dünya xalqlarına çatdıra bilməmişlər.

Müsəlmanların vəziyyəti o dərəcədə bərbaddır ki, insanlara nümunə deyillər, onların xoşuna gələcək davranış və düşüncədən məhrumdurlar! Onlar dinin ikinci dərəcəli məsələləri haqda elə sözlərdən yapışırlar ki, insanları islamın əsaslarından uzaqlaşdırır, onlarda dinə qarşı nifrət yaradır...

Cənub-şərqi Asiyada belə bir fikir yayğındır ki, islam kasıb əkinçilərə zəkat öhdəliyi yükləyir, varlı təsərrüfat sahiblərini isə bundan azad edir. Çünki birincilər buğda və arpa, ikincilər isə qəhvə, çay, kakao, kauçuk və milyonlar qazandıran digər məhsulları əkib-becərirlər. Axı bəzi imamlara görə, qəhvə, çay, kakao, kauçuk... kimi məhsullara zəkat düşmür*!

---

* Eyni problem müasir dövrün məşhur islam alimi Şeyx Yusif əl-Qərdavini də (1926) narahat edir. Sonuncu yazır: "... görürük ki, bəzi fəqihlər zəkatı ya normal mühitdə ərzaq kimi yeyilən, ya da qurudulması, çəkilib tədarük edilməsi mümkün olan, Allahın yerdə bitirdiyi dörd növ dənli bitki və meyvə ilə məhdudlaşdırmışlar. Beləliklə, onlar sahiblərinə milyonlar qazandıran digər növ meyvə və tərəvəzi, qəhvə və çay plantasiyalarını, alma və manqo bağlarını, pambıq və şəkər qamışı tarlalarını... verilməsi vacib haqq dairəsindən çıxarmışlar. Hətta Asiya ölkələrinin birinə ziyarətim zamanı eşitmişdim ki, kommunistlər: "İslam fiqhi zəkat öhdəliyini qarğıdalı, buğda, arpa və düyü becərən kiçik əkin-

Əkilib-becərilən hər bir məhsuldan zəkat çıxarmağı vacib sayan İmam Əbu Hənifə bəzi axmaqların nəzərində arzuedilməz şəxsdir! Onlara görə, Əbu Hənifənin məzhəbinə bağlanmaq olmaz.

Fərqli-fərqli mühit və şəraitləri nəzərdən keçirirəm. Başlıca vəzifəm bu cəmiyyətlərdə Allah və axirət inancını yaymaq, insanları islamın əsasları ilə tanış etməkdir. Həmin cəmiyyətlərdə sonradan müsəlman olub, hicab geyinən qadınlara niqab geydirməyi əsla düşünmədim!

Xristian ikən kilsəyə gedən qadınlara müsəlman olduqlarında məscidə getməyi qadağan etmədim. Amma ağılları qısır bəzi insanlar mənimlə mübahisəyə girişdilər, əleyhimə bir çox ittihamlar səsləndirdilər...

İnsanlara islam haqda danışdığımda həmişə deyirəm: "İddia edilir ki, qadın, eşşək və qara it namaz qılanların qabağından keçdikdə namaz pozulur. Heyrətlənirəm: bu sadalananlar arasında hansı ortaq cəhət var ki, namazı batil edənlər kateqoriyasına daxildirlər?"

İbadətlərlə bağlı ikinci dərəcəli məsələ qəbilindən sayılan bu "hökm"ü ləğv etmək istəyən alimlərin yanında olmuşam, olacağam da!

---

çilərə (bəlkə də onlar əkib becərdikləri torpaqların heç sahibi də deyillər, icarəyə götürənlərdir) yükləyir, hindqozu, çay və kauçuk plantasiyalarının sahiblərini isə bundan azad edir", – deyə islamı ittiham edirmişlər..." Bax: Yusif əl-Qərdavi. Sünnəyə münasibətimiz necə olmalıdır? / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS – Polygraphic Production" mətbəəsi, 2011, səh. 133-134 – ***tərcüməçinin qeydi***.

Fikir ayrılıqları və müxtəlif ictihadların mövcudluğu bizim tariximizdə adi və məqbul haldır. İctihad doğru olsa da, səhv çıxsa da, Allah tərəfindən savabla mükafatlandırılır. İctihadlar dəvətə mane olub, ümumun mənafeyini tapdalamamalıdır.

Qadının qanbahasının kişininki qədər olduğunu bildirən görüşə tərəf çıxır, bu məsələdə müəllimlərimin: Məhəmməd əbu Zəhrənin, Mahmud Şəltutun, Məhəmməd Həsəneyn Məxluf və başqalarının yolu ilə gedirəm.

Bəli, mən "İslam qadına həqarətlə baxır, onun qanını ucuz tutur" iddiasını puça çıxarmaq üçün yuxarıdakı seçimi etmişəm.

Bəzi müsəlmanlar bu axmaq fikrə tərəfdar çıxır, Məhəmməd peyğəmbərin timsalında bütün aləmlərə göndərilmiş ümumi rəhmətin qabağını maneələrlə kəsirlər. Onlar islamı qadın həbsxanası halına gətirmiş, qadının insanlığını nəzərə almayan quruma çevirmişlər...

Şeyx Əbdülqadir əl-Əmmari (anadan olub – 1935) qadına verilən qanbahasının kişininki qədər olduğunu təsdiqləyərək yazır:

"Pak Allah buyurur:

"Heç bir möminə başqa bir mömini öldürmək yaraşmaz. Bu, səhvən (xəta üzündən) olduqda müstəsnadır. Hər kəs bir mömini səhvən öldürərsə, o zaman o, mömin bir qul azad etməli və öldürülmüş şəxsin ailəsi qanbahasını sədəqə olaraq bağışlamadıqda, onlara (ölən şəxsin varislərinə) tam şəkildə qanbahası verməlidir. Əgər (öldürülən şəxsin özü) mömin olduğu halda, sizə düşmən olan bir tayfadandırsa,

o vaxt (öldürülən şəxs) mömin bir qul azad etməlidir. Əgər (öldürülən şəxs) sizinlə əhd (müqavilə) bağlamış bir tayfadan olarsa, o zaman onun ailəsinə qanbahası verməklə bərabər, mömin bir qul dəxi azad etmək lazımdır. Hər kəs (azad etməyə qul) tapa bilməsə, o, Allah tərəfindən tövbəsinin qəbul edilməsi üçün bir-birinin ardınca (arası kəsilmədən) iki ay oruc tutmalıdır. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!" (ən-Nisa, 92).

Ayədə Allah təala demir ki, qadına veriləcək qanbahası kişininkinin yarısı qədərdir. Ayə həm kişilər, həm də qadınlar üçün ümumidir. Bu ümumiliyi konkretləşdirən (yalnız ya kişiyə, ya da qadına aid edən) nə bir ayə, nə də səhih hədis mövcuddur. Elə isə ümumilik ümumiliyində qalmalıdır. Əmr ibn Həzmə istinadən rəvayət edilmiş hədis də bunu təsdiqləyir: "Mömin canın qanbahası yüz dəvədir". Hədisin mətnindəki "nəfs" (can) sözü həm kişiləri, həm də qadınları ifadə edir. Yəni, kişi və qadın öldürüldükdə, hər ikisinə eyni miqdarda qanbahası düşür.

Qadınların qanbahasının kişilərə düşən qanbahasının yarısı qədər olmağı haqda Əmr ibn Həzmin rəvayət etdiyi hədisə gəlincə, onun barəsində müxtəlif mülahizələr irəli sürmək olar. Çünki "Qadının qanbahası kişininkinin yarısı qədərdir" cümləsinə heç də bütün hədislərdə rast gəlmirik. Həmçinin, bu hədisin Qurandakı ümumi fikri konkretləşdirəcək qədər güclü istinadı yoxdur.

Yaralandığı və ya öldüyü təqdirdə qadına və kişiyə düşən qanbahası miqdarı arasında fərq qoymaq gülməli hökmlə-

rin çıxarılmasına səbəb olmuşdur. Məsələn, İmam Malik belə rəvayət edir:

"Rəbiə ibn Əbdürrəhman bir dəfə Səid ibn Müseyyib-dən soruşur: "Qadının bir barmağına nə qədər düşür?"* Deyir: "On dəvə." Yenə soruşur: "Bəs iki barmağa?" Cavab verir: "İyirmi dəvə." Təkrar sual edir: "Üç barmağa bəs nə qədər düşür?" Səid deyir: "Otuz dəvə." Rəbiə bir daha soruşur: "Yaxşı, bəs dörd barmaq necə, nə qədər qanbahası verilməlidir?" Səid: "İyirmi dəvə", – deyə cavab verir. Rəbiə Səidə baxır: "Yəni, yaraları çoxalıb, müsibəti şiddətləndikcə ağlı azalır (qanbahası miqdarı azalır)." Səid ona deyir: "Sən iraqlısanmı? (Yəni, İraqda Əbu Hənifənin başçılıq etdiyi "rəy" məktəbindənsənmi?)" Rəbiə deyir: "Əksinə, ehtiyatlı davranan alim, ya da öyrənən nadanam!" Səid deyir: "Bu Sünnədir (yəni, mən Sünnəyə əsasən danışıram), qardaşoğlu!"[1]

Alimlər bildirmişlər ki, burada Sünnə dedikdə Mədinə əhlinin görüşü nəzərdə tutulur! Söhbət Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bizə səhih və aşkar istinadla gəlib çatmış Sünnədən (hədisdən) getmir...

Rəbiənin etirazı, şübhəsiz ki, doğrudur. Səidin verdiyi cavab da bu etirazın həqiqiliyinə xələl gətirə bilmir. Etiraza tuş gəlməmək üçün ölüm və ya yaralanma halında qadın və kişiyə eyni qanbahasını vermək lazımdır. Tutarlı sayılan bu

---

* Yəni, bir barmağı yaralanarsa, nə qədər qanbahası ödənməlidir – ***tərcüməçinin qeydi.***

[1] İmam Malik. Müvətta, "Qanbahası" fəsli, bab № 11.

görüş hənəfiləri ittiham etməyə əsas vermir. Zəif hədislər əqli dəliləri puça çıxara bilməz.

Yeri gəlmişkən, deyim ki, Şeyx Əllamə Yusif əl-Qərdavi (anadan olub – 1926) fiqhi “ixtilaf”ın mahiyyəti və təsirləri haqda sanballı yazı qələmə alıb. Onu burada dərc etmək mənim üçün çox xoşdur. Ağıl sahibləri və şəriətin məqsədlərindən baş çıxaranlar üçün faydalı yazıdır. Belə insanlar “ixtilaf”dan təfriqə qayırmazlar, “ixtilaf”ları bölünmə vasitəsinə çevirməzlər. Onsuz da, ümmət tarix boyu təfriqə və parçalanmadan əziyyət çəkmişdir. Düşmən də bundan faydalanaraq müsəlmanların axırına çıxmaq istəmişdir...

## İctihad məsələlərində qətiyyətlə "yox" deməyin!

Ustad Yusif əl-Qərdavi yazır:

"Bir neçə məna daşıyan və fərqli izahlara açıq olan ictihad məsələlərində qəti fikir söyləməkdən çəkinmək mübahisəli mövzulara görə islam dəvətçiləri arasında yaranmış məsafəni, bəlkə də, qısaldacaqdır. Həmçinin, başqalarının belə məsələlərə dair görüşlərini inkar etməmək bu məsafəni qısaldan əsas amildir. Bu səbəbdən alimlərimiz demişlər:

"İctihad məsələlərinə görə kimsə kimisə inkar edə bilməz. Müctəhid digər müctəhidin fikirlərini inkar etməməlidir. "Müqəllid"in də (təqlidçinin) digər "müqəllid"i inkar etmək haqqı yoxdur, o ki qaldı bir müctəhidi inkar etsin".

Şeyxülislam İbn Teymiyyədən *(Allah rəhmət etsin!)* soruşurlar: "İctihad məsələlərində bəzi alimləri təqlid edən və ya mövcud iki yanaşmadan (görüşdən) birini əsas götürən şəxs məzəmmətə layiqdirmi? Ona digər görüşlərdən istifadəni qadağan etmək olarmı?"

Alim belə cavab verir: "Allaha həmd olsun! İctihad məsələlərində bəzi alimlərin dediklərinə riayət edənləri bu səbəbdən qınamaq olmaz. İki görüşdən birinə əməl edəni məzəmmətləmək yolverilməzdir. Əgər bir məsələ ətrafında iki görüş (yanaşma) mövcuddursa və bir insana onlardan biri üstün tutulmağa daha layiq görünürsə, ona əməl edə bilər.

Əks halda, üstün tutulmağa ən layiq görüş haqda etibar etdiyi alimləri təqlid etməlidir. Doğrusunu Allah bilir"[1].

Həmçinin, Şeyxülislama belə bir sual verilmişdi: "Bir şəxs müsəlmanların əmiri təyin edilir. Bu əmirin məzhəbində "şirkəti-əbdan"[*] caiz[**] hesab olunmadığı halda o, insanlara bunu ("şirkəti-əbdan"ı – ***mütərcim***) qadağan edə bilərmi?"

Belə cavab verir: "Həmin əmir ictihada açıq bu və bənzəri məsələləri qadağan edə bilməz. Belə ki, bu cür məsələləri qadağan edən nə bir ayə, nə bir hədis, nə icma[***], nə də bu qəbildən bir dəlil vardır. Alimlər bu cür məsələlərin caiz olmağı haqda çox danışmışlar. Bütün məmləkətlərdə müsəlmanlar bu cür şəriklikər qururlar.

Habelə, hakim (qazı) bu qəbil məsələlər haqda başqalarının çıxardığı hökmü inkar etməməlidir. Nə bir alim, nə də bir müfti belə məsələlərdə insanları özünə təhkim edə bilməz.

---

[1] Şeyxülislam İbn Teymiyyə. Fitvalar toplusu, cild XX, səh. 207.

[*] **Şirkəti-əbdan**: İki və daha artıq insanın müəyyən bir işdə (odunçuluq, ovçuluq, faydalı qazıntıları çıxarma və s.) şərik olmalarıdır. Əldə olunan gəlir razılaşdıqları şərtlərə əsasən bölünür. İmam Şafei bu cür ortaqlığı məqbul hesab etmədiyi halda digər üç məzhəb imamı edirlər – ***tərcüməçinin qeydi.***

[**] **Caiz**: (ərəb. "icazəli"). Fiqh termini olub şəriət baxımından icrası qadağan olunmayan əməli, işi ifadə edir – ***tərcüməçinin qeydi.***

[***] **İcma**: İslam alimlərinin dini bir məsələnin şəriət statusu ətrafında yekdil qərara gəlməlri və bütün müsəlmanların bu qərarı qəbul etmələrini ifadə edən termin; konsensus; müsəlman hüququnun (fiqhin) üç mənbəyindən biri. Azərbaycan dilindəki "icma" sözü ilə qarışıq salınmamalıdır – ***tərcüməçinin qeydi***.

Bu səbəbdəndir ki, xəlifə Harun ər-Rəşid belə məsələlərdə insanlara "Müvətta" kitabını qəbul etdirmək üçün İmam Maliklə məsləhətləşdiyində sonuncu onu bu işdən çəkindirərək demişdi: "Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* səhabələri müxtəlif ölkələrə dağılışdılar. Bununla da, hər bir xalq ona çatan elmdən öz payını götürdü".

"İxtilaf"a dair kitab yazan birisinə İmam Əhməd demişdi: "Onu "İxtilaf kitabı" deyil, "Sünnə kitabı" adlandır".

Odur ki, bəzi alimlər demişlər:

"Onların (səhabələrin – ***mütərcim***) bir məsələ ətrafında həmrəy olmaqları (***icma***) qəti dəlil, "ixtilaf"a düşməkləri isə geniş lütfkarlıqdır (rəhmətdir)".

Ömər ibn Əbdüləziz deyirdi:

"Əgər Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* səhabələri "ixtilaf"a düşməsəydilər, heç sevinməzdim. Çünki onlar bir görüş ətrafında həmrəy olsaydılar, onlarla razılaşmayanlar zəlalət əhlindən sayılardılar. Halbuki səhabələr "ixtilaf"a düşmüşlər; bir qrup insan bu görüşü, başqaları da digər görüşü mənimsəmişlər – bu ki genişlik və rahatlıqdır".

İmam Malik istisna olmaqla digər imamlar demişlər:

"İnsanları yalnız öz məzhəbinə təhkim etməyə fəqihin haqqı yoxdur".

Yaxşılığa çağırıb, pis işlərdən çəkindirmək mövzusunda kitablar yazmış şafei alimləri və başqaları demişlər:

"Bu cür ictihad məsələlərini əlin tərsi ilə bir kənara atmaq olmaz. Heç kəs insanları bu məsələlərdə yalnız özünün arxasınca getməyə məcbur etməməlidir. Bu məsələlər haqda yalnız elmi dəlillərə əsaslanıb danışmaq lazımdır. Kimə

ki iki görüşdən birinin doğruluğu aydın oldu, ona əməl etmək haqqı vardır. Kim də ki digər görüşdə olanları təqlid etdi, onu məzəmmətləmək olmaz".

Bu qəbil ictihad nümunələri çoxdur. Məsələn, alimlər aşağıdakı məsələlərdə "ixtilaf"a düşmüşlər:

1. Yaşıl paxlanın (lobyanın) qabığı ilə birlikdə satılması;

2. Qabaqcadan pulunu ödəməklə alış-veriş etmək (***bey`i-müatat***);

3. Malı dərhal təhvil almaq;

4. İçərisinə nəcis düşmüş, amma tərkibi, rəngi dəyişilməmiş çox miqdar sudan istifadə etmək;

5. Tənasül orqanına və qadına toxunduqda, qabaq və arxadan savayı digər yerlərdən nəcis çıxdıqda dəstəmazın alınıb-alınmamağı;

6. Qəhqəhə ilə güldükdə dəstəmazın pozulub-pozulmamağı;

7. Namazda gizli və ya aşkar şəkildə "bismilləhir-rahmənir-rahim" sözünün deyilib-deyilməməyi;

8. Əti yeyilən heyvanların sidik və peyinlərinin nəcis olub-olmamağı;

9. Necəliyi bilinməyəm malın satılıb-satılmamağı;

10. Təyəmmüm üçün əllərin içini neçə dəfə torpağa vurmaq lazımdır; təyəmmüm zamanı əllərin hansı hissəsi və hara qədər məsh edilməlidir;

11. Hər bir namaz üçün ayrıca təyəmmüm edilməlidir, yoxsa bir təyəmmüm bütün namazlar üçün kifayətdirmi;

12. Bir zimmi digər zimmiyə şahidlik edə bilərmi və sair”[1].

Bəli, səhabələr yuxarıdakı məsələlərdə “ixtilaf”a düşmüş, fərqli fikirlər səsləndirmişlər.

Rəvayət olunur ki, bir dəfə Həzrəti Ömər *(Allah ondan razı qalsın!)* “məsəleyi-hücəriyyə” adlandırılan vərəsəlik məsələsində hökm çıxararaq, ana-ata bir qardaşları ana bir qardaşlardan fərqləndirərək, onları mirasda ortaq tutmamışdı. Daha sonra Həzrəti Ömər eyni məsələdə fərqli hökm çıxarmışdı. Bunu görənlər ona deyirlər: “Axı sən filan vaxt valideynləri bir qardaşları mirasda ortaq tutmamışdın?” Xəlifə belə cavab verir: “O hökmü həmin vaxt vermişdik. Bunu isə indi veririk”.

Həzrəti Ömərin *(Allah ondan razı qalsın!)* Əbu Musa əl-Əş`əriyə yazdığı məktubu sonralar İbn əl-Qəyyim də bu cür izah etmişdir. Həmin məktubda deyilir:

“Bugün verdiyin hökm onu yenidən nəzərdən keçirməyinə, yanılmışsansa, haqqa qayıtmağına mane olmamalıdır! Çünki haqq əzəlidir və onu heç nə puç edə bilməz. Hökmün doğru olub-olmadığını gözdən keçirmək hey batil içərisində olmaqdan yaxşıdır”[2].

Belə rəvayət olunur ki, Həzrəti Ömər bir məsələ ilə əlaqədar olaraq qazıya müraciət etmiş kəslə görüşdüyündə soruşur: “Nə edə bildin?” Həmin şəxs deyir: “Mənim və Zeydin barəsində filan hökmü çıxardılar.” Həzrəti Ömər deyir: “Əgər mən olsaydım, başqa hökm çıxarardım.” Həmin şəxs

---

[1] Şeyxülislam İbn Teymiyyə. Fitvalar toplusu, cild XXX, səh. 79-81.

[2] İbn əl-Qəyyim. E`lam əl-Müvəqqəin, cild III, səh. 99.

Ömərə baxır: "Elə isə sənə nə mane olur? Aramızda hökmü sən kəs." Həzrəti Ömər deyir: "Səni Allahın kitabı və peyğəmbərinin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* sünnəsinə qaytarmaq istəsəydim, bunu edərdim. Amma mən istəyirəm ki, sən "rəy"ə* müraciət edəsən. Çünki "rəy" ortaq məsələdir"[1].

İxtilaflı məsələlərdə dözümlülüyü artırıb, üzrxahlıq mədəniyyətini formalaşdıran amillərdən biri də alimlərin müxtəlif fikirləri ilə tanış olmaqdır. Bizə məlum olacaqdır ki, müxtəlif məzhəblər, fərqli mənbələr mövcuddur; hər bir alimin öz görüşü, öz dəlili vardır; bütün alimlər şəriət dəryasından su içmişlər. Və bu ümman necə də genişdir!

Bu səbəbdən alimlərimiz bildirmişlər ki, fəqihlərin həmrəy olduqları məsələlərdən xəbərdar olmaq nə qədər vacibdirsə, "ixtilaf"a düşdükləri problemləri də öyrənib bilmək bir o qədər zəruridir. Fəqihlərin ixtilafı rəhmət, həmrəyliyi isə höccətdir (istinad olunacaq dəlildir). Bu məqamda deyilib: "Fəqihlərin "ixtilaf"ına bələd olmayanlar alim sayılmazlar. Kim ki fəqihlərin "ixtilaf"ından xəbərsizdir, deməli, fiqh elminin qoxusunu ala bilməyib!"

---

* Rəy islam fikrində problemlərə ilk rasional yanaşma olub, Peyğəmbərin və səhabələrin zamanında da bu və ya digər şəkildə istifadə edilmişdir – ***tərcüməçinin qeydi.***

[1] İbn əl-Qəyyim. E`lam əl-Müvəqqəin, cild I, səh. 74.

## Təqlidi qadağan etsələr də, özləri təqlidçidirlər!

Elmdən bixəbər kəslər ancaq bir görüşdən, nöqteyi-nəzərdən yapışarlar ki, bu da qəbuledilməzdir. Onlar yalnız bir şeyxin (alimin) görüşlərindən istifadə edir, təkcə bir məktəblə kifayətlənirlər. Başqalarının görüşünü əsla dinləməzlər, əks nöqteyi-nəzərlərin müqayisəsini aparmazlar, digər məktəblərin fərqli fikirlərini nəzərə almazlar.

Təəccüblüsü budur ki, təqlidi qeyri-məqbul davranış hesab edən bu insanlar özləri təqlidçidirlər; onlar əvvəlki imamların təqlid edilməsinə qarşı çıxsalar da, nədənsə özləri indiki dövrün bəzi alimlərinin təqlidçilərinə çevriliblər. Onlar məzhəbləri inkar edirlər, amma özlərinə aid beşinci məzhəb yaratmışlar; onlar həmin "məzhəb"i beyinlərə yeritmək üçün hamı ilə vuruşur, ondan qeyri məzhəbləri rədd edirlər. Və bu insanlar ənənəvi kəlam elminin üstündən xətt çəksələr də, yeni kəlam elmi təsis etmişlər. Bu "kəlam elmi"nin işi-gücü əqidədə mübahisə etmək "sevgi"sini qəlblərə aşılamaqdan ibarətdir!

Bu insanların həqiqətə dair təsəvvürləri korların fil haqqındakı təsəvvürlərinə oxşayır. Qədim hind nağılında deyilir: "Filin ayrı-ayrı yerlərinə toxunan korların hər biri elə təsəvvür edir ki, fil elə toxunduğu hissədən ibrətdir".

Həmin kəslər bir az geniş düşünsələr, görəcəklər ki, məsələ zənn etdiklərindən daha mürəkkəbdir, müxtəlif yanaşmalara açıqdır; görüşlər hər nə qədər müxtəlif olsa da, onları məqbul hesab etmək mümkündür. Mühüm olanı budur ki, insaflı davranıb, təəssübkeşliyi bir qırağa ataq, başqalarının da dediyini dinləyək. Nə bilirsən, bəlkə də, məhz onların dediyi daha doğrudur.

Neçə-neçə insaflı tədqiqatçı biləndə ki, bu və ya digər problem haqda bir neçə mötəbər alimin fərqli görüşləri mövcuddur, təəssübkeşlikdən əl çəkmişlər.

Misal üçün götürək həcdə daş atmaq məsələsini. Bəziləri deyir ki, günəş əyilməkdən qabaq daş atanların həcci Sünnəyə əks davrandıqları üçün batildir.

Səhabələrdən Cabir deyib:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qurban kəsilən günü züha vaxtında, sonrakı günlərdə isə günəş səmada əyildikdən sonra daş a tdı"[1].

Vəbərə deyib: "İbn Ömərdən *(Allah ondan razı qalsın!)* soruşdum: "Daşı nə vaxt atım?" O da: "İmamın (həcc rəhbərin) nə vaxt atdı, sən də o vaxt at. Biz gözləyərdik. Elə ki günəş səmada əyildi, daşlarımızı atardıq"[2].

"Fəth əl-Bari" kitabının müəllifi yazır:

"Bu (rəvayət) göstərir ki, qurbankəsmə günündən sonrakı günlərdə günəş səmada əyildikdən sonra daş atmaq sünnədir. "Cümhur" da bunu təsdiqləmişdir.

---

[1] Hədisi İmam Buxari rəvayət etmişdir.

[2] Hədisi İmam Buxari rəvayət edib.

Alimlərindən Əta və Tavus bu görüşlə razılaşmamışlar. Onlar demişlər: "Günəş səmada əyilməzdən qabaq daş atmaq mütləq mənada caizdir. Hənəfilər də Minadan enmə günündə, yəni qurbankəsmə günü günəş səmada əyilməzdən qabaq daş atmağa izn vermişlər. İshaqdan da bu haqda rəvayət bizə gəlib çatmışdır"[1].

Otuz ildən çoxdur ki, bu məsələ Ustad Abdullah ibn Zeyd Mahmud və ər-Riyad alimləri arasında ixtilafa səbəb olub. Ustad bu haqda "İslamın asanlığı" adlı risalə qələmə aldığı zaman həmin şeyxlər qətiyyətlə ona qarşı çıxmışdılar. Halbuki İbn Ömərin – Sünnəyə riayətdə mühafizəkarlığı ilə tanınırdı – yuxarıdakı cavabı onun bu məsələyə asanlaşdırıcı münasibət bəslədiyini göstərir. Müsəlman daş atmaq məsələsində tez də atsa, gec də atsa, həcc rəhbərinə uymalıdır.

Bu bir yana qalsın, fəqihlər hətta daş atmağın hökmü ətrafında "ixtilaf"a düşmüşlər. "Fəth əl-Bari" kitabında deyilir:

"Cümhur"a görə, daş atmaq vacibdir. Kim atmazsa, qurban kəsməlidir. Malikilər daş atmağı sünneyi-müəkkədə hesab edirlər. Onlarda belə bir görüş mövcuddur ki, Əqəbədə daş atmaq həccin əsaslarındandır və onu etməyənlərin həcci batildir.

Bəzi alimlər isə demişlər:

"Daş atmaq "Allahu Əkbər" sözlərini davamlı demək üçündür. Birisi daş atmayıb, "Allahu Əkbər" sözlərini deməklə

---

[1] İbn Həcər əl-Əsqəlani. Fəth əl-Bari, cild III, səh. 580.

kifayətlənərsə, caizdir. Bunu Həzrəti Aişəyə və digərlərinə istinadən İbn Cərir rəvayət etmişdir”[1].

Bəzi qardaşlarımız deyirlər: “Alimlərin böyük əksəriyyəti ilə (“cümhur”la) razılaşmamış bir və ya iki fəqihin görüşü mötəbər sayıla bilməz”.

Bəziləri isə iddia edirlər ki, müsəlmanların məqbul saydıqları dörd məzhəbə zidd olan hər bir şey kənara atılmalı, mötəbər qəbul edilməməlidir.

Əslində, bu iddialar əsassızdır, nə Qurana, nə də Sünnəyə müvafiqdir.

Məlumdur ki, dəlil mənasında “icma” dedikdə bütün müctəhidlərin bu və ya digər məsələnin dini hökmü ətrafında ortaq fikrə gəlmələri başa düşülür. Heç kəs iddia etməmişdir ki, icma əksəriyyətin və ya böyük əksəriyyətin – “cümhur”un ortaq fikrə gəlməsidir. Məsələ say məsələsi deyildir.

O da düzdür ki, “cümhur”un rəyi çox mühümdür. Bu səbəbdən ona əks görüşləri diqqətlə araşdırmalıyıq. “Cümhur”un görüşü ilə o vaxt razılaşmaya bilərik ki, daha tutarlı dəlillər, daha sağlam əsaslandırmalar mövcuddur. Hər halda “cümhur” məsum deyildir.

Neçə-neçə səhabə vardır ki, fikirləri ilə başqa səhabələrdən fərqlənmişlər. Səhabələr həmin fikirlərlə razılaşmasalar da, bunun onlara heç bir ziyanı olmamışdır.

---

[1] İbn Həcər əl-Əsqəlani. Fəth əl-Bari, cild III, səh. 579.

Şəxsi görüşləri ilə digərlərindən fərqlənmiş tabein dövrü alimləri də vardır. Bu "ixtilaf" onların görüşlərinin mötəbərliyini əsla zədələməmişdir. Əsas olan şey dəlildir, çoxluq deyil!

Dörd İmamdan eləsi olmuşdur ki, digər üçünün dediyi ilə razılaşmamış, fərqli mövqedən çıxış etmişdir. Onların bu fərqli görüşlərini davamçıları doğru sayıb mənimsəmişlər.

Əhməd ibn Hənbəlin məzhəbi dini mətnlərə köklənmiş məzhəbdir. Bu məzhəb özünəməxsus görüşləri (***müfrədat***) ilə məşhurdur. Çoxları bu görüşlər haqqında şer yazmış, əsərlər qələmə almışlar. Tədqiqatçılar fiqh kitablarında tez-tez bu cümləyə rast gəlirlər: "Filan görüş hənbəlilərin "müfrədat"ındandır".

Müsəlmanların böyük əksəriyyətinin nəzərində etibar qazansa da, Dörd Məzhəb Allahın dininə aid yeganə höccət deyildir. Əksinə, höccət o şeydir ki, nəqli və əqli dini dəlillərə əsaslansın.

Bəzi görüşləri "şazz" (anormal, müstəsna), "köhnəlmiş" (***məhcur***) və "zəif" adlandırmaq ümumi və mütləq mənada doğru deyildir.

Neçə-neçə "köhnəlmiş" görüş vardır ki, sonradan yayğın hala gəlmişdir. Vaxtı ilə "zəif" qəbul edilən görüşlər gün gəlmiş, alimlər tərəfindən təsdiqlənərək mötəbər sayılmışdır. Sonradan alimlərin sahib çıxıb, dəlillərlə mötəbərliyini əsaslandırdıqları, fitvalarında başlıca arqument olaraq seçdikləri "şaz" fikirlərə də tarixdə rast gəlinir.

Misal üçün götürək Şeyxülislam İbn Teymiyyənin bir sıra görüşlərini. İmam bu görüşləri üzündən hansı əziyyətlərə qat-

laşmamışdı ki?! Əsrlər boyu alimlər onun bu görüşlərini "icmanı yarıb keçən" (icmaya zidd) görüşlər adlandırmışdılar. XX əsr tarixə qədəm basdığında hamı anladı ki, şeyxülislamın bu görüşləri ailə təsisatını dağılmaqdan qoruyan xilasedici gəmi rolunu oynayır.

## *Doqquzuncu fəsil*
# SÜNNƏYƏ DAİR KOMMENTARİLƏR

Peyğəmbərin hədislərinin toplandığı Altı Kitab hicri üçüncü əsrin əvvəllərində qələmə alınmışdır. Biz bunu onların müəlliflərinin yaşadıqları tarixdən də aydın şəkildə görürük. Hədis imamları bu işdə bacarıqlı idilər; onların zəhməti və xidmətləri danılmazdır.

Belə ki, hicri tarixlə İmam Buxari 194-256, İmam Müslim 204-261, İmam Nəsai 215-303, İmam Əbu Davud 202-275, İmam Tirmizi 209-270, İmam İbn Macə isə 207-273-cü illərdə yaşamışdır.

İlk iki əsr ərzində Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* hədisləri şifahi şəkildə nəsillərdən-nəsillərə ötürülmüş, müəyyən hissəsi də yazıya köçürülmüşdü. Həmin vaxt həm səhih, həm də "zəif" hədislər xalq arasında geniş yayılmışdı. Alimlər insanlara islamı öyrədir, "çeşmə"sini imkanları daxilində saf saxlamağa çalışırdılar...

Məlumdur ki, İmam Əbu Hənifə İraqda, İmam Malik isə Hicazda öz məzhəblərini qurmuşlar. Müsəlmanlar arasında xüsusi çəkisi olan bu məzhəblər Qurana və Sünnəyə əsaslanır. Ümumiyyətlə, islam tarixində elə bir kəs olmamışdır ki, Sünnəni Quranın möhtərəm "əlavə"si hesab etməsin. Düzdür, bu və ya digər hədisin səhihliyi, Peyğəmbərə aidliyi məsələsi ətrafında mübahisələr istisna olunmur. Amma bu mü-

bahisələr danılmaz bir həqiqətə əsla xələl gətirməmişdir: Allahın kitabı və Peyğəmbərin sünnəsi İslamın əsas mənbələridir!

Alimlər müşahidə etmişlər ki, məlum altı kitab müəlliflərinin (Buxari, Müslim, Nəsai, Əbu Davud, Tirmizi, İbn Macə – ***mütərcim***) qoyduqları səhihlik şərtləri (meyarları) fərqlidir. Çünki bu müəlliflər nəhəng hədis irsi ilə qarşı-qarşıya gəlmişdilər. Odur ki, hədislərin səhihliyindən, Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aidliyindən əmin olmaq üçün yollar axtarmalı olmuşdular.

İmam Buxari *(Allah rəhmət etsin!)* həqiqəti axtarıb dəqiqləşdirməkdə çox mühafizəkar olmuşdur. Məsələn, Buxariyə görə, bir hədisin məqbul sayılması üçün, eyni dövrdə yaşamış və həmin hədisi rəvayət etmiş iki ravinin bir-biri ilə görüşüb-görüşmədiyini isbatlamaq şərtdir. Buxari özünün "Səhih" kitabını çoxsaylı hədis kütləsini "ələklədikdən" sonra yazmışdır...

Buxarinin "Səhih"ində, təkrarları çıxsaq, təxminən 2600 hədis vardır...

İmam Müslimə gəlincə, nisbətən az mühafizəkar idi. O, ravilərin eyni dövrdə yaşamasını hədisin səhihlik şərtlərindən biri hesab etsə də, onların görüşüb-görüşmədiyini araşdırmamışdır. İmam Müslim güman edirdi ki, eyni dövrdə yaşamaq, həm də görüşməkdir və ya bu qəbil şey deməkdir. Odur ki, onun kitabındakı hədislərinin sayı daha çoxdur...

Altı kitabdan yerdə qalanlarına gəlincə, onlarda səhih, "həsən", "zəif" və uydurma (***mövzu***) – belə hədislərin sayı çox azdır – hədislər toplanıb.

Fikrimcə, bu kitablar İmam Əhmədin təxminən otuz min hədisi ehtiva edən "Müsnəd"indən daha dəqiqdir. Qəbul olunub ki, "Müsnəd"dəki hədislərin bir hissəsi uydurmadır.

O da məlumdur ki, bu imamlar hicri II əsrin sonlarında toplanmış hədis kütləsini araşdırmışdılar. İmam Buxari hədisləri xüsusi şəkildə araşdırıb, saf-çürük etsə də, Əhməd İbn Hənbəl hədisləri kitab halında toplayarkən üzüyumşaqlıq göstərmişdir...

Buxarinin bir kənara qoyduğu hədisləri başqaları səhih hesab etdiyi kimi, Buxari də İmam Əbu Hənifə və İmam Malikdən "yan keçmiş" hədislərin səhih olub-olmadığını araşdırmışdır. Çünki İmam Əbu Hənifə və İmam Malik Buxarinin bir hədis alimi kimi yetişməsindən qabaqkı dövrdə yaşamışlar.

İmam Malikə görə, itin ağız suyu və təri təmizdir. O, kitabının "Öyrədilmiş itlə ov" fəslində buna aşağıdakı ayəni dəlil göstərmişdir:

"(Ya Rəsulum!) Səndən hansı şeylərin halal edildiyini soruşurlar. De: "Bütün pak nemətlər sizə halal buyurulmuşdur. Allahın sizə öyrətdiyi (ov üsulları) ilə təlim edib əhliləşdirdiyiniz yırtıcı heyvanların (ov iti, şahin və s. ) ovladıqları da sizə halaldır. Onların sizin üçün tutub gətirdiklərindən yeyin və ona görə (təlim etdiyiniz heyvan və quşları ov üzərinə qısqırtdığınız, silah işlətdiyiniz və ovu kəsdiyiniz zaman) Allahın adını çəkin ("bismillah, Allahuəkbər" deyin). Allahdan qorxun. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir!" (əl-Maidə, 4).

İmam Əbu Hənifə hesab edirdi ki, azad bir insanı və ya köləni, kişini və ya qadını, mömini və ya kafiri öldürən müsəlmana cəza olaraq ölüm hökmü kəsilməlidir. Bunu iddia edərkən Əbu Hənifə aşağıdakı ayələrin zahiri mənasına əsaslanmışdı:

- "Biz yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burununku burun, qulağınkı qulaq, dişinki diş və yaralarınkı yaralardır..." (əl-Maidə, 45);

- "O halda onların arasında Allahın nazil etdiyi Kitabla hökm et..." (əl-Maidə, 49).

Bu deyilənlərdən belə bir nəticə çıxarmaq mümkündürmü ki, İmam Malik və İmam Əbu Hənifə hökmlərin mənbəyi olmada Sünnənin rolunu inkar etmişlər? Çünki onların bu görüşlərinə zidd hədislər mövcuddur. Təbii ki, ağıllı insanlar bu cür düşünməzlər. Habelə, on minlərlə hədisin arasından təxminən 2700 hədisi seçib qalanlarını bir kənara qoyduğu üçün heç kəs Buxarinin Sünnə düşməni olduğunu düşünmür.

Hədisin səhihliyini isbatlamaq üçün həm məzmun (***mətn***), həm də istinadla (***sənəd***) bağlı bəzi şərtlər mövcuddur. Alimlər bu şərtlərin nədən ibarət olmağı barədə fərqli fikirlər səsləndirmişlər. Çünki Quran və hədislər əsasında hökm çıxarmaq qabiliyyəti (söhbəti intellektual və fitri qabiliyyətdən gedir) hamıda eyni deyildir.

Həm sələf, həm də xələf həmrəydir ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* hədisləri islamı izahda, təlimlərini açıqlamada Quranın "dostu"dur...

İndiki dövrdə bəzi şəxslər fiqh imamlarına yağı kəsiliblər. Onlar məzhəblərin təqlid edilməsini rədd edirlər. Müzakirə etdikləri hədislərdən istədikləri mənanı çıxarır, qəribə fikirlər səsləndirirlər. Həmin bu fikirlər Qurana əksdir, məşhur imamların, ağıllı insanların dedikləri ilə üst-üstə düşmür. Elə ki onları sabit dini qaydalar əsasında hökm çıxarmağa çağırırsan, kobudcasına və sərt şəkildə deyirlər: "Sən Sünnəni inkar edirsən, Peyğəmbərə düşmən kəsilirsən!"

Doğrudan da, biz, müsəlmanlar bugün həm mədəniyyət, həm də əxlaq sarıdan korluq çəkirik. Bir şeyi ala-yarımçıq bilmək böyük müsibətdir. Ala-yarımçıq elm, üstəgəl, insanlarla kobud davranıb, onlarda eyib axtarmaq – bütün bunlar daha dəhşətlidir!

Hədisləri inkar və ya təsdiq etmək hər adamın işi deyildir! Həmçinin, fərdi və beynəlxalq münasibətlərdə Allahın şəriətinin yerinin müəyyənləşdirilməsi, ailə məsələləri, ümumi və şəxsi kapitalın tədavülü, hakimiyyət formaları, şura və digər problemlər haqqında yalnız elm sahibləri danışmalıdırlar. Fəhlələrə, əkinçilərə, bədəvilərə gəlincə, onlar hara, bu işlər hara!

## Qeyri-məqbul hədislər barədə

İndiki vaxtda hədis elmləri ilə iki böyük alim məşğul olur: Şeyx Məhəmməd Nasirəddin Əlbani və Şeyx Abdullah Siddiq əl-Qümari*. Onların yazdıqlarını oxuyur, qiymətli biliklər əldə edirəm. Onlar, mənə görə, din elmlərinin bu sahəsində – hədisşünaslıqda dərin bilik sahibidirlər...

Aralarındakı "ixtilaf" mənim üçün əhəmiyyətli deyildir. Şeyx Əlbani sələfilərə, Şeyx Qümari də əş`arilərə yaxınlığı ilə tanınır...

Əqidə mövzularını araşdırdığım zaman sələfilərlə əş`arilərin arasında yaranmış "ixtilaf"lara heç bir qrupa meyl göstərmədən, obyektiv şəkildə nəzər salıram. Elmi tariximizə hücum çəkmiş qədim yunan fəlsəfəsinin müsbət və mənfi təsirlərinə "yox" deyirəm. Həm materiyanı, həm də materiyadan kənar mahiyyətləri Quran metodu ilə araşdırıram...

Bu səbəbdən mən sələfilər və əş`arilərin nəzəri kəlam məsələləri ilə bağlı görüşlərindən uzağam. Məni fiqhin praktik tərəfləri, əxlaqi davranışlar, dinin praktik tətbiqi yolları maraqlandırır.

---

* Kitabın yazıldığı dövrdə (1991) hər iki alim həyatda idi. Ancaq indi hər ikisi haqqın dərgahına qovuşub. Şeyx Qümari 1901-1993, Şeyx Əlbani isə 1914-1999-cu illər arasında yaşamışlar. Allah hər ikisinə rəhmət etsin! – ***tərcüməçinin qeydi.***

Axır ki Şeyx Abdullah ibn Məhəmməd əs-Siddiqin "Şaz" və qeyri-məqbul hədislər haqda faydalı izahlar" (əl-Fəvaid əl-Məqsudə fi Bəyan əl-Əhadis əş-Şazzə əl-Mərdudə) adlı kitabı işıq üzü gördü (Darülbeyza (Kasablanka): "Dar əl-Fürqan" nəşriyyatı).

Kitabı oxuduqda gördüm ki, müəllif istinadları səhih olsa da, məzmunundakı ziddiyyətlərə görə qırx üç hədisi "şazz" saymışdır.

Kitabı diqqətlə araşdırdım, deyilənlərin əksəriyyəti ilə razılaşsam da, bir hissəsində tərəddüd göstərdim. Məsələn, kitabın 92-ci səhifəsində müəllif Əbu Hüreyrəyə istinadən rəvayət olunmuş bu hədisi qeyri-məqbul hesab edir. Hədisə görə Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

"Rəbbimdən anam üçün bağışlanma diləmək icazəsi istədim. İcazə vermədi. Qəbrini ziyarət etmək üçün izn istədikdə izn verdi"[1].

Bu hədis "şaz"dır, çünki Quran ayələrinə ziddir. Allah təala buyurur:

- "...Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab verməri!" (əl-İsra, 15);

- "Bu, (peyğəmbərləri göndərmək) ona görədir ki, Rəbbin məmləkətlərin əhalisini, onlar qafil ola-ola (özlərinə peyğəmbər gəlmədiyi üçün dini vəzifələrini bilməyib icra etmədikləri halda) zülmlə məhv etməyi özünə rəva bilməz!" (əl-Ənam, 131).

[1] Hədisi İmam Müslim, Əbu Davud, Nəsai, İbn Macə və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

Pak və Uca Allah ərəblər haqqında buyurur:

- "...səndən əvvəl də özlərinə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər göndərməmişdik" (Səba, 44);

- "...Xeyr, o səndən əvvəl peyğəmbər göndərilməmiş bir qövmü (Allahın əzabı ilə) qorxutmağın üçün Rəbbindən (nazil) olan bir haqdır. Bəlkə, doğru yola yönələlər!" (əs-Səcdə, 3).

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* anası fətrət* dövründə yaşayıb. Onun yaşadığı dövrdə heç bir peyğəmbər göndərilməyib və onun da bundan xəbəri olmayıb. Elə isə ayələr açıq-aşkar göstərir ki, Peyğəmbərin anasına əzab yoxdur. Bu səbəbdən, onun üçün bağışlanma diləməyi qadağan edən hədis "şaz"dır. Quran ayələri olan yerdə "ahad" hədisləri dəlil göstərmək yolverilməzdir! Bu ki açıq-aşkar məsələdir.

"Müsnəd" kitabında Əbu Rəzin əl-Üqeyliyə istinadən Əhməd ibn Hənbəlin rəvayət etdiyi hədis də bu qəbildəndir. Hədisin istinadı çox "zəif"dir. Belə ki, əl-Üqeyli deyib:

"Peyğəmbərdən soruşdum: "Ey Allahın rəsulu, anam haradadır?" Dedi: "Anan cəhənnəmdədir." Sual etdim: "Bəs sənin ailəndən keçib-getmişlər haradadır?" Dedi: "Ananın mənim anamla birlikdə olmağı xoşuna gəlmirmi?"

Bu hədis "zəif" olmaqla yanaşı, həm də "şaz"dır.

---

* **Fətrət** (ərəb. "zaman kəsiyi"): peyğəmbərlərin göndərilmədiyi və vəhyin kəsildiyi zaman kəsiyini; bir peyğəmbərin vəfatından digər peyğəmbərin göndərilməsinə qədər olan müddəti; xüsusilə də İsa peyğəmbərlə Məhəmməd peyğəmbərin arasındakı dövrü ifadə edən dini termin – ***tərcüməçinin qeydi***.

Qurana zidd rəvayətlərin səhih olub-olmadığını araşdırmaqla insanlar risk edirlər. Şəxsən mən bunu qeyri-məqbul səfehlik hesab edirəm...

İbn Məsudun "Nas" və "Fələq" surələrini Qurandan saymadığını iddia etmək gülməli deyildirmi? Kim inana bilər ki, İbn Məsud kimi böyük şəxsiyyət bu sözləri söyləsin?!

Boş-boş rəvayətləri məqbul saymaqla iyrəncliyin zirvəsinə "təntənə" ilə yüksəlmək mümkün imiş!

Bəzən mənə elə gəlir ki, "Müsnəd" kitablarının sahibləri, əvvəlcə, hər deyiləni qaralama şəklində toplamış, uydurma və əsassız rəvayətləri axırda müəyyənləşdirib rədd etməyi düşünmüşlər. Amma ömür əta etməmiş, bu iş yarımçıq qalmışdır! Bu səbəbdən onların kitablarında uydurma hədislərə rast gəlirik.

Məsələn, "Müsnəd" kitabının VI cildinin 269-cu səhifəsində Həzrəti Aişəyə *(Allah ondan razı qalsın!)* istinadən rəvayət olunmuş belə bir "hədis" mövcuddur. Guya Həzrəti Aişə deyib: "Rəcm" və "On dəfə əmizdirmə" ayəsi enmişdi. Evimdə, çarpayının altında bir kağızda yazılmış halda idi. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xəstəliyindən şikayətləndiyində başımız qarışdı. (Və bu zaman) evə bir qoyun girərək onu (kağızı) yedi".

Qümari yazır: "Bu, qeyri-məqbul və "şaz" rəvayətdir. Çünki tilavəti nəsx etmək qeyri-mümkündür*. "Zövq əl-Hilavət" adlı kitabımda bu məsələyə hərtərəfli toxunmuşam.

---

* Yəni, itib-batan şey kağızdır. Tutaq ki, həmin ayələrin yazıldığı kağızı qoyun yeyib. Axı Quranın bütün ayələrini Peyğəmbər səhabələrinə

Bir qoyunun otağa girib, Quran ayəsi yazılmış kağızı yeməyi ağlasığmaz bir şeydir. Bu necə mümkün ola bilər axı?! Qoyun kağızı yeyir, heç kəsin də xəbəri olmur, – bu ki başdan-ayağa yalan qoxusu verən uydurmadır! Quranda nəsxin olduğunu bildirənlərin iddiasına uyğun olaraq, "mənsux" ayənin yazıldığı kağızı qoyunun yeməsini mümkün saysaq, onda qeyri-mənsux ayələrin də yazıldığı başqa kağızların yeyilməsini mümkün saymış olarıq. Bununla da, bütövlükdə Qurana olan inam sarsılar. Qurandan bir hissənin "yeyilməsi" ehtimalı yaranar. Halbuki Allah təala buyurur:

"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!" (əl-Hicr, 9).

Quranda göstərilir ki, dünya altı günə yaradılıb. Necə ola bilər ki, birisi bu həqiqəti unudub, dünyanın yeddi günə yaradılması haqda hədis rəvayət etsin?! Bununla da kifayətlənməyib, onun Qurandakı faktiki məlumata əks təfsilatını versin?! Əbu Hüreyrəyə *(Allah ondan razı qalsın!)* istinadən İmam Müslim, Nəsai və başqaları rəvayət edirlər ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

"Allah şənbə günü torpağı yaratdı. Bazar günü orada dağlar ucaltdı. Bazar ertəsi ağacları, çərşənbə axşamı bəyənilməyən şeyləri, çərşənbə də işığı xəlq etdi. Cümə axşamı orada

---

əzbərlədirmiş. Kağız it-bat olsa da, həmin ayələr şifahi şəkildə səhabələrin yaddaşlarına həkk olunmuşdu. Bu ayələr olsaydı, dildən-dildən bizə gəlib çatardı – ***tərcüməçinin qeydi***.

(yer üzündə) heyvanları yaratdı. Cümə günü isə ikindidən sonra gecəyədək Adəmi xəlq etdi”[1].

Bu hədis “şaz”dır, çünki yer üzünün və orada olanların yeddi gündə yaradıldığını bildirir. Halbuki Quranda deyilir ki, yer və göylər altı günə xəlq edilib. Buxari bu hədisi “Tarix” kitabında “nöqsanlı” hesab etmiş və demişdir: “Bəziləri onu Əbu Hüreyrə və Kə`b əl-Əhbardan rəvayət etmişlər. Səhih olan görüş də elə budur”.

Kə`b əl-Əhbar öz tayfasının xurafatlarını, uydurmalarını rəvayət etmiş şəxsdir. Bu səbəbdən heç bir “çəki”si yoxdur. Məsələnin təəccüblü tərəfi budur ki, belə bir yalançı necə olub ki, Əbu Hüreyrə kimi ravini aldatmağı bacarıb...

[1] Hədisi İmam Müslim və Əhməd ibn Hənbəl rəvayət etmişdir.

## Camaat namazı haqda "ixtilaf"lar

Camaat namazı barədə fəqihlər "ixtilaf"a düşmüşlər. Bir qrup fəqih camaatla namaz qılmağı "fərzi-eyn"*, digərləri də "fərzi-kifayə"** hesab etmişlər. Bu namazın "sünneyi-müək-kədə"*** olduğunu deyənlər də vardır...

Sonuncu görüş ürəyimə daha çox yatır. Belə ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* təkbaşına qılınan namazları inkar etməmiş, əksinə bildirmişdir ki, bu namazların savabı az olur. Bu haqda deyilmiş hədis də məhz bunu ifadə edir:

"Camaat namazı təkbaşına qılınan namazdan iyirmi yeddi dəfə fəzilətlidir (üstündür)"[1].

Bu iki savab miqdarı arasındakı fərq çox böyükdür. Çünki camaat (birlikdə olmaq) islamın əsaslarından biridir.

---

* **Fərzi-eyn** (ərəb. "özlüyündə vacib"): bütün müsəlmanların yerinə yetirmələri zəruri sayılan ibadət növlərinin ümumi adı – ***tərcüməçinin qeydi***.

** **Fərzi-kifayə** (ərəb. "mümkün vacib"): hər hansı bir ərazidə yaşayan müsəlman toplumundan bir nəfər və ya bir qrupun etdiyi təqdirdə yerdə qalanların etməsindən azad olduqları vacib ibadət növü – ***tərcüməçinin qeydi***.

*** **Sünneyi-müəkkədə** (ərəb. "qəti sünnə"): Peyğəmbərin davamlı şəkildə, az hallarda isə edə bilmədiyi "nafilə" (vacib sayılmayan) ibadətlərin ümumi adı – ***tərcüməçinin qeydi***.

[1] Hədisi İmam Buxari, İmam Müslim, Nəsai, İmam Malik və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

Sübhdən yatsıyadək davam edən görüşmələr müsəlmanlar arasındakı münasibətləri möhkəm edir...

Məsciddə toplaşmağın mənəvi və sosial təsirləri çoxdur. Allahı və peyğəmbərini sevənlər məscidlərdən bezikməzlər...

Qədimdə məscidlər kafir və münafiqlərin əhvalını pozurdu. Onlar camaatla bir yerdə olmağa ərinir, tənbəllik göstərirdilər. Bəlkə də, onlar vacib namazlardan yaxa qurtarmaq üçün öz evlərində və ya yığıncaq yerlərində bir araya gəlirdilər. Görünür, ayədə də deyildiyi kimi, münafiq və kafirlər namazı, ona çağırışı lağa qoyurmuşlar:

"Ey iman gətirənlər! Sizdən əvvəl kitab verilmiş olanlardan dininizi oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost tutmayın. Əgər möminsinizsə Allahdan qorxun!

Siz (bir-birinizi) namaza çağırdığınız zaman onlar onu oyun-oyuncaq sayarlar. Bu, onların anlamaz bir tayfa olmalarındandır" (əl-Maidə, 57-58).

Peyğəmbər də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* öz növbəsində bu lağ-lağı insanlara qarşı hücuma keçməyi, şərlərinə son qoymaq üçün evlərini yandırmağı düşünmüşdür. Amma sonradan hədə-qorxu gəlməklə kifayətlənmişdir. Bəlkə də, həmin hədə-qorxu onları pərən-pərən salıb, səflərini parçalamışdır. Çünki kafir və münafiqlər qorxaq olurlar. Fikrimizcə, Əbu Hüreyrəyə istinadən rəvayət olunmuş hədisin də mənası bu cür başa düşülməlidir. Əbu Hüreyrə rəvayət edir ki, Peyğəmbər bəzi namazlara insanların az gəldiyini görüb deyibmiş: "Düşündüm ki, bir şəxsə insanlara namaz qıldırmaq əmri verim, özüm də namaza gecikənlərə müxalif olum. Və əmr

edim ki, evlərini başlarına yandırsınlar. Onlar bilsələr ki, (məsciddə) nəsibləri yağlı sümük olacaq, onda namaza tez gələrlər"[1].

Söhbət, xüsusən sübh və yatsı namazlarından gedir. Çünki münafiqlər üçün bu namazlarda iştirak etmək çox çətin idi...

Biz möminlərin məscidləri doldurub, səf-səf dayanmalarını, müasir maddi mədəniyyətin cazibədarlığına müqavimət göstərmələrini alqışlayırıq. Maddiyyat mədəniyyəti kiçik işlərlə məşğul olan nəsillər yetişdirmiş, kütlələri Allahın razılığını qazandıracaq işlərdən uzaqlaşdırmışdır...

Bununla yanaşı, biz hər nə qədər savabı az olsa da, namazını evdə, bazarda, iş yerində... qılanlara "namazın heçdir" – demirik...

Bu haqda hədisçi alimlərin müəyyən görüşləri vardır. Məsələn, İbn Ümmi-Məktuma istinadən Əbu Davud və İbn Macə rəvayət edirlər ki, İbn Ümmi-Məktum bir dəfə Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* soruşubmuş: "Ey Allahın rəsulu, mən kor adamam. Məni gəzdirən, amma mənimlə xoş rəftar etməyən bələdçim var. Evimdə namaz qılmağıma icazə vardırmı?" Peyğəmbər ona deyir: "Çağırışı (azanı) eşidirsənmi?" İbn Ümmi-Məktum: "Bəli", – deyə cavab verir. Peyğəmbər deyir: "Elə isə sənə icazə düşmür"[2].

---

[1] Hədisi İmam Buxari, Əhməd ibn Hənbəl və Darimi rəvayət etmişlər.
[2] Hədisi Əbu Davud, İbn Macə, İmam Malik və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

Hədisi Əbü Hüreyrəyə istinadən İmam Müslim və Nəsai aşağıdakı versiyada rəvayət etmişlər:

"Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanına kor bir kişi gəlib...".

Bu hədis göstərir ki, camaat namazı fərzi-eyndir. Amma Qümari etiraz edir:

"Bu hədis "şaz"dır. Buna da Ütban ibn Malikin rəvayət etdiyi hədis dəlalət edir. Belə ki, Ütban ibn Malik Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanına gəlib deyir: "Ey Allahın rəsulu, mən kor adamam. Qəbiləmlə birlikdə namaz qılıram. Yağışlar olduqda mənimlə qəbiləmin arasındakı vadiyə sel gəlir. Mən də onların məscidinə gedib namaz qıla bilmirəm. Ey Allahın rəsulu, istərdim ki, sən gəlib evimdə namaz qılasan (bizə namaz qıldırasan) və mən də oranı namazgahıma çevirim." Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyir: "İnşallah, gələrəm".

Hədisi Müslim və başqaları rəvayət etmişlər.

Bu hədisdən məlum olur ki, üzrlü səbəblərdən camaat namazında iştirak etməmək olar. Bu məsələdə "icma" vardır. Bəzi alimlər demişlər: "İbn Ümmi-Məktuma ona görə icazə verilməmişdi ki, o, namazlarını Peyğəmbər məscidində qılırmış. Bu məsciddə camaatla namaz qılmaqdan imtina etmək olmaz. Çünki Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu məscidə gəlir, möminlərə namaz qıldırırmış".

Biz heç bir ədəbsizlik və qabalığa yol vermədən bu məsələdə Şeyx Qümari ilə razılaşmırıq. Biz bu məsələdə haqqı əsas tuturuq.

Qurani-Kərimdən öyrənirik ki, Mağaradakıların (***Əshabi-Kəhf***) cəsədlərinə rast gələnlər ixtilafa düşmüşdülər:

"...O zaman (Tərsusdakı möminlər və kafirlər) öz aralarında onların (əshabi-kəhfin) işi (və ya insanın öləndən sonra dirilib-dirilməyəcəyi, dirilmənin yalnız ruhla, yaxud ruh və bədənlə birlikdə olacağı kimi dini məsələlər) barəsində mübahisə edirlər. (Nəhayət, əshabi-kəhf öldükdən sonra kafirlər) dedilər: "Onların üstündə bir bina tikin. Rəbbi (onların öldüyünü, yaxud yenidən yuxuya getdiyini və nəyə etiqad etdiyini) daha yaxşı bilir!" Onların (əshabi-kəhfin) haqqındakı mübahisədə qalib gələnlər (möminlər) isə: "Onların (məzarı) üstündə (Allaha ibadət etmək məqsədilə) bir məscid tikəcəyik!" – dedilər" (əl-Kəhf, 21).

Bu ayə göstərir ki, saleh bəndələrin qəbirləri üstündə məscid tikmək əvvəlki dövrlərdə yayğın iş imiş. İslam gəldiyi zaman qəbirlərin üstündə namaz qılmağı "məkruh" saymışdır. Belə ki, Peyğəmbər deyib:

"Qəbirləri məscidlərə çevirməyin. Bunu sizə qadağan edirəm"[1].

Mümkündür ki, məscidlərdə ibadət edənlərin qəlbi orada dəfn olunmuşlara zaman keçdikcə bağlansın və onlar ölmüşləri özlərinə şəfaətçi tutsunlar. "əl-Cin" surəsində deyilir:

"Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin!" (əl-Cin, 18).

---

[1] Hədisi İmam Buxari, İmam Müslim, Əbu Davud, Nəsai, Darimi və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

Şəxsən mən şahidi olmuşam ki, insanlar bunu edirlər. Məsələn, Tofiq əl-Həkim kitablarının birini Xanım Zeynəbə ithaf edərək yazmışdı: "Pak himayədarıma ithaf edirəm!"

Həmçinin, kitabının 105-ci səhifəsində Şeyx Qümari Əbu Hüreyrəyə, İbn Abbas və Həzrəti Aişəyə istinadən rəvayət olunmuş hədisdən danışır. Hədisdə deyilir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurub:

"Allah yəhudilərə lənət etmişdir. Çünki onlar peyğəmbərlərinin qəbirlərini məscidlərə (səcdəgahlara) çevirmişlər".

Bu hədis İmam Buxarinin "Came əs-Səhih", İmam Müslimin "Səhihi-Müslim" kitablarında və digər hədis toplularında müxtəlif istinadlarla qeyd olunub. Əvvəlki və sonrakı alimlərin çoxu bu hədisin səhihliyini təsdiqləsələr də, ondakı "illət"i* görməmişlər. Bu illətə görə hədis qanuni qüvvəsini itirir. Çünki üç cəhətdən Quranla üst-üstə düşmür.

Bu üç cəhəti belə xülasə edə bilərik:

Yəhudilər Allaha və peyğəmbərinə iyrənc ittihamlarla əziyyət etdikləri üçün lənətə tuş gəlmişlər. Onlar peyğəmbərləri öldürmüş, Həzrəti İsa və Həzrəti Məhəmmədə də suiqəsd qurmuşlar. Əgər yəhudilər peyğəmbərlərə ədavət bəsləmişlərsə, necə ola bilər ki, onların qəbirlərini məscidlərə çevirsinlər?! Bu ki mümkün deyildir.

Cavab veririk ki, Allah təala yəhudiləri belə təsvir edib:

---

* **"İllət"** (ərəb. "səbəb", "zəif cəhət", "qüsur"): Zahirən sağlam görünən, əslində isə hədisin səhihliyinə xələl gətirən gizli qüsur – ***tərcüməçinin qeydi***.

“(Yəhudiləri) yer üzündə (ayrı-ayrı) dəstələrə parçaladıq. İçərilərində əməlisaleh olanlar da, olmayanlar da var idi. Onları yaxşı-yamanla imtahan etdik ki, bəlkə, (haqq yola) dönsünlər” (əl-Əraf, 168).

Əməlisaleh yəhudilər peyğəmbərlərə düşmənçilik göstərməmişdilər. Günahkarları isə onların qanını axıtmışlar. Peyğəmbərlərin öldürülməsindən sonra onlara ehtiram əlaməti olaraq, qəbirləri üstündə məscidlər tikilmişdir.

Amma bu qəbirlər Müqəddəs Torpaqlar yadellilər tərəfindən viran edildiyi zaman dağıdılmışdır. Hal-hazırda orada peyğəmbərlərə aid bir qəbir də olsun yoxdur! İtib-getmiş qəbirlərin yerində indi kilsələrdəki bütlər, heykəllər və qurbangahlar durur. Bu kilsələrə “müqəddəslər”in adı verilib. “Müqəddəs” sözü mübahisəli mövzudur. Çünki məsum (günahsız) olan qadın və ya kişi yoxdur. Odur ki, onların adlarını və ya heykəllərinə pənah aparmaq olmaz.

Bəzi yazılarımızda da demişdik ki, Romadakı “müqəddəs” Pyotr heykəlinin ayaq hissəsi tez-tez bərpa olunur. Çünki öpənlərin, əl sürtənlərin çoxluğundan ayaq hissə yeyilir.

İslam bütün bunları haram etmiş, məbədləri bütpərəstliyin təzahürlərindən uzaq tutmağın vacibliyini göstərmiş, məscidləri yalnız Allaha xas qılmışdır.

## Fiqh və hədis elmlərinin bir-birindən təcridi

Mədəni tənəzzül əsrlərində fiqh, kəlam və sufilik məzhəbləri arasında süni (həm də saxta) sərhədlər yaradılmışdır. Nəticədə, hər bir məktəb ayrıca "bayrağ"a və "vətəndaşlığ"a sahib müstəqil quruma çevrilmişdi...

Bu anormal və zəlil vəziyyət ümmətin birliyinə mənfi təsir göstərmiş, düşmənin qabağında müsəlmanların səflərini parçalamış, islamı, mahiyyətini, missiyası və məqsədlərini zədələmişdir!

Bir müsəlmanın Əbu Hənifənin və ya Əhməd ibn Hənbəlin davamçısı olmağı nə deməkdir?

Nə üçün bir müsəlman bu alimlərdən birinin metodunu ideal həyat tərzi sayır? Nə üçün o, həmin məzhəblərdən birini insanlara təqdim edəcəyi ideal məzhəb hesab edir? Nə üçün bir müsəlman başqa məzhəbləri saxta sayır, onlara yağı kəsilir?

Bir çox müsəlman ölkəsində olmuşam. Görmüşəm ki, müəyyən bir fiqhi yanaşma (görüş) minlərə hökm edib, onları öz "qala"sının dustaqlarına çevirib. Və bu minlər o "qala" olmazsa, nəfəs ala bilmirlər; dostluqlarını da, düşmənliklərini də bu "qala"da müəyyənləşdirirlər...

İslamdan bixəbər ölkələrə də səfər etmişəm. İslamı təkzib edənlərlə yanaşı, bizdəki filankəsin görüşlərini təsdiqlə-

yənlərin, yaxud da müəyyən qrupun dediklərinə yaxın bir şey söyləyənlərin şahidi olmuşam...

Axırıncı kitabımı – "Fəqihlər və hədisşünaslara görə Peyğəmbərin sünnəsi" kitabını yazdığımda bəzilərinin təqiblərinə, yersiz iradlarına tuş gəldim. Bu kəslər araşdırdığım məsələ barədə İbn əs-Səlahdan savayı heç kəsin görüşlərinə bələd deyillər. Onların əl-İraqi, Nəvəvi və başqa alimlərin məlum problemə dair fikirlərindən xəbərləri belə yoxdur!

İslama dəvət etdiyimdə dostlarıma deyirəm:

"Dinimizə hər tərəfdən: sağdan, soldan, ortadan savaş elan etmişlər. Əgər mən onu müdafiə etmək istəyirəmsə, bir yerdə yayğın, digər yerdə də "üzünə baxılmayan" görüşləri əsas götürməməliyəm. Bu məqamda mənə vacibdir ki, bütün imamların (alimlərin) görüşlərini nəzərdən keçirim, bütün adətkərdə və qeyri-ənənəvi yanaşmalardan faydalanım...".

Əbu Hənifənin qalasında qərar tapıb zəkatdan, İbn Teymiyyənin qalasında qərar tapıb talaqdan, İmam Malikin də qalasında dayanıb qidalar... haqda danışmağım qəbahət deyildir. Onlar islamın qüdrətli simaları, risalətin cəfakeşləridir! Qarşılaşdığım problemlərin həllində onların görüşlərini özümə həmdəm seçməyim, hər halda, qəbahət deyildir...

Mənə görə, mühüm olan şey bütöv islamdır, bu və ya digər məzhəbin görüşü deyil!

Qeyd edim ki, bizdə "din alimləri" adlandırılan bəzi şəxslər nəinki daxildə: evdə, küçədə..., həm də çöldə – Müsəlman dünyasından kənarda islama çağırışın adını qara çıxarmışlar. Onlar islama və dəvətə müsəllət olmuş bəladırlar! Əslində, onları ala-yarımçıq "tələbə"lər də adlandırmaq olar.

Bu insanların hər biri islamın rəsmi sözçüsü olmaq fikrinə düşüb. Onların kamil şüura, dərin biliyə əsaslanmayan iddiaları alova yağ tökür, onu daha da gücləndirir. Rafeinin dediyi kimi, onların hər biri özünü Əbu Hənifə sanır, amma rəydən xəbərləri yoxdur, İmam Malik sanır, ancaq Sünnə nədir bilmirlər, Şafei sanır, amma üsuldan başları çıxmır, İmam Əhməd sanır, lakin rəvayətə bələd deyillər...

İki şeyi çox zəruri hesab edirəm:

**Birincisi**, geniş biliyə sahib olmaq lazımdır. Çünki məhdud bilik bir bəladır. Xüsusən də fitva və hökm çıxarmada, məhkəmə və dəvət işində dəryalar qədər bilik tələb olunur.

**İkincisi**, Allahı və axirəti nəzərə almaq çox vacibdir. Dini dünyəvi maraqlara tabe etmək cinayətin cinayətidir.

Bəzən alimlər (imamlar) fərqli-fərqli hökmlər çıxarırlar. Buna baxmayaraq, bir şeyi başa düşməliyik ki, bunun müsbət və mənfi tərəfləri eynidir. Əsas olanı budur ki, elmə sarılaq, obyektivliyi də əlimizdə bayraq edək.

"Şəriət siyasəti" (əş-Şəriət əs-siyasiyyə) kitabında Şeyxülislam İbn Teymiyyə yazır ki, "hədd" cəzası vacibdir, tövbə buna əngəl deyildir. Amma "Fitvalar toplusu" (Məcmu əl-Fətava) çoxcildliyində İbn Teymiyyə bunun əksini deyir və bildirir ki, düzgün (səmimi) tövbə edənə hədd cəzası düşmür...

İbn Həzmin "əl-Mühəlla" kitabında oxumuşam ki, İmam Şafei əvvəlki məzhəbinə görə tövbə edənə "hədd" cəzasının kəsilməyəcəyini bildirmişdir. Amma Misirə getdikdən sonra hökm çıxarmışdır ki, tövbə "hədd" cəzasını qüvvədən salmır!

Hər iki şəxsiyyətin əvvəlki görüşləri sonrakı görüşləri ilə üst-üstə düşmür. Qoy olsun! Belə etmək müctəhidin haqqıdır. Ağıllı kəslər bunu inkar etməzlər...

Biz isə öz növbəmizdə ya bu görüşlərdən birini təqlid etməklə, ya da təqvalı, ixlaslı elm əhlinin verdiyi yeni ictihadlara əsaslanmaqla insanların işlərini yoluna qoymağa çalışmalıyıq...

Fikrimcə, ictihadın fərdi və ya kollektiv olmağının heç biri mənfi tərəfi yoxdur. Hərçənd ki mənə görə, kollektivin ictihadı daha xoşdur, daha faydalıdır!

İndiki dövrdə dünyamız böyük bir şəhər halına gəlib; elmin inkişafı imkan verir ki, zamana və məkana qənaət edək: böyük məsafələri qısa müddətə qət edək, çox işi qısa müddətə görək, məlumatı uzaq məsafəyə qısa zaman kəsiyində ötürək... Elə isə İslam coğrafiyası "iplər"i qopuq coğrafiya olmamalıdır; bir müsəlman ölkəsinin uzaq və yaxın digər müsəlman ölkələrindən elmi və praktik cəhətdən təcrid edilməsi qəbuledilməzdir...

Bir müsəlman ölkəsi islam elmlərindən nə isə bir şey öyrənərsə, digərinə ötürməlidir. Müsəlmanlar yeni bilikləri açıq bəsirət və doğru-dürüst fəhm əsasında qəbul etməlidirlər...

Belə bir qısa xülasədən sonra keçirəm fiqh və hədis elmlərinə. Bu elmlərdə fərqli məzhəb və metodları olan çoxlu alimlər yetişmişdir. Qeyd edim ki, sözügedən elmlərin tarixini diqqətlə öyrənməliyik. Gələcəyimizin parlaq olmağı üçün bu olduqca vacibdir.

İslamda nəqli və əqli metodlara əsaslanan məktəblər çoxdur. Məhz bu məktəblər müsəlman mədəniyyətinin tərəqqisi və ümmətin inkişafı yolunda əsas rola sahibdirlər...

Bəziləri üsulşünas alimlərin məktəbinə torpaq atıb, üfüqlərini qara buludla örtmək istəyirlər! Fiqh məzhəblərini aradan qaldırıb, dərin ümmanını qurutmaq istəyənlərə də rast gəlirik. Bütün təfsirləri "müsadirə" edib, rəvayət təfsirlərini saxlamaq istəyən "qəhrəmanlar" da tapılır. Elələri də vardır ki, "zəif" hədisləri möhkəm "qiyas"dan üstün tuturlar! İslam fəlsəfəsi sözünü eşitdiyində özündən gedənlər də az deyil! Tərbiyəyə, təsəvvüf və qəlb əməllərinə dair bütün hədisləri rədd edənlər də istisna olunmur...

Bunlar da getsə, din elmlərindən nə qalar?! Qisas haqqında ayə və hədislərmi, yoxsa şüursuz şəkildə hədis rəvayətimi?!

Bu məqamda şair Buhturinin sözləri yada düşür:

*Sanki zəmanə də səfehlərə hamilədir,*
*Axmaqlardan boylu qalmaq necə də iyrəncdir.*

Elə isə biz belə bir donuq zehniyyətlə, daşlaşmış qafalarla necə inkişaf edəcəyik?!

## Hədisdə istinad və mətn (məzmun) anlayışları

Görəsən, əvvəlki dövrlərin hədis alimləri istinadla maraqlanıb, mətni bir kənaramı qoymuşlar? Əgər hədis alimləri arasında yalnız rəvayət və raviləri araşdırmış şəxslər olmuşdursa, yaxşı bəs fəqihlər nə etmişlər? Onlar da hədislərin məzmununu müzakirə edib araşdırmağı düşünməyiblərmi?

Bu məqamda biz doktor Mustafa Sibainin (1915-1967) "Sünnə və onun islam qanunvericiliyində yeri" adlı kitabından iqtibaslar gətirmək istəyirik. Doktor Sibai bu kitabında hədislərin uydurma olduğunu göstərən "əlamətlər"dən danışmış, onları iki yerə ayırmışdı:

### Hədisin istinadında uydurma əlamətləri

1. Hədisin ravisi yalançılıqda ad qazanmış birisi olmalı, onun rəvayət etdiyi hədisləri heç bir mötəbər ravi nəql etməməlidir;

2. Hədis uyduranın uydurmaçılığı öz təsdiqini tapmalıdır;

3. Bir rəvayətçi elə bir rəvayətçidən hədis nəql etməlidir ki, onların görüşməsi öz təsdiqini tapmasın; vəfatından sonra doğulsun, qulaq asdığını iddia etdiyi yerdə olmağı isbatlanmasın;

4. Bəzən uydurulmuş hədisdə ravinin sosial statusu, psixoloji motivləri öz əksini tapır. Məsələn, Hakim rəvayət edir ki, Seyf ibn Ömər ət-Təmimi deyib: "Sə`d ibn Tərifin yanında idik. Oğlu məktəbdən gəldi. Ağlayırdı. Atası soruşdu: "Nə olub?" Dedi: "Müəllim məni döyüb." Sə`d dedi: "Bugün onu rüsvay edəcəyəm! Mənə İbn Abbasa istinadən İkrimə danışıb ki, Peyğəmbərin belə dediyini eşidib: "Uşaqlarınızın müəllimləri aranızdakı ən şər insanlardır; yetimlərə az rəhm edərlər. Onlar miskinlərə qarşı ən kobud insanlardır".

Belə bir hədis də var: "Hərisə* beli möhkəmlədir". Məlum olur ki, bu hədisi uydurmuş Məhəmməd ibn Həccac ən-Nəxəi hərisə satan imiş.

## Hədisin məzmunda uydurma əlamətləri

**1. Linqvistik qüsurluluq (forma qüsuru).** Ərəb bəlağət elminin dərin biliciləri ilk baxışdan bilirlər ki, bu və ya digər söz, söz birləşməsi, cümlə quruluşu düzgündür, ya yox. Onlar cümlələrdəki qüsuru görə bilirlər. Asanlıqla müəyyən edirlər ki, bu cür qüsurlu sözlər, söz birləşməsi və cümlələr öz ana dilinə dərindən bələd olanın ağzından çıxa bilməz, o ki qaldı fəsahət və bəlağətdə zirvə sayılan Peyğəmbərin ağzından çıxsın!

Hafiz ibn Həcər deyib:

---

* **Hərisə**: qaynadılmış ət və buğdadan hazırlanmış yemək – ***tərcüməçinin qeydi.***

"Əgər Peyğəmbərə aid olunan bir hədisdə dilçilik qüsuru varsa, o, Peyğəmbərin ağzından çıxa bilməz".

İbn Dəqiq əl-İd deyib:

"Çox vaxt (dilçi alimlər) rəvayətdəki müəyyən məsələlərə əsaslanıb, həmin rəvayətin uydurma olmağı qənaətinə gəlirlər. Onlar hədislərdəki sözlər və söz birləşmələri ilə o qədər işləmişlər ki, xüsusi bacarığa, sövqi-təbii (intuitiv) hissiyyata yiyələnmişlər. Məhz bu cür bacarıq və hissiyyat sayəsində onlar bir sözün Peyğəmbərə aid olub-olmadığını müəyyən edirlər".

**2. Məzmundakı ziddiyyət (semantik, leksik qüsur).** Yəni, bu və ya digər hədis heç bir yozum olmadan danılmaz əqli həqiqətlərə, ümumi əxlaq qaydaları və hökmlərə, hiss və müşahidəyə, tarixi həqiqətlərə, insanda və təbiətdəki ilahi qanunauyğunluqlara zidd ola bilir, nəfsi istək (şəhvət) və fəsada aparıb çıxarır. Deməli, belə hədislər uydurmadır.

3. Yozuma açıq olmayacaq dərəcədə Quranın açıq-aydın ayələri ilə, "mütəvatir" və mənası aydın hədislərlə, Quran və Sünnədən götürülmüş ümumi qaydalarla ziddiyyət təşkil edən hədislər də uydurmadır...

4. Əgər bu və ya digər hədis Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yaşadığı dövrün tarixi faktları ilə səsləşmirsə, deməli, uydurmadır...

5. Təəssübkeş və ifratçı ravinin rəvayət etdiyi hər hansı bir hədis onun məzhəbinə uyğundursa, deməli, uydurulmuşdur.

6. Əgər bir hədis məşhur və aktual hadisədən, işdən bəhs edirsə – belə hadisə və işlər, adətən hamının gözü qabağında baş verir – və onu buna rəğmən yalnız bir nəfər rəvayət etmişsə (halbuki çox adam rəvayət etməli idi), deməli, uydurmadır...

7. Adi bir işə görə veriləcək savabın miqdarının ifrat formada şişirdildiyi, yaxud da kiçik günaha görə çox dəhşətli əzabdan bəhs edən hədislər də uydurmadır...

Mərhum Sibai sözünə davam edir:

"Bunlar alimlərin qoyduqları ən mühüm qaydalardır. Bu qaydalar hədisləri tənqid etmək, səhih olanlarını uydurma olanlarından fərqləndirmək üçündür. Bu qaydalar göstərir ki, bəzi şərqşünaslar və tərəfdarlarının sonralar iddia edəcəyi kimi, hədis alimləri təkcə istinadları (rəvayət "zəncir"lərini) öyrənməklə kifayətlənməmişlər; onların əsas diqqəti yalnız ravilərin kimliyini, şəxsiyyətini, keyfiyyətlərini öyrənməyə yönəlməmişdi; əksinə, onlar hədislərin həm istinadlarını, həm də mətnlərini araşdırmışlar. Hədis alimləri istinadla bağlı dörd, mətnlə bağlı yeddi uydurma əlamətindən söz açmışlar. Onlar heç bununla da kifayətlənməmiş, bədii (ədəbi) zövqü də hədisləri tənqiddə, onları saf-çürük etmədə əsas götürmüşlər.

Alimlərimiz bəzi hədisləri onlara təkcə qulaq asmaqla qeyri-məqbul saymışlar. Çünki ədəbi-bədii bacarıqları sayəsində həmin hədislərin uydurma olduğu qənaətinə gələ bilirdilər. Bu səbəbdən çox vaxt deyirdilər: "Bu hədis hədsiz mübhəmdir (şübhəlidir, mənası qaranlıqdır); filan hədisin məzmununda

mübhəmlik vardır; qəlbə xoş gəlmir; nəfs ondan xatircəm deyil və s.”.

Ustad Məhəmməd Səbbağ (anadan olub – 1930) hədislərin məzmunu ilə bağlı ənənəvi uydurma əlamətlərini sadaladıqdan sonra bir mühüm əlamətdən də danışmışdı:

“Əgər hədis şəriətin məqsədlərindən və ya əsas qayda-qanunlarından birinə ziddirsə, uydurmadır. Məsələn, aşağıdakı hədisə baxaq:

“İki yüz il sonra sizin ən yaxşınız arvadı və oğul-uşağı olmayandır”.

Hədis uydurmadır, çünki insan nəslini qorumaq şəriətin əsas məqsədlərindəndir.

Habelə, bu yaxınlarda Ustad Səlahəddin Əhməd əl-İdlibi (anadan olub – 1948) bu mövzuda sanballı bir kitab qələm alıb. Kitab “Hədis alimlərinə görə mətn tənqidi metodu” adlanır. Allah uğur versin!

Kitabında müəllif yuxarıda göstərilmiş qaydaların tətbiqi tərəflərindən söz açmış və bildirmişdir ki, özünün məşhur “əl-Mövzuat” (Uydurma hədislər) kitabını qələmə alarkən İbn əl-Cövzi belə hədislərə dair qəti qayda-qanunlardan ilham almış, hənbəli olmağına baxmayaraq, “Müsnəd”dəki bəzi uydurma hədisləri göstərməkdə tərəddüd keçirməmişdi. Həmin hədislərdən bir neçəsinə nəzər salaq:

Ənəs ibn Malikə istinadən İmam Əhməd rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

"Əsqəlan iki sevgilidən biridir*. Qiyamət günü orada yetmiş min insan dirildiləcək. Bu insanlar sorğu-suala çəkilməyəcəklər. Orada əlli min şəhid dirildiləcək və onlar dəstə-dəstə Allaha sarı axışacaqlar. Orada şəhidlər səf-səf dayanacaqlar. Kəsilmiş başlarını əllərində tutacaqlar və boğaz damarlarından qan axacaqdır. Deyəcəklər: "Ey rəbbimiz, peyğəmbərlərinə vəd verdiyini bizə bəxş et. Sən ki vədinə xilaf çıxmazsan." Allah buyuracaqdır: "Qullarım düz deyirlər. Onları Ağ Çayda yuyun." Onlar da oradan təmizlənmiş və ağappaq çıxacaq, cənnətdə istədikləri yerdə sevinib-fərəhlənəcəklər".

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* zamanında Əsqəlanda islam hələ yayılmamışdı.

Qəribədir ki, İbn Həcər əl-Əsqəlani bu cür hədislərin qızğın müdafiəçisi olmuş, onları səhih saymağa cəhd göstərmişdir. Əslində, bu hal təəccüblü deyil. "Qəraniq" hədisini səhih hesab edən, bununla da, şərə qapı açan da məhz İbn Həcərin özüdür. İftiraçılar bizə əziyyət etmək üçün hələ də bu "qapı"dan istifadə edirlər. Allah bizi də, onu da bağışlasın!

Həqiqət bundan ibarətdir ki, "Müsnəd"də qəbul edilməsi qeyri-mümkün "hədis"lər vardır. Bu cür hədislər haqda insanları xəbərdar etmək alimlərin borcudur. Biz isə "Müsnəd"in müəllifini bu işdə üzrlü sayırıq. Şair demişkən:

---

* Hədisin ərəbcə mətnində "əhədul-əruseyn", yəni "iki sevgilidən biri" sözü işlənmişdir. Fələstinin Qəzza və Əsqəlan ərazilərini ərəblər "İki sevgili" adlandırırlar – ***tərcüməçinin qeydi.***

*Bütün keyfiyyətlərindən razı qaldığın kəs vardırmı,*
*Eyiblərini saymaqdansa böyük adamın böyüklüyü iləkifayətlən*

Əhməd ibn Hənbəl islamın əzəmətli şəxsiyyətlərindəndir.

## Qadınlar və Sünnəyə xidmət

Sünnə elmləri ən mühüm dini elmlərdən sayılır. Bu elmlərdə söz sahibi olmaq üçün tənqidçi və universal zəkaya, möhkəm yaddaşa ehtiyac vardır.

Əvvəllər elə güman edirdim ki, qadınlar nəinki bu elmlərlə məşğul olacaq ən axırıncı kəslərdir, hətta bu işdə məşhurlaşıb, imamlıq dərəcəsinə yüksələ bilməzlər. Amma professor Mahmud İbrahim Deykin "Hicri altıncı əsrdə Sünnə" monoqrafiyasını oxuduqdan sonra bu fikirdən vaz keçdim. Məlum oldu ki, tarixdə Sünnəni dərindən bilən, tayı-bərabəri olmayan alim qadınlar yaşamışlar. Özü də sayları az olmamışdır. Onlarla mötəbər alim qadın!

Altıncı əsr tariximizdə elmin çiçəkləndiyi əsr hesab olunmur. Altıncı əsr ikinci Abbasi dövrünün sonudur: dövlətin günəşi qüruba yaxınlaşmış və nəhayət, yeddinci əsrin ortasında tatarların caynağı arasında süquta uğramışdır.

Bu əsr hər nə qədər ölgünləşib, solğunlaşsa da, siyasi vəziyyət bərbad olsa da, hakimlərin əməlləri alçaqlıq qoxusu versə də, müsəlman alimlər cəmiyyəti bərpa edib həyata həyat qatmaq üçün ölüm-qalım savaşına girmişdilər...

Amma sonradan çox qəribə vəziyyət yarandı: qalib tatarlar məğlub ümmətin dinini qəbul etdilər. Çünki o dövrdə müsəlmanların elmi-mədəni səviyyəsi tatarlarınkından yüksək idi.

Təsəvvür edək ki, İngiltərə və ABŞ Namibiyaya gözlənilmədən hərbi müdaxilə edir, ancaq məğlub olurlar. Düzdür, Namibiya müharibə meydanında qalib gəlir, lakin daha çox inkişaf etmiş tərəfin mədəni üstünlüyü öz sözünü deyir. Çünki mədəni amil həmişə həlledici olmuşdur. Belə ki, Qərb mədəniyyəti Namibiyanı öz caynağına keçirir, tərəzinin gözünü özünün xeyrinə ağır basır.

Bu səbəbdən, müsəlmanları məğlub etmiş tatarlar islam mədəniyyətinin təsirinə düşmüş, müsəlmanlığı qəbul etmişdilər.

Sual veririk: Bu mədəni üstünlüyün səbəbkarı kimlər idi? Döyüş meydanlarda məğlub olmuş bu ümmətə mədəni qələbələri kim qazandırmışdı? Cavab veririk: Alimlər, dəvətçilər və tərbiyəçilər! Məhz onlar siyasi gələcəyi oyun-oyuncağa çevrilmiş islam risalətini xilas etmiş gözəgörünməz əsgərlər idilər!

Bu hal tarix boyu bütün dünyada təkrarlanmışdır. Almanlar Hitlerin axmaq siyasəti nəticəsində viran qalmış bir ölkəni yenidən quraraq parlaq gələcəyə qədəm basdılar. Yaponlar da həmçinin...

Mühüm olanı budur ki, bir xalqın tarixi-mədəni "sütun"ları möhkəm olsun, sarsılıb yıxılmasın. Mədəni keçmişimizə nəzər salır, elmi-mədəni rəhbərliyimizin siyasi rəhbərliyimizdən daha güclü, daha sağlam olduğunu görürəm. Hətta böyük ingilis tarixçiləri Arnold Toynbe (1889-1975) və Arnold Tomas (1795-1842) etiraf etmişlər ki, islam ciddi qələbələrin baş verdiyi dövrdən daha çox böyük məğlubiyyətlərin vaqe olduğu zamanlarda yayılmışdır...

Mövzumuza –Sünnəyə xidmətdə qadınların rolu mövzusuna qayıdaq. İmam-qadınlardan bir neçəsi haqda danışaq...

Bu alim-qadınların ilki **Seyyideyi-Müsnidə*** **Şəhidət bint əl-İbra əl-Katibə**dir. İbadətə bağlı bu mömin xanım alimlərin dərslərində iştirak etmiş, zəngin bilik sahibi olmuşdur. Uzun ömür sürmüşdür (təxminən 100 il yaşamışdır). Hüsnxətdə məşhur idi. Zamanında onun qədər gözəl xətti olana rast gəlinmir. Xəlifənin səlahiyyətli əyanlarından biri ilə evlənmişdir. Ömrünü öyrənib-öyrətməkdə keçirmişdir...

Onun savad öyrəndiyi müəllimlərin adlarını burada qeyd etmək fikrində deyiləm. Amma Şəhidət bint əl-İbranın dərslərində iştirak edən, onun tərəfindən rəvayət və hədis nəqletmə şəhadətnaməsi (***icazət***) ilə təltif olunan bəzi alimlərin adlarını çəkmək istəyirəm...

Deyilənə görə, Əbu Sə`d ibn əs-Səm`ani onun dərslərində iştirak etmiş, məşhur tarixçi Hafiz Əbülqasim ibn Əsakir və mötəbər hənbəli fəqihi əl-Müvəffəq ibn Qüdamə ondan hədis rəvayət etmişlər. Əbülfərəc Əbdürrəhman ibn əl-Cövzi demişdir ki, bint əl-İbra onun müəllimlərindən (şeyxlərindən) biri olmuşdur!

İbn əl-Cövzi sabitqədəm moizəçi, yüksək məqama sahib tarixçi, müfəssir və mühəddisdir. İbn əl-Cövzi bint əl-İbradan maraqlı bir hədis rəvayət etmişdir. Özündə bir sıra hikmət və ibrətləri birləşdirdiyi üçün hədisin mətnini dərc edir, istinadına toxunmuruq. Bint əl-İbra Əbdüləziz ibn Yəh-

* "İstinadları öyrənən xanım" mənasına gələn bu adı, görünür, ona hədislərin ravilərini araşdırdığı üçün veriblərmiş – ***tərcüməçinin qeydi.***

ya ən-Nəxəiyə istinadən rəvayət edir ki, Nəxəi Ömər ibn əl-Xəttabın *(Allah ondan razı qalsın!)* zamanında bir məsciddə namaz qılırmış. Bir gecə məscidin imamı "(Qiyamət günü) rəbbinin hüzurunda durmaqdan qorxana iki cənnət vardır" ayəsini oxuyur. Nəxəi namazdan çıxır və havalanır. Üz tutub hey gedir, heç kəs də onun izinə düşə bilmir".

Bəzən "odlu-alovlu" dini hisslər bəzi insanlara dağıdıcı təsir göstərir. Düşünürəm ki, bu cür hədisləri öyüd-nəsihət məclislərində danışdığımızda əlavə izahlarla mənasını dəqiqləşdirib, səhv başa düşülməsinin qarşısını almalıyıq...

Bugün dini dəvət sahəsində geniş fəhmə, sağlam dərrakə və qanan zəkaya ehtiyac vardır.

İbn əl-Cövzi "Fikirləri ovlama" (Səyd əl-Xatir) kitabında bu məsələyə diqqəti cəlb etmişdir. Qeyd edək ki, sözügedən kitab təsirli fikirlərlə, sərt tənqid və yerində deyilmiş tövsiyələrlə zəngindir...

Şəhidət bint əl-İbranın rəvayət etdiyi bu hədisin ümumi məzmunu hicri altıncı əsrin başqa bir xanım-aliminin təsvirini verir. Bu xanım hicri 588-ci ildə vəfat etmiş **Şəmsüzzüha**dır. Bağdad məscidində dərs deyirmiş. Zahidliyi, təqvası və möminliyi ilə tanınmışdı. Allaha olan yaxınlığı məhvedici ifrat emosionallıqla müşayiət olunmurdu. Bəzi hədisləri rəvayət etmiş, Şeyx Əbu ən-Nəcib əs-Sührəvərdinin həmsöhbəti olmuşdur...

İstərdim ki, İslam dünyası paytaxtlarının məscidlərində bu cür bacarıqlı, mömin qadın-moizəçilər də dərs desinlər...

Məruz qaldığımız fitnə-fəsadla səciyyələnən mədəni qəsbkarlıq dövründə belə qadın-alimlərə böyük ehtiyac yaranıb.

Lakin özlərini dindar kimi qələmə verən daş qafalılar iddia edirlər ki, qadın bunun üçün yaradılmayıb(!) Sanki o, erkək-lər (ayğırlar) üçün yataq olmaqdan savayı işə yaramır!

Şəmsüzzüha bu sahədə tək deyildi. "Seçilmiş alim" adını qazanmış **Zöv`üssəbah bint əl-Mübarək əl-Bağdadiyyə** də alim-qadınlardan hesab olunurdu. Davamlı Quran oxumağı ilə məşhur olan Zöv`üssəbah öz ibadətgahında (***ribat***) öyüd-nəsihət məclisləri qurarmış. Şeyx əbu ən-Nəcib əs-Sührəvərdi ilə evli idi.

Əbu Sə`d əs-Səm`ani ondan hədis rəvayət etmiş alim-lərdəndir.

Mühəddis-qadınlardan biri də Səlcuqluların vəziri Nizam-ülmülkün oğlu Süleyman ibn Əhmədin qızı **Bilqeys**dir. Hicri 517-ci ildə İsfahanda doğulmuş, 592-ci ildə vəfat etmişdir. Həm kişi, həm də qadın müəllimlərdən (şeyxlərdən) dərs almışdır. Bir qrup alim onun dərslərində iştirak etmişdir. Ona istinadən hədis rəvayət etmiş alimlərə Yusif ibn Xəlil və başqalarını göstərə bilərik.

Bu sadalamanı dayandırıb, məsələyə başqa tərəfdən toxu-naq.

## “O bizə şəhadətnamə (*icazət*)* verib”

Məscidlərdə moizə oxuduğum zaman Hafiz əl-Münzirinin “Rəğbətləndirmə və çəkindirmə” (***ət-Tərğib vət-Tərhib***) kitabından çox faydalanmışam.

Allah rəhmət etsin, elə bir mövzu yoxdur ki, müəllif aidiyyəti hədislərdən iqtibas gətirməsin. Düzdür, Münziri səhih və “zəif” hədisləri açıq şəkildə bir-biri ilə qarışıq salıb, amma biz varid olmuş hər bir hədisi rəvayət etdiyi üçün onu üzrlü saymalıyıq. Müəllif bunu oxucunu aldatmaq, yaxud da hədisləri fərqləndirmədə onu aciz buraxmaq məqsədilə etməmişdir...

Münziri hər bir hədisin mənbəyini göstərib. Buxari və Müslimin rəvayət etdikləri hədisləri qeyd edərkən “körpü”nü asanlıqla adlamışdır. Onlardan qeyrilərinin hədislərini isə diqqətlə tənqid etmiş, sezdiyi “zəifliy”i açıb göstərmişdir. Bu məqsədlə Münziri ya “rəvayət olunub ki, ...” ifadəsindən istifadə edir, ya da müttəhim-ravinin adını çəkir!

Amma bir çox oxucu səhih və “zəif” hədislərə fikir vermir, oxuduqları hər bir şeyi rəvayət edirlər.

---

* Müsəlman dünyasında Quran və hədis elmlərində ustadlıq səviyyəsinə çatmış şəxslərə müəllimləri “icazət” adlandırılan şəhadətnamə verirdilər. Bununla da, həmin şəxslər Quranı və hədisləri başqalarına öyrətmək səlahiyyəti qazanırdılar – ***tərcüməçinin qeydi.***

Fikir vermişəm ki, Münziri "zəif" hədislərə "Səhih"lərdən gətirdiyi qüvvətləndirici dəlillər əsasında ehtiramla yanaşıb. Məsələn, "Cəhənnəm alovu bütpərəstlərdən qabaq fasiq qareləri əhatələyəcəkdir" hədisini götürək. Əlbani bu hədisi qeyri-məqbul sayıb, uydurma olduğunu bildirib. Münziriyə görə, İmam Müslimin Qiyamət günü cəhənnəmə atılacaq ilk üç şəxs haqda rəvayət etdiyi hədis fasiq qarelər haqdakı bu hədisi təsdiqləyir. Nə olursa-olsun, təhlükə böyükdür. Allah hər iki tədqiqatçıya şükranlıq ərz etsin, bizə faydalı elm ötürmüşlər...

Hicri altıncı əsr mühəddislərinin tərcümeyi-hallarını oxuduğumda diqqətimi Əbülbərəkat əl-Bağdadinin iki bacısı çəkir. Birincisinin adı **Ümmülhəya Həfsə**dir. Mötəbər və tədqiqatçı ravilərdən olmuşdur. Münziri onun barəsində deyib:

"O bizə hicri 608-ci şəhadətnamə (***icazət***) verib".

Münziriyə dərs demiş bu xanım-alim hicri 612-ci ildə vəfat etmişdir.

Digər bir xanım isə **Ümmi-Həbibə əl-İsbəhaniyyə Aişə bint Hafiz Müəmmər ibn əl-Faxir əl-Qərəşiyyə əl-Əbşəmiyyə**dir.

Hafiz əl-Münziri yazır:

"O, insanlara hədis danışmışdır. Bizə şəhadətnamə vermişdir. Bu şəhadətnaməni o bizim üçün hicri 606-cı ilin zülqədə ayında İsfahandan yazıb göndərmişdir".

Bu böyük imam heç bir narahatlıq keçirmədən bildirir ki, qadınlardan savad öyrənib. Bu qadınlar ona şəhadətnamə yazmış, hədis söyləmək icazəsi vermişlər...

Yuxarıda adını çəkdiyimiz kitabı mütaliə edən oxucu eyni əsrdə yaşamış onlarla alim qadının adları ilə rastlaşır. Bu qadınlar islam araşdırmaları sahəsində söz sahibi olmuşlar...

Hürrət deyə çağırılan **Zeynəb bint əş-Şə`ra**ya (hicri 524-615) gəlincə, İbn Xəllikan onun haqqında yazmışdı:

"O bizə hicri 610-cu ildə şəhadətnamə yazaraq vermişdir".

Təəccüblüdür, böyük tarixçi və hədisçilər alim təvazökarlığı və düzgünlüyü ilə qeyd edirlər ki, elmi məşhur qadınlardan öyrənmiş, onların qiymətləndirmə və mötəbərlik şəhadətnamələrinə layiq görülmüşlər!

Ümmətimizə nə baş verib ki, meydan həm elm öyrənən, həm də öyrədən xanımlarsız qalıb? Tariximiz elə əsrlərin şahididir ki, gənc qızların məktəbə getmələri cinayət sayılıb! Həm məscidlər abid qadınlarsız qalıb, həm də qadınların məscidlərdə namaz qılmaları şər əməl olaraq qəbul edilib!

Ana da olsa, həyat yoldaşı da olsa qadının adını çəkmək qeyri-adi şeyə çevrilib. Qadınlar dünyasına tam sükunət çöküb: qadınların adı ötəri söhbətlərdə belə çəkilmir; hər hansı bir məsələdə qadının adını çəkən şəxs: "Çox üzr istəyirəm, məni qınamayın", – deyərək üzrxahlıq edir. Mən şəxsən bunu bir neçə ölkədə öz gözlərimlə görmüş, qulaqlarımla eşitmişəm.

Kəndimizdə bir əsrdir ki, qadınlar evlərindən bayıra yalnız bazardan alış-veriş etmək üçün çıxırdılar. Tarlaya da əkmək, becərmək, sulamaq və məhsul toplamaq üçün gedirdilər. Məscidlərdə də qadınlar gözə dəymirdi. Cavanlıqda da, qocalıqda da namazlarını evlərində qılırdılar. Məscidə

getmək onlara qadağan idi. Buna da geniş yayılmış bir rəvayət səbəb olmuşdu. Məktəbə getmək də qadınlara yasaq edilmişdi. Çünki "əlil" bir "hədis"ə görə, qadın savadsız olmalıdır!

İndiki dövrdə dini sahədə fəaliyyət göstərənlər arasında elələri vardır ki, qadınları yüz il bundan qabaqkı vəziyyətə qaytarmaq istəyirlər. Onlar haray-həşir salırlar ki, bəs qadın işləyə bilməz, onun əsas işi uşaq doğmaqdır!

Tariximizin altıncı əsrinə səyahət edək. Qarşımıza Sünnə elmlərinin dərin bilicisi olmuş hədisçi-alim **Atikə bint Əbüləla** çıxır. O, hədisçi, qiraətşünas-alim, ədib, zahid, hədis elmində gözəl dəsti-xətti və üslubu olmuş Həmədan imamı Hafiz Əbüləla ibn əl-Əttarın qızıdır.

Deyilənə görə, xanım Atikə Əbülvəqt Əbdüləvvəl əs-Səncəridən çoxlu hədis dinləmiş, Həmədandan Bağdada gəlmiş, hədis elmlərini öyrənmişdir...

Mühibbəddin ən-Nəccar yazır:

"Onun barəsində yazılar qələmə almışıq. Allah rəhmət etsin, hicri 609-cu ildə vəfat etdi. Gecə yarısı durdu, dəstəmaz aldı. Hava bərk soyuq idi. Sonra mehrabında namaz qılmağa başladı. Səcdəyə getdiyində vəfat etdi! Allah ondan razı qalsın! Şair də sanki onun barəsində deyib:

*Gecənin qaranlığında özü ilə tək qalar*
*Namaz qılıb Tək və Səməd Allahı çağırardı.*
*Elə bir abid idi ki, itaəti onda –*
*Nə bir can, nə də ruh saxlamışdı.*

**Fatimə bint Sə`d əl-Xeyir əl-Ənsari əl-Əndəlüsi** ilə siyahımıza son verək. Hicri 522-ci ildə Çində anadan olmuş, 600-cü ildə Bağdadda vəfat etmişdir. Atasından və Bağdadın digər böyük hədisçilərindən elm öyrənmişdir. Qahirə və Dəməşqdə dərs demişdir. Ondan çox saylı şeyxlər (alimlər) hədis dinləmişlər. Bu şeyxlərin arasında böyük alim Hafiz əl-Münzirinin də müəllimləri vardı. Münziri Fatimə bint Sə`d haqqında deyirdi:

"Şeyxlərimiz və yoldaşlarımız ondan hədis dinləmişlər. O bizə şəhadətnamə verib!"

Dediyimiz kimi, atası ilə birlikdə Çindən Bağdada gəlmiş, orada təhsil almışdır. Sonra Dəməşqə getmişdir. Daha sonra Qahirədə qərarlaşmış, vəfat edənədək orada yaşamışdır. Müqtim dağının ətəklərində dəfn edilmişdir. Amma digər ilahiyyatçı, ədib və dilçilərin qəbirləri kimi onun da qəbri silinib-getmişdir...

Faciə bundadır ki, bir qadın elmə xidmət etmək üçün Çindən Qahirəyə gəlir (atası da eyni məqsədlə Əndəlüsdən Müsəlman şərqinə gəlmişdi), amma bu, bəziləri üçün fərq etmir. Onlar yaşadığımız bu tənəzzül və "qısır" dövrdə aləmə car çəkirlər ki, qadın evdən yalnız iki şey üçün: evlənmək və basdırılmaq üçün çıxmalıdır!

Dövrlə dövr, sələflə xələf, islamı yaşadan nəsillə onu torpağa gömən nəsil arasında, doğrudan da, böyük fərq vardır!

## Müsəlman qadını və sosial fəaliyyət təşəbbüsləri

Professor Həsən Əbdülvəhhab islam tarixində qadınların rolu mövzusundan bəhs edən sanballı kitab qələmə alıb. Müəllif göstərir ki, qadınlar ümumi xeyriyyəçilik işində, bir sıra ictimai boşluqların doldurulmasında, xeyirxahlığın vüsət tapmağında əhəmiyyətli rol oynamışlar. Kitabda oxuyuruq:

"Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, qadınlar orada əhəmiyyətli dərəcədə rol oynamasınlar. Misal üçün İslam fəthlərini götürək. Kişilərlə birlikdə qadınlar da fəthlərdə iştirak etmiş, savaş meydanlarında vuruşmuş, yaralıları sağaltmış, orduya kömək məqsədilə var-dövlətlərini, bəzək əşyalarını, hətta saçlarını belə fəda etmişdilər.

Qadınların elmi intibahdakı roluna gəlincə, bunu böyük alimlər etiraf edirlər. Məsələn, şair Əbu Nüvas özü haqqında deyirdi: "Altmış ərəb şairəsindən, o cümlədən Xənsa və Leyladan şer söyləmədikcə şer yazmadım".

Şam tarixçisi, hədisçi-alim Əllamə İbn Əsakirin müəllimləri arasında səksəndən artıq qadın vardı...

Məşhur şair Xəvarizmi şairələrin iyirmi min beytdən çox şerini əzbərləmişdi. Bir çox böyük alim qadınların yanında təhsil almış, onların şəhadətnamələrinə layiq görülmüşdü.

Bütün islam ölkələrində qadınlar abadlıq işlərinin aparılmasında xüsusi rol oynamış, öz şəxsi varlarından Allah yolunda xərcləmişdilər.

Məsələn, xəlifə Harun ər-Rəşidin həyat yoldaşı Xanım Zübeydənin gördürdüyü işlər misilsiz idi. Doğrudan da, bu xanım öz dövrünün əvəzsiz şəxsiyyəti olmuşdur. Qalaların, sərhədyanı tikililərin möhkəmləndirilməsində öz varından külli-miqdarda pul xərcləmişdi. İraqdan Məkkəyə gedən zəvvarların səfər zamanı çəkdiyi əzab-əziyyəti gördükdə mühəndislər göndərmiş, onları pul və işçilərlə təmin etmişdi. Mühəndislər Bağdad – Məkkə yolunu on beş hissəyə bölmüş, hər bir hissədə bir və ya iki su quyusu qazmış, yağış suyunun saxlanması üçün hovuzlar tikmişdilər. Bəzi yerlərdə tələbata uyğun olaraq, imarətlər, məscid və qübbəli tikililər inşa edilmişdi. Yüksək xərclərə baxmayaraq, mühəndis və fəhlələr suyun Məkkəyədək daşınmasına köməklik edirdilər. Həmin bulaq indi də qalmaqdadır. Adı "Zübeydə bulağı"dır. Bu bulağın inşa xərclərinin yazıldığı kağızı Xanım Zübeydəyə göstərdikdə onu çaya ataraq demişdi: "Hesabı Hesab Gününə saxlayaq".

Abbasi xanədanlığı xanımları Mədinə şəhərinin abadlaşdırılmasına böyük diqqət yetirirdilər. Harun ər-Rəşidin kənizlərindən biri – Xanım Xalisə ilk dəfə olaraq, Peyğəmbər məscidinin həyətində supaylama sistemi inşa etdirmişdi.

Qadınlar Əndəlüsdə, İraqda, Hicazda, Şam və Fələstində çoxlu məscid və xanəgah, karvansara və məktəb tikdirmişdilər. Bütün bu tikililər onların adını daşıyır.

Dini-mədəni və ictimai əhəmiyyəti olmuş bu memarlıq abidələrinin tikilməsində Misirin payı böyükdür.

Misirli şəxsiyyətlərin tikdirdiyi karvansara və xanəgahlar, çox güman ki, qadınlar üçün nəzərdə tutulmuşdur. Məsələn, Məlik Kamil Məhəmmədin qızı Xanım Fatimənin 1252-ci ildə Dəməşqdə inşa etdirdiyi xanəgahın kitabəsində yazılıb: "Bu xanəgahı Ədalətli Məlik Məhəmməd ibn Adil ibn Əbubəkr ibn Əyyubun qızı Fatimə orada daldalanacaq yoxsul qadınlara vəqf olaraq bağışlamışdır. Bağışlamışdır ki, orada beş vaxt namaz qılıb gecələsinlər".

Tarix bunu təsdiqləmişdir.

Məhz bu xanım xalqın qız övladlarını düşünmüş, daldalanmaları və savadlanmaları üçün xanəgah və karvansara-ibadətgahlar tikdirmişdir. Bu tikililər qadınları himayə evləri qəbilindəndir. Baxaq görək bu xanım Misirdə nələri inşa etdirib:

əl-Qərafət əl-Kübra (Böyük qəbiristanlıq) adlanan yerdə vaxtı ilə bir neçə ev yerləşirdi. Deyilənə görə, bu evlərdən biri karvansara-ibadətgah idi. Formaca Peyğəmbərin həyat yoldaşlarının evlərinə oxşayırdı. Yaşlı, dul və tənha qadınların yaşamağı üçün nəzərdə tutulmuşdu. Burada yaşayanlara aylıq məvacib də verilirdi. Qadınlar tez-tez moizə məclisləri təşkil edirdilər.

Nəzərə alsaq ki, əl-Qərafət əl-Kübrada çoxlu insan məskunlaşmışdı, məscidlər, köşklər və bostanlar vardı, misirlilərin,ələlxüsus aylı gecələrdə istirahət yerlərindən biri sayılırdı, deməli, orada çoxlu karvansara-ibadətgahlar da inşa edilmişdi. "Bint əl-Xəvvas" və "əl-Əşraf" karvansara-ibadətgahları

buna misaldır. Sonuncunu Əbubəkr Məhəmməd ibn Əli əl-Madirai tikdirmiş, şəriflər* nəslindən gələn qadınlara bağışlamışdı.

Qadınlar əl-Qərafət əl-Kübra ərazisində dul və yoxsul qadınların yaşamağı üçün karvansara-ibadətgahlar tikdirmişdilər. Bəzilərini qeyd edək:

**1. "Riyaz" karvansara-ibadətgahı**. əl-Hafiz Lidinillahın qadın-mirzəsi Xanım Riyaz tərəfindən eyniadlı məscidin yanında tənha qadınların yaşamağı üçün inşa etdirilmişdir.

**2. "Hicaziyyə" karvansara-ibadətgahı**. Vəzir Əli ibn Əhməd əl-Cürcainin kənizi Xanım Fövz tərəfindən özünün adını daşıyan məscidin yanında tikdirilmişdir. Xanım Fövz onu moizəçi-qadın Ümmülxeyir əl-Hicaziyyəyə vəqf olaraq bağışlamışdır. Ümmülxeyir dövrünün məşhur moizəçilərindən sayılırdı. Bu xeyriyyəçi qadın 1024-cü ildə Əmr ibn As camesində dərs demiş, moizə oxumuşdur. Habelə, "Hicaziyyə" karvansara-ibadətgahında yaşayan qadınlara savad öyrətmişdir.

**3. "Əndəlüs" karvansara-ibadətgahı**. Fatimi xəlifəsi əl-Amir bi-Əhkamillahın qızı Xanım Ələm əl-Amiriyyə Ümm tərəfindən öz adına olan məscidin yanında yaşlı, dul və tənha qadınlar üçün inşa etdirilib. Bu xanım xeyirxah əməlləri ilə tanınmışdı. Yaşlı insanlara çoxlu sədəqə dağıdarmış.

**4. "Bağdadiyyə" karvansara-ibadətgahı**. Bu karvansara "Bəybars Caşangir" xanəgahı istiqamətində "Dərbi-əsfər" de-

---

* **Şərif**: Həzrəti Həsənin nəslindən olub Peyğəmbərlə qohumluğu çatanlara verilən ad – ***tərcüməçinin qeydi.***

yilən yerdə yerləşirdi. Onu 1285-ci ildə Məlik Zahir Bəybarsın qızı Xanım Təzkar Bəyxatun inşa etdirmiş, "Bağdadiyyə qızı" adı ilə tanınan mömin qadın Zeynəb bint Əbülbərəkata bağışlamışdı. Xanım Zeynəb və bir çox xeyriyyəçi qadın bu ibadətgahda məskunlaşmışdılar. Xanım Təzkar onlara aylıq məvacib təyin etmişdi.

Bu karvansara-ibadətgahın rəhbəri savadlı xanımlardan seçilirdi. Onlar orada yaşayan qadınların təlim-tərbiyəsi ilə məşğul olurdular. Bu qadınlardan biri də dövrünün xanımlarının böyüyü İmam Zeynəb bint Abbas əl-Bağdadiyyə idi. Dərin biliyə sahib bu mömin və ixlaslı qadın fiqhi yaxşı bilir, yaxşılığa çağırıb, pisliklərdən çəkindirirdi. İmam Zeynəb Şeyx Təqiyyəddin ibn Teymiyyənin dərslərində iştirak etmiş, ondan çox şey öyrənmişdi. Şeyxülislam ibn Teymiyyə onu "elm və fəzilət sahibi" adlandırmışdı. İbn Teymiyyə çoxlu sualları və iti dərrakəsinə görə ona xüsusi vaxtlarda ayrıca dərs keçərmiş.

Bir çox fəzilətli qadın Xanım Zeynəbin yanında Quranı oxuyub başa vurmuşdu. Misirli və Dəməşqli qadınlar onun elmindən çox bəhrələnmişdilər.

Bu karvansara-ibadətgahın rəhbəri olmuş qadınları "Bağdadiyyə" deyə çağırırdılar.

Sözügedən karvansara-ibadətgah boşanmış, ya da növbəti dəfə evlənmək üçün müddət gözləyən qadınları himayə məqsədi daşıyırdı. Onun qalıqları 1946-cı ilin sentyabr ayınadək dururdu. Bir küncündə iki qübbə karnizinin qalıqları da vardı. Karnizin üstündə gips naxışlar görünürdü. Vəqflər Nazirliyi bu ibadətgahı başqa bir tikili ilə dəyiş-düyüş

etdi. Yeni sahibi onu dağıtdıraraq yerində yaşayış evi tikdirdi. Hal-hazırda həmin yerdə Camaliyyə məhəlləsi, Dərbi-əsfər, 18 ünvanı olan mənzil yerləşir.

**5. "Səncər Sə`di" karvansara-ibadətgahı**. Məmlük ordu başçısı Əmir Şəmsəddin Səncər Sə`di tərəfindən 1315-ci ildə tənha və dul qadınların yaşaması üçün tikdirilib. Bu tikili-kompleksdən yalnız bir giriş hissəsi, qübbə və minarə qalıb. Bu qalıqlar mühüm tarixi memarlıq nümunəsi hesab olunur.

**6. "Ümmi-Ənuk" xanəgahı**. Qaytabay səhrasında yerləşir. 1344-cü ildə Nasir Məhəmməd ibn Qəlavunun həyat yoldaşı Xanım Tuğay Ümmi-Ənuk tərəfindən tikdirilib. Çox güman ki, qadınlar üçün nəzərdə tutulubmuş. Məqrizi yazır: "(Bu xanəgah) sufilər və qarelər üçün qurulmuşdu. Vəqf olaraq ona çoxlu bağışlamalar edilmişdi. Oradakı hər bir qadın üçün maaş kəsilmişdi".

Bu xanəgahın qalıqları indi də durur. Bu qalıqlar qübbədən, eyvan və sufi xəlvətgahının bəzi hissələrindən ibarətdir.

**7. "Eynalın zövcəsi" karvansara-ibadətgahı**. Xərənfüşdə yerləşir. Sultan Eynalın həyat yoldaşı Xəvənd Zeynəb tərəfindən dul qadınların yaşamağı üçün 1455-ci ildə tikdirilmişdir. Vəqf olaraq bu xanəgaha çoxlu bağışlamalar edilmişdi.

Bu tikili indi də olduğu kimi durur. İki böyük eyvandan (zaldan) ibarətdir. Onlardan şərqdə mehrab yerləşir. Həyətin ətrafında və qərb istiqamətindəki eyvanın üstündə qadınların qalmağı üçün otaqlar vardır. Otaq və zalların çölə baxan pəncərələri yoxdur. Görünür, memar onu xəlvətgah formasında

tikmiş, içəri ilə çölü əlaqələndirmək üçün təkcə bir qapı qoymuşdur. Bu qapıdan sonra uzun dəhliz gəlir. Dəhlizdə çoxlu girinti-çıxıntılar vardır.

Qadınları himayə evləri osmanlılar zamanında vəqf bağışlamaları dayananadək öz fəaliyyətini davam etdirmişdir. Daha sonra baxımsız qalmış, uçub-dağılmışdır. Amma buna rəğmən biz Osmanlılar zamanında da, hətta yaxın keçmişədək öz həmcinslərinə qayğı göstərmiş, onların təlim-tərbiyəsi ilə maraqlanmış xanımların şahidi oluruq. Onlar digər qadınları miras və vəqflərinə ortaq tuturdular ki, bunun da qadınları himayə işində müsbət rolu olmuşdur.

Son əsrlərdə qadınların sosial fəaliyyəti sıfır həddinə düşmüşdür; yaşadığımız dövrdə bu fəaliyyəti beşiyindəcə boğmağı Sünnəni dirçəldib haqq yola qayıtmaq hesab edən "qəhrəmanlar" tapılmışdır. Nə edək, hərə bir ağılın sahibidir!

## Əzhərdə təhsil və şəriətin mənbələri

Ustad Məhəmməd əbu Şəhbə ilə tez-tez görüşürdüm. Allah rəhmət etsin, Ustad "Məkkə" radiosunda Buxarinin "Səhih"ini böyük ustalıqla şərh edirdi. Dərin biliyi, bəlağətli nitqi vardı.

Bir gün onu hirslənmiş gördüm. Soruşdum: "Nə olub, səni həyəcanlı görürəm". Dedi: "Filankəsi görmürsənmi, "Əgər birinizin qabına milçək düşərsə, ..." hədisinə[1] şübhə ilə yanaşır. Məgər bu hədis səhih deyil?!"

Dedim: "Mən bu barədə bioloqların söylədiklərini oxumuşam. Onların söylədiklərində nə təsdiq, nə də təkzib vardır. Milçəyin bir qanadında xəstəlik, digərində də dərman daşıyan həşərat olduğunu nə təsdiqləyir, nə də təkzib edirlər. İstədiklərini araşdırsınlar. Hədis isə, bizə görə, hökmündə qalır. Əgər milçəyin qanadlarında xəstəlik və zərdabının olduğunu sübut edərlərsə, nə yaxşı! Əks halda, onlara yəqinlik ifadə etməyən çalışmalar, bizə də zənn ifadə edən hədis qalar".

Nəticə müsbət də, mənfi də olsa, islamın nə "sütun"ları laxlayar, nə də ki "eyvan"ı uçar...

[1] Hədisi İmam Buxari, Əbu Davud və İbn Macə rəvayət etmişlər.

Mühüm olan şey yəqinlik ifadə edən biliklərdir (hədislərdir...). Amma Ustad – Allah rəhmət etsin! – hey deyirdi ki, "ahad" hədislər yəqinlik ifadə edir!

Öz-özümə soruşdum: "Əzhərdə bunumu bizə öyrədiblər? Hədis elmlərindən dərs deyən müəllimlərimiz bizi aldatmışlarmı?"

Böyük imam, Ustad Mahmud Şəltut "İslam – etiqad və şəriət kimi" kitabında zənn və yəqinin fərqli tərəflərinə ayrıca fəsil ayırmışdır. Alim yazırdı:

"Madam ki, əqidə məsələləri üçün istinadı və mənasında qəti sayılan hədislər şərtdir, onda hansı hədislərin yəqin, hansılarının da zənn ifadə etdiyini müəyyənləşdirən prinsipləri aydınlaşdırmaq lazımdır.

Bu məqamda diqqətəlayiq cəhət budur ki, hədislər həm deyilmə (istinad), həm də məna baxımından zənn ifadə edə bilir. Əgər hədisin Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* tərəfindən deyilməsində bir şübhə varsa, onda bu hədis "istinadı zənn ifadə edən" hədislər (***əhadis zənniyyət əl-vürud***) kateqoriyasına aiddir. Mənasında (məzmununda) ehtimallı məqamların olduğu hədislər də "mənası zənn ifadə edən" hədislərdən (***əhadis zənniyət əd-dəlalət***) sayılır. Deməli, belə hədislərin həm Peyğəmbər tərəfindən deyilməsində şübhə vardır, həm də mənası ehtimal ifadə edir; odur ki, bu cür hədislər deyilişi və mənasında zənn olan hədislər kateqoriyasına daxildir.

Əgər hər hansı bir hədis deyilmə və məna baxımından zənn ifadə edirsə, bu və ya digər əqidə mövzusu üçün dəlil-

sübut ola bilməz. Əqidə mövzuları üçün dəlil rolunu oynayacaq hədislər deyilməsi və mənası qəti hədislərdir.

Hədislərin deyilməsində (istinadında) yəqinlik və zənnin nə ilə şərtləşdiyini aydınlaşdırmaq üçün alimlərin "ahad" və "təvatür" anlayışları haqda dediklərini öyrənməliyik. Onların söylədikləri həqiqətə çatmaq istəyənlərin yolunu işıqlandıracaqdır.

Alimlər hədisləri iki yerə bölmüşlər: mütəvatir və ahad. Mütəvatirlik o deməkdir ki, hər hansı bır hədisi rəvayət edənlərin sayı o dərəcədə çoxdur ki, onların yalan söyləmək üçün gizlicə razılaşmaları mümkün deyil. Özü də bu hal rəvayətçilərin bütün: ilk, orta və sonuncu "halqa"ları üçün şərtdir. Bir hədis o halda "mütəvatir" sayılır ki, onu Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* başlanğıcda bir qrup dürüst şəxs rəvayət edir, sonra da bu nəqletmə "onlardan da eyni cür olanları, onlardan da eyni cür olanları..." silsiləsi ilə davam edir. Və bu minvalla, hədis bizə gəlib çatır. Bir sözlə, "mütəvatir" hədis çoxun çoxa rəvayətidir.

Bəzi üsulşünaslar demişlər:

"Mütəvatir" hədis o hədisdir ki, Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bizə rəvayət zəncirində heç bir şübhə olmadan gəlib çatsın; şübhədən o dərəcədə xali olsun ki, sanki onun deyilməsini gözümüzlə görmüş, qulağımızla da eşitmişik. Bunun üçün hədisin ravilərinin sayı həm çox olmalı, həm də onların yalan danışmaq üçün gizlicə razılaşmaqları qeyri-mümkün görünməlidir. Bu ravilərin yalan danışmaq üçün gizlicə razılaşmaqları ona görə mümkün deyil ki, əvvəla, sayları çoxdur, ikincisi, ədalətlidirlər, üçüncüsü də, müxtəlif yer-

lərdə yaşayırlar. Habelə, hədisin ilk, orta və sonuncu rəvayətçiləri də bu cür keyfiyyətlərə sahib olmalıdırlar. Məsələn, beşvaxt namaz, rükətlərin sayı, zəkatın miqdarı haqda bizə gəlib çatmış hədislər "mütəvatir"dir".

## “Ahad” hədislər yəqin bilik ifadə etmir

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* tərəfindən deyilməsi isbatlandığı üçün “mütəvatir” hədislər yəqin bilik ifadə edir. Əgər hədisi yalnız bir nəfər və ya ravilərin bəzi silsilələrində bir neçə şəxs rəvayət etmişsə, bu hədis “ahad” adlanır. Deməli, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* tərəfindən deyilməsi şübhəli göründüyü üçün belə hədislər “mütəvatir” deyildir. “Ahad” hədislərin Peyğəmbərədək uzanan rəvayət “zəncir”ində şübhə vardır ki, bu səbəbdən onlar yəqinlik ifadə etmirlər. Bəli, alimlər bu cür düşünürlər. Dörd İmam: İmam Malik, İmam Əbu Hənifə, İmam Şafei və İmam Əhməd ibn Hənbəl də belələrindəndir. Düzdür, bir rəvayətə görə, Əhməd ibn Hənbəl “ahad” hədislərin yəqinlik ifadə etmədiyini bildirsə də, digər rəvayətdə bunun əksi iddia edilir. “Müsəlləm əs-Sübut” kitabının şərhçisi* deyib:

“Bu iddia onun kimisindən çox uzaqdır (Belə şeyi Əhməd ibn Hənbəl söyləməz). Çünki belə bir şeyi iddia etmək açıq-aşkar yekəxanalıqdır”.

Bəzdəvi deyib:

“Yəqin bilik iddiasına (“ahad” hədislərin yəqinlik ifadə etməsi iddiasından söhbət gedir – ***mütərcim***) gəlincə, bu, heç şübhəsiz, puç iddiadır. Və həqiqət bunu qəbul etmir.

---

* İbn Nizaməddin əl-Ənsari – ***tərcüməçinin qeydi.***

"Ahad" hədisdə mümkün ehtimal vardır, deməli, yəqin deyildir. Çünki ehtimal yəqinlik ifadə etmir. Bunu kim inkar edərsə, axmaqdır, ağlı da cılızdır".

Əbu Hamid əl-Qəzali deyib:

"Ahad" hədis elm (bilik) ifadə etmir ki, bu da zəruri olaraq məlumdur. Onun ("ahad" hədisin) elmi vacib qılmağı haqda hədisçilərin söylədiklərinə gəlincə, görünür, onlar bunu nəzərdə tutmuşlar: zənn elm (bilik) adlandırıldığı üçün "ahad" hədislər (onlara) "əməl etməy"in vacibliyi səbəbindən elm (bilik) ifadə edir. Odur ki, onların bəzisi deyib: "Ahad" hədis zahiri elm (bilik) hasil edir". Burada onlar elmin zahiri və ya batini olduğunu demək istəməmişlər; əksinə, demək istəmişlər ki, elm (bilik) zənn ifadə edir. Biz də deyirik ki, dinin törəmə məsələlərində (***füruat***) zənni əsas götürmək caizdir".

Əsnəvi deyib:

"Sünnəyə (hədislərə – ***mütərcim***) gəlincə, ondan "ahad" sayılanlar ancaq zənn ifadə edir".

İzahlarının birində Bəzdəvi yazır:

"Ahad" hədis elm (bilik) ifadə etmir. Yəqinlik ifadə etmədiyi üçün "ahad" hədislər etiqadla bağlı işlərdə dəlil sayıla bilməz. Çünki etiqad məsələləri yəqinliyə əsaslanır. "Ahad" hədislər yalnız "əməletmə" məsələlərində dəlil sayıla bilər".

Əsnəvi deyib:

"Ahad" hədislər ancaq zənn ifadə edir. Şəriətqoyan (Allah və Peyğəmbər) yalnız "əməletmə" məsələlərində zənnə əsaslanmağımıza icazə verib. Bu məsələlər də törəmə məsələ-

lərdir (***füruat***), elm qəbilindən sayılan dinin əsasları (***üsul***) deyil!”

Göründüyü kimi, üsulşünas və mütəkəllim alimlərə görə “ahad” xəbər (hədis) yəqinlik ifadə etmir. Belə hədislər əqidə məsələlərində dəlil olaraq çıxış edə bilmir. Dedik ki, “ahad” hədislərin mütləq olaraq elm (bilik) ifadə etmədiyini bildirən alimlərimiz vardır. Bu mövzunun əksini iddia edib mübahisə qapısını açmaq doğru deyildir. “Ahad” hədislər elm (bilik) ifadə edir” – deyənlər də elmi (biliyi) zənn ilə eyniləşdirmişlər...

“Hədis alimlərinə görə mətnin tənqidi metodu” kitabını oxuduqdan sonra aydın oldu ki, yanılmamışam; müəllimlərimiz də doğrunu söyləyiblər.

Kitabın müəllifi professor Səlahəddin ibn Əhməd əl-İdlibi yazır:

“Xətib Bağdadi deyib:

“Əgər “ahad” xəbər əqli mühakiməyə (ağılın hökmünə), Qurandakı “möhkəm” hökmə (ayəyə), səhihliyi yəqin hədislərə, Sünnəyə əsaslanan əməllərə – bir sözlə, qəti dəlillərə ziddirsə, qeyri-məqbuldur. Ağıla uyğun gələn, Quranla, “icma” ilə, səhihliyi yəqin hədislərlə üst-üstə düşən “ahad” hədisə digər “ahad” hədis ziddirsə, zidd olan bir kənara qoyulmalı, digəri tətbiq edilməlidir. Çünki yəqin olanı əsas götürmək hər bir halda vacibdir”.

Deməli, İdlibiyə görə, “ahad” hədislər aşağıdakı hallarda qeyri-məqbuldur:

a) Əqli mühakiməyə (ağılın gəldiyi qənaətlərə) ziddirsə;

b) Qurandakı "möhkəm" hökmlərə ziddirsə. Yəni, Qurandan çıxarılmış hökm mənası aydın – "möhkəm" ayələrə əsaslanırsa, onda bu hökmə əks "ahad" hədislər qeyri-məqbuldur. Yox, əgər hökm Quranın mənası aydın olmayan ayəsinə əsasən çıxarılıbsa, onda bu hökmlə bir araya sığmayan "ahad" hədisi qeyri-məqbul saymaq lazım deyildir;

c) Səhihliyi yəqin hədislərə ziddirsə. Söhbət səhihliyi zənn deyil, yəqinlik ifadə edən hədislərdən gedir;

ç) Sünnəyə uyğun ənənəvi əməllərə ziddirsə. Bəlkə də, Xətib Bağdadi bunu dedikdə sələflərimizin həmrəy olduqları və düzgünlüyü yəqinliklə bilinən əməlləri nəzərdə tutmuşdur;

d) İstənilən qəti (yəqin) dəlilə ziddirsə;

e) Səhihliyini ağılın, Quran ayəsinin, səhih hədislərin, "icma"nın, bütün digər qəti dəlillərin təsdiqlədiyi "ahad" xəbərə ziddirsə.

İbn Cövzi deyib:

"Bil ki, elm öyrənən birisi "münkər"* hədisləri oxuduğunda çox vaxt titrəmə keçirər, narahatlıq hiss edər. Çünki qeyri-mümkün bir şey mötəbər şəxslərin ağzından çıxsa da, qeyri-məqbuldur. Səhv səhvdir, kimin onu söyləməsi əhəmiyyətli deyil! Əgər bütün mötəbər insanlar yekdilliklə bildirsələr ki, dəvə iynənin gözündən keçib, onda onların mötəbərliyinin bizə faydası dəyərmi?! Belə məqamlarda mötə-

---

* **Münkər**: "Zəif" ravinin mötəbər ravilərə müxalif olaraq təkbaşına rəvayət etdiyi hədis növü – ***tərcüməçinin qeydi.***

bərlik onların rəvayət etdiyi şeyin mahiyyətini dəyişdirməz. Çünki həmin şeyin baş verməsi qeyri-mümkündür. İstənilən hədis, görsən ki, reallığa (ağılla dərk olunan mahiyyətlərə, münasibətlərə, şeylərə) ziddir, (dinin) əsaslarına əksdir, bil ki, uydurmadır. Onu mötəbər saymaq üçün özünü yormağa dəyməz!"

İbn Cövzinin bu dərin mənalı sözündə məlum mövzuya dair çoxsaylı araşdırmaların xülasəsi əks olunub: "**...İstənilən hədis, görsən ki, reallığa (ağılla dərk olunan mahiyyətlərə, münasibətlərə, şeylərə) ziddir, (dinin) əsaslarına əksdir, bil ki, uydurmadır!**"

İstinad və mətnin (məzmunun) səhihliyi arasında əlaqə vardır. İbn əl-Qəyyim yazır:

"Məlumdur ki, istinadın səhihliyi hədisin səhihlik şərtlərindən biridir. Amma bu o demək deyildir ki, istinadı səhih olan hər hədis səhihdir. Hədisin səhihliyi bir çox məsələ ilə şərtləşir. Məsələn, bir hədis o halda səhihdir ki, "şazz"* və "münkər" olmasın, istinadı mötəbər olsun, mətnində "illət"ə** rast gəlinməsin".

Hədis alimləri hədislərlə əlaqədar olaraq "istinadı səhihdir" və "səhihdir" ifadələrini işlədirlər. Doğrudan da, bunlar bir-birindən fərqli anlayışlardır; ikincisi birincisindən daha geniş

---

* **"Şazz"** (ərəb. "anormal"): "Zəif" hədis növüdür. Bu və ya digər hədisin mötəbər ravisi həmin hədisin digər mötəbər ravilərinə müxalif davranarsa, belə hədis "şazz" adlanır – ***tərcüməçinin qeydi***.

** **"İllət"** (ərəb. "səbəb", "zəif cəhət", "qüsur"): Zahirən sağlam görünən, əslində isə hədisin səhihliyinə xələl gətirən gizli qüsur – ***tərcüməçinin qeydi***.

məna ifadə edir. Çünki birincidə söhbət yalnız istinadın səhih olmağından gedir. İkincisi isə həm istinadın, həm də məzmunun səhihliyini özündə birləşdirir.

## Səhih hədislərin mötəbərliyində qətilik dərəcəsi

Bu məsələ ilə əlaqədar olaraq hədis alimləri ciddi qaydalar təsis etmişlər. Onlar səhih hədisləri araşdırmış, istinadı və məzmunu səhih hədis növlərini müəyyənləşdirmişlər. Məsələn, bu və ya digər hədisin doğrudanmı Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* söyləyib; görəsən, bu bizim ictihadımıza görədir, yoxsa əslində belədir?

Əgər hədisin istinadı və məzmununda qətilik yoxdursa, yəqin bilik ifadə etmir. Amma belə hədislərin tətbiqi mümkündür. İstinadı və məzmunu qəti hədislər isə, dediyimiz kimi, yəqin bilik ifadə edirlər.

Bir qrup əhli-hədis* alimինə, o cümlədən əl-Hüseyn əl-Kərabisiyə görə, səhih "ahad" hədislər qətilik ifadə edir. Belə hədislərdə həm yəqin bilik vardır, həm də onları tətbiq (əməl) etmək mümkündür, – bu, İbn Həzmin görüşüdür.

Əhli-hədis və fiqh alimlərinin böyük əksəriyyəti, o cümlədən İmam Şafei, Baqillani və İraqi demişlər: "Bu səhih hədisdir" – dediyimiz zaman onu nəzərdə tuturuq ki, istina-

---

* **Əhli-hədis:** (ərəb. hədis tərəfdarları). Orta əsr islam fikrində meydana çıxan, dini mətnlərin məntiqi-bədii məzmununa əhəmiyyət verməyən, forma ilə kifayətlənib bəşəri rəyə etimad göstərməyən məktəbdir – ***tərcüməçinin qeydi.***

dının zahirinə görə bu hədisi tətbiq etmək olar. Biz bunu deməklə özlüyündə səhihliyi qəti olan hədisi nəzərdə tutmuruq”.

İraqi deyib: “Doğru olanı budur”, yəni ondan qeyrisi puçdur (batildir)...”.

Onların bu məqamda səhih hədis dedikləri şey “ahad” hədislərdir. “Mütəvatir” hədislərə gəlincə, onlarda qətilik vardır. Onlar həm bilik ifadə edirlər, həm də tətbiq legitimliyinə malikdirlər, – bu, alimlərin gəldiyi ortaq qənaətdir.

## Buxari və Müslimin rəvayət etdikləri hədislərin səhihlik dərəcəsi

İmam Buxarinin “Came əs-Səhih” və İmam Müslimin “Səhihi-Müslim” kitablarında “mütəvatir” kateqoriyasına daxil hədislər, heç şübhəsiz, səhihliyi qəti hədislərdən sayılır. Bu barədə alimlərin arasında fikir ayrılığı yoxdur...

Bu iki kitabdakı “ahad” hədislərə gəlincə, səhihliyi qəti hədislər haqda deyilənləri onlara şamil etmək olarmı?

İbn Səlah deyib:

“Hər iki ustadın (Buxari və Müslim nəzərdə tutulur – ***mütərcim***) və ya onlardan birinin, istinadları ilə birlikdə rəvayət etdiyi hədislər səhihliyi qəti hədislərdir”.

Alimlərin böyük əksəriyyəti (***cümhur***) bu məsələdə İbn Səlahla razılaşmayıb. İraqi deyib: "Mühəqqiq-alimlər* onunla (bu məsələdə) razı deyillər".

İbn Səlaha görə, bu iki kitabın bütün müsəlmanlar tərəfindən qəbul edilməsi "icma" mənasına gəlir. Yəni, hər iki kitabdakı hədislər istinad və məzmun baxımından səhihdir və bu haqda "icma" vardır.

Amma alimlərin böyük əksəriyyəti – cümhur bildirmişdir ki, müsəlmanlar bu iki kitabdakı bütün hədislərin səhihliyi ətrafında heç də həmrəy deyillər. Müsəlmanlar o şeydə həmrəydirlər ki, hər iki kitabdakı bütün hədisləri tətbiq etmək olar (və ya: bütün bu hədislər qanuni qüvvəyə malikdir) ki, bu da o kitablarda zənn yolu ilə səhih qəbul edilmiş hədislərin mövcudluğuna zidd deyil. Allah təala əməli hökmlərin təfsilatında bizə qəti dəlillərdən istifadə etməyi zəruri buyurmayıb. Deməli, zənn ifadə edən dəlillər əsasında çıxarılan hökmlər vardır.

Qeyd etmək lazımdır ki, səhih "ahad" hədislər, təsdiqləyici amillər (***qərain***) olarsa, zənn ifadə edən hədislər kateqoriyasından çıxır, səhihliyi qəti hədislər kateqoriyasına və ya ona yaxın kateqoriyaya daxil olur. Bəlkə də, bu hal hər iki kitabdakı hədislərin bir çoxuna tətbiq edilmişdir. Amma bu halı ümumilikdə bütün hədislərə şamil etmək mümkün deyildir.

---

* **Mühəqqiq** (ərəb. araşdıran, tədqiq edən): bir mövzuya aid müxtəlif məlumatları, dəlilləri araşdıran, müqayisə aparıb doğru nəticəyə gələn alim – ***tərcüməçinin qeydi***.

Deyilənlərdən aydın olur ki, hətta istinadı səhih hədisləri belə, mətnin tənqidi meyarları əsasında nəzərdən keçirmək lazımdır. "Mütəvatir" hədislər kateqoriyasına daxil olmayan, təsdiqləyici amillərə uymayan, özü də zənn yolu ilə səhih qəbul edilən "ahad" hədislərin səhihliyi qəti deyildir. Belə hədislər, hətta Buxari və Müslimin "Səhih"lərində mövcud olsa da, qayda dəyişmir.

## Kəlam və fiqhə dair bəzi mübahisəli məqamlar

Yadıma gəlir, bir tələbə öz elmi işinin müdafiəsi zamanı İbn əl-Qəyyimə istinadən bildirmişdi ki, "Allah cisimdirmi?" sualına birbaşa "bəli" və ya "xeyr" cavabını vermək mümkün deyildir. Ona demişdim: "Yaxşı olar ki, bu cür "tərəddüd"ü bir kənara qoyasan. Məlumdur ki, cisim maddədir, maddəyə isə zaman və məkan xasdır; maddə özözündə məhduddur... Elə isə tərəddüd keçirmədən deməliyik ki, Allah cisim deyildir...

Bəlkə də, bu görüş "Ona (Allaha) bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!" ayəsinin[1] məzmununa tamamilə uyğun gəlir. Hesab edirəm ki, İbn əl-Qəyyim dövrümüzdə yaşasaydı, dediklərimizi təsdiqləyərdi...".

Tələbə bir az müqavimət göstərsə də, axırda, həmin bölümü dissertasiyadan çıxarmalı oldu.

Bu zaman bir nəfərin mənə xitabən: "İbn əl-Qəyyimə nifrətmi edirsən?" – deməyi ürəyimi ağrıtdı. Sözünü bitirmişdi ki, dedim: "Əsla! Əksinə, mənim ona böyük rəğbətim var; elmi irsindən, nümunəvi həyatından çox bəhrələnmişəm.

[1] "əş-Şura" surəsi, 11-ci ayə.

Elmi tədqiqatların onu sevib-sevməməklə heç bir əlaqəsi yoxdur. Mən hələ öyrənir və haqqa çağırıram".

Sonra belə dedim: "Bəzən mən hənəfi fiqhinə meyl göstəririrəm. Halbuki qəlbimlə və bütün heyranlığımla İmam Şafeiyə bağlıyam. O İmam Şafeiyə ki, öz elmi haqda deyirdi: "Çox istərdim ki, bu elm yayılsın, amma insanlar onun sahibi kimdir bilməsinlər!"

Kaş, bu ixlasdan bir az da bizdə olaydı!

Bilmirəm, İmam Əhməd "Müsnəd"ində bəzi "hədis"ləri nə üçün rəvayət edib? Amma yenə də mən dünyaya meydan oxuyan, cah-calalına aldanmayan, insanlara pulun, var-dövlətin puçluğunu öyrədən bu böyük imamın yolu ilə gedirəm, özü də fəxarət hissi ilə gedirəm!

Bu böyük imamlar, haqlı olaraq, bizim ustadlarımızdır! Qənaətlərində bəzi səhvlər olsa da, alimlərə layiq olduqları ehtiramı göstərmək lazımdır!

Amma dövrümüzdə bəzi gənclər səhv davranışları ilə təhlükəli hərc-mərcliklərə səbəb olurlar. Əgər ramazan ayında bəziləri təravih namazını səkkiz, başqaları da iyirmi rükət qılmaq istəyirsə, onda biz məscidlərimizi müharibə meydanınamı çevirməliyik?!

Bir dəfə mən həmin namazı səkkiz rükət qılmaq istəyən birisinə dedim: "Camaatla birlikdə səkkiz rükətini qıl. Qıldıqdan sonra da sakit-səmirsiz çıx get!" Dedi: "Sən Sünnəyə nifrətmi edirsən?" Dedim: "Əksinə, mən hərc-mərcliklərə, fitnə-fəsada nifrət edirəm... İddia edirsiniz ki, Sünnəni dirçəldirsiniz. Amma unudursunuz ki, etdikləriniz ümmətin başını bəlaya soxur... Hər hansı bir "nafilə" ibadət

böhran yaratmamalıdır. Əgər bir "nafilə" [1] ibadətin icrası vacib sayılan şeyin üstündən xətt çəkəcəksə, Allah onu əmr buyurmaz.

Biz tövhidə çağıran, haqq və xeyri təbliğ edən ümmətik. Elə isə bu işlərdə sizin öz cılız fikirlərinizlə insanları əsas olandan yayındırmağınız düzgündürmü?!

İnsanları vacib və fəzilətli əməllərə çağırın, "müstəhəb"[2] əməllərdə tolerant olun; insanların aralarını düzəldin! İkinci dərəcəli problemlərdə israr göstərməyin, fikirlərinizdə güzəştə gedin!

Baş naziri bir qadın olan, çiçəklənmə dövrünü yaşayan bir ölkəyə – İngiltərəyə getdiyinizdə durub-oturub "qadından lider çıxmaz" – deməyiniz düzgündürmü?

Belə bir vaxtda insanlara tövhid inancı, bu inancın psixoloji və sosial təsirləri haqda danışmağınız düzgün olmazdımı?! Allahın kamilliyi, insanın acizliyi və axirət cəzası barədə danışmaq daha münasib deyildirmi?!"

Onu da deyim ki, bəzi təcrübəsiz gənclərin Sünnəni dirçəltmək bəhanəsi ilə, özü də sələfiliyi əldə bayraq edərək səbəb olduqları fitnə-fəsada son qoymaq üçün Əzhəri-Şərif fitva vermişdir. Hay-küyçülərin, bədniyyətli kəslərin yolunu kəsmək üçün həmin fitvada hökm və dəlillər ətraflı izah edilib...

---

[1] Əlavə, vacib sayılmayan.

[2] İcrası bəyənilən, edilməzsə də qınaq gətirməyən əməllər.

# Bir fitva

Barəsində danışdığımız fitvanın mətnini sizə təqdim edirik.

*Əzhəri-Şərif Fitva Komitəsinin sədri, Ustad ... !*
*Sizə Allahın salamı, rəhməti və bərəkəti olsun!*

**(Bir şeyin) vacib və ya haram olduğunu isbatlamaqda hədislərin kafi olmadığını iddia edən şəxs kafirdirmi? Xahiş edirik, bu məsələyə dəlilləri ilə aydınlıq gətirəsiniz.**

*Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

Peyğəmbərlərin böyüyü, sahibimiz Həzrəti Məhəmmədə, ailəsinə, səhabələrinə, onların yolu ilə gedənlərə xeyir-dua və salam olsun!

Alimlərin böyük əksəriyyətinə – cümhura görə, hökmlər beş yerə bölünür:

1. **Vacib** – səhihliyi qəti, mənası da aydın olan hər hansı bir dini mətn (dəlil) əsasında müəyyən edilmiş öhdəlikdir. Ayə və "mütəvatir" hədislərdən ibarət bu dini mətnin məzmunu o dərəcədə açıq-aydın olmalıdır ki, müctəhidlər arasında heç bir mübahisə doğurmasın.

2. **Haram** – səhihliyi qəti, mənası da açıq-aşkar olan hər hansı bir dəlil (ayə və "mütəvatir" hədis) əsasında Allah və ya peyğəmbərinin öhdəçi şəxsə tərk etməsini əmr etdikləri əməllər, davranış və sözlərdir.

3. **Məndub** – edilməsini Allahın və ya peyğəmbərinin qəti şəkildə tələb etmədiyi şeydir. Edənə savab yazılar, etməyənə də cəza düşməz.

4. **Məkruh** – edilməməsini Allah və ya peyğəmbərinin qəti şəkildə tələb etmədiyi şeydir. Etməyənə savab yazılar, edənə də cəza düşməz.

5. **Mübah** – edilib-edilməməyi öhdəçi şəxsin ixtiyarına buraxılan şeydir. Haramlılığı barədə heç bir dəlilin olmadığı şeylər də mübahdır.

Hədislər "mütəvatir" və "ahad" olmaqla iki yerə bölünür.

Yalançılıqda həmrəy olmaqları qeyri-mümkün ravilərin özləritək ravilərdən rəvayət etdikləri hədislər "mütəvatir" hədislər adlanır.

əl-Hazimi deyib:

"Bir hədisin mütəvatirliyini isbatlamaq çox çətindir"[1].

Şatibi deyib:

"Mütəvatir" hədisin səhihliyi barədə hədis alimləri arasında ixtilaf yoxdur. Alimlərin böyük əksəriyyəti belə hesab edir ki, (bir şeyin) vacib və ya haram olduğunu isbatlamaqda "mütəvatir" hədislərin kafi olmadığını iddia edən şəxs

[1] əl-Hazimi. Beş İmama görə səhihlik şərtləri, səh. 37.

kafirdir. Mən də deyirəm: "Əməli hədislərin əksəriyyəti "mütəvatir"dir"[1].

"Ahad" hədis isə bir neçə şəxsin Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qeyri-mütəvatir yolla rəvayət etdiyi hədisdir. Alimlər (bir şeyin) vacib və ya haram olduğunu isbatlamaqda "ahad" hədislərin kafi olub-olmadığı məsələsində ixtilafa düşmüşlər. Şafei məzhəbi alimləri bildirmişlər ki, namaz, oruc, həcc və zəkat kimi əməli hökmlərdə "ahad" hədislərin (bir şeyin) vacib və ya haram olduğunu isbatlamaqda kafi olmadığını iddia edən kəs kafirdir. İlahi mahiyyətlər, peyğəmbərliklər, axirət məsələləri və qeyb aləmi bağlı "elmi" (nəzəri) hökmlərdə isə "ahad" hədislərin (bir şeyin) vacibliyi və ya haramlığını isbatlamaq üçün kafi olmadığını iddia edən kəs kafir deyildir. Çünki belə nəzəri məsələlərin isbatında Qurandan mənası açıq ayələr və "mütəvatir" hədislər tələb olunur.

Hənəfilər isə başqa cür düşünürlər. Onlara görə, "ahad" hədislər nə əməli, nə də nəzəri məsələlərdə bir şeyi vacib, ya da haram edə bilər. Odur ki, bunu iddia edəni kafir saymaq olmaz. Hənəfi üsul alimləri də eyni fikirdədirlər. Məsələn, Bəzdəvi yazır:

"Yəqin bilik iddiasına ("ahad" hədislərin yəqinlik ifadə etməsi iddiasından söhbət gedir – ***mütərcim***) gəlincə, bu, heç şübhəsiz, puç iddiadır. Və həqiqət bunu qəbul etmir. "Ahad" xəbərdə mümkün ehtimal vardır, deməli, yəqin deyildir.

---

[1] Şatibi. əl-Etisam, cild I, səh. 135.

Çünki ehtimal yəqinlik ifadə etmir. Bunu kim inkar edərsə, axmaqdır, ağlı da cılızdır".

İmam Məhəmməd Əbduh, Şeyx Mahmud Şəltut, Şeyx Mahmud əbu Dəqiqə və başqaları da bu mövqedən çıxış edirlər.

Mərhum İmam Məhəmməd Əbduh yazır:

"Qurani-Kərim Allaha çağırışda islamın istinad etdiyi yeganə mötəbər arqumentdir*. İstinadında səhih, məşhur və "zəif" sayılan hədislərə gəlincə, qəti bilik ifadə etmirlər".

Həmçinin, Ustad Mahmud Şəltut "İslam – etiqad və şəriət kimi" kitabında yazır:

"...hədislər həm deyilmə (istinad), həm də məna baxımından zənn ifadə edə bilir. Əgər hədisin Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* tərəfindən deyilməsində bir şübhə varsa, onda bu hədis "istinadı zənn ifadə edən" hədislər (***əhadis zənniyyət əl-vürud***) kateqoriyasına aiddir. Mənasında (məzmununda) ehtimallı məqamların olduğu hədislər də "mənası zənn ifadə edən" hədislərdən (***əhadis zənniyət əd-dəlalət***) sayılır. Deməli, belə hədislərin həm Peyğəmbər tərəfindən deyilməsində şübhə vardır, həm də mənası ehtimal ifadə edir; odur ki, bu cür hədislər deyilişi və mənasında zənn olan hədislər kateqoriyasına daxildir.

Əgər hər hansı bir hədis deyilmə və məna baxımından zənn ifadə edirsə, bu və ya digər əqidə mövzusu üçün dəlil

* Söhbət yəqin bilik ifadə edən başlıca arqumentdən gedir – ***tərcüməçinin qeydi.***

ola bilməz. Əqidə mövzuları üçün dəlil rolunu oynayacaq hədislər deyilməsi və mənası qəti hədislərdir”[1].

İmam Şatibi “əl-Müvafəqat” kitabında qeyd edir ki, hədislər (Sünnə) bir şeyin vacib və ya haram olduğunu isbatlamaqda kafi deyildir. Çünki hədislərin işi Quranın ümumi ayələrini (və ya göstərişlərini) xüsusiləşdirməkdən (***təxsis***), “mütləq” (ümumi mənalı) hökmlərini çərçivəyə salmaqdan (***təqyid***), bütövü (***mücməl***) təfsilata ayırmaqdan (***təfsil***) ibarətdir[*]. Bu işi isə təkcə “mütəvatir” hədislər görə bilər, “ahad” hədislər deyil”.

Buxarinin “Səhih” kitabındakı bir hədis də bu deyilənləri təsdiqləyir. Belə ki, Təlhə ibn Müsərrif deyib: “İbn əbu Övfadan soruşdum: “Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* vəsiyyət etdimi?” Dedi: “Xeyr, etmədi.” Dedim: “İnsanlara bir vəsiyyət yazmadımı, onlara nə isə bir vəsiyyəti əmr etmədimi?” Dedi: “Allahın kitabını vəsiyyət etdi”[2].

Hədisin izahında İbn Həcər yazır:

“Yəni, ona sarılıb, ondakı göstərişlərə əməl etməyi vəsiyyət etdi. Yəqin ki, o (İbn əbu Övfa), Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu sözünə işarə edib: “Sizlərə sarılacağınız təqdirdə zəlalətə düşməyəcəyiniz şeyi qoyub gedirəm. Bu, Allahın kitabıdır”.

---

[1] Şeyx Şəltutun bu haqda dediklərini yuxarıda tam iqtibasla dərc etmişdik.

[*] Yəni, Sünnə Quranı izah və bəyan edir; ondakı bütövü hissələrə ayırır, qapalı mənaları aydınladır, ümumini xüsusiləşdirir, çərçivəyə salır – ***tərcüməçinin qeydi.***

[2] Buxari. Came əs-Səhih, “Qəzvələr” fəsli, 444.

Peyğəmbər Allahın kitabını vəsiyyət etməklə ona görə kifayətlənib ki, onda hər bir şeyin açıqlanması vardır; bu ya ayə, ya da "istinbat" (hökm çıxarma) vasitəsi ilədir. Elə isə insanlar Quranda olanın yolu ilə getməli, onlara əmr olunanlara əməl etməlidirlər.

Salman əl-Farisi rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

"Allahın öz kitabında halal bildiyi şey halal, haram saydığı şey də haramdır. Danışmadığı şeylər isə bir lütfkarlıqdır"[1].

İmam Şatibi "Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!" ayəsi[2] haqda "cümhur"un dediklərinə belə münasibət bildirib:

"Peyğəmbərə itaətin vacibliyi dedikdə o şey nəzərdə tutulur ki, (Qurandakı) ümumi hökmlər xüsusiləşdirilib, "mütləq" (ümumi mənalı) hökmlər çərçivəyə salınıb (***təqyid***), bütövün (***mücməl***) də təfsilatı verilib. Bütün bunlar isə "mütəvatir" hədislərlə mümkündür".

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* gətirdiyi hər bir şeyin Qurandan olmağı vacibdir. Həzrəti Aişənin *(Allah ondan razı qalsın!)* dediyi də bunu təsdiqləyir: "Onun əxlaqı Quran idi"[3].

"Biz Quranı sənə hər şeyi izah etmək üçün... nazil etdik!" ayəsinin[4] mənası budur ki, Sünnə də (hədislər) Qurana ümumi formada daxildir. Şatibi bunun belə olduğunu isbatlamaq üçün aşağıdakı ayəni dəlil gətirmişdir:

---

[1] Hədisi Tirmizi rəvayət edib.

[2] "ən-Nisa" surəsi, 59-cu ayə.

[3] Hədisi İmam Müslim, İbn Macə və Tirmizi rəvayət etmişlər.

[4] "ən-Nəhl" surəsi, 89-cu ayə.

"...Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq..." (əl-Ənam, 38).

Alimlərin böyük əksəriyyətinin dəlil göstərdiyi "(Vaxt gələcək) sizdən biri mənim bir hədisimi eşitdiyində: "Əlimizdə Allahın kitabı var. Təkcə ondakı haramı haram, halalı da halal qəbul edirik", – deyəcək, hədisimi yalan sayacaqdır. Əslində o, bununla Allahı və peyğəmbərini yalançı saymışdır" hədisi[1] haqqında Şatibi demişdir:

"Bu hədisin raviləri arasında Zeyd ibn əl-Həbbab vardır ki, çoxlu xətaları məlumdur. Bu səbəbdən İki Şeyx (İmam Buxari və İmam Müslim – ***mütərcim***) ondan heç bir hədis rəvayət etməmişlər".

"Müsəlləm əs-Sübut" və "ət-Təhrir fil-Üsul" kitablarında deyilir:

"Ahad" hədislər yəqin bilik ifadə etmir. Fərqi yoxdur həmin hədislər "İki Səhih"də rəvayət olunub, yoxsa başqa kitablarda".

Deyilənlərdən aydın olur ki, haram və vacib əməllər mənası aydın, mötəbərliyi də qəti dini mətnlər – dəlillər əsasında müəyyən edilir. Bunun üçün hədislərin "mütəvatir" olmağı şərtdir. Digər hədislər isə alimlərin ixtilafı səbəbindən yəqin bilik ifadə etmir. Deməli, bir şeyin haram və vacib olmağının isbatında Sünnə təkbaşına kafi deyildir. Sünnə o halda yəqin bilik ifadə edir ki, ya əməli hökmlərin əsası rolunu oynayır, ya da Qurandakı hər hansı bir hökmə uyğundur.

---

[1] Hədisi Tirmizi və İbn Macə rəvayət etmişlər.

Elə isə Sünnənin bir şeyin haram və ya vacib olmağının isbatında kafi sayılmadığını iddia edən şəxs, əslində, alimlərin ixtilafa düşdükləri şeyi inkar etmişdir. Odur ki, kafir sayıla bilməz..."[1].

Biz bu fitvanı ona görə dərc etdik ki, Allahın cisim olmağı ehtimalını yaradan əqidə mövzulu bəzi hədislərə münasibət bildirək. Alimlərimiz əqidə mövzularında dəlil seçiləcək hədislərin "mütəvatir" olmağını şərt qoymuşlar. Belə hədislərdən bir-iki misal gətirək:

"Bir insan miniyində necə oturursa, Allah da taxtında (ərşində) o cür oturur. Taxt bu zaman Onun ağırlığı və əzəmətindən səs çıxarır"[2];

Başqa bir hədisdə isə "Allahın taxtını daşıyan səkkiz dağ keçisi..." sözləri işlədilib[3].

Bütün bunlar "ahad" hədislərdir. Alimlər bu cür hədisləri bir kənara qoymuş, onlara əsasən heç bir dini hökm çıxarmamışlar...

---

[1] Fitvanı 01.02.1990-cı il tarixində Əzhəri-Şərif Fitva Komitəsinin sədri Şeyx Abdullah əl-Müşidd vermişdir.

[2] Hədisi İmam Əhməd və Darimi rəvayət etmişlər.

[3] Hədisi Əbu Davud və İbn Macə rəvayət etmişlər.

## Qəbir əzabı haqda bir-neçə söz

Bəzilərinin bu cür hədislərə ("ahad" hədislərə) münasibəti haqda danışaq:

Həzrəti Aişəyə *(Allah ondan razı qalsın!)* istinadən İmam Əhmədd "Müsnəd" kitabında belə rəvayət edib:

"Bir yəhudi qadın Həzrəti Aişəyə xadiməlik edirmiş. Həzrəti Aişədən hər dəfə yaxşılıq gördükdə qadın ona: "Allah səni qəbir əzabından qorusun!" – deyirmiş. (Aişə deyir:) "(Bir dəfə) Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanıma gəlmişdi. Soruşdum: "Ey Allahın rəsulu, qiyamətdən qabaq qəbirdə əzab vardırmı?" Peyğəmbər: *(Ona Allahın xeyir-duası və salamı olsun!)* "Xeyr, yoxdur, – dedi və soruşdu – Bunu kim iddia edir?" Dedim: "Bu yəhudi qadın. Hər dəfəsində ona yaxşılıq etdikdə mənə: "Allah səni qəbir əzabından qorusun!" – söyləyir." Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dedi: "Yəhudilər yalan söyləyirlər. Onlar Allah barədə ən çox yalan danışanlardır. Əzab təkcə Qiyamət günündə vardır." (Həzrəti Aişə deyir:) "O (Peyğəmbər – ***mütərcim***), Allahın istədiyi müddət keçdikdən sonra, bir dəfəsində, günorta vaxtı paltarına bürünmüş və gözləri qızarmış halda evindən çıxıb, uca səslə dedi: "Qəbir zülmət qaranlığın bir parçasıdır. Ey insanlar, əgər bildiyimi bilsəydiniz, çox ağlayar, az gülərdiniz.

Ey insanlar, qəbir əzabından Allaha sığının. Doğrudan da, qəbir əzabı bir həqiqətdir”[1].

Hədisin istinadı Buxari və Müslimin səhihlik şərtlərinə görə səhihdir. Amma onlar bu hədisi rəvayət etməyiblər.

Bu hədis barədə bəzi qeydlərimiz vardır. Belə ki, hədis Quranın üç ayəsinə ziddir:

1. “Allaha iftira yaxan, özünə heç bir vəhy olunmadığı halda: “Mənə də vəhy olunmuşdur, mən də Allahın nazil etdiyi (Quran) kimi bir kitab endirəcəyəm”, – deyən şəxsdən daha zalım kim ola bilər? Kaş sən zalımları ölüm əzabı içində çapalayan, mələklərin də (bu zaman) əllərini uzadıb: “Çıxarın canlarınızı! Siz bu gün Allaha qarşı nahaq sözlər danışdığınıza və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!” – dediklərini görəydin!” (əl-Ənam, 93);

2. “Onlar (ölən gündən qiyamətə qədər qəbir evində) səhər-axşam (gündə iki dəfə) odda yandırılarlar. Qiyamət qopduğu gün isə (deyiləcəkdir): “Firon əhlini ən şiddətli əzaba salın!” (Ğafir, 46);

3. “(Ya Rəsulum!) Kaş sən kafirləri mələklər onların üzünə və yanlarına vura-vura: “Dadın atəşin əzabını!” – deyib canlarını alanda görəydin!

Bu (əzab) sizin öz əllərinizlə qazandığınız (əllərinizin törətdiyi) günahlara görədir. Yoxsa Allah bəndələrinə əsla zülm edən deyildir!” (əl-Ənfal, 50-51).

---

[1] Əhməd ibn Hənbəl. Müsnəd, 6/81.

Habelə sözügedən hədis qəbirdə əzab və mükafatın olduğunu isbatlayan digər hədislərlə ziddiyyət təşkil edir. Bədr döyüşündən sonra meyitləri eyniadlı quyuya atılmış kafirlərə xitabən Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* "Rəbbinizin vədinin haqlı olduğunu gördünüzmü? Biz də rəbbimizin bizə verdiyi vədin haqq olduğunu gördük..." deməsi; Buxarinin də rəvayət etdiyi kimi, iki qəbrin yanından keçərkən Peyğəmbərin "Bu qəbirlərdə yaranlara əzab olunur..." – söyləməsi[1] və s.

Bu mövzuya dair dəlillər hədsiz çoxdur. Elə isə necə iddia oluna bilər ki, Peyğəmbər qəbir əzabı nədir bilmirmiş? Bu bir yana qalsın, görün nə vəziyyət yaranıb ki, bir yəhudi qadın gəlib, müsəlmanlara qəbir əzabı haqda xəbər verir!

Qurani-Kərim Peyğəmbərə hey təlqin edirdi ki, insan həyatı ölümdən qabaq və sonrakı mərhələlərdən ibarətdir; insanlar dünyadan köçən kimi, ya mükafatlandırılır, ya da cəza görürlər. Necə ola bilər ki, Peyğəmbər bunu inkar etsin?!

İbn Kəsir bu "qərib" hədisi müdafiə etmək üçün ayələri yozmuşdur. O iddia edirdi ki, ayələrdə söhbət mənəvi əzabdan gedir, həqiqi (hiss olunan) qəbir əzabından deyil! Bu ki səhvdir!

Məgər mənəvi əzab zamanı insanın yanı və üzünə vurmaq mümkündür?! Əgər əzab mənəvidirsə, qəbrin sıxılması zamanı sümüklərin bir-birinə girməsi baş verərmi?!

---

[1] Hədisi İmam Buxari, İmam Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə, Darimi və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

İstinadla kifayətlənib, məzmuna diqqət yetirmək – bu ki tədqiqatçı alimlərimizin rədd etdikləri qəribəliklərə qapı açmaqdır!

Yuxarıda dərc etdiyimiz fitvadan məlum olur ki, hər şeydən qabaq Quranı dəlil seçmək lazımdır. Onu da dedik ki, əqidə mövzularında "ahad" hədislər təkbaşına dəlil rolunu oynaya bilmir.

Bir şeyi tövsiyə edək ki, Quranı düşünərək oxuyub, ondakı məlumatları uzun-uzadı təhlil etməklə yanaşı, hədisləri də ayələr kontekstində araşdırmaq lazımdır.

O kəslər ki, ayələrin üstündən ötəri keçir, bəzi hədislərdə isə dərinə dalırlar, onların bu yanaşması qəbuledilməzdir.

Quran qarşısında kor, hədislər qarşısında isə dirigözlü olmaq doğru deyildir. Bəzilərinin ağzından çıxmış belə bir iyrənc söz eşitmişdim: "Quranın hədislərə ehtiyacı hədislərin Qurana ehtiyacından daha çoxdur"... Bax buna deyərlər tərəflərin yerini səhv salmaq!

Biz həm Qurana, həm də hədislərə (Sünnəyə) inanırıq. İnanırıq ki, Quran kökdür, Sünnə – budaq (və ya: Quran əsasdır, Sünnə ikinci dərəcəlidir)! Biz əmin olmalıyıq ki, bu və ya digər hədis Peyğəmbərin dilindən səslənib, ya yox! Bunu da ki həm istinadı, həm də məzmunu birlikdə götürməklə müəyyən etmək mümkündür...

Elmdə söz sahibi alimlərin, mötəbər kişilərin yolu məhz budur! Bu yoldan qeyrisinə etibar edilməz!

İslam elmləri bir dəryadır: həqiqətlərə əsaslandıqda möhtəşəm mədəniyyət yaratmışdır; xurafat və xülyalar onu çul-

ğayıb "dayazlatdığı" zaman ümmət də əldən getmiş, mədəniyyəti də!

Peyğəmbərin ailəsinə axirət cəzasını, qəbir mükafatı və əzabını xatırlatmış(!) yəhudi qadının əhvalatına qayıdaq. Sən demə, Peyğəmbər bundan qabaq heç nə bilmirmiş!!!

Görəsən, yəhudi qadın bunu haradan öyrənmişdi? Musanın Əhdi-ətiqdəki Beş Kitabındanmı? Söhbət Tövratdan gedir. Tövratda isə cənnət və cəhənnəm, savab və cəzalandırma haqda heç nə deyilmir!

Tövrat dünya həyatını amal bilib, başqalarından seçilməyi düşünən bir xalqın maddiyyat kitabına çevrilib.

Bu xalq xeyir işləməklə, şərdən əl çəkməklə axirət həyatına can atmır, savabın da, cəzalandırılmanın da, az qalsın ki, bu dünyada olduğuna inanır!

Yəhudilər axirətə o qədər də can atmayan xalqdır.

Düzdür, bəzi "kitablar"da (Musanın Beş Kitabından söhbət gedir – ***mütərcim***) cənnət, cəhənnəm, ruhlar aləmi haqda cüzi məlumat vardır. Amma, dediyimiz kimi, bu məlumat çox cüzidir...

Bu səbəbdən mən qəbir mükafatı və əzabı haqda deyilənlərin bu yəhudi qadının ağzından çıxdığına şübhə edirəm...

Məlum hədis məna baxımından Qurana və "mənaca mütəvatir" adlandırıla biləcək hədislərə ziddir.

Həmçinin, bu hədisin bir yəhudi qadın tərəfindən rəvayət edilməsi Böyük Səhradan suyun axıb-keçməsinə oxşayır, – bu ki xariqüladə şeydir! Buna baxmayaraq, hələ bir deyirlər: "Hədisin istinadı Buxari və Müslimin səhihlik şərt-

lərinə görə səhihdir. Amma onlar bu hədisi rəvayət etməyiblər".

Buxari və tələbəsi Müslim bu hədisi rəvayət etməyəcək qədər ağıllı adamlar olmuşlar. Məzmun ziddiyyətlidirsə, səhih istinad heç bir işə yaramır...

Xülasə, Sünnə Quranın açıqlamasıdır, ondakı yaxın və uzaq mənalarla səsləşən açıqlamadır! Elə isə hədislərin Qurana zidd məzmun daşımağı, əks hökm ifadə etməyi qeyri-mümkündür.

*Onuncu fəsil*

# ƏRƏB DİLİ VƏ ƏDƏBİYYATININ GƏLƏCƏYİ

Son əsrlərdə islam coğrafiyasına hücum çəkmiş səlibçi müstəmləkəçiliyin planları hamıya məlumdur.

Bu müstəmləkəçiliyin ən mühüm və açıq-aşkar məqsədi müsəlmanların dini kimliyini (şəxsiyyətini) yox etmək, onları ərəb dilinə bağlayan "ip"ləri tədricən kəsmək idi. Hər hansı bir toplumda islam və ərəb dili ortadan qaldırılarsa, o toplumu əsarət altına almaq üçün o qədər də zəhmət çəkmək lazım gəlməyəcəkdir.

İmanı və dilindən, yaxud da mənəvi-linqvistik prinsiplərindən məhrum qalmış bir insanı "itirilmişlər" siyahısına yaza bilərik. Amma müstəmləkəçiləri heç bu da qane etmir; onlar əsla dayanmayacaqlar!

Müstəmləkəçilər belə insanları növbəti nəslin yetişdirilməsində "gübrə" sayırlar. O nəslin ki, başqa əqidəyə qulluq edəcək, fərqli adətlərlə yaşayacaqdır. Bu prosesi biz heyvanların artıqlarına da oxşada bilərik. Belə ki, peyin torpağa çevrilir və bu torpaqda yaxın və uzaq keçmişi ilə əlaqəsi kəsilmiş canlı orqanizmlər yetişir...

Bu məkrli müstəmləkəçiliyin planlaşdırdığı siyasət heyrət doğurur: ingilis Spenks Paşa Misir ordusuna komandan təyin olunur; ingilis Rassel Paşaya Qahirə polisi idarəsinin şefi

vəzifəsi verilir; ingilis Denlop təlim-təhsil işlərinə nəzarət komissiyasının başına gətirilir!

Ərəb dilinin axırına çıxmaq üçün avropalılardan kömək istəmək, onları mədəni-maarif qurumlarının başında oturtmaq şərəfli iş sayılırdı; "əl-Kütub əl-Misriyyə" nəşriyyatında işləyən alman şərqşünası Vilhelm Sebita ərəb ədəbi dilinin məhv edilməsinə çağırış edən ilk kəsdir. Bunun üçün o, Misir xalq dilinin (ləhcəsinin) qayda-qanunlarından bəhs edən kitab da yazmışdı.

Ərəb ədəbi dilinə müharibə elan etmiş bu şərqşünasın işini Qahirə "Xədiv" Kitabxanasına Baş katib təyin edilmiş başqa bir alman – Karl Volress böyük əzmkarlıqla davam etdirmişdi!

Onların xələfi fanatik ingilis Vilyam Velkoks Ali Mühəndislik Məktəbinin (indiki Mühəndislik Kolleci) direktoru idi. Sonralar İngiltərə hökuməti Vilyamı gördüyü "işlər"ə görə "ser" adı ilə mükafatlandırmışdı.

İslama nifrət edən livanlı və misirli sapıözümüzünkülər bütün bu çağırışlara hay verdilər; onlar bu ümmətin başlıca mirasını məhv etmək üçün haray-həşir salırdılar. "Bugün və sabah" kitabında Səlamət (Salama) Musanın yazdıqları çox düşündürücüdür:

"Şərqə bağlılıq axmaqlıqdır; dinə (islama) bağlılıq həyasızlıqdır. Həqiqi bağlılıq – Avropaya bağlılığımızdır!"

Avropada itib-batmağa çağırış, əslində, islamdan və ərəb dilindən imtinaya çağırışdır. Onsuz da, dini öhdəliklərə və ədəbi dildə danışmağa etinasız yanaşan hibrid gənc nəsil formalaşmağa başlamışdı və belələrinin sayı getdikcə artırdı;

onlara bu işdə maddi və mənəvi dəstək verilir, bütün "maneə"lər aradan qaldırılırdı. İş o yerə çatmışdı ki, bu insanlar hər sahədə müsəlmanlara böyüklük edirdilər.

Yaxşı ki, ümmətimizi ayıldan, gözlənilməz təhlükələr qarşısında onu ayıq tutan, çirklənmiş çeşməsini təmizləyən bir islam oyanışı baş verdi*.

İman və allahsızlıq, ədəbi dil və ləhcələr arasında başlanmış müharibə ara-sıra vüsət alır. Özü də bu müharibə müxtəlif adlandırmaların şahidi olub: ənənəçilik və yeniçilik, mürtəcelik və mütərəqqilik, köhnəçilik və müasirlik arasında gedən müharibə! İslama nifrət edənlər axırda qərara gəldilər ki, bu adlandırmaları bir kənara atıb, ya milli, ya sosialist, ya da dünyəvi səciyyə daşıyan bir ad düzəltsinlər. Bəlkə də, bunu ona görə etmişdilər ki, nə qədər günahkar olursa-olsun, bir müsəlmanın əvvəl-axır öz dininə qayıdacağını bilirdilər. Odur ki, vahid yeni təmayül formalaşdırdılar və bildirdilər ki, dinə düşmən deyillər!!!

Düzünü deyək ki, ərəb səmasında yalnız ərəb millətçiliyi bayrağı dalğalandığı vaxtda, kommunist və sosialistlərin söz sahibi olduqları zamanlarda və nəhayət, dünyəvilik qapıdan girdikdə islamın itkisi böyük oldu.

Bu qaranlıq dövrdə iman azalıb, ciddi dəyərlər aşındığı kimi, ərəb ədəbiyyatı da tənəzzülə uğradı; yad sözlər zəfər

---

* Söhbət keçən əsrin 70-80-ci illərində İslam coğrafiyasında, xüsusən də ərəb ölkələrində baş vermiş mütərəqqi mədəni-maarifçi islam oyanışı hərəkatından gedir. Mövcud ədəbiyyatlarda bu hərəkatı "əs-səhvət əl-islamiyyə" (islam hayqırışı, oyanışı) adlandırırlar – ***tərcüməçinin qeydi.***

çaldı, teatrlarda, universitetlərdə, mətbuatda ədəbi dilin qaydalarına riayət edilmədi; ümmət dibi görünməyə uçuruma yuvarlandı...

Biz ərəb ədəbiyyatı və ədəbi dil haqda ümumən danışmaq istəyirik.

Görkəmli mütəxəssis Əhməd Musa Salim qeyd edir ki, problem çoxdan mövcud idi və bunda baiskar hakimiyyətdir:

"Saraylardakı ərəb liderlərinin süstlüyü, boşluqları dolduracaq qəhrəman oğulların olmamağı, şəhərlərə gəlib, şəhərətrafında yaşayan ərəblərin şəhər həyatına aldanıb əyləncələrə uymağı nəticəsində linqvistik tərkiblərdə, funksiyaları və məqsədlərində dəyişiklik baş verdi. Əslində, bu dəyişiklik ərəb dilində danışanların vəziyyətini əks etdirirdi. Onlara nə olmuşdusa, danışdıqları dilə də o olmuşdu. Möminlik kəmərini qırıb atdıqdan, kiçik günahlar ətrafında hey dövrə vurduqdan, bu günahlar da əcdadlara məlum olmayan böyük günahlara sürüklədikdən sonra onlar çökdülər, musiqi, əyləncə, şərab, əxlaqsızlıq məclislərində danışıqlarına həm ərəbcə, həm də qeyri-ərəbcə "yeni" sözlər qarışdırdılar.

Belə bir sönüklük və ləzzətlərə meyl qeyri-ərəblərin ərəblərdə gördükləri nümunəviliyin üstündən xətt çəkdi. Odur ki, ərəblər başqa xalqları bir daha heyrətləndirə bilmədilər".

Bəli, ərəb hökumətləri ərəb dilinə laqeyd yanaşdılar, onun yüksəlməsinə şərait yaratmadılar, böyük dilçi alimlərə layiq olduqları vəzifələri vermədilər. Düşünürəm ki, belə bir vəziyyətdə dilçilik və bəlağət sahələrində ixtisaslaşmış institutların boynuna ağır yük düşür. Amma bu institutların sö-

nüklüyü, ətaləti və donuqluğu dövrümüzdə ərəb dilini çulğamış zəiflik və yovuşmazlığın (küncəçəkilmənin) başlıca səbəblərindəndir.

Görəndə ki, din xadimləri danışdıqları zaman e`rabdan* baş çıxarmırlar, siyasətçilər də utanmadan kobud danışıq xətalarına yol verir, necə gəldi danışırlar, bərk hirslənirəm...

İngilis dilini yaymaq və hegemon hala gətirmək üçün onlarla tədris metodunun kəşf edildiyi bir dövrdə köhnəli-yenili bütün institutlar, universitetlər ərəb dilinə xidmət üçün nə iş görmüşlər?

Vəhyin dilinə münasibətdə hansı səhvləri buraxdığımızı müəyyənləşdirmək, gələcək günləri faydalı işlərlə, səmərəli fəaliyyətlə qarşılamaq üçün sözügedən məsələ ətrafında ciddi araşdırmalar aparmalıyıq...

İslamı və ərəb dilini Əzhəri-Şərifdə öyrənmişəm. Gəncliyimi müxtəlif mərhələlər üzrə təhsil almaqla keçirmişəm. Bu sətirləri qələmə aldığımda elm, ədəbiyyat və cəmiyyət arasında əlaqə yaradıram; tələbəlik illərimlə bağlı bəzi məsələləri xatırlayıram.

Bəli, əsasında ərəb dilini öyrəndiyimiz üslub qrammatik qaydaların şərhinə söykənir. Və bu qaydaların izahında Qurandan, hədislərdən, cahiliyyət dövrü və müxədrəm** şair-

---

* **E`rab**: Ərəb dilində sözlərin sonlarının müxtəlif qrammatik amillər səbəbi ilə dəyişilib müxtəlif formalara düşməsini ifadə edən dilçilik termini – ***tərcüməçinin qeydi.***

** **Müxədrəm**: Cahiliyyət dövrünün axırları və islam dövrünün əvvəllərində yaşamış şairlərə verilmiş ad – ***tərcüməçinin qeydi***.

lərin bədii irsindən, erkən islam dövrü ədəbiyyatından misallar gətirilir.

Tam yəqinliklə bildirirəm ki, gətirilmiş misallar müxtəlif hissləri, ülvi halətləri və duyğu hallarını ifadə edən fikri-hissi "qida" idi...

İstərdim ki, mənimlə birlikdə oxucu da aşağıda göstərəcəyimiz şer nümunələri "bağça"sında gəzsin, eyni duyğuları paylaşsın, bəzi qrammatik məlumatlarla tanış olsun.

Şair deyib:

*Və (dostlarım) dürüst iki gəncdir və mən onların heç birini –*
*Digərinin sirri ilə tanış etmirəm, sirlərini özümdə saxlayıram.*

Başqa birisi deyib:

*Və gecə dəniz dalğası kimi örtüyünü üzərimə çəkdi,*
*Çəkdi ki, müxtəlif qayğılarla məni cəzalandırsın.*

Birinci beytdə sirlərə ehtiramdan, "ağızda möhkəm olmaq" dan danışılır. İkinci beytdə isə qayğılı şəxsin gecəsi təsvir olunur.

Hər iki beytin əvvəlindəki "və" bağlayıcısı ərəb dilində "bəlkə "və"si" adlanır, özündən sonrakı ismi yiyəlik halda idarə edir; ismi cümlənin həm xəbərini, həm də mübtədasını eyni qrammatik təsirə məruz qoyur...

Şair deyib:

*Düşmənlərə zəhər, qurbanlıqlara[*] bəla kəsilən xalqım həlak olmasın,*
*Onlar hər bir savaş meydanına ensələr də, önlüklərini pak tutarlar[**].*

Şair demək istəyir ki, xalqı çox cürətlidir, odur ki, düşmənlər ondan qorxurlar; var-dövlətini paylayacaq qədər səxavətlidir; bütün döyüşlərdə iştirak etdiyi üçün bu xalq şücaətlidir; günahlardan çəkindirəcək iffətliliyə sahibdir...

Beytdə "ensələr" sözü "ixtisas"[***] qaydasına uyğun olaraq, təsirlik halda işlədilib. Onunla əlaqəli adlıq halda işlədilmiş təyin isə ixtisar edilib. Bu hala ərəb dilinin bədii üslubunda tez-tez rast gəlinir. Düzdür, bəzi nadanların bundan xəbəri yoxdur və elə hesab edirlər ki, bu cür ixtisarın olduğu cümlələrdə qüsur vardır...

---

[*] Şerin mətnindəki "cəzr" "cuzur" sözünün cəmi olub, qurbanlıq dəvə mənasına gəlir. Qurbanlıqlara bəla kəsilmək onları qonaqlar üçün kəsmək deməkdir ki, bu da həmin xalqın əliaçıqlığına dəlalət edir – ***tərcüməçinin qeydi.***

[**] Yəni, zina etməzlər, ayıb yerlərini haramdan qoruyarlar – ***tərcüməçinin qeydi.***

[***] **İxtisas:** Ərəb qrammatikasında ümumi anlayışı mənaca konkretləşdirmə əməliyyatının adı. Şəxs əvəzliyi ilə konkret şəkildə kimin (nəyin) nəzərdə tutulduğunu bildirmək üçün ya birbaşa, ya da distant vəziyyətdə xüsusiləşdirici sözlərdən istifadə olunur. Məsələn, biz, türklər qonaqpərvər xalqıq. Bu cümlənin ərəb dilinə tərcüməsində türklər sözü təsirlik halda işlədilir – ***tərcüməçinin qeydi.***

Əri Abdullah ibn Əbubəkr Taifin mühasirəsi zamanı həlak olduqda Atikə bint Zeyd demişdi:

*And olsun ki, sənin üçün gözlərimkədərli,*
*dərim də solğundur,*
*Ruzigarın gözü onun kimi qızğın,*
*şığıyanvə səbirli birisini gördümü?*
*O, savaşda qılınclar çəkiləndə*
*ölümü qılıncla dəf edib qəzəbləndirdi.*

Atikə ərinin şücaəti və mətanətini məharətlə təsvir etmişdir. "Həmasə" divanının şərhçisi (Əbu Əli Əhməd ibn Məhəmməd ibn Həsən əl-Mərzuqi – ***mütərcim***) onun barəsində yazırdı:

"O, fəsahətə, gözəllik və kamala sahib şair səhabə qadın idi. Düşüncəsi dərin, fikirləri zəngin idi. Abdullah ibn Əbubəkr əs-Siddiq ilə evlənmişdi. Abdullah vəfat etdikdə, Ömər ibn Xəttab onunla evləndi. Ömər qətlə yetirildikdə Zübeyr ibn Əvvam onu özünə arvad etdi. Zübeyr Siba vadisində öldürüldükdə Hüseyn ibn Əlinin arvadı oldu. Hüseyn Kərbəlada öldürüldükdə onun torpağa düşmüş üzünü yerdən birinci o qaldırdı. Bundan sonra heç kəslə evlənmədi...

Abdullah ibn Ömər onun barəsində demişdi: "Kim Allah yolunda şəhid olmaq istəyirsə, Atikə ilə evlənsin!"

Fikirləşirəm ki, bu xanım dövrümüzdə yaşasaydı, insanlar onda nəhslik axtarardılar!

Erkən müsəlmanlar sağlam fitrətə sahib olub, insan təbiətli idilər. Biz isə qadını alçaldan, ona yuxarıdan aşağı baxan adətlər girdabında boğuluruq...

Atikə ərinin ölümünü unutmamağa and içən ilk kəs deyildi. Ondan qabaq Düreyd ibn əs-Simmət demişdi:

*Allaha and olsun ki, Qusi*[1] *yaxınlığında itirdiyim kəsi*
*Dünya durduqca, bu can yaşadıqca unutmayacağam!*

Sonralar şair başa düşür ki, həyat təsəvvür etdiyi kimi deyilmiş[*], odur ki, deyir:

*Əksinə, dünya yaraları unutdurarmış*
*Gedən hər nə qədər böyük olsa da,*
*Dünyanın iradəsinə tabeyik naçar.*

Bəzən "zu" (sahib olan) sözü "hansı ki" mənasında işlədilir. Bu, "Təyyi`" qəbiləsinin dilində mövcuddur. Bu mənada, qonaq olduğu evdə müəyyən hallarla qarşılaşan şair öz iffəti haqda deyir:

*Ey ev əhli, həcvimə qonaqpərvərliyə görə son qoydum,*
*Verdikləri yemək məni hey ağladır və ağladır.*
*Ya onları əliaçıqlıqda imkanlı görürəm və mənə –*

---

[1] Yer adı.

[*] Yəni, unutmamaq mümkün deyil; zaman insana hər şeyi unutdurur – ***tərcüməçinin qeydi.***

*Onların sahib olduqları şeylərdən kifayətlənməyim bəsdir.*
*Ya da onları səxavətdə imkansız görür və üzrlü sayıram.*
*Ya da ki onlar xəsisdirlər, amma mən həyamı qoruyuram*[*].

"İnnə"nin ("doğrudan" ədatı) xəbərdən qabaqkı həmcins isminin (mübtədasının) adlıq halda işlədilməsinə misal olaraq, aşağıdakı beytə nəzər salaq:

*Kimin karvanı Mədinədə axşamlasa da,*
*Mən və "Qəyyar"*[1]*, doğrudan da, orada qəribik!*[**]

Bəzi nadanlar bunun səhv olduğunu iddia etmişlər. Onlar Quranın "Şübhəsiz ki, iman gətirənlərdən, yəhudilərdən, **sabiilərdən** və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər!" ayəsinə[2] hücum çəkmiş və bildirmişlər

---

[*] Yəni, bunu aləmə car çəkmirəm, onları buna görə alçaltmıram, həyamı qoruyub-saxlayıram – ***tərcüməçinin qeydi.***

[1] At adı.

[**] Ərəb dilində təsirlik hal ifadə edən "innə"dən sonrakı həmcins mübtədalardan birinin təsirlik, digərinin adlıq halda işlədilməsi incə semantik-sintaktik funksiya daşıyır. Yuxarıdakı beytdə "qəyyar" sözü "mən" sözü ilə qrammatik həmcinslik əmələ gətirmir. Əslində, şair belə demək istəyir: "Doğrudan da, mən burada qəribəm. Və Qəyyar da, həmçinin!" Göründüyü kimi, həmcins görünən ikinci mübtəda, əslində yeni cümlənin mübtədasıdır. Odur ki, bu cür qrammatik incəliklərə vaqif olmayanların Quranda "səhv" tapdıqlarını iddia etmələri təbii qarşılanmalıdır – ***tərcüməçinin qeydi***.

[2] "əl-Maidə" surəsi, 69-cu ayə.

ki, ayədəki “sabiunə” sözü təsirlik halda, yəni “sabiinə” olmalı idi.

Bu elə geniş meydandır ki, gəzməklə qurtarmır. Oxucuya onu demək istəyirəm ki, biz ərəb dilini məhz bu yolla öyrənmişik...

Müəlliflər hər bir qrammatik qaydanı zəngin dil və ədəbiyyat materiallarından misallar gətirməklə isbatlayırlar!

Sual yaranır: Görəsən, qrammatik qaydaların isbatında əlaqədar materiallardan misalların gətirilməsi Qiyamətədək lazımdırmı?

Dil ona görə öyrədilir ki, indi və gələcəkdə düzgün danışmağı bacaraq. Görünür, müəllimlərimiz bu cəhətə lazımınca diqqət yetirməyiblər... Qrammatika və bəlağət dərslərində misal və nümunələr ümumi xarakter daşıyırdı; halbuki bu cür misalların, iqtibasların sayı çox olmalıdır. Lazımi sayda misal gətirmədən qrammatik qaydaları izah etmək, əslində dilə və işləkliyinə ağır zərbə vurmaq deməkdir...

Düzdür, bu problemin aradan qaldırılmasında Carim məktəbinin böyük xidmətləri olmuşdur. Nəticədə, ərəb dilinin tədrisi, işləkliyi və gücləndirilməsi üçün ciddi işlər görüldü... Amma bu məktəb mədəni qəsbkarlığın təzyiqlərinə davam gətirməyib tənəzzülə uğradı...

Müşahidə etmişəm ki, “sözdüzəltmə” (***nəht***) və “sözformaların yaranması” (***iştiqaq***) qaydaları bizə maddi və mənəvi cəhətdən hakim kəsilmiş müasir mədəniyyətin təsiri altında, demək olar ki, tətbiq edilmir. Diqqətimdən o da yayınmayıb ki, ərəblərə və qeyri-ərəblərə ərəb dilinin tədrisi metodikaları arasında fərq qoyulmur...

“Sınıq” cəm formalarının tədrisində, “qiyasi” (morf) və “simai” (amorf) məsdərlərin, keçmiş və indiki-gələcək zaman aralıqlı fel formalarının düzəldilməsində özbaşınalıq hökm sürür...

İngilislər dillərini böyük qayğı ilə qoruyur və yayırlar. İngilis dilinin ən bariz cəhəti bır sıra müasir elmlərin dili olmağındadır. Heç cürə başa düşə bilmirəm ki, ərəbləri nə kor edib? Bəli, kor olmasaydılar, Quranın dilini yaymaq üçün bütün yolları araşdırar, dünyaya da Ali Vəhyin xüsusiyyətləri pəncərəsindən nəzər salardılar.

Missiyası cahanşümul bir ümmətə vacibdir ki, ərəb dilini öyrənsin. Bu işdə laqeydlik açıq-aşkar xəyanətdir! Dövrümüzdə elə ərəb liderləri vardır ki, ağızlarını açdılarmı, dilləri topuq vuran uşaqları xatırladırlar. Onlar məzhəkəçilikdə ustadırlar, ciddiyyətdən də binəsibdirlər!

Nə vaxt ki ərəb dilinin qollarımız üstündə ölməyinə şərait yaradırıq, nə vaxt ki onu öyrənməyi gözləri sulanan qocaların peşəsi hesab edirik, deməli, həyasız bir xəyanətə imza atmışıq. Bu, haqqı danmaqdır!

## Ərəb dilinin tənəzzülü

Müşahidələr göstərir ki, ərəb dili doxsan ildir uçuruma gedir; yad sözlər ədəbi dilin leksikonuna hər bir sahədə daxil olur.

Radio studiyalarına getdiyimdə tez-tez "studio", "test", "stənbay" sözlərini eşidirəm. Futbol oyunlarının icmalçıları da "qol", "korner" sözlərindən istifadə edirlər. Evə gedirəm, küçəyə çıxıram, "botik", "supermarket" sözlərinin tez-tez işlədilməsinin şahidi oluram. Mehmanxana və əczaxanalarda da ərəb dilinə laqeyd yanaşırlar.

Getdikcə böyüyən bu "şiş"dən qabaq başqa xəstəliyimiz vardı; təbabət və mühəndislik sahələrində, elmi institutlarda ərəb dilini işlətməmək haqda qərar çıxarılmışdı!

Mədəniyyət sahəsində də hər gün yeni sözlər "peyda" olur, özü də əcnəbi dillərdə! Dilimizdə varvarizmlər çoxalır.

Qəribədir ki, Əzhər alimləri "magistr" və "doktor" sözlərini daha çox işlətməyə başlayıblar. "Fiqh doktoru", "nəhv doktoru" – demək necə də bədii alınırmış!

Bir şey aydındır ki, mədəni qəsbkarlıq ardı-ardına qələbələr qazanır, millətçi pozğunluq hər kəsi öz iyrənc libasının altına alır.

Haradadır dilimizin cəfakeşləri? Ruhumuz, qidamız, mədəniyyətimiz və şəriətimiz olan dilimizin müdafiəçiləri ha-

rada qaldılar? Hərbi işğal ərəb ədəbi dilinin hər yerdə təqibi ilə başlandı. Düzdür, sonralar işğalçı ordular çıxıb getdilər Amma bu dəfə dilimiz mədəni müstəmləkəçiliyin amansızlığı ilə baş-başa qaldı...

O da məlumdur ki, müdafiə planlarımız ya yoxdur, ya da müvəffəqiyyətli deyildir! Günümüzdə biz Hafiz İbrahimin doxsan il bundan qabaq dediklərinin necə də doğru olduğunu görürük. Şair: "Dilimiz müdafiə olunmur", – deyə haray qoparır, qayğılarını dilə gətirirdi. Amma heyhat! Gözüyaşlı şairin imdadına heç kəs yetişmədi; küləklər onun imdadını eşidilməz etdi...

Biz şərəfli yolda – dilimizi himayədə bir addım belə atmadıq, əksinə, geridə qaldıq; özgə dildə, ləhcədə danışmaq öz atını meydanlara sürdü, bizləri hey qabağına qatıb qovdu...

Hafiz İbrahim 1903-cü ildə "Ərəb dili ərəblərdən şikayətçidir" adlı şer yazmışdı:

*Məni gəncliyimdə qısır buraxdılar*
*Kaş başdan qısır qalaydım,*
*Düşmənlərimin də dediklərindən ürəyim sıxılmaya idi.*
*Bir "qarınaltı" doğdum, qızlarımı verməyə ər tapmadım*
*Və o nları diri-diri torpağa gömdüm.*
*Mənə Allahın kitabı sözləri və mənası ilə sığmışdır*
*Onun ayə və öyüdləri üçün gen-bolam.*
*Necə ola bilər ki, bugün bir aləti, kəşf olunmuşları –*
*Adlandırmağa, təsvir etməyə gücüm yetməsin?!*
*Vay halınıza: mənmi köhnəlmişəm, gözəlliyimmi gedib?*

*Sizdən mənə xeyir yoxdur, mən özümün həkimiyəm.*
*Qərb adamlarında güc və mətinlik görürəm*
*Dilləri güclü xalqlar necə də güclüdürlər.*
*Bu dillərin oğulları icadlar etmiş, möcüzə yaratmışlar*
*Siz isə heç olmazsa sözdən-zaddan kəşf edin!*
*Hər gün qəzetlərdə mən məni –*
*Hey qəbirə yaxınlaşdıran eniş görürəm.*
*Xalqım – Allah onu bağışlasın! – məni*
*Əcdadlarına yad dil halınamı salmaq istəyirlər?*
*Fəratda əfilər oynaşdığı kimi, firəng sözləri də –*
*Çirkli ləkə tək mən də "axışırlar".*
*Və o, yetmiş ləkəsi olan rəngbərəng paltar kimi*
*Bütün insanların və kitabların dilinə çevrilib*[*]*.*
*Artıq şikayət etmirəm və ümid içərisindəyəm:*
*Ya məzardakı ölü həyat tapacaq,*
*Qəbirdəki cəsədim diriləcəkdir.*
*Ya da birdəfəlik öləcəyəm və and olsun ki, bu ölüm –*
*Dəhşətli olacaq və heç bir ölümlə müqayisə edilməyəcəkdir.*

Kaş bunu başa düşərdik, qızarıb utanardıq... Heyhat!

Bizdə ərəbcələşdirmə ilə maraqlananlar başa düşmüşlər ki, "sözdüzəltmə" (***nəht***) və "söz-formaların yaranması" (***iştiqaq***) qrammatik hadisələrini işlək vəziyyətə gətirmədikcə qarşılarına qoyduqları məqsədə çata bilməyəcəklər. Mövcud vəziyyətə nəzər salır, özümdə qərar tapa bilmirəm; telefon sözünün

---

[*] Yəni, ərəb dilinə o qədər yad söz daxil olub ki, bilmək olmur bu dil hansı xalqa məxsusdur – ***tərcüməçinin qeydi.***

qarşılığı olaraq, Misirdə "misərrət", Suriya və Səudiyyə Ərəbistanında isə "hətif" sözü qəbul olunub. Amma buna baxmayaraq, telefon sözü daha çox istifadə olunur. Əyləc sözünün qarşılığı kimi "kəbih", sükan sözünün qarşılığı kimi "miqvəd" və ya "ziməm" sözləri seçilib. Buna rəğmən, ana dilimizdəki bu sözləri bir kənara atıb "fərmələt" (əyləc), "diyereksiyun" (sükan) sözlərindən istifadə edirik. Yad dil ünsürləri "at oynadır"! "Radio" sözünü ümumişlək hala gətirmək üçün eynimənalı "mizyə`" sözündən nadir hallarda istifadə edirlər. "Sirval"[1] və "qistas"[2] sözlərində olduğu kimi, "fi`lal" modeli əsasında "tilfaz"[3] sözü düzəltmişik. Sonucu sözün ümumişlək hala gəlməsi üçün dəridən-qabıqdan çıxırıq.

Bu problemi qəti şəkildə həll etmək üçün əlaqədar ixtisas komissiyaları əcnəbi sözlərin ana dilimizdəki qarşılığını tapmalıdırlar. Digər komissiyalar isə həmin sözlərin rəsmi dairələr və xalq arasında ümumişlək hala gətirilməsi işinə nəzarət etməlidir. Bu komissiyalar xalq kütlələri arasında təbliğat aparmalıdırlar ki, ərəb ədəbi dilini küləklərin qucağına atmaq böyük günahdır; dilini itirmiş xalq namusunu əldən vermiş qıza oxşayır; müsəlmanlar dünyanın hər bir guşəsində ərəb dilini bütün hücumlardan qorumalıdırlar. Çünki bugün ərəb dilinə edilən hücum sabah Allahın vəhyini (Quranı – ***mütərcim***) hədəf alacaqdır...

---

[1] Şalvar

[2] Tərəzi

[3] Televizor

Bəzi maronit* müəlliflərinin ərəb dilinə xidməti şübhə doğurur. Belə ki, onlar lüğət tərtib etmiş, amma orada dil faktı olaraq nə bir ayə, nə də hədis göstərmişlər. Bu da bir tərəfə qalsın, lüğətin sonuna dörddə üçü avropalı şəxsiyyətlərdən ibarət bioqrafik indeks əlavə etmişlər!** Bu heç də təsadüfi iş deyildir, əksinə, kimliyimizi tədricən məhv etmək üçün hazırlanmış plandır...

Bəzi ağıldankəmlər iddia edirlər ki, təbabətə, mühəndisliyə dair ədəbiyyatı ərəb dilinə tərcümə etmək çətin və mürəkkəb işdir. Əslində, bu onlardakı elmi acizliyin, mənəvi düşkünlüyün göstəricisidir...

Professor İbrahim Həsənin qızdırmalı-epidemik xəstəliklərə, professor Həbib Musanın da dəri-zöhrəvi və tənasül orqanlarının xəstəliklərinə dair qələmə aldıqları ərəbdilli ədəbiyyatı oxumuşam. Bu kitablarda ərəb ədəbi dilinin ifadə imkanlarının genişliyi bütün aydınlığı ilə üzə çıxarılıb. Bəli, tibb terminləri və anlayışlarının ifadəsi üçün ərəb dili lazımi linqvistik bazaya malikdir. Onu da deyim ki, həm İbrahim Həsən, həm də Həbib Musa dövrümüzün məşhur tibb mütəxəssisləridir...

Şəxsən mənim tərcümə imkanları məsələsində başqa dilləri deyil, məhz ərəb dilini tənqid edənlərdən xoşum gəlmir. Onlara görə, həmin dillərin söz ehtiyatı təbabətə dair

---

* **Maronit:** Əsasən Livanda yaşayan xristian ərəblərə verilmiş ad – ***tərcüməçinin qeydi.***

** Söhbət 1960-cı ildə Beyrutda "Katolik" mətbəəsində çap edilmiş "əl-Müncid" lüğətindən gedir. Lüğətin müxtəlif illərdə təkmilləşdirilmiş və əlavəli nəşrləri işıq üzü görmüşdür – ***tərcüməçinin qeydi.***

kitabların qələmə alınmasına imkan verir. İş ərəb dilinə gələndə hamı başını bulayır...

Rus dilində təhsil mədəni müstəmləkəçiliyin iyrənc təsirini artırır*. Əgər İsrail ərəblərin üzərində birdəfəlik qələbə çalsaydı, kim bilir, bəlkə də, tədris yəhudi dilində aparılacaqdı...

Pozğun ünsürlər, "həşərat" insanlar hər qarıldayanın dalınca qaçır, üstün olan hər kəsin arxasınca sürünürlər. İndiki dövrdə uzaq kəndlərdə yaşayan elə əkinçilərə, səhrada məskunlaşmış elə bədəvilərə rast gəlirsən ki, London və Vaşinqtondakı radio mərkəzlərinə məktub yazır, xarici mahnılara qulaq asmaq istədiklərini bildirib sifariş verir, özü də bunu çadırlarda əyləşmiş ata-analarına "hədiyyə" edirlər!

Bu gülməli vəziyyət nə vaxtadək davam edəcək?! Elmimizi, mədəniyyətimizi çulğayan bu "xəstəlik"dən nə vaxt müalicə olunacağıq?! Dilimizə sahib çıxmağın, bunda təəssübkeşlik göstərməyin vaxtı çatmayıbmı?!

İndiki mədəniyyətlər həm incəsənətə, həm ədəbiyyata, həm elmə, həm də istehsala (yaradıcılığa) böyük diqqət yetirir. Məlumdur ki, bəşəriyyət həm iqtisadiyyatla, elmi araşdırmalarla məşğul olmalı, həm də incəsənət və istirahətə vaxt ayırmalıdır...

İndiki dövrdə dünyada gördüklərimiz deyilənləri təsdiqləyir. Dünyanın qeyri-müsəlman əhalisi ciddi və məzhəkəçi

---

* Çox güman ki, mərhum Qəzali ya o dövrdə Sovet İttifaqına hakimlik ixtisası üzrə təhsil almağa gələn ərəbləri nəzərdə tutur, ya da bu imperiyaya tabe qeyri-rus respublikalardakı rusdilli təhsildən danışır – ***tərcüməçinin qeydi.***

incəsənətə, ənənəvi və sərbəst ədəbiyyata sahibdir. İnsan oğlu belə istəyir!

Bizi qorxudan şey odur ki, mədəniyyət və incəsənətin "yüngül" (xoşagəlməz) tərəfi "məcra"sından çıxsın, ətrafında nə varsa hamısını "udsun".

Ərəb dünyasında ədəbiyyat və incəsənətin vəziyyətinə nəzər salıram. Qarşıma elə yazıcı və incəsənət mənsubları çıxır ki, alçaqlığın son həddindədirlər. Məhz beləlləri əxlaq və ülvi dəyərlərimizə birbaşa təhlükədirlər. Onların əlindən tutub "Bu nədir edirsiniz!?" – demədikcə ümmətimiz xeyir tapmayacaqdır... Təhqiramiz ifadələr, iyrənc sözlər, səviyyəsiz hərəkətlər, heç bir ülvi məqsəd güdməmək – budur onların halı! Sanki əsas işləri avam xalqı güldürmək və ciblərini boşaltmaqdır...

Avropalılar müxtəlif mövzularda dram əsərləri yazmış, yaşadıqları mühiti əks etdirən incəsənət janrları yaratmışlar. Bizimkilər də onları teatr ədəbiyyatında təqlid etməyə cəhd göstərdilər. Məsələn, Şövqi Zeyf qiymətli ədəbi-siyasi pyes nümunələri yaratdı. Amma ülvi ədəbiyyata elan edilmiş müharibə hər şeyin axırına çıxdı. Şövqi Zeyf vəfat edən kimi, hər şey bitdi...

Yeri gəlmişkən, soruşuram: "Xeyrə, düzgünlüyə ruhlandıran ədəbi irsimiz yoxdurmu? Qəsidələrdən, romanlardan, hekayələrdən ülvi nümunələr, ibrətamiz misallar göstərmək mümkündürmü?"

Qədim irsimizdə elə incilər vardır ki, üstünü toz-torpaq basıb... Ədəbi irsimizin qeyri-ciddi hissəsini gündəmə gətirib, misilsiz ədəbi nümunələr olaraq təqdim etmək çox pisimə

gəlir. Bunun müqabilində isə ədəbiyyatımızın ən qiymətli nümunələrini "arxiv"də saxlayır, üzə çıxarmırıq. Halbuki bu nümunələrə ehtiyacımız var və onlardan faydalanmağımız çox vacibdir.

Professor Əhməd Musa Salim hesab edir ki, ərəb ədəbiyyatı erkən dövrlərdən korlanıb. Korlanmış ədəbiyyatın ən bariz nümayəndələri Əbu Nüvas, İbn Rumi və başqalarıdır. Çünki kökü-əsilləri ərəb deyildir...

Professorumuza olan böyük ehtiramıma baxmayaraq, bu məqamda onunla razılaşmıram. Əsilləri təmiz ərəb olan elə şairlər vardır ki, ədəbiyyatda ən aşağı səviyyəyə enmişlər. Məgər İmrulqeys özünün gülünc şerlərində şərəfli-izzətli nümunə idi?!

Düşünürəm ki, İmrulqeys ibn Maliki* gündəmə gətirib məşhurlaşdırmaq, ədəbi yaradıcılığı çox da olmayan, amma əxlaqda zirvəyə ucalmış, həyatın ehtirama layiq gərdişinə sinə gərmiş şairlərə, o cümlədən Ürvə ibn əl-Vərd əs-Sə`luka** isə "sanki heç belə şair olmayıb" münasibəti bəsləmək bir cinayətdir.

---

* **İmrulqeys (500-540)**: Cahiliyyət dövrü şairlərindəndir. "Müəlləqə"si çox məşhurdur – ***tərcüməçinin qeydi.***

** **Ürvə ibn əl-Vərd ibn Zeyd əl-Əbəsi (vəfatı – 594):** Cahiliyyət dövrü poeziyasının ən qüdrətli nümayəndələrindən biridir – ***tərcüməçinin qeydi.***

Əbu Təmmamın* "Həmasə" divanı, Əbu Əli əl-Qalinin "Əmali"si və "əl-İqd əl-Fərid" ilə tanışam; mədhiyyə və həcvləri, əxlaqi-didaktik qəzəlləri, vəsfiyyələri oxumuşam; həyatın enişli-yoxuşlu, sevincli-kədərli, ağlamalı-gülməli məqamlarından, duyğulardan, müdriklikdən bəhs edən ədəbiyyat nümunələrinə də vaqifəm. Görmüşəm ki, klassik ədəbiyyatımızın İngilis, Fransız və Rus ədəbiyyatı ilə müqayisədə daha qiymətli, daha faydalı tərəfləri vardır...

Ərəb dili vəhyin dilidir, islamın da, həmçinin. Elə isə ərəblərə onu yayğın hala gətirmək vacibdir...

Əslində, risalətin ümumbəşəriliyi dilin də ümumbəşəriliyi mənasına gəlir. Bu səbəbdən erkən dövr müsəlmanları islamla yanaşı ərəb dilini də yaymışlar. Onların bu işdəki zəhməti diqqətəşayandır.

Həmçinin, qeyri-ərəb xalqlar ərəb dilini əməlli-başlı öyrənməyə, ərəbcə yazıb-danışmağa xüsusi əhəmiyyət vermişlər.

Ərəblilik soy-əsil olaraq deyil, əksinə, dil olaraq qəbul edildiyində ərəbcə danışan hər kəs dinində də, millətində də ərəbə çevrilir; o, hər bir şeydə əsil ərəblərə oxşayır, hətta öz elmi dühası ilə onlardan üstün ola bilir; onlara məscidlərdə imamlıq edir, Quran və hədis elmlərini öyrədir. O da məlumdur ki, tabein dövründə və sonralar qeyri-ərəb millət-

---

* **Əbu Təmmam (vəfatı – 845):** Abbasilər dövrü şairlərindəndir. Şerlərində sözlərə müxtəlif mənalar vermiş və bununla da məşhurlaşmışdır – ***tərcüməçinin qeydi.***

lərin mənsubları sözügedən sahələrdə ərəbləri qabaqlamışdılar.

Qeyd edək ki, xalq kütlələri bu vəziyyət qarşısında heç bir narahatlıq keçirməmişdir; onlar bu reallığı könülsevənliklə qəbul etmişdilər. Müttəqilərə irqi təəssübkeşlik yaddır!

Quran və hədislərin aşıladığı insanpərvərlik imkan verdi ki, fateh ərəblər fəth etdikləri ölkələrin əhalisi arasında "ərisinlər". Hər kəs ərəb-müsəlman oldu; gələnlərlə yerlilər arasında fərq qalmadı.

Amma bəzi kəmağıl və qısır zehniyyətli insanlar görəndə ki, zəhmət və fədakarlığa aparan yol çala-çuxurludur, irqi çəkişmələri, qəbilələrarası qan davalarını qızışdırmaq yolu ilə öz geriliklərini ört-basdır etmək istədilər. Beləliklə, şüubiyyə və ərəb millətçiliyi təmayülü yarandı.

Bu iki təmayüldən hansının digərinin səbəbi rolunu oynadığını araşdırmaq fikrim yoxdur. Bir onu bilirik ki, sözügedən mənfur təmayüllər islamın təmiz abı-havasına yaxşı şey bəxş etməyib...

Amma xalq kütlələri ixlasla, ruh yüksəkliyi ilə islama xidmət edirdilər. Onlar başa düşürdülər ki, milli mənsubluqları ilə öyünüb haray-həşir salanlar öz alçaqlıqlarını ört-basdır etmək istəyən düşüncəsizlərdir...

Özlərini əvvəlki fatehlərin nəvələri hesab edən ərəblər qədim və saf dillərini, ədəbiyyatlarını başqalarına öyrətməkdə çalışqanlıq göstərməlidirlər. Onlar etinasızlığın qurbanı olmuş ədəbi irslərində sonsuz sərvətlə qarşılaşacaqlar. Bu sərvətin içərisindən islam fitrəti ilə, ülvi insanpərvərliklə nurlanmış yararlı incilər tapmaq mümkündür...

Qeyri-ərəblərə gəlincə, onlar öz növbəsində vəhyin dilini dəqiq şəkildə öyrənməli, yazıda və danışıqda üslublarını gözəlləşdirməklə Allaha yaxınlaşmalıdırlar. Vaxtı ilə onların bu sahədə gördükləri işləri danmaq mümkün deyildir.

Əbu Nüvasın yaradıcılığını araşdırıram, professor Əhməd Musanın bəyənmədiyi beytlərə nəzər salıram; müəyyən tərəflərinə görə mən də həmin beytlərə vurğun deyiləm. Sözügedən beytlərə nəzər salaq:

*Bədbəxt şair xarabalığın yanından keçib, obasını xəbər alır,*
*Mən də oradan keçir, amma şərab dükanlarını xəbər alıram.*
*O, Bəni-Əsədin keçmişinin xarabalıqlarına ağlayır,*
*(Deyirəm:) etdiyin şey düz deyil*[*] *və bir de görək mənə:*
*Kimdir Bəni-Əsəd, kimdir Təmim və Əkəl, kimdir Yəmən*[**]*?*
*Ərəblər Allahın nəzərində heç kimdirlər!*

Əbu Nüvas bu həyasızlıq nərdivanında heç də İmrulqeysdən yuxarı pillədə dayanmır. O İmrulqeys ki, deyib:

*Sən boylu bir qadına oxşayırsan*
*O qadına ki, gecə yanına getdim*
*Onunla əyləndim və o –*
*Südəmər uşağını mənə görə kənara atdı.*

[*] Yəni, nə üçün ağlayırsan? Onlar ki ağlanılacaq qədər dəyərə sahib deyillər; onlar nə qoyub gediblər ki, göz yaşı axıdırsan? – ***tərcüməçinin qeydi***.

[**] Qədim ərəb qəbilələrinin adlarıdır – ***tərcüməçinin qeydi***.

Ərəbləri təhqir asilikdir, onlara nifrət etmək fasiqlikdir. Amma ərəblər öz Cahiliyyət əcdadları ilə öyünərlərsə, islama həqarətlə baxarlarsa, – bu başqa məsələ!

İndi elə millətçi ərəblər vardır ki, ərəb olduqları üçün lovğalanır, şərab dükanlarına daraşmaqda Əbu Nüvası*, ibadətlərdən imtinada isə qərmətiləri geridə qoyurlar.

Dirçəltmək istədiyimiz ərəb ədəbiyyatı həqiqi ədəbi irsimizin incilərindən ibarətdir. Hər şeydən qabaq, bu irs ülvi və pak fitrətin hayqırıqlarından meydana gəlib, deməli, islama uyğundur. Çünki islam fitrət dinidir. Həmçinin, bu irs ərəb dilinin sağlamlığını, ülviyyətini, canlılığını qoruyub saxlayan möhkəm bina kimidir. Və nəhayət, o, bugünümüzü keçmişimizlə birləşdirir, Quran və Sünnənin düzgün başa düşülməsinə kömək edir.

---

* Abbasilər dövründə yaşamışdır. Hey şərab içir, eyş-işrət içərisində yaşayırdı. Şəraba dair şerləri – xəmriyyələri məşhurdur – ***tərcüməçinin qeydi.***

# Həqiqi ədəbiyyat islama bağlı ədəbiyyatdır

Ülvi insanpərvər ədəbiyyat Allahın insanlara və təbiətə (həm də kainata) bəxş etdiyi gözəlliyin təsvirindən ibarətdir. İnsan belə ədəbiyyatdan zövq alır, razı qalır; qəlbi də aram tapır. Belə ədəbiyyat müxtəlif dövr və ölkələrdə yaranıb inkişaf etmişdir. Harada və kimlər tərəfindən yaradılmasına baxmayaraq, bu cür ədəbi nümunələr təqdir edilməlidir...

Cahiliyyət dövrü ədəbiyyatı nümunələrini oxuyuram. Qarşıma qiymətli incilər çıxır. Oxuduğum tərcümə ədəbiyyatı arasında da qiymətli əsərlərə rast gəlirəm.

Materializm, kommunizm, ateizmin müxtəlif formaları, əxlaqı korlayan (nihilist-hedonist və ultra-liberal) həyat tərzi meydana çıxmazdan qabaq ədəbiyyat bu cür idi. Yuxarıda göstərilmiş cərəyanların formalaşdırdığı ədəbiyyat isə insanla, istəkləri ilə bağlı çoxlu yalan uydurdu, şəhvət acgözlüyünü doğurdu, nəfsin şıltaqlıqlarına hər yerdə qapı açdı, haram istəkləri məqbul normalar halına gətirdi!

Açıq və gizli dinsizlərin yazdıqları məqalələr daha təhlükəlidir. O dinsizlər ki, xaç və Talmudu ürəklərində daşıyır, üzdə isə dünyəvilikdən dəm vururlar. Hətta onlardan biri öz həyatı haqda danışarkən gənclik illərində fahişələrlə keçirdiyi murdar gecələri utanmadan vəsf etmişdi!

Vətənə xəyanəti mədh edənlərə də rast gəlirik. Misirli Luis Əvəz (1915-1990) belələrindəndir. O, Yaqub Hənnanı (1745-1801) milli qəhrəman elan etmişdi. Halbuki yaxşı bilirdi ki, qəhrəman olaraq göstərdiyi şəxs Misiri işğal edərək, süvari dəstələri ilə Əzhərə daxil olmuş fransızlara kömək məqsədilə "canıyananlıq" göstərib ətrafına dəstə toplamış bir xaindir!

İlansayağı mülayimliyi, öldürücü zəhəri olan məqalələr yazıb, iyrənc xəbisliklə islama hücum çəkən dünyəvi ədəbiyyatçılardan ibarət qələbəlik yaranıb...

Mövzusu sırf insanpərvərlik olan ədəbiyyatı alqışlayır, gülərüzlə qarşılayıram. Hisslərimizi və iztirablarımızı düzgün təsvir edən ədəbiyyatı!

Düşünürəm ki, belə ədəbiyyatla islamın ortaq cəhəti vardır. Çünki islam fitrət dinidir. Fitrəti əks etdirən istənilən söz və əməl, əslində, islamı əks etdirir. Bir az tamamlama ilə bu söz və əməllərin təsvirindən dini ədəbiyyat formalaşdırmaq mümkündür...

Bu məntiqdən çıxış etməklə mən şer və ya nəsr nümunələrinə hədislərdən ibarət adlar qoymuşam. Bu şer və ya nəsr nümunələrinin bəzisi Cahiliyyət dövrünü əks etdirsə də, fərq etmir; çünki islam bu cür əxlaqı təqdir edir, bu cür ədəbərkana xoş baxır, ona çağırır.

Məsələn, hədislərin birində Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib:

“Məclislər sizə əmanətdir (orada deyilənləri başqalarına söyləməyin)”[1].

Başqa bir hədisdə deyilir:

“Biri digərinə bir şey danışıb getdikdən sonra danışdığı söz əmanət sayılır (ikinci şəxs onu başqalarına danışmamalı, sədaqətini göstərməlidir)”[2].

Ola bilsin ki, deyilənlərdə həqiqət vardır və sözünü etdiyimiz şəxs mənfi xarakterə sahibdir. Amma danışanları başqalara söyləməyin nəticəsi təhlükəli ola bilər; tərəflər arasında ədavət baş qaldırar və s.

Sadiqlik, sirləri heç kəsə deməmək, dostluğu qoruyub saxlamaq haqda şairin dedikləri necə də xoşdur:

*Və (dostlarım) dürüst iki gəncdir və mən onların heç birini –*
*Digərinin sirri ilə tanış etmirəm, sirlərini özümdə saxlayıram.*

*Hər bir insanın qəlbində boş yer – sirlərin gizlənəcəyi yer var*
*Qoy oraya kimsə girməsin, oradakılardan xəbər tutmasın.*

*Onlar müxtəlif ölkələrdə olsalar da, aralarındakı sirr –*
*Bir daşa əmanətdir və insanlar onu parçalamağa qadir deyillər.*

---

[1] Hədisin tam mətni belədir: “Üç məclis istisna olmaqla qalan məclislər sizə əmanətdir (orada deyilənləri başqalarına söyləməməlisiniz): a) nahaq yerə qan axıdılan məclislər; b) zina edilən məclislər; v) başqasının malının qəsb edildiyi məclislər”. Hədisi Əbu Davud rəvayət edib – ***tərcüməçinin qeydi***.

[2] Hədisi Əbu Davud rəvayət edib.

Başqa birisi deyib:

*Sənə (sirr verməklə) etibar etdim,*
*Elə ki tək qaldın, xəyanət etdin;*
*Bilmədiyin şeyləri danışdın.*
*Və sən sirlərimizlə xəyanət arası məqamda idin,*
*O vaxt ki sirləri açıb-danışdın, günah qazandın.*

Kasıblıq insanı iflic edib qüssələndirən xəstəlikdir. Bu xəstəliyə düçar olmuşlar etməli olduqları şeyləri yerinə yetirə bilməzlər...

Bu səbəbdən Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bir duasında küfr və kasıblıqdan Allaha sığınmışdır. Bunları bildikdən sonra biz Cahiliyyət şairi Ürvə ibn Vərdin aşağıdakı beytlərini təqdirlə qarşılayırıq:

*İcazə verin, ölkələri dolaşım. Dolaşım ki, –*
*Kasıbın da haqqı çatan var-dövlətə, bəlkə, sahib olam.*

*Müsibətə* düçar olmaq necə də dəhşətlidir*
*O müsibət ki, ona düçar olmağı bizdən kimsə tələb etmir.*

*Əgər günlərin şərindən qoruna bilmiriksə**,*
*Ölüm nə gözəldir, necə də xoşdur!*

---

* Kasıblıq nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

** Yəni, kasıbıqsa, kasıblıqdan qurtula bilmiriksə, ölmək daha yaxşıdır – ***tərcüməçinin qeydi.***

O da məlumdur ki, asilik etməklə Allahın lütfünə layiq görülmək mümkün deyildir. Halalla haramın fərqi böyükdür...

Səhih hədislərin birində Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dilindən oxuyuruq:

"Qiyamət günü iri və kök adamları (Allahın hüzuruna) gətirəcəklər. Amma onların (Allahın nəzərində) milçək qanadı qədər çəkisi olmayacaqdır"[1].

Aşağıdakı ayə də hədisdə deyilənləri təsdiqləyir:

"Buna görə də Biz (qiyamət günü) onlar üçün bir daş-tərəzi qurmayacağıq!" (əl-Kəhf, 105).

Çünki baş da, qəlb də boşdur. Şairin də demək istədiyi elə budur:

*Arıq birisini görür və ələ salırsan,*
*Amma o, nərildəyən aslan kimidir.*
*Bığları yenicə çıxan gənc xoşuna gəlir;*
*Onu sınağa çəkib yoxlayırsan*
*Və gümanların alt-üst olur.*
*Böyük insanların da zinəti vardır –*
*Bu, comərdlik və xeyirxahlıqdır.*

Qərbdə belə bir deyim var: "İnsanlar uğurdan savayı hər şeydə sizin təqsirinizdən keçərlər".

[1] Hədisi İmam Buxari, İmam Müslim, Tirmizi, İbn Macə və Əhməd ibn Hənbəl rəvayət etmişlər.

Yəni, uğur qazanmış insana hamı həqarətlə baxar, pislik etmək istəyər. Şair də bu vəziyyəti çox gözəl təsvir edib:

*Mən, atamın oğulları və əmi uşaqlarım,*
*Bir-birimizdən çox fərqlənirik:*
*Ətimi yesələr də, ətlərinə ət qataram,*
*Şərəfimi ayaq altına salsalar da, şərəflərini qoruyaram.*
*Sirlərimi faş etsələr də, sirlərini saxlayaram.*
*Yıxılmağımı istəsələr də, ucalmaqlarını arzulayaram.*
*Uğursuzluğum üçün quş uçursalar da*[*]*,*
*Məsud olmaqları üçün quş uçuraram.*
*Onlara köhnənin kinini bəsləyən birisi deyiləm,*
*Kin saxlayandan q əbilənin böyüyü çıxmaz.*

Müxtəlif ayə və hədislərin söz etdiyi bu müsbət keyfiyyətləri şair yuxarıdakı dolğun beytlərdə yığcam şəkildə göstərə bilib. Bütün bu keyfiyyətləri düzgün tərbiyə və saf könül doğurur. Və şair daxildən gələn bir hisslə ağlı və imanı olan hər kəsdən tələb edir ki, nəfsi istəklərini cilovlayıb nəzarətdə saxlasınlar:

*Sənə zənginlik, var-dövlət verildiyi halda*
*Zənginliyin sayəsində əliaçıqlıq etməzsənsə,*
*Nə bir tərif yağdıranın, nə də "sağ ol" deyənin olar.*
*Yaxınlarının bəzi şübhəli hərəkətlərini boşlayıb –*

---

[*] Cahiliyyət ərəblərində quş uçurmaqla fala baxmaq geniş yayılmışdı – ***tərcüməçinin qeydi.***

*Onlara mülayimlik və səbir göstərməsən*
*Yadlar və uzaqdakılar sənə əziyyət və pislik edəcəklər.*
*Ağıl və kamalınla cahilliyinə qalib gəlməsən,*
*Üstündə ildırım və şimşəklər çaxacaqdır.*
*Əgər əzmkarlıq səndəki şəkk-şübhəni dəf etməzsə,*
*Süvari ordunun arxasınca getdiyi kimi*
*Sən də hey başqalarına tabe olacaqsan.*
*Övladlarına miras qaldıqda və məzarçı, –*
*Qəbrinə torpaq atdığında topladığın var-dövlət –*
*Sənə heç bir fayda verməyəcəkdir.*
*Xoşladığın taamı və gənc qızların –*
*Çağırıldığı taxtdan vaz keçmədikcə*
*Lüt-üryansan və insanlar qəsidələri ilə,*
*Şerləri ilə hey sənə söyəcəklər.*

İrad tutula bilər ki, öz möhtəşəmliyi ilə geniş meydanları dolduracaq bir ədəbiyyatı darısqal yerə həbs etmişik. Deyirik: "Bəli, biz bu iradla razılaşırıq".

## Ədəbiyyatımızın vəziyyəti ürəyimizi ağrıdır

Ərəb ədəbiyyatının müasir vəziyyəti heç də ürəkaçan deyildir. Ərəb inqilablarının canlandırdığı mədəni oyanış kağız üzərində qaldı, minbərlərdən o yana keçmədi. Barudinin, Şövqinin, Hafiz və başqalarının zamanında gül açmış ərəb şeri yenidən soldu. Sərbəst şer (nəsr formasında şer) adlandırılan tör-töküntü meydana gəldi!

Əqqadın (1889-1964), Taha Hüseynin (1889-1973), Zəki Mübarəkin (1892-1952), Əhməd Əminin (1886-1954) və Əhməd Həsən Zəyyatın (1885-1968) ədəbiyyatı susdu, əvəzində, ədəbi dillə ləhcələrin qarışığından ibarət məqalələr yazıldı, başqa dillərdən bayağı və qüsurlu tərcümələr edildi...

Bazar danışığı və "qara camaat" dialektləri hər yeri bürüdü; mədəni qəsbkarlığın izləri hər yerdə özünü göstərdi. Aşağı səviyyəli üslub teatr dilinə hakim kəsildi, gənc nəsli təsiri altına saldı. Ərəb kimliyi öz səciyyəvi tərəflərini belə bir əcaib qarmaqarışıqlığın fonunda itirməyə başladı...

Bu, forma və üslub baxımdan belədir. Ədəbiyyatımızın ənənəvi mövzusuna gəlincə, vəziyyət ürküdücüdür; heç bir ədəbi bacarığı olmayan, ülvi dəyər və qayələrdən uzaq qələm sahibləri keyləşdirilmiş kütlələri öz arxasınca uçuruma apa-

rırlar. Bu qələm sahibləri islam və təlimlərindən çox uzaqdırlar...

Mədəni müstəmləkəçilik öz işini uğurla görüb: ümməti viran qoyub, Allaha və islama, o cümlədən bütün səmavi dinlərə nifrət edən insanların üzünə qapılar açıb. Bu insanlar namazı lağa qoyur, ehtiras və şəhvəti alqışlayır, xalqı labüd ölümə doğru aparırlar...

Ağıllı insanlar ümmətimizin sürükləndiyi taleyin məş`umluğunu hiss edirlər. Özü də elə bir dövrdə ki, İsrail Əqsa məscidinin qalıqları üzərində Süleyman məbədini inşa etmək, səlibçilər də əsrlər boyu islamın bərqərar olduğu arealı kiçiltmək istəyirlər. Məqsədləri zəifləmiş, heydən düşüb süst qalmış bu torpaqlarda istədikləri kimi atılıb-düşməkdir.

Ədəbi savaş silahlı savaşdan daha təhlükəlidir. İslamın hamiləri hal-hazırda ölüm-qalım savaşının içərisindədirlər...

Onu da qeyd edim ki, ərəb ədəbiyyatı Osmanlıların zamanında öz təravətini itirdi və az qaldı ki, bütövlükdə iflic olsun. XX əsrin əvvəllərində özünə gələn, şanlı məqsədlərə xidmət edən ədəbiyyatımızın yolunu mədəni müstəmləkəçilik kəsərək, inkişafına əngəl törətdi. İslamın xeyrinə sevinib acısına ağlayan, Ədirnənin süqutuna ağılar deyən, yıxılan xilafət üçün göz yaşı axıdan, Liviyanın Ömər Muxtarı üçün hıçqıran şairdən sonra bütün bunları rədd edən ədəbiyyat yarandı... Heyvani instinktləri oyadan, gənc nəsli əyləncə və ehtiras məkanlarına sürükləyən ədəbiyyat!

Lənətə gəlmiş mədəni müstəmləkəçilik öz işini görərkən Əzhərin yatmağı və ya başqa məsələlərlə məşğul olmağı insanı dəhşətə gətirir... Çünki mədəni müstəmləkəçilik ideal

dəyərlərə, islama, təlimlərinə, ərəb dilinə, ərəb nəsri və poeziyasına savaş elan edib. Əzhər bunu da görür, bir tikə çörək üçün hər şeyini fəda edən xalq kütlələrinin vəziyyətini də görür, amma bir şey etmir...

Əlli ildir ki, Latın və Anqlo-sakson ədəbiyyatı arasında gedən savaşın şahidi olmuşam. Eyni savaş Əqqadla Taha Hüseyn arasında da baş vermişdi. Amma nədənsə heç kəs ədəbiyyatımızın, hətta Cahiliyyət dövrü ədəbiyyatımızın yüksək insanpərvər tərəflərindən danışmır. Nə üçün?

Allah rəhmət etsin, Əqqad (1889-1964) öz xalqına, dininə və mədəni irsinə bağlı şəxsiyyət idi. Qənaətbəxş yaradıcılığı olan bu insan dünyəvilik, allahsızlıq və istibdad qarşısında başını dik tutmuş, səbat göstərmişdir...

Taha Hüseynə (1889-1973) gəlincə, qüsursuz nitq qabiliyyəti və yazı üslubuna sahib bu insan bir müddət ərəb dili üçün böyük işlər görmüşdür. Amma sonra səlibçi Qərb dalğası onu da öz ağuşuna almış və o öz şər ideyalarını müxtəlif institutlarda təbliğ etmişdir. Nəhayət, ölüm gəlmiş və Taha Hüseyn ağlını başına yığmışdır!

Bugün mən ədəbiyyat sahəsində Məhəmməd Rəşid Rza (1865-1935), Məhəmməd Fərid Vəcdi (1878-1954) və Əbdülvəhhab Əzzam (1894-1959) kimilərini axtarıram, amma tapa bilmirəm...

Gözüm siyasət meydanında Əbdürrəhman Kəvakibi (1849-1902) və Əbdüləziz Caviş kimilərini gəzir, amma heç kəs gözə dəymir...

Şer meydanında da Hafiz İbrahim (1872-1932), Carim, Məhərrəm, Mutran Xəlil (1871-1949), Bədəvi əl-Cəbəl (1900-1981) kimi oğullar axtarıram, amma hədər yerə!

Dünyəviliyə, nakişiliyə, zəiflik və zəlalətə xidmət edən xəstə "qələm"lər vardır. Onların ərəb irsinə münasibəti İsgəndər Dimas və ya Artur Konan Dobelin bu irsə münasibətindən heç nəyi ilə fərqlənmir...

Ərəb dili dünyanın ən qədim dillərindəndir. Söz ehtiyatı və məna çalarlığı baxımdan ən zəngin dil sayılan ərəb dili ədəbiyyat sahəsində də misilsiz bədii ifadə və təsvir imkanlarına sahibdir...

Qurani-Kərim ərəbcə nazil olduqdan sonra bu dil səma və yer arasında əlaqə yaratdı; ilahi vəhyin ünsürlərini ehtiva etdiyi üçün əbədilik qazandı. Əbədiyyət ərəb dilinə xasdır və başqa dillərin nəsibinə yazılmayıb. Bəlkə də, bu və ya digər dil texnoloji qurğuların adlandırılmasında, tibbi terminlərin yaradılmasında daha çox istifadə olunub, amma o, Allahın sözlərini və bəndələrinə tövsiyələrini ehtiva etmək şərəfinə ərəb dili qədər nail olmayıb...

Düzdür, Quranın nazil edilməsindən sonra ərəb ədəbiyyatının çeşməsini axmaq şairlər, dəlisov ədiblər çirkləndirmək istədilər. Amma bu ədəbiyyat əxlaqsızlıq və əyrilik ədəbiyyatı ola bilməz, bəşəriyyəti abırsızlıq və tənəzzülə sürükləməz...

Qurani-Kərim müsəlman nəsillər üçün qayələri müəyyənləşdirmiş və qorumuşdur.

Bəziləri irad tuturlar ki, ərəb şerində mədhiyyələr çoxluq təşkil edir. Amma biz Əbu Təmmamın aşağıdakı beytini oxuduqda tənqidin də nə olduğunu başa düşürük:

*Əgər şerlərdə bu məziyyətlər olmasaydı,*
*Lovğa zalımlar yaxşı nədir bilməzdilər.*

Seyfəddövlənin bizanslılarla döyüşlərdə göstərdiyi şücaət haqda Mütənəbbi deyirdi:

*Dayandın və ölüm dayananlara bir şey etmir,*
*Sanki sən yatmış ölümün göz qapağının üstündəsən.*
*Sən öz rəqibini məğlub edən hökmdar deyilsən,*
*Əksinə, İslam şirkə (küfrə) qalib gəlmişdir.*

Professor Əhməd Musa Salim ərəb dili, ədəbiyyatı, əbədiliyi, hökmranlığının həmişəyaşarlığı, əsaslarının möhkəmləndirilməsinin zəruriliyi haqda yazır:

"Quranın nazil edilməsi ərəb dilinin əbədiliyinə zəmanət verdi. Nəticədə, bu dilin missiyasını müəyyənləşdirəcək, səciyyəvi xüsusiyyətlərini göstərəcək hadisələr baş verdi. Belə ki:

1. Bütün ərəblər ərəb ədəbi dilini öyrənməyə hədsiz maraq göstərdilər. Çünki bu dil vəhyin, səmavi əqidənin dilidir;
2. Quran ədəbi dilinin işləndiyi sahələr çoxaldıqca insanlar ləhcələrdə çox az danışmağa başladılar;

3. Əsrlər keçsə də, nəsillər bir-birini əvəz etsə də, ərəb ədəbi dili öz gücünü itirmədi; əksinə, Qurani-Kərimin sayəsində onun işlənmə intensivliyi çoxaldı; Quranın həmişəyaşarlığı ərəb ədəbi dilini ümmətin əbədi dilinə çevirdi;

4. Ərəb ədəbi dilinin işlənmə arealı genişləndi, dünyadakı bütün müsəlmanların dilinə çevrildi. Onlar Quranı ərəbcə oxudular, ərəb hərfləri ilə oxudular. Quranın yazılış üslubunu öz ana dillərində də olsa mənimsədilər. Bir sözlə, Quran beynəlxalq müstəvidə ərəb dilinin köməyinə çatdı. Həmçinin, bu, dünyanın müxtəlif müsəlman xalqları vasitəsilə islama və ərəb dilinə bəxş edilmiş ilahi nemət sayılmalıdır;

5. Ən mühümü budur ki, Quranın linqvistik ecazkarlığı ərəb dilinin elmi və mədəni sahələrdəki təsviri imkanlarını göstərir. Yəni, bu dil elmi və mədəni anlayışları ifadə edəcək (adlandıracaq) söz ehtiyatına, təsvir imkanlarına sahibdir. Madam ki, ərəb dili Allahın kəlamını (Quranın məzmununu) forma və məna baxımından mükəmməl formada ehtiva edə bilmişdir, onda bəşəri inkişafın bütün sahələrini izah edib açıqlama imkanlarına nə üçün də sahib olmasın?!"

Biz köhnə kin-küdurətin dilimiz əleyhinə qurduğu suiqəsdlərə görə ümidimizi itirmirik. Hesab edirik ki, bu zülmət gecə öz yerini tezliklə nurlu sabaha verəcəkdir.

Quranı göndərən də, qorumağına söz verən də Allahdır! Elə isə onun nazil edildiyi dil əbədi və həmişəyaşar qalacaqdır.

Rəbbimizdən rica edirik ki, bizlərin taleyinə vəhyin dilini qoruyub, Quranın bütün təlimlərini dirçəltmək yazsın! Kafirlər istəməsə də, Allah öz nurunu tamamlayacaqdır!

# MÜNDƏRİCAT

**Tərcüməçinin ön sözü ....... 3**

**Ön söz ....... 21**

***Birinci fəsil***

**Biliyin islamlaşdırılması və ya islama əsaslanan bilik sistemi ....... 39**

Bəşəri biliklərin mənbəyi ....... 46

Müsəlman dünyasının qəribəlikləri ....... 56

***İkinci fəsil***

**Ali vəhyin əhatəliliyi (genişliyi) ....... 63**

İslamda yenilənmə olmalıdır: amma necə? ....... 68

Başqalarını öyrənmədik, əğyardan bixəbər qaldıq ....... 74

***Üçüncü fəsil***

**Ali həqiqətləri gizləyən "qabıq"lar ....... 82**

Din və bilik ....... 88

Dəvətçilərin islama çağırışa təsiri ....... 94

Sağlam düşüncənin qarşısını kəsənlər ....... 100

Kəlam elmi haqda bəzi qeydlər ....... 105

***Dördüncü fəsil***

**Təsəvvürlərin redaktəsi və saxtakarlığın əngəllənməsi ....... 113**

Haqdan qaçmaq ....... 124

"Nəfsə qul olmaq" problemi ....... 130

İsgəndəriyyə kitabxanası və mədəni qəsbkarlıq ....... 136

Allahın əzəmət şüası....142
Qurub-yaradanla vurub-dağıdan eyni deyildir....154

*Beşinci fəsil*
**Həqiqi tərbiyə haqqında....161**
Dünyadan bixəbər qalanlar mədəniyyət qura bilməzlər....168
Qiyamətədək çalışıb-vuruşmalıyıq....173
Fiqhi "ixtilaf" asilik deyildir....178

*Altıncı fəsil*
**Bir daha bidət haqqında....184**

*Yeddinci fəsil*
**Tarixi yenidən yazmaq....191**
Hülaku tək deyildi!....197
Baş verənləri kimin ayağına yazaq?....206
Qüds sınağı....210
Qərb və İslam....215

*Səkkizinci fəsil*
**Təfsirə dair kommentarilər....220**
Təfsirçilər: səhvlər və qəbahətlər....226
Ayələri əvvəlcə öz kontekstləri daxilində təfsir etmək lazımdır....232
"Talaq" surəsindən bir nümunə....240
Fiqh sahəsində....245
İctihad məsələlərində qətiyyətlə "yox" deməyin....252
Təqlidi qadağan etsələr də, özləri təqlidçidirlər!....258

*Doqquzuncu fəsil*
**Sünnəyə dair kommentarilər....264**
Qeyri-məqbul hədislər barədə....269
Camaat namazı haqda "ixtilaf"lar....275
Fiqh və hədis elmlərinin bir-birindən təcridi....282

Hədisdə istinad və mətn (məzmun) anlayışları........................287
Hədisin istinadında uydurma əlamətləri ..............................287
Hədisin məzmunda uydurma əlamətləri ...............................288
Qadınlar və Sünnəyə xidmət ........................................294
"O bizə şəhadətnamə (*icazət*) verib" ................................299
Müsəlman qadını və sosial fəaliyyət təşəbbüsləri .....................304
Əzhərdə təhsil və şəriətin mənbələri .................................311
"Ahad" hədislər yəqin bilik ifadə etmir ..............................315
Səhih hədislərin mötəbərliyində qətilik dərəcəsi .....................321
Buxari və Müslimin rəvayət etdikləri hədislərin səhihlik dərəcəsi........322
Kəlam və fiqhə dair bəzi mübahisəli məqamlar.........................325
Bir fitva...........................................................328
Qəbir əzabı haqda bir-neçə söz .....................................336

***Onuncu fəsil***

**Ərəb dili və ədəbiyyatının gələcəyi .....................342**

Ərəb dilinin tənəzzülü354
Həqiqi ədəbiyyat islama bağlı ədəbiyyatdır...........................366
Ədəbiyyatımızın vəziyyəti ürəyimizi ağrıdır ...........................373

QEYDLƏR:

QEYDLƏR:

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

Bədii və texniki tərtibat:
*Həsən Həsənov*

Yığılmağa verilib: 28.06.2012. Çapa imzalanıb: 28.07.2012
Çap vərəqi: 24. Sifariş № 105 Tiraj: 1000 nüsxə

CBS POLYGRAPHIC PRODUCTION
mətbəəsində çap olunub



Şeyx Məhəmməd əl-Qəzali (1917 – 1996) böyük islam alimi və mütəfəkkiri, XX əsrdə islam düşüncəsinin yenilənməsinə tərəfdar çıxan ilk elm adamlarından biri olmuşdur.
Qəzali Misirdə doğulmuş, 10 yaşında ikən Quranı əzbərləmişdi. 1937-ci ildə ibtidai məktəbi bitirdikdən sonra Əzhəri-Şərifin "Üsul əd-Din" (Dinin əsasları) fakültəsinə daxil olmuşdur. Artıq üçüncü kurs tələbəsi olan Qəzalinin akademik mətbuatda məqalələri dərc olunur. Onun müəllimləri arasında Şeyx Məhəmməd əbu Zəhrə, Şeyx Əbdüləzim Zərqani, Məhəmməd Yusif Musa, Şeyx Məhəmməd Şəltut kimi görkəmli alimlər də vardı.
1941-ci ildə Əzhəri-Şərifi bitirdikdən sonra Şeyx Məhəmməd Qəzali ədəbi yaradıcılıq yolunu seçir, mühazirələr oxuyur, dini maarifləndirmə işi aparır.
Qurana və Quran elmlərinə dərindən bələd olan Qəzali hərtərəfli biliyə sahib müsəlman alimi idi. Bununla yanaşı, o, Şərq və Qərb fəlsəfəsi, iqtisadiyyat, sənətşünaslıq, sosiologiya və digər elmlərlə maraqlanırdı.
Görkəmli alim uzun illər Din İşləri və Vəqflər Nazirliyində işləmiş, Səudiyyə Ərəbistanının "Ümm əl-Qüra" universitetində dərs demiş, Qətər Universiteti və Əlcəzairdəki "Əmir Əbdülqadir" İslam Universitetində elmi məsləhətçi olmuşdur.
Şeyx Qəzali bir çox yerli və beynəlxalq mükafatlara layiq görülmüşdür.
Bu əvəzsiz şəxsiyyət aralarında Şeyx Yusif əl-Qərdavinin də olduğu bir çox islam aliminin müəllimi olmuşdur.
Məhəmməd Qəzali 1996-cı ildə Səudiyyə Ərəbistanında vəfat etmiş, Mədinə şəhərində, "Bəqi" qəbiristanlığında dəfn edilmişdir.
Şeyx Qəzali islama həsr olunmuş əllidən çox kitab yazmışdır. Onun müasir ideologiyalar və onların islama münasibəti haqqında qələmə aldığı əsərlər dünya müsəlmanları tərəfindən yüksək qiymətləndirilir.

İDRAK